# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# ALTMIŞ ALTINCI KİTAB

## NOYABR 2014 - YANVAR 2015

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2018

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində «Bakı–2015» I Avropa oyunlarının yüksək səviyyədə təşkili ilə bağlı hazırlıqlara, Türkiyə və Almaniya Federativ respublikalarına rəsmi və işgüzar səfərlərə, İran və Əfqanıstan İslam respublikaları prezidentlərinin Azərbaycana səfəri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə ölkələrimiz arasında çoxşaxəli əlaqələrin inkişafına, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələrə, beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsinə və hərtərəfli əməkdaşlıq məsələlərinə aid danışıqlar, çıxış və nitqlər, bəyanatlar toplanmışdır.

Bu cilddə ölkə başçısının Bakıda Heydər məscidinin təntənəli açılışı mərasimindəki nitqi, bu münasibətlə dünyanın bir neçə ölkəsindən Bakıya gəlmiş din xadimləri ilə görüş və danışıqları, həmçinin bölgələrə səfərləri, regionların sosial iqtisadi inkişaf proqramının həyata keçirilməsi, ölkənin sosial, iqtisadi, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına həsr olunmuş nitqləri, bir sıra orta məktəblərin, uşaq bağçaları və əyləncə mərkəzlərinin, parkların, sənaye müəssisələrinin açılışındakı çıxışları və ictimaiyyətin nümayəndələri ilə görüşləri, qaçqınlar və məcburi köçkünlər üçün salınmış qəsəbələrin açılışında çıxışı və danışıqlarına dair materiallar toplanmışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2018}}$ **ББК - 32**

© Azərnəşr, 2018

# İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*12 noyabr 2014-cü il*

*Sənədlərin imzalanması mərasimindən* sonra *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani noyabrın 12-də mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Sizin səfərinizin çox böyük əhəmiyyəti var. Çox şadam ki, səfər çox uğurlu keçir. Bu il biz Sizinlə dördüncü dəfədir ki, görüşürük. Bu özlüyündə bir göstəricidir. Bu onu göstərir ki, İran–Azərbaycan əlaqələri yüksələn xətlə inkişaf edir. Bu görüşlərin gözəl nəticələri vardır. Mən İran İslam Respublikasına rəsmi səfərimi məmnuniyyətlə xatırlayıram. Bu ilin aprel ayında qonşu ölkəyə səfər etmişəm. Sizinlə apardığım danışıqlar, keçirdiyimiz fikir mübadiləsi bir daha göstərir ki, bizim aramızda nə qədər səmimiyyət var, İran və Azərbaycan bir-birinə nə qədər yaxın və bağlıdırlar.

Sizin bugünkü səfəriniz əlaqələrimizə yeni təkan verəcək. Bu gün imzalanan sənədlər, aparılan fikir mübadiləsi, sabah keçiriləcək biznes-forum əlaqələrimizin inkişafına xidmət göstərəcəkdir.

Bizim əlaqələrimizin təməlində xalqlarımızın dostluğu, qardaşlığı dayanır. Əsrlərboyu bizim xalqlarımız bir-biri ilə sıx əlaqədə olmuşlar, bir yerdə yaşamış, yaratmışlar. Bu, möhkəm

təməldir. Bu təməl üzərində ikitərəfli dövlətlərarası əlaqələr qurulur. Son aylar ərzində bu əlaqələr yeni pilləyə qalxmışdır.

Bizim çox gözəl siyasi əlaqələrimiz var. Mütəmadi təmaslarımız, yüksəkvəzifəli şəxslərin qarşılıqlı səfərləri, beynəlxalq təşkilatlarda bir-birimizə göstərilən dəstək siyasi əlaqələrimizin yüksək səviyyədə olmasını əyani şəkildə sübut edir. Üzv olduğumuz beynəlxalq təşkilatlarda bir-birimizi daim dəstəkləyirik və bütün məsələlərdə bir-birimizin yanındayıq. Ölkələrimiz üçün ən vacib və həssas məsələlərdə də biz qarşılıqlı dəstək göstəririk. BMT-də, İslam Əməkdaşlıq Təşkilatında və digər təşkilatlarda biz həmişə bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik.

Azərbaycan üçün ən vacib problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də biz İranın dəstəyini həmişə hiss edirik. İranın mövqeyi beynəlxalq hüquqa və ədalətə söykənir. Bildiyiniz kimi, bu münaqişə uzun illərdir ki, öz həllini tapmır. Azərbaycanın tarixi, əzəli torpağı Dağlıq Qarabağ və 7 ətraf rayonu erməni silahlı qüvvələrinin işğalı altındadır. Beynəlxalq hüquq normaları kobudcasına pozulur. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası – dünyanın ən ali orqanı 4 qətnamə qəbul etmişdir ki, o qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması tələb olunur. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymur. İşğal edilmiş torpaqlarda hər şey dağıdılıb – tarixi abidələrimiz, əcdadlarımızın qəbirləri, məscidlərimiz. ATƏT-in faktaraşdırıcı missiyaları işğal edilmiş torpaqlara 2 dəfə səfər etmiş və öz məruzələrində bunu təsdiqləmişlər. Münaqişə nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın, köçkün həyatı yaşayır. Torpaqlarımızın 20 faizi işğal altındadır. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Ermənilər azərbaycanlılara qarşı Xocalı soyqırımını törətmişlər.

Münaqişənin ərazi bütövlüyü çərçivəsində həll edilməsi, əlbəttə ki, bölgəyə sülh gətirəcək. Bu münaqişənin başqa həll yolu yoxdur. Ədalət, beynəlxalq hüquq bərpa edilməlidir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir.

Biz digər beynəlxalq məsələlərlə bağlı daim təmasdayıq, bir-birimizi dəstəkləyirik. Əminəm ki, beynəlxalq təşkilatlardakı fəaliyyətimiz bundan sonra da bu əsaslarda qurulacaqdır.

İqtisadi sahədə gözəl imkanlar var. Hökumətlərarası birgə Komissiya fəal işləyir və gözəl nəticələr vardır. Biz bu gün energetika sahəsində əməkdaşlığı müzakirə etdik. Neft-qaz, elektrik enerjisi, qaz mübadiləsi sahələrində çox böyük imkanlar var. Artıq bir neçə layihə icra edilib. Yeni layihələrin icra edilməsi də gözlənilir. Bu gün nəqliyyatla bağlı məsələləri də geniş müzakirə etdik. Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması hər iki tərəfin marağındadır. Biz bu önəmli layihənin həyata keçirilməsində fəal iştirak edirik, öz səylərimizi qoyuruq.

Şimal–Cənub nəqliyyat dəhlizi nəinki İran və Azərbaycan, bütün bölgə üçün önəmlidir. Ümumiyyətlə, demək istəyirəm ki, bizim siyasi, iqtisadi əlaqələrimiz, konkret layihələrin icrası eyni zamanda, bölgədə sabitliyin möhkəmlənməsinə xidmət göstərəcək və göstərir. Əfsuslar olsun ki, bizim regionda vəziyyət kifayət qədər gərgindir. Qanlı toqquşmalar, müharibələr baş verir, sabitlik pozulur. İran–Azərbaycan dostluğu, tərəfdaşlığı burada sabitləşdirici bir amildir. Biz sabitləşdirici addımlarla bölgədə sülhü qoruyuruq, müdafiə edirik. Əminəm ki, bizim birgə səylərimiz nəticəsində gələcəkdə bölgədə sabitlik bərpa ediləcək. Çünki sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz, o ölkəyə xarici sərmayə yatırılmaz, ümumiyyətlə, iqtisadi inkişafdan söhbət gedə bilməz.

Biz öz səylərimizlə regional əməkdaşlığa da töhfəmizi veririk. Həştərxan şəhərində keçirilmiş Xəzər Zirvə görüşü də çox uğurlu idi, gözəl nəticələr olmuşdur, vacib qərarlar qəbul edilmişdir. Bu da bizim beynəlxalq məsələlərə olan münasibətimizdir.

Biz bütün sahələrdə inamla irəliləyirik. Humanitar sahədə də çox gözəl əməkdaşlıq var, bu da təbiidir. Çünki əsrlərboyu bizim xalqlarımız bir yerdə olmuşlar, yaşamışlar, yaratmışlar. Bizim ortaq tariximiz, mədəniyyətimiz dünya üçün çox böyük əhəmiyyət kəsb edir. Ona görə, hörmətli cənab Prezident, Sizin səfəriniz çərçivəsində bütün bu məsələlərin müzakirə edilməsi, konkret tap-

şırıqların verilməsi gələcəkdə bizim tərəfdaşlığımızı daha da möhkəmlədəcək.

Biz konkret layihələr üzərində işləyirik. İnfrastruktur layihələrinin icrası, bank sektorundakı əməkdaşlıq və digər layihələr nəzərdən keçirilir. Sabah keçiriləcək biznes-forum isə iş adamlarını bir yerə yığacaq. Buna da çox böyük ehtiyac var – harada ki, siyasi əlaqələr yüksək səviyyədədir, iş adamları o ölkələrlə daha da sıx əməkdaşlıq edirlər.

Beləliklə, bizim əlaqələrimiz möhkəmdir. İran–Azərbaycan dostluğu sarsılmazdır, heç bir kənar qüvvə bizim aramıza girə bilməz. Bizim birliyimiz ölkələrimizin və bölgənin gələcəyi üçün lazımdır. Hörmətli cənab Prezident, Sizin səfərinizə çox böyük əhəmiyyət verərək, Azərbaycanda Sizi bir daha səmimiyyətlə salamlayıram.

## İran prezidenti Həsən Ruhaninin bəyanatı

Mən bu gün çox xoşhalam ki, Xəzər dənizinin sahilində yerləşən gözəl Bakı şəhərində öz qardaş xalqımın, azərbaycanlı qardaşlarımın yanındayam.

Cənab prezident İlham Əliyevin Tehrana səfəri ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi baxımından çox mühüm əhəmiyyət kəsb etmişdi. Bizim bu gün dostlarımızla keçdiyimiz yol ölkələrimiz arasındakı inkişaf yoludur. Bu səfər də həmin inkişaf yolunun təkmilləşdirilməsinə öz töhfəsini verəcək və bunu daha da sürətləndirəcək.

Əgər desək ki, Azərbaycan və İran xalqları bir bədəndə bir ruhdur, səhv etmərik. Bu insanların yaşayışının əsas mühüm hissələrindən biri mədəniyyətdirsə, deyə bilərik ki, bu iki ölkə, bu iki xalq birdir – həm məzhəbi, həm dini birdir, müştərək keçmiş tarixə malikdirlər və bir-birinin mədəniyyətinə bələddirlər, bir-birini çox yaxşı başa düşürlər. Həm yaşayış tərzimizdə, həm davranışımızda olan bu müştəraklik əlaqələrimizin, iki millətin əlaqələrinin inkişaf etdirilməsinə imkan yaradır və bundan istifadə etməliyik. Heç şübhəsiz ki,

ölkələrimizin və xalqlarımızın əlaqələrinin yaxınlaşması, bizim əlaqələrimizin yaxınlaşması heç bir üçüncü ölkənin əleyhinə deyil. Biz əlaqələrimizi inkişaf etdirməklə öz mənafemizə, öz sabitliyimizə, öz təhlükəsizliyimizə, daha sürətli inkişafımıza çalışırıq. Ölkələrin inkişafı bir-birinin iqtisadi inkişafına öz töhfəsini vermiş olar.

Bu gün biz müfəssəl danışıqlar, müzakirələr apardıq. Həm geniş tərkibdə, həm də təkbətək görüşlərdə belə bir razılığa gəldik ki, əlaqələrimizi daha da inkişaf etdirək, bunu daha açıq, daha şəffaf şəkildə həyata keçirək.

Araz çayı gərək bizim birliyimizi daha da möhkəmləndirsin. Biz o Arazı qəbul edirik ki, iki dövləti, iki xalqı bir-birinə birləşdirir. Biz o Arazı qəbul edirik ki, bu hər iki ölkənin inkişafının çiçəklənməsinə töhfə vermiş olur. Biz çalışmalıyıq ki, biznesmenlərimiz, iş adamlarımız bir-birinə daha yaxın olsunlar və bir-birinin imkanlarından, hər iki ölkənin imkanlarından istifadə edib faydalansınlar. Biz enerji, ticarət, sənaye sahələrində, həm bəndlərin, həm elektrik stansiyalarının tikilməsində və buraya yeni texnologiyaların gətirilməsində, elm və tədqiqat mərkəzlərində bir-birimizlə əlaqə yaratmalı və bir-birimizin inkişafına töhfəmizi verməliyik. Biz istəyirik ki, din, məzhəb və adət-ənənələrimizdən – hansı ki, biz bu məsələlərdə birlik təşkil edirik – daha da səmərəli istifadə edək.

Azərbaycan Respublikası da, İran da elə bir coğrafi mövqedə yerləşir ki, onlar bir-biri üçün keçid-körpü ola bilər və biz Oman dənizindən, Hind okeanından tutmuş, Asiyadan Avropaya qədər körpülərimizi birləşdirə bilərik. Biz Azərbaycan və Qafqaz vasitəsilə Avropa ilə birləşə bilərik. Azərbaycan da İran vasitəsilə cənub dənizləri ilə, okeanlarla birləşmiş olar. Biz gərək bu dəhlizdən çox yaxşı istifadə edək, bundan faydalanaq və bunu daha da genişləndirək və çalışaq ki, bir-birimizə kömək etməklə Qəzvin–Rəşt və Rəşt–Astara dəmir yolunun tikintisinə və birləşməsinə nail olaq. Biz bu dəhliz vasitəsilə Qara dənizə və Avropaya, Rusiyaya çıxaq, onların

dəmir yolu sisteminə birləşək. Biz bu sahədə əməkdaşlıq etməliyik.

Bizim ölkələrimiz gözəl Xəzər dənizinin sahilində yerləşir. Bu dənizdən istifadədə hər iki ölkə yaxşı addımlar atmışdır. Bu dəniz dostluq, inkişaf dənizidir. Bu dəniz hər iki millətin inkişafına öz töhfəsini verən dənizdir. O millətlər ki, uzun illər, əsrlərboyu bu dənizin sahilində yaşamışlar və bu dənizin Allahın verdiyi nemətlərindən istifadə etmişlər. Həm balıqçılıqda, həm ekologiya sahəsində, həm də dənizin mənbələrindən istifadədə əməkdaşlıq edə bilərik.

Turizm sahəsində də geniş əməkdaşlıq imkanlarımız var. Biz istəyirik ki, İran vətəndaşları Azərbaycana, Azərbaycan vətəndaşları isə İrana çox asanlıqla, rahatlıqla səfər etsinlər. Biz buna hər iki millətin, hər iki ölkənin mənafeyinə və təhlükəsizliyinə xidmət göstərən bir amil kimi yanaşırıq. Hər iki ölkənin potensialından istifadə etməliyik və bununla əlaqədar razılaşmalar əldə olunmalıdır. Sərhəd məsələlərində də əməkdaşlığı daha da genişləndirməliyik. Narkotiklərə, qaçaqmalçılığa qarşı mübarizədə əlaqələri möhkəmləndirməliyik.

Biz Qarabağın bugünkü vəziyyətini bəyənmirik. Biz istəyirik ki, bu bölgədə ədalət olsun. Biz istəyirik ki, bu bölgədə sülh, sabitlik, dostluq olsun. Biz bütün ölkələr arasında dostluğun, təhlükəsizliyin, sabitliyin, ədalətin bərqərar olması üçün əlimizdən gələni etməyə, öz tərəfimizdən lazımi addımı atmağa hazırıq. Biz bunu beynəlxalq təşkilatlar çərçivəsində, hər yerdə öz vəzifəmiz hesab edirik və buna hazırıq. Biz bilirik ki, Qarabağ məsələsi siyasi yolla həll olunmalıdır. Bu, müharibə yolu ilə həll olunası məsələ deyil. Ona görə də bu istiqamətdə hər cür kömək göstərməyi öz vəzifəmiz hesab edirik və bunu etməyə hazırıq.

Biz Yaxın Şərqdə, Afrikanın şimalında baş verən böhranla, hadisələrlə əlaqədar müzakirələr, fikir mübadiləsi apardıq. İndi çox böyük bir böhran ətəyimizdən yapışıb. Bu, separatizm, terrorizm, radikalizmdir. Biz istəyirik ki, bunlar bizim bölgədən kənarda olsun və bizim ölkələrdə sabitliyə, sülhə maneə yaratmasın.

Biz iki prezident təkbətək görüşdə bir-birimizə bildirdik ki, heç bir kənar qüvvələrin bizim əlaqələrimizə ixtilaf salmasına və heç bir qruplaşmanın, heç bir partiyanın, heç bir ittifaqın əlaqələrimizin inkişafına xələl gətirməsinə imkan verməyək. Bizim yolumuz dostluq, qardaşlıq, birlikdir. Biz Azərbaycanı bütün beynəlxalq təşkilatlarda, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında, ECO-da və digər təşkilatlarda həmişə müdafiə etmişik, dəstəkləmişik. Azərbaycan da uranın sülh məqsədləri üçün zənginləşdirilməsində, nüvə məsələsində İrana dəstək verib. Biz bununla əlaqədar təşəkkürümüzü bildiririk. İnkişaf etmiş və inkişaf etməkdə olan bütün ölkələrin haqqı çatır ki, bu sülhməramlı proqramdan istifadə etsin. Onların yeni texnologiyanın əldə edilməsində, yeni texnologiyaya nail olmaqda haqları var və bundan istifadə etməlidirlər. Biz inanırıq ki, bugünkü paslanmış silahlar, yəni bu sanksiyalar öz rolunu oynamayacaq, öz təsirini göstərməyəcək. Bu, keçmişdə qalmış formalardır.

İran ilə Azərbaycan dost ölkələrdir və dost ölkələr olaraq qalacaqlar. Bu ölkələrin, bu xalqların inkişafı üçün çalışmışıq və çalışacağıq.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*12 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından noyabrın 12-də ölkəmizdə rəsmi səfərdə olan İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin şərəfinə ziyafət verilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ziyafətdə iştirak etmişdir.*

## AZƏRBAYCAN–İRAN BİZNES-FORUMUNDA İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*13 noyabr 2014-cü il*

*Heydər Əliyev Mərkəzində noyabrın 13-də Azərbaycan–İran biznes-forumu keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani biznes-forumda iştirak etmişlər.*

*Dövlət başçıları biznes-forumda nitq söylədilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Cənab Prezident, Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram. Ölkəmizə xoş gəlmisiniz! Sizinlə bərabər İrandan gəlmiş və bu gün bizimlə birlikdə olan bütün dostlarımızı salamlayıram.

Dünən Sizin Azərbaycana rəsmi səfəriniz başlamışdır. Biz dünən çox geniş fikir mübadiləsi apardıq. Bir çox məsələlər müzakirə olundu. Tam əminəm ki, bu səfərdən sonra İran–Azərbaycan əlaqələri sürətli inkişafına davam edəcəkdir.

Biz Sizinlə bu il artıq dördüncü dəfədir ki, görüşürük. İstəyirəm bunu iş adamları da bilsinlər ki, bu özlüyündə bir göstəricidir. Onu göstərir ki, bizim təmaslarımız çox əhəmiyyətlidir, dəyərlidir. Biz bütün məsələləri müzakirə edirik və aramızda qarşılıqlı anlaşma mövcuddur. Əlaqələrin belə intensiv olması çox müsbət haldır. Çünki biz dost və qardaş ölkəyik, bizim xalqlarımız əsrlərboyu bir-biri ilə sıx təmasda olublar. Biz daim bir-birimizin yanında olmuşuq, bir-birimizə dəstək, arxa olmuşuq. Bu gün isə iki

suveren, müstəqil dövlət kimi, biz öz münasibətlərimizi bu möhkəm tarixi əsaslar üzərində qururuq.

Son dövrlərdə müşahidə olunan əlaqələr, onların səmimiliyi bizi çox ruhlandırır. Əminəm ki, bu əlaqələr gələcək illərdə daha da güclü olacaq və müzakirə edilən bütün məsələlər, müəyyən etdiyimiz layihələr həyatda öz əksini tapacaq.

Mənim bu ilin aprelində İran İslam Respublikasına rəsmi səfərim çox uğurlu oldu. Əminəm ki, bu səfərin də nəticələri çox dəyərli olacaq.

Biz dünən həm siyasi, həm iqtisadi, həm mədəni əməkdaşlığı, bütün digər məsələləri çox geniş və səmimi şəkildə müzakirə etdik. Bu gün burada toplaşan insanlar iş adamlarıdır. Onların böyük maliyyə və biznes imkanları var. Biz çox istəyirik ki, iqtisadi əməkdaşlıq da siyasi əməkdaşlığın səviyyəsinə qalxsın. Buna nail olmaq üçün yaxşı imkanlar var. Hökumətlərarası Komissiya çox fəal işləyir. Komissiyanın hər iki həmsədri bu işlərə çox böyük məsuliyyətlə yanaşır və biz artıq gözəl nəticələri görürük. Aprel ayında və dünən imzalanan çoxsaylı sənədlər gələcəkdə iqtisadi sahədə daha da böyük imkanlar açacaq.

Biz çox istəyirik ki, iş adamlarımız bir-biri ilə daha da sıx əlaqədə olsunlar. Azərbaycanda müxtəlif sahələrdə yüzlərlə İran şirkəti fəaliyyət göstərir. Onlar üçün Azərbaycanda gözəl şərait yaradılıbdır. Hesab edirəm ki, bu şirkətlər öz fəaliyyətlərindən razıdırlar.

Bütövlükdə Azərbaycanda çox müsbət sərmayə mühiti yaradılıbdır. Azərbaycana xarici sərmayələr qoyulur. Birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan postsovet məkanında lider dövlətdir. Təkcə keçən il ölkə iqtisadiyyatına 28 milyard dollar sərmayə qoyulmuşdur ki, bunun da 30 faizi xarici sərmayədir.

Bu onu göstərir ki, xarici investorlar Azərbaycanın gələcəyinə inanırlar. Azərbaycanda yaranmış investisiya, biznes mühiti onları qane edir. Əks təqdirdə Azərbaycana bu qədər vəsait qoyulmazdı. Hər il təxminən 20–25 milyard dollar sərmayənin qoyuluşu növbəti illərdə də gözlənilir. Biz çox istəyirik ki, İran şirkətləri Azərbaycana daha da böyük həcmdə sərmayə qoysunlar,

eyni zamanda, Azərbaycanın özəl və dövlət şirkətləri də İrana sərmayə yatırsınlar. Dünən cənab Prezident ilə bu məsələləri müzakirə etdik. İnfrastruktur, sənaye layihələri, digər xidmət sektorları üzrə böyük imkanlar var.

Həm İranın, həm Azərbaycanın iqtisadiyyatı dinamik inkişaf edir. Biz özümüzü təmin edən ölkələrik. Xarici kreditlərdən asılı ölkələr deyilik. İqtisadi müstəqillik ölkələrimiz üçün çox böyük mənfəətdir, o cümlədən siyasi mənfəətdir. Çünki iqtisadi müstəqillik olmadan ölkə tam müstəqil siyasət apara bilməz. İran və Azərbaycan beynəlxalq arenada müstəqil siyasət aparan ölkələrdir. Hesab edirəm ki, biz bu baxımdan bəzi ölkələrdən xeyli fərqlənirik.

Qarşılıqlı sərmayə qoyuluşu gözəl siyasi əlaqələr fonunda mümkündür. Bu da var. Bu gün bizim siyasi əlaqələrimiz, deyə bilərəm ki, ən yüksək səviyyədədir və biznes qurumları bu gözəl imkanlardan istifadə etməlidir. İran şirkətləri Azərbaycanda müxtəlif layihələrdə iştirak edirlər. İnfrastruktur layihələrinin icrasında onların fəaliyyəti çox müsbətdir, uğurludur. Nəzərə alsaq ki, gələcəkdə Azərbaycanda böyük infrastruktur layihələri icra olunacaq, əlbəttə, İran şirkətləri bu imkanlardan istifadə etməlidir.

Azərbaycana növbəti illərdə də həm dövlət, həm özəl sektor tərəfindən böyük investisiya qoyulacaq. Ona görə bugünkü biznes-forumda Azərbaycanın gələcək planları da təqdim ediləcək ki, İran şirkətləri hansı sahədə hansı işlərin görüləcəyini bilsin. Bizdə bütün işlər beşillik proqram əsasında görülür. Artıq üçüncü Dövlət Proqramı icra edilir. Birinci proqram 2004-cü ildə qəbul edilmişdi. Bu proqramlarda hər şey açıq-aydın göstərilir – hansı şəhərdə, hansı kənddə hansı iş görüləcək, nə vaxt görüləcək, bu işi görən dövlət qurumu hansıdır. Bu proqram mətbuatda da dərc edilib. Ona görə hər bir şirkət üçün Azərbaycanda görüləcək işlər haqqında məlumat əldə etmək o qədər də çətin deyil. Hesab edirəm ki, bu formatda aparılacaq müzakirələr yeni kontraktların imzalanmasına gətirib çıxaracaq.

Bir üstünlüyümüz də ondan ibarətdir ki, biz qonşuyuq və bizim aramızda heç bir tranzit ölkə yoxdur. Həm coğrafi nöqteyi-

nəzərdən, həm bütün başqa mənalarda bizim aramızda heç kim yoxdur və ola da bilməz. Biz dünən bunu bir daha təsdiqlədik ki, ikitərəfli əlaqələrimizin böyük tarixi var. Xalqlarımız daim bir yerdə olmuşlar. Bu gün iki suveren dövlət öz gələcəyini müstəqil şəkildə qurur və heç bir üçüncü tərəf bizim aramıza girə bilməz. Biz buna imkan vermirik və verməyəcəyik. Baxmayaraq ki, belə cəhdlər var. Siz də yəqin ki, bunu izləyirsiniz, görürsünüz. Ancaq hər iki tərəfin güclü iradəsi heç vaxt imkan verməyəcək ki, münasibətlərimizə kimsə qarışsın, hansısa təxribatı törətsin və beləliklə, öz istəyinə nail olsun. Bunun qarşısını alan hər iki dövlətin güclü siyasi iradəsidir və eyni zamanda, İran və Azərbaycan cəmiyyətlərinin bu siyasətə olan dəstəyidir. Bu olmasa, işimiz yarımçıq qala bilər.

O ki qaldı Azərbaycanın iqtisadi inkişafına, son illər bu inkişaf çox sürətli olmuşdur. Son 10 il ərzində iqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bizim maliyyə vəziyyətimiz sabitdir. Xarici dövlət borcumuz ümumi daxili məhsulun cəmi 8 faizini təşkil edir. Son 10 ildə büdcə xərcləri 20 dəfə artmışdır. Yoxsulluq 49 faizdən 5 faizə düşmüşdür. İşsizliklə bağlı çox müsbət addımlar atılmışdır – indi işsizlik 5 faizdən aşağıdır.

Bu iqtisadi sabitlik, maliyyə sabitliyi bizə imkan verir ki, sürətlə inkişaf edək. Azərbaycan beynəlxalq məsələlərin həllində müstəqil siyasət aparır. Beynəlxalq aləm Azərbaycanı dəstəkləyir. Əgər belə olmasaydı, biz dünyanın 155 ölkəsinin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilməzdik. Yəni gənc dövlət üçün bu, böyük nailiyyət idi, 155 ölkə bizə inandı, öz dəstəyini verdi və biz onların etimadını 2 il ərzində doğrultmuşuq.

İqtisadi müstəqillik bizə imkan verir ki, beynəlxalq məsələlərin həllində, ikitərəfli və çoxtərəfli əməkdaşlıq formatında öz mövqemizi müdafiə edək. Bizim mövqemiz ədalətlidir, beynəlxalq hüquqa və ədalətə söykənir. Bu iki anlayış beynəlxalq münasibətlər üçün də xüsusi əhəmiyyət kəsb edir. Harada ki, beynəlxalq hüquq, ədalət pozulur, orada toqquşmalar da, müharibələr də, gərginlik də olacaq. Əgər dünyada beynəlxalq hüquq və ədalət pozulmazsa, müharibə də olmayacaq.

Ölkələrimizin uğurlu, inamlı inkişafı həm də ona görə daha da əhəmiyyətlidir ki, ətrafımızda bizi və dünyanı çox narahat edən proseslər gedir. Bölgə sanki alovlanıb yanır, həm Yaxın Şərqdə, həm Avropa qitəsində toqquşmalar gedir, qanlı müharibələr aparılır. Ona görə belə geosiyasi vəziyyətdə inamla, uğurla inkişaf etmək üçün ilk növbədə, xalqla iqtidar arasında birlik, güclü siyasi iradə olmalıdır və əlbəttə ki, biz özümüzü iqtisadi cəhətdən təmin etməliyik.

Bizim xarici tərəfdaşlarla əməkdaşlığımız da çox müsbətdir. İran və Azərbaycan neft və qazla zəngin olan ölkələrdir. Burada da bizim maraqlarımız üst-üstə düşür. Biz dünən hörmətli cənab Prezident ilə bu məsələləri də müzakirə etdik ki, bu sahədə əlaqələndirmə işlərimizi daha da yüksək səviyyəyə qaldıraq. Biz istəyirik ki, öz məhsullarımızı bazarlara ixrac edək. Əlbəttə, istəyirik ki, qiymət də münasib, ədalətli olsun. Burada da ikitərəfli, bəlkə də gələcəkdə çoxtərəfli əməkdaşlıq üçün yaxşı imkanlar var.

Bir sözlə, demək istəyirəm ki, prezident Ruhaninin Azərbaycana səfərini biz çox yüksək qiymətləndiririk. Biz cənab Prezidenti Azərbaycanda səbirsizliklə gözləyirdik. Şadam ki, dünən keçirilən danışıqlar çox uğurlu olmuşdur. Əminəm ki, gələcək illərdə də İran və Azərbaycan dost və qardaş ölkələr kimi, bütün sahələrdə bir yerdə olacaqlar. Əlbəttə, biznes dairələrinin fəaliyyəti də bizim səylərimizə əlavə dəstək olacaqdır.

Hörmətli cənab Prezident, Azərbaycana bir daha xoş gəlmisiniz!

## İran prezidenti Həsən Ruhaninin nitqi

Cənab Prezident!

Hörmətli iştirakçılar!

Bu bölgənin iki əziz ölkəsinin – Azərbaycanın və İranın biznesmenləri, sahibkarları, sizi salamlayıram. Mənə və nümayəndə heyətimə xoşdur ki, bu fürsət bizim üçün yaranıb və biz gözəl Azərbaycanı və gözəl Bakı şəhərini ziyarət edirik.

Biz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Azərbaycanın yüksəkrütbəli şəxsləri ilə danışıqlar aparmışıq. Bu forum o mənanı daşıyır ki, iki ölkənin məsul şəxsləri ölkələrin inkişaf yolları və ölkələrimiz arasındakı əlaqələrin genişlənməsi ilə bağlı fikir mübadiləsi aparır, özəl sektorun nümayəndələri və sahibkarlar bu istiqamətdə fəaliyyət göstərirlər. Bu forum ona görə təşkil olunub ki, sərmayəçilər, sahibkarlar və biznesmenlər iki ölkənin imkanlarını və potensiallarını dəqiq araşdıra bilsinlər. Əlbəttə, sərmayədarlarımızın hansı sahədə daha fəal iştirak etmələri bəzi xüsusiyyətlərlə bağlıdır ki, onlar sərmayə qoyduqları sahələri yaxşı tanısınlar və bilsinlər ki, bu sərmayə sabit, dayanıqlı, faydalı olmaqla bərabər, sərmayədarın şəxsi həyatına, onun biznes işlərinə və iki ölkənin mənafeyinin təmin edilməsinə öz təsirini göstərmiş olsun. Elə bir ölkə yoxdur ki, onun hansısa nisbi üstünlüyü olmasın. Elə bir ölkə də yoxdur ki, bütün nisbi xüsusiyyətlər məhz ona məxsus olsun. Hər ölkənin özünəməxsus üstünlükləri var və gərək hər iki ölkənin sərmayədarları bu üstünlükləri nəzərə alaraq, kapital qoyuluşunu təşviq etsinlər.

Siyasət dünyasında bəzən cəmin hasili sabit nəticəyə səbəb olur. Müasir dünyada hazırkı İran dövlətinin mövcudluğu baxımından biz gərək qalib gəlmək düşüncəsinə və müsbət nəticənin əldə edilməsinə nail olaq. İqtisadiyyat sahəsində və sərmayə qoyuluşu məsələsində də mütləq belə olmalıdır. Hər bir ölkənin və ölkələrimizin sərmayədarları gərək elə hərəkət etsinlər ki, ölkələrimizin mənafeyi yaxşı sığortalansın.

Bizim nöqteyi-nəzərimizdən qalib gəlmək və məğlub olmaq heç vaxt davam edə bilməz. Əlbəttə, qısa müddət ərzində mövcud ola bilər, amma sonda uğursuzluğa düçar olacaq. Həmişə bütün planlaşdırma işləri qalib gəlmək prinsipinə əsaslanmalı, o cümlədən uzunmüddətli, dayanıqlı və qarşılıqlı mənafelərin təmin edilməsi diqqət mərkəzində olmalıdır. Son zamanlar sanksiyalarla və təzyiqlərlə üzləşdiyimiz dövrdə çoxsaylı dərslər öyrənə bildik. Bizim ilk dərsimiz o oldu ki, əgər bir millət iradə göstərə bilsə, sanksiyaların təsirini o qədər azalda, hətta sıfır dərəcəsinə yaxınlaşdıra, sanksiyalar şəraitində belə, özünün iqtisadi

proqramlarını həyata keçirə bilər. 1 il 3 ay öncə fəaliyyətə başlayan bu hökumət qısa müddət ərzində alıcılıq qabiliyyətinin güclənməsi istiqamətində işləmiş, istehsalın artırılması üçün çalışmış, sərmayə qoyuluşunda təşviqə dəstək vermiş və iş şəraitinin yaxşılaşdırılması istiqamətində fəaliyyət göstərmişdir. Uzunmüddətli gələcək üçün dayanıqlı və hərtərəfli iqtisadiyyatın inkişafına maraq göstərmişdir. Biz 15 ay ərzində inflyasiyanın qarşısını ala bilmiş, 1 il ərzində inflyasiyanın səviyyəsini 22 faiz aşağı salmış və inflyasiyanı 40 faizdən 19 faizə endirmişik. Mənfi inkişafı müsbət inkişafla əvəzləmişik.

Bu il indiki hökumətin ikinci fəaliyyət ilidir və biz iqtisadi inkişafa nail olacağıq. Çünki bir millətin iradəsi dünənki və bugünkü idarəetmə üsullarından üstündür. Bir millətin vəhdəti və birliyi hətta güclü dövlətlərin qarşısında duruş gətirə bilər, müqavimət göstərər və qələbə qazanar. Amma bununla yanaşı, sanksiyalar dövründə biz başqa bir dərs də aldıq. Bu ondan ibarətdir ki, Qərb, Avropa ölkələri, uzaq ölkələr ən ağır, böhranlı, təhlükəli gündə ölkəni və insanı kiçik bəhanələrlə tək-tənha qoyur və ona yardımçı olmur. Adi günlərdə açıq üzlə münasibət göstərir, kapital qoyuluşuna marağını ifadə edir, amma bir çətinlik yarananda yolun ortasında insanı tək qoyur. Həm xalqının mənafeyini, həm də öz mənafeyini zərbə altına qoyur. Amma qonşular belə deyillər. Ən ağır günlərdə mövcud olan əlaqələr problemin həlli üçün imkan yarandıqda qonşular arasındakı səmimi və mehriban əlaqələrdən qaynaqlanır. Biz sanksiyalar dövründə onun şahidi olduq ki, qonşular bizi tək qoymadılar. Biz sanksiyalar dövründə bu dərsi öyrəndik ki, prioritet qonşularla münasibətdədir. Ticarətdə prioritet qonşularladır. Kapital qoyuluşu qonşularladır. Qarşılıqlı iqtisadi əlaqələr qonşularladır və bu gün biz bu məsələdə dünənkindən daha çox qərarlıyıq.

Biz bu yolda addımlar atırıq ki, qonşularımızla münasibətlərimiz genişlənsin və möhkəmlənsin. Xüsusilə vahid mədəniyyətimiz, dinimiz, məzhəbimiz, adət-ənənələrimiz, müştərək tariximiz olan ölkə ilə. Bu məsələdə tarix və ticarət bir-birini tamamlamalıdır. Müştərək tarix olan yerdə müştərək ticarət

əlaqələri də yaranır. Bu məsələdə qonşuluq və coğrafi mövqe bizim köməyimizə çatmalıdır. Biz gərək ticarətin inkişafı və sərmayə qoyuluşu üçün ən qısa yoldan yararlana biləк. Biz həm Xəzərdə həmsərhədik, eyni zamanda, quru sərhədlərimiz vardır, həm də qarşılıqlı əlaqələrimizdə bir-birimizə yardımçı olmuşuq və olacağıq. Biz qonşu dövlət kimi, beynəlxalq arenada Azərbaycana dəstək olacağıq və inanırıq ki, Azərbaycan dünya birliyində qonşu, dost, qardaş kimi, İranın yanında olacaq.

Biz Azərbaycanı və İranı kökü bir olan ağacın qolları hesab edirik. Biz əsrlərboyu bir yerdə olmuşuq, bir yerdə yaşamışıq, bir-birimizin süfrəsinin başında əyləşmişik. Arazın bu tərəfi də, o tərəfi də qohum-qaralıdır. Ailəliklə bir-birilərinə bağlıdırlar. Keçmişi olan dostluqları var. Bu keçmiş böyük sərvətə malikdir və biz bu gün onunla üz-üzəyik.

Bizim qarşılıqlı mənafelərimiz var. Biz qarşılıqlı mənafemizi həm bölgədə, həm də dünyada təmin etməkdə qərarlıyıq. Bizim ölkələrimiz terrorizmin, radikalizmin, ixtilaf və təfriqələrin, dağıdıcı müharibələrin bölgəmiz üçün necə böyük bəla olduğunu yaxşı bilir. Nə üçün uzun illər ixtilafda olmuş, müharibə etmiş, qan tökmüş bəzi ölkələr Avropa İttifaqı adlanan qurumda toplaşır, hətta müştərək qanunlar qəbul edir, vahid pul və qarşılıqlı ticari proqramlar, sərhədlərin açılması istiqamətində fəaliyyət göstərir, amma Azərbaycan və İran, biz müsəlmanlar, qonşular, dostlar, qədim və müştərək mədəniyyətə malik olanlar günbəgün bir-birimizə yaxınlaşmayaq?!

Azərbaycan haqqında mənim hisslərim ondan ibarətdir ki, bu dövlət əlaqələrin genişlənməsində qərarlıdır. İran İslam Respublikasının da əlaqələrin, o cümlədən iqtisadi, mədəni, siyasi əlaqələrin genişlənməsi, regional və beynəlxalq təhlükəsizlik məsələlərində əməkdaşlıq üçün ciddi iradəsi vardır. Biz də Azərbaycan ilə əlaqələrin genişlənməsində maraqlıyıq. Biz Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdənik. Biz ölkənizin müstəqilliyinin ilk günlərində var gücümüzlə sizin köməyinizə yetişdik və sizin yanınızda idik. Siz Arazın o tayında sizin istiqlalınızı sevinclə qarşılayanların

şahidi olmusunuz. Onun da şahidisiniz ki, Arazın o tayındakılar bu istiqlalı gülərüzlə qarşılayırdılar. Biz o ölkəyik ki, ağır günlərdə, müharibədə, mübariz Azərbaycan xalqının apardığı savaşda onun köməyinə çatdıq. Allah göstərməsin ki, Azərbaycan çətinliklərlə üzləşsin, əgər Allah eləməmiş, çətin bir gün yetişərsə, Azərbaycan xalqı arxayın olmalıdır ki, İran Azərbaycanın yanında olacaq.

Bu gün bizim üçün sevincli gündür. Bu günün şahidiyik ki, iki ölkənin ali rütbəli rəsmiləri, özəl sektorun nümayəndələri, sərmayədarlar, sahibkarlar bir tavanın altında – Azərbaycanın müstəqilliyinin banisi, mərhum Heydər Əliyevin adını daşıyan əzəmətli binada yığışıblar. Heydər Əliyev Azərbaycan–İran dostluğunun əsasını qoyub ki, bu gün onun imzasını bu möhtəşəm binada görürük.

Biz əməkdaşlığın genişlənməsi və əlaqələrimizin dərinləşməsi üçün böyük imkanlara malikik. Mən dünən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bildirdim ki, sərhədlərimiz, yollarımız, tranzitimiz, gediş-gəlişimiz, vizaların verilməsi, bank sektoru gərək bizim köməyimizə yetişsin. Gərək bank sektoru pul mübadiləsini asanlaşdırsın, ölkələrimizin xarici işlər nazirlikləri vizaların verilməsi, biznesmenlərin və vətəndaşların səfərləri üçün qaydaların sadələşdirilməsi istiqamətində fəaliyyət göstərsin. Gömrük rüsumlarının, həmçinin yük maşınlarına aid olan rüsumların azaldılması və hətta getdikcə bu rüsumların sıfıra endirilməsi, səfərlərin asanlaşdırılması kimi işlərin nəticəsində həm malların göndərilməsi, həm də sərmayələrin işlədilməsi ilə bağlı əlverişli şərait yaradılmalıdır.

Biz enerji mənbələrinə malik olan ölkələrik. Bu gün Azərbaycan neft və qaz ixrac edən ölkə kimi tanınır. Biz də onilliklərdir ki, böyük neft və qaz ixracatçısı kimi tanınırıq. Biz gərək bir-birimizin təcrübəsindən bəhrələnək. Bizim neft və qaz sənayesi sahəsində böyük təcrübəmiz var və bu təcrübəni sizinlə bölüşə bilərik. Bizim qarşılıqlı kapital qoyuluşu sahəsində təcrübəmiz vardır. Biz gərək enerji sahəsində qarşılıqlı investisiya

qoyuluşunda iştirak edək. Biz gərək icazə verməyək ki, zəngin neft mənbələri Xəzərin dibində qalsın. Biz gərək neft mənbələrini hərəkətə gətirək və birlikdə onun hasilatına, istehlakına, satışına nail olaq, əldə olunan mənfəəti xalqlarımıza ərməğan edək. Əgər bizim aramızda kiçik problemlər yaranarsa, onu birlikdə həll edək.

Bizim bəndlərin tikintisində, elektrik stansiyalarının inşasında, infrastrukturun yaradılmasında, yolların və dəmir yollarının çəkilməsində böyük təcrübəmiz vardır və bu sahələrdə əməkdaşlıq edə bilərik. Siz bizim ölkəmizdə, biz də sizin ölkənizdə qarşılıqlı fəaliyyət göstərə bilərik. Biz qarşılıqlı sərmayə qoyuluşu ilə sərhədlərin yaxınlığında kiçik şəhərlər yarada bilərik. Biz sərhədboyu azad iqtisadi zonalar təşkil edə bilərik. Sərhədyanı bölgələr arasında əlaqələri genişləndirə bilərik. İnsan potensialı nöqteyi-nəzərindən bizim savadlı kadrlarımız vardır. Biz bir-birimizin insan resurslarından istifadə edə bilərik. Arzulayardıq ki, təhsil görmüş iranlı Azərbaycanda çalışsın, ölkələrimiz inkişaf etsin və mütəxəssislərimiz ölkələrimizin rifah halının yaxşılaşmasına töhfə versinlər. Biz gərək Azərbaycan ilə İran arasındakı yolun gedişli-gəlişli olmasına çalışaq, həm malların daşınması, həm də insanların səfərləri üçün.

Biz müxtəlif sahələrdə əməkdaşlıq üçün hazırıq. İran əlaqələrin genişləndirilməsində qərarlıdır və qonşularla, xüsusilə də Azərbaycan ilə münasibətlərin dərinləşdirilməsində maraqlıdır. Əlavə etmək istəyirəm ki, Azərbaycan Avropa ilə əlaqələrin yaradılmasında körpü rolunu oynayır. Biz istərdik ki, Azərbaycan İranı Qara dənizlə, Poti və Batumi limanları ilə birləşdirsin. İran da öz növbəsində, Azərbaycanı Bəndər-Abbas, Abadan və Xorrəmşəhrlə birləşdirsin. Biz iki qitə arasında birləşdirici böyük körpü ola bilərik. Biz regional məsələlərin həlli üçün üçtərəfli, dördtərəfli, beştərəfli formatlar təşkil edə bilərik. Azərbaycan–İran–Rusiya, İran–Azərbaycan–Gürcüstan, İran–Azərbaycan–Türkiyə, İran–Azərbaycan–Türkmənistan, İran–Azərbaycan–Qazaxıstan formatlarında geniş əməkdaşlıq əlaqələri yarada bilərik.

Bir neçə həftədən sonra İncəburunda İran–Türkmənistan–Qazaxıstan dəmir yolu xəttinin birləşdirilməsinin şahidi olacağıq və bu mərasimdə hər üç ölkənin prezidentləri iştirak edəcəklər. Ehtimal olunur ki, başqa ölkələrin nümayəndələri də bu tədbirdə iştirak etsinlər. Biz o günün arzusundayıq ki, Astarada Azərbaycan–İran dəmir yolunun açılışında iştirak edək.

Biz gözəl Xəzər dənizinin sahilindəyik. Dədə-babalarımızdan, əcdadlarımızdan bizə miras qalan Xəzərin sularını pak və şəffaf saxlamaq, ekoloji tələbləri nəzərə alaraq gələcək nəsillərə ötürmək bizim öhdəmizə düşən vəzifədir. Azərbaycan və İran xalqları bu dənizin sahilində uzun illərdir birlikdə yaşamışlar və bu gün daha yaxşı həyata sahib olmalıdırlar. Biz Xəzər dənizindən faydalanmaq üçün bütün mövcud imkanlardan, dəniz turizmindən tutmuş, bioloji mühit, enerji, gəmiçilik və digər sahələrdən maksimum istifadə etməliyik. Biz inkişaf etmiş elmlər, nanotexnologiyalar və biotexnologiya, əczaçılıq sahələrində nailiyyətlər qazanmışıq. Biz bu sahələrdə əməkdaşlıq edə bilərik. Biz dərman preparatlarının hazırlanması məqsədilə birgə mərkəz yarada bilərik. Siz bilirsiniz ki, İranın dərman preparatları Avropanın ən inkişaf etmiş ölkələrinin standartlarına cavab verir. Biz bütün sahələrdə Azərbaycan xalqının yanında dayana bilərik. Mən çox şadam ki, noyabr ayında burada İranın ixtisaslaşdırılmış sərgisi keçiriləcəkdir və bugünkü toplantıdan da çox məmnunam. Gərək istedadları, potensialları və imkanları birgə bölüşək. İnanıram ki, Azərbaycan dövləti və şəxsən Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev və İran dövləti və şəxsən İran Prezidenti sizin fəaliyyətlərinizi, ticari əlaqələrinizi, qarşılıqlı sərmayə qoyuluşunuzu dəstəkləyəcək. Hər hansı bir maneə yarandığı təqdirdə onu aradan qaldıracağıq və iki millətin mənafeləri naminə iş adamları və sahibkarlar üçün bütün şəraiti yaradacağıq. Çox sağ olun.

* * *

*Sonra biznes-forum Azərbaycan və İran iş adamları arasında ikitərəfli görüşlərlə davam etdirildi.*

*Tədbirdə Azərbaycan və İran tərəfindən sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, ticarət, səhiyyə, maliyyə və digər sahələrdə fəaliyyət göstərən 300-dən çox iş adamı iştirak edirdi.*

*Forumda Azərbaycanın biznes və investisiya imkanlarına, Sumqayıt Kimya Sənaye Parkı və burada rezidentlər üçün nəzərdə tutulan güzəştlərə, İranın biznes mühiti və hər iki ölkənin iş adamları arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanlarına dair məlumat verildi.*

## MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN GƏNCƏDƏ SALINAN YENİ QƏSƏBƏNİN AÇILIŞI MƏRASİMİ

*14 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Gəncə şəhəri ərazisində 600 məcburi köçkün ailəsi üçün salınan yeni qəsəbənin açılışında iştirak etmişdir.*

*Azərbaycanın sürətli sosial-iqtisadi inkişafının əsas xüsusiyyətlərindən biri də ölkədə aparılan siyasətin müsbət nəticələrinin hər bir vətəndaşın həyatında öz əksini tapması, insanların rifah halının yaxşılaşmasıdır. Ermənistanın hərbi təcavüzü nəticəsində doğma torpaqlarından didərgin düşən vətəndaşlarımızın həyat şəraitinin yaxşılaşdırılması və bu sahədə təsirli tədbirlərin görülməsi prezident İlham Əliyevin müvafiq fərman və sərəncamlarına uyğun olaraq daim diqqət mərkəzində saxlanılır. Bu da Azərbaycanda sosial sahədə vəziyyətin daha da yaxşılaşmasını xarakterizə edən mühüm parametrlərdən biridir. 2003-cü ildə prezident seçkiləri ərəfəsində «bir dənə də olsun çadır düşərgəsi qalmayacaq» – deyən prezident İlham Əliyev verdiyi vədə əməl edib. 2007-ci ilin dekabrında ölkədəki sonuncu çadır şəhərciyi tarixə qovuşub. Ötən müddətdə məcburi köçkünlər üçün bütün infrastruktura malik yeni qəsəbələr salınıb. Belə qəsəbələrdən biri də Gəncə şəhərində salınıb.*

*Son illərdə məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı hüquqi bazanın təkmilləşdirilməsi məqsədi ilə Prezident tərəfindən onlarla fərman və sərəncam imzalanıb, müxtəlif qanunlar təsdiqlənib. Dövlətimizin başçısının 2004-cü ildə imzaladığı sərəncamla «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı» qəbul olunub. 2003–2014-cü illərdə 87 müasir qəsəbə, çoxmərtəbəli binalardan ibarət məhəllə və həyat evləri*

tikilib, 42 min məcburi köçkün ailəsi və ya 210 min nəfər məcburi köçkün mənzillə təmin olunub. Həmin illər ərzində hərtərəfli infrastruktura malik onlarla məktəb, uşaq bağçası, tibb müəssisəsi və Rabitə evi tikilib. Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli məqsədilə son 20 ildə ümumilikdə 5,1 milyard manat vəsait ayrılıb ki, bunun da 2 milyard manatdan çoxu mənzil şəraitinin yaxşılaşdırılmasına sərf olunub. Həmin vəsaitin 1,8 milyard manatı Dövlət Neft Fondunun xətti ilə ayrılıb. Görülən tədbirlərin nəticəsidir ki, məcburi köçkünlər arasında yoxsulluq həddi son 10 ildə 75 faizdən 15 faizə enib.

Prezident İlham Əliyevə yeni qəsəbə barədə məlumat verildi. Bu qəsəbə Prezidentin 2004-cü ildə imzaladığı sərəncamla təsdiq edilmiş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»na 2007-ci ildə imzaladığı sərəncamla təsdiq edilmiş Əlavələrə əsasən inşa olunub.

Qəsəbə Gəncə şəhərinin Kəpəz rayonu ərazisində yerləşir. 60 hektar sahəni əhatə edən qəsəbədə 600 ev, inzibati bina, tibb məntəqəsi, klub-icma mərkəzi, poçt binası tikilib. Bu qəsəbədə Kəlbəcər rayonundan və Xocalıdan ölkənin müxtəlif ərazilərində, o cümlədən Gəncə şəhərində və Hacıkənd qəsəbəsində müvəqqəti məskunlaşmış məcburi köçkünlər yaşayacaq.

Prezident İlham Əliyev 50 yerlik uşaq bağçasında yaradılan şəraitlə tanış oldu. Bildirildi ki, bağçada uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaq üçün bütün imkanlar yaradılıb.

Dövlətimizin başçısı Xocalı rayon Kosalar kənd tam orta məktəbində də oldu. Məktəbin 440 şagird yerlik binasının foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin qaçqın və məcburi köçkün ailələri ilə görüşlərindən, onların problemlərinin həlli ilə bağlı görülən işlərdən bəhs edən fotostend yaradılıb.

Məktəbdə şagirdlərin ən yüksək səviyyədə təhsil almaları üçün hərtərəfli şərait var. Təhsil ocağının sinif otaqları bütün

zəruri inventar və əyani vəsaitlərlə təmin edilib. İdman zalı da bütün zəruri avadanlıqlarla təchiz olunub.

Qəsəbənin elektrik enerjisi, içməli su və qaz təchizatı ilə də bağlı hərtərəfli iş aparılıb. Burada yarımstansiyalar genişləndirilib, komplektləşdirilmiş transformator yarımstansiyaları quraşdırılıb, uzunluğu 30 kilometrdən çox olan su kəməri çəkilib, nasosxana binası inşa olunub. Qəsəbəyə uzunluğu təqribən 25 kilometr olan qaz xətti çəkilib və 6 qaztənzimləyici məntəqə yaradılıb. Burada müasir yol-küçə infrastrukturu qurulub.

Prezident İlham Əliyev yeni qəsəbədəki mənzillərdə yaradılan şəraitlə tanış oldu. Burada 60 birotaqlı, 255 ikiotaqlı, 230 üçotaqlı və 55 dördotaqlı mənzil var.

Dövlətimizin başçısı məcburi köçkünlər üçün salınan yeni qəsəbədə yaradılan şəraitdən razılığını bildirdi.

## UŞAQLARIN III ÜMUMRESPUBLİKA FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli forum iştirakçıları!

Əziz uşaqlar!

Sizi – Uşaqların III Ümumrespublika Forumunun iştirakçılarını və sizin simanızda bütün Azərbaycan uşaqlarını salamlayır, hamınıza cansağlığı, xoşbəxtlik və səadət arzulayıram.

Uşaq hüquqlarının müdafiəsi Azərbaycan dövlətinin uşaqlarla bağlı siyasətinin əsas istiqamətlərindəndir. Uşaqların problemləri ilə məşğul olan dövlət qurumlarının gündəlik fəaliyyəti hər birinizin vicdan, fikir və söz azadlığınıza hörmətlə yanaşılmasına və hüquqlarınızın tam təmin edilməsi üçün əlverişli mühitin yaradılmasına yönəlmişdir.

Azərbaycanda uşaq hüquqlarının qorunması qanunvericiliklə tənzimlənir, uşaqların sosial müdafiəsinin gücləndirilməsi ilə əlaqədar konkret tədbirlər və dövlət proqramları gerçəkləşdirilir. Artıq ölkəmizdə uşaqların sağlamlığının yaxşılaşdırılması, təlim-tərbiyəsinin düzgün təşkili, fiziki, əqli və intellektual-mənəvi inkişafı, eləcə də onların öz istedadlarını nümayiş etdirmələri üçün lazımi şərait mövcuddur. İndi başlıca məqsəd uşaqların zəngin mədəni sərvətlərimizə hörmətlə yanaşan layiqli vətəndaş kimi yetişdirilməsi və hərtərəfli şəxsiyyət olaraq formalaşdırılmasıdır.

Ölkəmizdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin qurbanına çevrilmiş qaçqın və məcburi köçkün uşaqları daim diqqət mərkəzindədir. Dövlətimiz bütün imkanlarını səfərbər edərək, onların problemlərinin həllinə nail olmaq üçün respublikamızın ərazi bütövlüyünün bərpası istiqamətində tarazlaşdırılmış siyasət həyata keçirir. Azərbaycanın davamlı inkişafı uşaqlarımızın xoşbəxt və firavan həyatının təmin

olunması baxımından cəmiyyətimiz qarşısında mühüm vəzifələr irəli sürür. Məhz övladlarımızın sabahı naminə bu vəzifələrin layiqincə yerinə yetirilməsi məqsədi ilə hər bir vətəndaşımız qüvvə və bacarığını səfərbər etməlidir.

Ümidvaram ki, forumunuz çərçivəsində uşaq problemlərinə dair aparacağınız fikir mübadiləsi, səmərəli müzakirələr və qəbul edəcəyiniz qərarlar gələcək fəaliyyətinizdə sizə dəstək olacaqdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *15 noyabr 2014-cü il*

## «DİNİ TOLERANTLIĞIN MÖHKƏMLƏNDİRİLMƏSİ (AZƏRBAYCAN MODELİ, ATƏT REGİONU VƏ ONUN HÜDUDLARINDAN KƏNARDA ÇAĞIRIŞLAR)» MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi Azərbaycanda ürəkdən salamlayır, ən səmimi arzu və diləklərimi yetirirəm.

Son illər sivilizasiyalararası dialoq, multikultural dəyərlərin qorunması, dini tolerantlığın inkişafı kimi humanitar problemlərin ənənəvi müzakirə məkanına çevrilən Azərbaycanda etnik-mədəni müxtəlifliyin, multikultural, tolerant mühitin qorunması və təşviqi dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Ölkəmizdə dövlət–din münasibətləri zəngin milli tarixi ənənəyə əsaslanır və beynəlxalq hüquqi normalarla tənzimlənir. Biz bu təcrübəni həyata keçirdiyimiz din siyasətinin uğurlu təminatı kimi qəbul edir və mövcud ictimai-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin, nümunəvi dözümlülük mühitinin vacib amili kimi dəyərləndiririk.

Razılıq hissi ilə qeyd etmək istərdim ki, bu gün dünyada tolerantlıq örnəyi kimi tanınan Azərbaycan sivilizasiyalararası dialoqun, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl olaraq zəruri təşəbbüs və çağırışlarla çıxış edir. Son illər ölkəmizdə beynəlxalq humanitar forumların, dünya dini liderlərinin sammitlərinin keçirilməsi, Beynəlxalq Tolerantlıq Gününün böyük məmnuniyyət hissi ilə ayrı-ayrı konfessiyaların nümayəndələrinin iştirakı ilə qeyd olunması, bəşəriyyəti narahat edən qlobal problemlər ətrafında birgə müzakirələrin aparılması bunun bariz nümunəsidir. Bu gün bir sıra ölkələrdə şahidi olduğumuz mürəkkəb etno-siyasi proseslər, dinin siyasi ambisiyalara alət edilməsi cəhdləri, radikalizm və ekstremizmin artması göstərir ki, sülh və əmin-amanlıq axtarışında olan dünyamızda multikulturalizmin alternativi

olmadığı kimi, müxtəlif dinlər və məzhəblər arasında dostluq və dözümlülük münasibətlərinin də alternativi yoxdur.

Nüfuzlu beynəlxalq təşkilatların, dövlət və hökumət rəsmilərinin, tanınmış din xadimlərinin, alimlərin və ekspertlərin iştirak etdiyi belə bir faydalı tədbirin Bakıda keçirilməsi mühüm əhəmiyyət kəsb edir. İnanıram ki, aktual bir mövzuya həsr olunmuş beynəlxalq konfransınız işini səmərəli müzakirələr şəraitində quracaq, dinlərarası və mədəniyyətlərarası dialoqun, həmrəylik, tolerantlıq və qarşılıqlı anlaşma kimi bəşəri dəyərlərin inkişafına öz layiqli töhfəsini verəcəkdir.

Fürsətdən istifadə edərək Beynəlxalq Tolerantlıq Günü münasibətilə sizi təbrik edir, nəcib və xeyirxah işinizdə hamınıza cansağlığı və uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *15 noyabr 2014-cü il*

**LATVİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ANDRİS BERZİNŞƏ**

Hörmətli cənab Prezident!

Əziz dostum!

Ölkənizin Milli Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Latviya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Ölkələrimizi birləşdirən ənənəvi dostluq əlaqələri siyasi, iqtisadi, humanitar və digər sahələrdə səmərəli əməkdaşlığımız üçün geniş imkanlar açmışdır. İnanıram ki, dostluq və əməkdaşlıq münasibətlərimizin daha da möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Latviya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *15 noyabr 2014-cü il*

**OMAN SULTANI ƏLAHƏZRƏT
QABUS BİN SƏİDƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar diləyir, dost Oman xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 noyabr 2014-cü il*

## ŞƏMKİR RAYONUNA SƏFƏR

*15 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Şəmkir rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Şəmkir şəhərinin mərkəzindəki abidəsi önünə gül dəstəsi qoydu.*

*Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov son vaxtlar rayonda görülən işlər barədə prezident İlham Əliyevə məlumat verdi.*

### Şəmkirçay su anbarının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də su-elektrik stansiyası ilə birgə Şəmkirçay su anbarının açılışı mərasimində iştirak etmişdir.*

*«Azərbaycan Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə dövlətimizin başçısına Şəmkirçay su anbarının planı, Şəmkirçay magistral suvarma kanallarının sxemi, Şəmkirçay üzərində dəryaçanın tikintisinin əsas göstəriciləri, bəndin baş planı və digər qurğular barədə ətraflı məlumat verdi.*

*Prezident İlham Əliyevə Azərbaycandakı mövcud su anbarlarının xəritəsi nümayiş etdirildi.*

*Dövlətimizin başçısı su-elektrik stansiyası ilə birgə Şəmkirçay su anbarının açılışını bildirən düyməni basdı.*

*Prezident İlham Əliyevə su-elektrik stansiyası barədə məlumat verildi. Qeyd edildi ki, stansiyanın gücü 25 meqavat olacaq. Stansiyada ildə 56 milyon kilovat elektrik enerjisinin istehsalı nəzərdə tutulur.*

*Sonra dövlətimizin başçısına Şəmkirçay su anbarı, əsas hidrotexniki qurğular, o cümlədən magistral kanallar barədə məlumat verildi. Zəngin təbiəti ilə seçilən bu ərazidə 2008-ci ildən bəri peşəkarcasına və beynəlxalq standartlara uyğun olaraq böyük həcmdə iş aparılıb.*

*Bildirildi ki, gil nüvəli mərkəzi bəndin daha möhkəm və etibarlı olması üçün daş-qaya materialından istifadə edilib. Şəmkirçay su anbarının ümumi su tutumu 164,5 milyon kubmetr, faydalı həcmi isə 156,3 milyon kubmetrdir. Şəmkirçay su anbarı bəndinin nüvə hissəsindən hündürlüyü 196 metrdir. Layihəyə əsasən orta illik su ehtiyatı 265,2 milyon kubmetr olan Şəmkirçayın sularını bu anbarda nizamlamaqla, ildə 207,9 milyon kubmetr sudan istifadə olunacaq. Layihəyə uyğun olaraq su anbarında nəqledici, qəza sutullayıcı və təzyiqli enerji tunelləri tikilib.*

*Diqqətə çatdırıldı ki, Şəmkirçay su anbarında yığılan suyu əkin sahələrinə nəql edəcək əsas magistral kanal, sağ və sol sahil magistral kanalları, həmçinin maşın kanalı üçün qidalandırıcı kanal inşa olunub. Ən müasir standartlara cavab verən həmin kanallar açıq dəmir-beton üzlüklüdür. Dövlətimizin başçısının tapşırığına əsasən aparılan dəqiqləşdirmə nəticəsində Şəmkir, Göygöl, Samux və Goranboy rayonlarında su təminatı yaxşılaşdırılacaq 54 248 hektar və yeni suvarılacaq 17 147 hektar torpaq sahələrinin olduğu müəyyənləşdirilib. Şəmkirçay su anbarından Gəncə və Şəmkir şəhərlərinə, Samux rayonunun Nəbiağalı qəsəbəsinə saniyədə 1,6 kubmetr su verməklə, əhalinin içməli su təchizatı və layihənin əhatə etdiyi ərazidə ekoloji vəziyyət əsaslı şəkildə yaxşılaşacaq. Ümumilikdə Şəmkirçay su anbarı regionların sosial-iqtisadi inkişafına olduqca vacib töhfədir və müstəqillik illərində reallaşdırılan ən mühüm layihələrdən biri kimi, Azərbaycanın müasir tarixində mühüm yer tutacaq.*

*Sonra dövlətimizin başçısı Şəmkirçay su anbarının istifadəyə verilməsi münasibətilə keçirilən mərasimin iştirakçılarını təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Biz bu gün Şəmkirçay su anbarının açılışını qeyd

edirik. Bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm. 5 il əvvəl biz burada bu nəhəng infrastruktur obyektinin təməl daşını qoyduq. 5 il ərzində çox gərgin iş aparılıb və bu işin nəticəsində biz bu gün bu gözəl infrastruktur obyektinin açılışını qeyd edirik. Bu işin icrasında iştirak etmiş bütün insanlara – inşaatçılara, mühəndislərə minnətdarlığımı bildirirəm. Bu, Azərbaycanın gələcək inkişafı, iqtisadi inkişafımız üçün əvəzolunmaz bir infrastruktur obyektidir.

Şəmkirçay su anbarı, su-elektrik stansiyası, su kanalları vahid bir kompleks təşkil edir. Bu infrastruktur obyektinin fəaliyyəti nəticəsində ölkə iqtisadiyyatına, kənd təsərrüfatına, sahibkarlığın inkişafına çox böyük dəstək veriləcək. Bu su anbarının fəaliyyəti nəticəsində 54 min hektar torpaqda suvarma yaxşılaşdırılacaq, 17 min hektar torpaq isə yenidən suvarılacaq. Yəni bu, kənd təsərrüfatının inkişafı üçün çox böyük əhəmiyyət daşıyan obyektdir. Fermerlər bundan səmərəli şəkildə istifadə etməlidirlər. Əminəm ki, belə də olacaq. Yeni suvarılacaq sahələrdə bəri başdan düzgün planlaşdırma işləri aparılmalıdır ki, orada hansı məhsullar yetişdiriləcək, o məhsullar hansı bazarlara ixrac olunacaq. Hesab edirəm ki, biz bu məsələlərə indidən kompleks şəkildə yanaşmalıyıq və əslində artıq müəyyən işlər görülmüşdür. Bu gün Şəmkir rayonunda böyük aqroparkın təməli də qoyulacaq və əgər bu su anbarı tikilməsəydi, o aqropark da tikilməzdi. Çünki oraya da çox böyük həcmdə investisiya qoyulacaq və əsas şərt suvarılan ərazilərdir.

Bu çox böyük investisiyatutumlu layihədir. 700 milyon manatdan çox dövlət vəsaiti qoyulmuşdur və Taxtakörpü su anbarından sonra qeyri-neft sektoruna qoyulan ikinci böyük investisiyadır. Biz keçən ilin sonunda Taxtakörpü su anbarının və kanalların açılışını qeyd etdik. O, 1 milyard manat dəyərində olan layihədir. Bu gün isə biz Şəmkirçay su anbarının açılışını qeyd edirik. Bu iki mühüm layihə, əlbəttə ki, bugünkü Azərbaycanın gücünü və bizim siyasətimizin istiqamətini göstərir. Çünki bu gün kənd təsərrüfatını, sahibkarlığı inkişaf etdirmək üçün dövlət tərəfindən böyük vəsait qoyulur, böyük işlər görülür. Dövlət qeyri-

neft sektorunun inkişafına böyük investisiyalar qoyur. Sahibkarlığın inkişafı üçün hər il güzəştli şərtlərlə kreditlər verilir. Son illərdə iqtisadiyyatın real sektoruna kredit şəklində 200 milyon manatdan çox vəsait qoyulub.

Sahibkarlığı inkişaf etdirmək üçün hər il mənim rəhbərliyimlə geniş müşavirə keçirilir, həm siyasi dəstək verilir, həm iqtisadi məsələlər öz həllini tapır. İnfrastruktur layihələri – elektrik stansiyaları, kənd yolları, içməli su layihələri – bütün bu layihələr ölkəmizin çoxşaxəli inkişafını təmin edir və regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının tərkib hissəsidir.

Bildiyiniz kimi, birinci proqram 2004-cü ildə qəbul edilmişdir. Hazırda üçüncü proqram icra edilir. 2018-ci ilə qədər ölkəmizdə üçüncü proqramın icrası nəticəsində əsas infrastruktur və sosial məsələlər həllini tapacaqdır.

Kənd təsərrüfatının, sahibkarlığın inkişafı isə bizim üçün prioritet istiqamətlərdir. Biz ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin etməliyik. Bu istiqamətdə çox önəmli addımlar atılır. Özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz təmin etmək üçün biz artıq bu hədəfə yaxınlaşırıq. Ərzaq təhlükəsizliyimizin tam şəkildə təmin edilməsi, ixrac potensialımızın artırılması gələcəkdə həm iş yerlərinin yaradılmasına, həm də insanların rifah halının yaxşılaşmasına xidmət edəcəkdir.

Hazırda biz yeni ixrac bazarlarına çıxmaq üçün çalışırıq. Yeni imkanlar var və biz bu imkanlardan səmərəli şəkildə istifadə etməliyik. Əlbəttə ki, kənd təsərrüfatı məhsullarımızı ixrac bazarlarının mümkün olan və gələcəkdə mümkün olacaq potensialına da uyğunlaşdırmalıyıq. Bütün işlər planlı şəkildə aparılır. İlk növbədə, daxili tələbat 100 faiz daxili istehsal hesabına təmin edilməlidir. Bununla paralel olaraq biz yeni bazarlara və ənənəvi bazarlara daha böyük həcmdə məhsulla çıxmalıyıq. Beləliklə, növbəti illərdə kənd təsərrüfatının inkişafı dinamik olacaq, bölgələrdə iş yerləri açılacaq, işsizlik daim çox aşağı səviyyədə olacaq. Görülən tədbirlər və xüsusilə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində bu gün Azərbaycanda işsizlik 5 faiz səviyyəsindədir. Son 10 il ərzində 1

milyon 300 min yeni iş yeri açılmışdır ki, bu da özlüyündə ölkəmiz üçün böyük imkanlar yaradır.

Sahibkarlığın inkişafı diqqət mərkəzindədir. Hesab edirəm ki, sahibkarlar da bu gözəl imkanlardan istifadə edəcəklər. Biz bu gün paralel olaraq su-elektrik stansiyasının açılışını qeyd etdik. Bu da çox gözəl layihədir. Azərbaycan öz enerji təhlükəsizliyini tam şəkildə təmin etmişdir və bu gün başqa ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında fəal iştirak edir, böyük rol oynayır. Bu rol getdikcə artacaq, ancaq eyni zamanda, biz çalışmalıyıq ki, öz enerji güclərimizi artıraq, o cümlədən bərpa olunan enerji növləri hesabına. Bu istiqamətdə də böyük işlər görülür. Su-elektrik stansiyaları tikilir. Artıq kiçik olsalar da, günəş elektrik stansiyaları tikilməkdədir. Ancaq bərpa olunan enerji növləri arasında, əlbəttə ki, hidroenergetika prioritet təşkil edir. Son illərdə bir neçə gözəl layihə icra edilmişdir. Taxtakörpü su anbarında 25 meqavat gücündə elektrik stansiyası fəaliyyətə başlamışdır. Füzuli rayonunda 25 meqavat gücündə stansiya tikilmişdir. Naxçıvanda, Ordubad rayonunda böyük stansiya tikilmişdir. Naxçıvan Muxtar Respublikasını, demək olar ki, 100 faiz bərpa olunan enerji növləri ilə təmin etmək üçün böyük işlər görülmüşdür. Biz artıq bu məqsədə də çox yaxınıq. Bu gün burada, Şəmkirdə 25 meqavat gücündə su-elektrik stansiyası fəaliyyətə başlayır. Yeni stansiyaların tikintisi də mümkündür və biz bu məsələlərə də baxacağıq. Biz burada bu obyektin enerji potensialını bəlkə də 45 meqavata çatdıra bilərik. Bu, əlbəttə ki, ekoloji cəhətdən ən təmiz, eyni zamanda, ən ucuz enerji növüdür. Bu bizə imkan verəcək ki, neft-qaz resurslarımızı xarici bazarlara daha da böyük həcmdə ixrac edək.

Bax, Azərbaycan dövlətinin bu işlərə yanaşması bundan ibarətdir. Biz enerji, nəqliyyat təhlükəsizliyimizi təmin etmişik. Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri Azərbaycanın üzərindən keçir. Böyük infrastruktur layihələrini icra etmişik.

Yeni dəniz ticarət limanı – onun birinci hissəsi artıq fəaliyyətə başlamışdır. Yeni gəmilər alınır. Dəmir yoluna, hava nəqliyyatına böyük investisiyalar qoyulur. Yeni aeroportlar tikilir, ən müasir təyyarələr alınır, yeni marşrutlar açılır. Bakı–Tbilisi–Qars dəmir yolu – bu da tarixi layihədir, artıq reallaşır, onun başa çatmasına az qalıb. Yəni nəqliyyat infrastrukturu bundan ibarətdir.

Coğrafi vəziyyətimiz elədir ki, biz nəinki regionda, dünya miqyasında nəqliyyat mərkəzi olmalıyıq. Bu yaxınlarda Şimal–Cənub nəqliyyat dəhlizinin reallaşması və Şərq–Qərb qədim İpək yolunun bərpası üçün önəmli qərarlar verilmişdir. Bununla yanaşı, ərzaq, enerji və nəqliyyat təhlükəsizliyi bizim əsas məsələlərimizdir. Bu məsələlərin həlli, həmçinin regional əmək-daşlığa da böyük təkan verəcək.

Azərbaycan regional əməkdaşlıq məsələlərində lider rolunu oynayır. Burada nəqliyyat, energetika, təbii qaz layihələri, əlbəttə ki, üstünlük təşkil edir və bütün bu məsələlər nəticədə regional təhlükəsizliyin möhkəmlənməsinə xidmət göstərir. Bir daha demək istəyirəm ki, Azərbaycanda bütün bu işlərə dövlət dəstəyi verilir. Bütün bu layihələr planlı şəkildə icra edilir. Şəmkirçay su anbarının, su-elektrik stansiyasının və su kanallarının tikintisi ilə bağlı hələ 2005-ci ildə mən sərəncam imzalamışdım. Ondan sonra işlər başlanmış, texniki-iqtisadi əsaslandırma hazırlanmışdır. Xarici podratçı kontraktorlar seçilmişdir və işlər başlanmışdır.

Ancaq uzunmüddətli strategiyanı düzgün müəyyən etdikdə biz gözəl nəticələrə çata bilərik. Çünki bu nəhəng infrastruktur layihələri çox vaxt aparır. Ona görə 2005-ci ildə sərəncam imzalandı, 2009-cu ildə işlər başlandı, 2014-cü ildə isə biz artıq bu layihənin başa çatmasını qeyd edirik. Bu, yüzilliklər ərzində Azərbaycana xeyir gətirəcək, iqtisadi potensialımızı möhkəm-ləndirəcək. Əlbəttə ki, su kanallarının tikintisi bundan sonra da davam etdirilməlidir. Hazırda tikilən kanallar dediyim həcmdə yeni torpaq sahələrini əhatə edəcək. Ancaq yeni, gələcək planlar var və biz suvarılan torpaqların həcmini daha da artıra bilərik. Kanalların tikintisi nəticəsində təqribən 20, bəlkə də 30 min

hektar əlavə torpaq sahəsi suvarıla bilər. Bu layihə 4 rayonun sahəsini əhatə edir – Şəmkir, Göygöl, Samux, Goranboy. Bu rayonlarda kənd təsərrüfatının inkişafı, əlbəttə ki, bu layihənin icrası nəticəsində daha da sürətlə gedəcək. Bir məqamı da qeyd etmək istəyirəm, eyni zamanda, bu layihədən insanlar da içməli su kimi istifadə edəcəklər. Şəmkir və Gəncə şəhərlərinə, o cümlədən Samux rayonunun bir neçə yaşayış məntəqəsinə içməli su veriləcək. Bu, təmiz içməli sudur, keyfiyyətlidir, təbiidir və bu layihə də böyük Şəmkirçay kompleksinin tərkib hissəsidir.

Suvarma, meliorasiya, kənd təsərrüfatı, sahibkarlıq, enerji təhlükəsizliyi, içməli su, insanların sağlamlığı və inkişaf – bax, budur bir layihədə cəmləşən amillər. Bir daha onu demək istəyirəm ki, ancaq Azərbaycan dövlətinin güclü iradəsi, düşünülmüş, planlı şəkildə apardığı siyasət nəticəsində bu layihələrin icrası mümkün olmuşdur. Dünyada maliyyə və iqtisadi böhran davam edir. İnvestisiya qoyuluşu xeyli dərəcədə aşağı düşüb. Bəzi ölkələrdə maliyyə böhranı kəskinləşir. Neft-qaz ilə zəngin olan ölkələr də yəqin ki, neftin qiymətinin kəskin şəkildə düşməsindən narahatdırlar, bu da təbiidir.

Ancaq buna baxmayaraq, Azərbaycan böyük infrastruktur, investisiya layihələrini icra edir. Nə üçün? Çünki bizim xalqımıza, dövlətimizə lazımdır. Dövlətimiz daha da güclü olmalıdır. İqtisadiyyat daha da çoxşaxəli olmalıdır. Neft-qaz amilindən asılılıq daha da azalmalıdır. Biz bu layihələrin icrası ilə bir daha göstəririk ki, ancaq müstəqillik dövründə Azərbaycan sürətlə inkişaf edə bilər. 250 ilə yaxındır ki, Azərbaycan nefti dünyada tanınır. Hasilatın əvvəlində dünya üzrə neftin bəlkə də 70 faizi Azərbaycanın payına düşürdü. İkinci dünya müharibəsi zamanı Azərbaycan nefti sovet enerji potensialının 70–80 faizini təşkil edirdi.

Ancaq Azərbaycan müstəqilliyə qovuşanda bizim vəziyyətimiz necə idi?! Neft sənayesi dağılmış vəziyyətdə idi. Köhnə yataqlarda iş getmirdi. Hər tərəf ekoloji fəlakətə bənzəyirdi. Bakının ətrafını yada salaq. Bibiheybət mədənləri ekoloji bir fəlakət idi. «Qara şəhər», Böyükşor gölü, digər Balaxanı mədənləri nə gündə idi?!

Bizə, müstəqil dövlətə bu qaldı. Neftin hasilatı kəskin şəkildə aşağı düşmüşdü. Biz özümüzü təbii qazla təmin edə bilmirdik. Baxmayaraq ki, sovet vaxtında Azərbaycandan təbii qaz həm Ermənistana, həm Gürcüstana ötürülürdü, biz isə təbii qazı xaricdən almağa başlamışdıq. Bu idi müstəqilliyimizin əvvəlində müşahidə olunan mənzərə. Ona görə bir daha demək istəyirəm ki, biz buna ancaq müstəqillik dövründə nail ola bilmişik. Çünki bizim taleyimiz öz əlimizdədir.

Azərbaycan xalqı söz sahibidir. Azərbaycan xalqın iradəsi ilə idarə olunur. Azərbaycan dövləti lazım olan belə nəhəng layihələri xalqımız, dövlətimiz üçün icra edir və bundan sonra da edəcək. Çünki biz güclü dövlətik. Biz son illərdə iqtisadi və siyasi islahatlar nəticəsində dünya miqyasında böyük hörmət qazanmışıq. Davos İqtisadi Forumunun hesablamalarına görə biz rəqabətqabliyyətlilik üzrə dünya miqyasında 38-ci yerdəyik. Biz beynəlxalq nüfuz qazanmışıq və 2 il dünyanın ən mötəbər qurumu – BMT Təhlükəsizlik Şurasının üzvü kimi fəaliyyət göstərmişik və prinsipial ədalətə, beynəlxalq hüquqa söykənən mövqemizi orada ifadə etmişik. Budur müstəqilliyin nəticələri və Azərbaycan xalqı bunu görür, bilir, qiymətləndirir.

Biz xalq üçün, dövlətimizin möhkəmləndirilməsi üçün çalışırıq və bundan sonra da çalışacağıq. Əminəm ki, gələcəkdə belə böyük layihələrin sayı artacaq. Bizim böyük planlarımız var. Gələcəyə baxışlarımız çox nikbindir. Azərbaycanın inamlı, sürətli inkişafı davam edəcək və biz bütün məqsədlərə çatacağıq.

Mən bu gözəl gündə bu nəhəng infrastruktur obyektinin tikintisində iştirak etmiş bütün dostlara, yoldaşlara bir daha minnətdarlığımı bildirirəm. Bütün Azərbaycan xalqını Şəmkirçay su anbarı kompleksinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Sağ olun.

**Ə h m ə d Ə h m ə d z a d ə** *(«Azərbaycan Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri):* Möhtərəm cənab Prezident!

Hörmətli tədbir iştirakçıları!

Bu gün doğrudan da müstəqil Azərbaycanın tarixində yeni bir səhifə yazılır. Azərbaycanın coğrafiyasını çox gözəlləşdirəcək, dəyişdirəcək 2 böyük obyekt bu gün cənab Prezidentin iştirakı ilə istifadəyə verilir.

Cənab Prezidentin çıxışından sonra danışmaq çox çətindir. Çünki cənab Prezident bu məsələləri o qədər ətraflı şərh etdi ki, ondan sonra layihə və görülən işlər haqqında nə isə demək çətindir. Şəmkirçay su anbarının tikilməsi ideyası ulu öndərimiz Heydər Əliyev tərəfindən irəli sürülmüşdü. Hələ o vaxt – 1981-ci ildə bunun texniki-iqtisadi əsaslandırılması yaranmışdı.

Uzun müddət – sovetlər dövründə də, sonrakı dövrdə də ölkənin imkanı olmadığı üçün tikintiyə başlamaq mümkün olmamışdır. Amma cənab Prezident bu layihənin həm müəllifi, həm də icra edilib başa çatdırılmasının təşkilatçısı oldu. Ona görə də bu layihəni bizdən daha yaxşı bilir. Biz ona layihə haqqında məlumat verəndə çox çətinlik çəkirik. Uzun müddət bu sahədə işləyən, təcrübəsi olan bir adam kimi, mən çətinlik çəkirəm. Çünki elə suallar verir ki, fikirləşirsən, yəqin cənab Prezident hidrotexnik təhsili alıb, ona görə də hidrotexnikanı bu dərəcədə bilir.

Bu kompleksin özülü qoyulandan bu günədək, layihənin müzakirəsindən tutmuş, tikintinin başa çatmasınadək bütün işləri nəzarətdə saxlayıb və bu gün gəlib burada bu açılışı etməyi, işçilərin əməyini yüksək qiymətləndirməyi bizi çox fərəhləndirir. Cənab Prezident, biz hamımız Sizə minnətdarıq ki, Siz Azərbaycan xalqı üçün bu qədər böyükmiqyaslı işlər görürsünüz. Sözün açığı, Taxtakörpü su anbarı, Samur–Abşeron suvarma sisteminin yenidən qurulması layihələri həyata keçiriləndən sonra fikirləşmirdim ki, bunlarla paralel ikinci böyük tikintiyə başlamaq olar. Bu tikintiyə ancaq güclü dövlətin gücü çata bilər, bunu ancaq cəsarətli və güclü rəhbərin iradəsi edə bilər. Biz Sizə minnətdarıq, cənab Prezident!

Bütün sahələrdə olduğu kimi, cənab Prezident, burada da təxminən 10 il əvvəl Sizin söylədiyiniz bir fikir bizim üçün örnək olub. Biz o fikri yadınıza salırıq. Siz o vaxt bir layihənin

müzakirəsi zamanı dediniz ki, bizim əvvəllər tikmək imkanımız yox idi, amma indi imkanımız var, tikməməyə və pis tikməyə ixtiyarımız yoxdur. Biz həmin devizi həmişə yadda saxlamağa çalışmışıq və çalışırıq ki, tikək, Sizin tapşırıqları vaxtında yerinə yetirək, özü də keyfiyyətlə yerinə yetirək. Siz doğrudan da Azərbaycan üçün möcüzələr yaradırsınız. Biz çalışmışıq ki, Siz bu gün belə bir tikintiyə baxasınız, sevinəsiniz. Biz ona çalışmışıq, bilmirəm nə dərəcədə nail olmuşuq, amma verdiyiniz qiymətə görə bir daha Sizə minnətdarıq.

Təkcə bu sahə deyil, başqa sahələrdə də çoxlu meliorasiya tədbirləri görülür – istər taxılçılıq təsərrüfatlarının yaradılması, istər köhnə hidrotexniki qurğuların bərpa olunması sahəsində. Mən burada bir sirri deyim ki, qoy Azərbaycan xalqı bilsin. 2013-cü ildə mən cənab Prezidentdən xahiş etdim ki, əgər icazə versəniz, 50 kənddə quyu qazarıq. Soruşdu ki, nə üçün 100 yox, 50? Dedim ki, Siz icazə versəniz sayını artırarıq. Cənab Prezident 50 əvəzinə 107 quyu qazmağı tapşırdı. Biz bu tapşırığı 2013-cü ildə yerinə yetirdik. Bu ilin yanvarında yenə söhbətimiz olanda daha 100 quyunun qazılmasına icazə verilməsini xahiş etdim. Cənab Prezident dedi ki, niyə 100, niyə 250 yox? Və 250 quyunun qazılmasına sərəncam verdi. Mən, cənab Prezident, Sizə məruzə edirəm ki, həmin 250 quyu dekabr ayında tam qazılıb istifadəyə veriləcək. 250 quyu 250 kəndin, yaşayış məntəqəsinin sevincidir. Bu, Azərbaycanın bütün bölgələrini, rayonlarını əhatə edən bir layihədir. Biz ona görə də Sizə çox minnətdarıq.

Sizin tapşırığınızla biz böyük meliorasiya tədbirləri barədə plan hazırlayıb Nazirlər Kabinetinə təqdim etmişik. Tapşırığınız ondan ibarətdir ki, Azərbaycanda kənd təsərrüfatının intensiv və ekstensiv üsulla inkişafı təmin edilsin, Azərbaycan iqtisadiyyatının inkişafı təmin olunsun. Bu da həm mövcud meliorasiya potensialından istifadə olunmasını, həm də ekstensiv inkişaf yolu ilə yeni sahələrin artırılması məsələsini əhatə edir. Biz layihəni hazırlayıb Nazirlər Kabinetinə təqdim edəndən sonra özümüz də fikirləşdik ki, işin həcmi böyükdür. Amma bir məsələni qeyd edim ki, 11 il bundan qabaq ulu öndərimiz xalqımıza

müraciətində demişdir: «Mən İlham Əliyevə özümə inandığım qədər inanıram». O inam artıq 11 ildir tam sübuta yetirilib. Siz o inamla Azərbaycan xalqının özünəinamını, özünə güvənini artırdınız. Xalqımız əldə olunmuş uğurlara görə Sizə minnətdarlığını bildirir.

Biz bu böyük dünyada yaşayırıq. Bu dünyada böyüklü-kiçikli dövlətlər çoxdur. Onların əksəriyyətinin rəhbərlərinin reytinqi seçiləndən bəri 2 dəfə aşağı düşüb. Amma mən xalqın qarşısında deyirəm ki, Sizin reytinqiniz yüzə-yüz artıb. Görülən bu işlərə görə xalq Sizi sevir. Biz də o inamla o layihəni təqdim etmişik ki, gələcəkdə Siz bunları bizə tapşıracaqsınız və biz də onları dövlətimizin dəstəyi ilə həyata keçirəcəyik.

Biz Sizə minnətdarıq. Melioratorlarımız, inşaatçılarımız Sizin rəhbərliyiniz altında işləməkdən çox zövq alırlar. Sizin tapşırıqlarınızı yerinə yetirmək üçün həmişə hazırıq.

Diqqətinizə görə sağ olun.

**Azər Əmiraslanov** *(«Vətən-Az» Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru):* Möhtərəm cənab Prezident!

Hörmətli mərasim iştirakçıları!

Bu gün biz ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən böyük bir hadisənin şahidi olduq. Siz bu gün Azərbaycanımızın növbəti tarixi nailiyyətinə imza atdınız. Nəhəng Şəmkirçay su anbarını, su-elektrik stansiyasını, magistral su kanalını istifadəyə verdiniz. Bu layihənin reallığa çevrilməsi Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsinə və inkişaf etdirilməsinə, ölkədə ərzaq bolluğunun yaradılmasına fundamental yanaşmanın bir nümunəsidir. Gələcək fəaliyyətimizə ciddi təkan verəcək bu layihəyə görə Sizə bütün sahibkarlarımızın, fermerlərimizin adından minnətdarlığımızı bildiririk. Həyata keçirdiyiniz mühüm tədbirlər nəticəsində iqtisadiyyatımızda qeyri-neft sektorunun xüsusi çəkisi ildən-ilə artmaqdadır. Bu sahəyə böyük sərmayələr qoyulur, konkret proqramlar icra olunur. Son zamanlar istifadəyə verilən və tikintisi davam etdirilən dəryaçalar, su anbarları və həyata keçirilən digər infrastruktur layihələri bundan sonra da yüz illərlə xalqımıza, dövlətimizə xidmət göstərəcək, onları gələcəkdə

yarana biləcək problemlərdən qoruyacaqdır. Hamıya məlumdur ki, vacib infrastruktur yaratmadan kənd təsərrüfatını inkişaf etdirmək mümkün deyildir.

Şəmkirçay su anbarı kompleksinin istifadəyə verilməsi bölgəmizin kənd təsərrüfatının inkişafı üçün yeni imkanlar yaradacaqdır. Fermerlərimiz, sahibkarlarımız suvarılan torpaqları əkəcəklər, becərəcəklər, yeni emal müəssisələri yaradacaqlar və ölkəmizdə ərzaq təhlükəsizliyinin tam təmin olunmasına öz töhfələrini verəcəklər. Bu il təbiət, sözün həqiqi mənasında, insanlarımızı, xüsusən də kənd təsərrüfatı məhsulları istehsalçılarını sınağa çəkdi. Suvarma suyunun çatışmaması məhsuldarlığın azalmasına, bəzi hallarda əkinlərin məhv olmasına, çəkilən əziyyətin hədər getməsinə səbəb oldu. Bu bir daha göstərir ki, ölkəmizin su təhlükəsizliyinin təmin edilməsi, su ehtiyatlarından səmərəli istifadə, yeni kanalların inşası, su anbarlarının yaradılması strateji əhəmiyyətli bir məsələdir.

Cənab Prezident, əmin ola bilərsiniz ki, bu şəraitdən istifadə edərək, insanlarımız daha çox çalışacaqlar. Heç şübhə yoxdur ki, susuzluqdan istifadəsiz qalan və ərazisi 10 min hektarlarla ölçülən boş torpaq sahələrini zəmilər, bostanlar, meyvə bağları əvəz edəcəkdir. Bu layihələr ölkədə məhsul bolluğunun yaradılmasına, əhalinin ekoloji cəhətdən təmiz ərzaq məhsullarına tələbatının ödənilməsinə, insanların həyat şəraitinin, maddi rifah halının daha da yaxşılaşmasına, məhsullarımızın xarici ölkələrə ixracının genişlənməsinə səbəb olacaqdır. Eyni zamanda, bu su anbarı bölgənin içməli suya olan tələbatını da ödəyəcək. Mən bir sahibkar kimi, kənd təsərrüfatının inkişafı ilə bağlı dövlətimiz tərəfindən həyata keçirilən tədbirləri də izləyirəm. Son 10 ildə rayonumuzda kənd təsərrüfatı sahəsində güzəştli kredit almış sahibkarların sayı çoxalmış, əldə edilən gəlirlər dəfələrlə artmışdır. Kənd təsərrüfatı məhsulları istehsalçılarının vergidən azad edilməsi, onlara dövlət tərəfindən subsidiyaların verilməsi və bu cür infrastruktur layihələrinin həyata keçirilməsini görən xarici biznes tərəfdaşlarımız belə, bizə həsəd aparırlar.

Mənim 4 hektar istilikxanam və 10 hektar çiyələk tarlam var. İldə 120 ton xiyar, 150 ton pomidor, 200 ton çiyələk istehsal edirəm. Müəssisəmdə 115 nəfər rayon sakini daimi işlə təmin olunub. Şəmkirçay su anbarı kompleksinin işə düşməsi mənə əlavə imkan verəcəkdir ki, öz fəaliyyətimi əsaslı surətdə genişləndirim. Bu da əlavə iş yeri və əlavə gəlir deməkdir. Ümumiyyətlə, ölkəmizdə gedən yüksək inkişaf prosesləri Şəmkirin də simasını tamamilə dəyişmişdir. Rayonumuz gündən-günə gözəlləşir, abad bir diyara çevrilir. Bütün bölgələrimizdə olduğu kimi, ümumi sosial-iqtisadi inkişaf nəticəsində rayonumuzda da varlı insanlarımızın sayı on dəfələrlə artmışdır. Bizi yaşadan da, varlandıran da elə torpaqdır. Torpağı əkib-becərmək üçün bizə lazım olan bütün şəraiti Siz yaradırsınız.

Möhtərəm cənab Prezident, çıxışımın sonunda bölgə sahibkarları adından Sizi əmin etmək istəyirəm ki, bizə yaratdığınız bu şəraitdən səmərəli istifadə edəcəyik, ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsinə öz töhfəmizi verəcəyik. Vətənimizin iqtisadi baxımdan daha da güclü olması naminə fədakarlıqla çalışacağıq. Çox sağ olun, cənab Prezident!

## «Şəmkir Aqropark»ın təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də «Şəmkir Aqropark»ın təməlqoyma mərasimində iştirak etmişdir.*

*Şəmkirçay üzərində dəryaçanın inşası region üçün mühüm əhəmiyyətə malik olan yeni aqroparkın yaradılmasına geniş imkanlar açıb. Dövlətimizin başçısının tapşırığına əsasən bu imkandan istifadə edilməklə, rayonda aqroparkın tikintisi layihələndirilib.*

*İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev prezident İlham Əliyevə «Aqropark» inkişaf konsepsiyası barədə məlumat verdi. Bildirildi ki, bu konsepsiya ölkənin ixrac potensialının ar-*

tırılmasında və coğrafiyasının genişləndirilməsində, milli brendlərin yaradılmasında, kiçik və orta fermerlərin innovativ qabiliyyətinin artırılmasında, intensiv metodların geniş tətbiqində, kənd təsərrüfatı sahəsində əlaqələndirilmiş vahid sistemin, eləcə də istehsalçı, emalçı və istehlakçı arasında inteqrasiya münasibətlərinin formalaşmasında, yüksək məhsuldarlığın əldə olunmasında, aqrar sahədə ixtisaslı kadrların hazırlanmasında və yeni iş yerlərinin açılmasında əhəmiyyətli rol oynayacaq. Eyni zamanda, aqroparkla «Zəyəm Texnologiyalar Parkı» arasında işgüzar münasibətlərin yaradılması və fermerlər üçün istixana konstruksiyalarının, damla, yağışyağdırma və çiləmə üsulu ilə müasir suvarma avadanlıqlarının istehsalı və quraşdırılması həyata keçiriləcək. Bununla yanaşı, aqropark kiçik fərdi istehsalçı səviyyəsindən genişmiqyaslı aqrar sənaye istehsalına keçidin və xarici bazarlara sabit və etibarlı çıxışın təmin edilməsinə şərait yaradacaq, innovativ texnologiyaların, həmçinin vahid standartların tətbiqini və son məhsulda davamlı keyfiyyətin əldə edilməsini şərtləndirəcək.

Bu yeni xidmət müəssisəsi regionda fermerlərin sahibkarlıq fəaliyyətini gücləndirməklə, onlara məsləhət, texniki, aqroservis və logistika xidmətlərinin göstərilməsinə, toxum, şitil, ting, dərman və gübrə ilə təmin olunmasına şərait yaradacaq. Aqroparkın təlim-tədris mərkəzi tərəfindən fermerlərə torpağın tərkibinə uyğun istifadə olunması və düzgün aqrotexniki qulluq göstərilməsi üzrə treninqlər keçiriləcək.

Məlumat verildi ki, respublikada ilk dəfə Şəmkir rayonunda 543 hektar ərazidə yaradılacaq aqroparkda müasir istixana kompleksi, şitillik, tinglik və intensiv bağçılıq təsərrüfatları, meyvə və tərəvəz emalı zavodları, tara istehsalı fabriki, logistika və aqroservis mərkəzi, soyuducu anbar, satış mərkəzləri, avtopark, elmi araşdırma və innovasiyalar mərkəzi, hotel və müxtəlif infrastruktur müəssisələri inşa olunacaq. Aqroparkda müasir texnologiyaların tətbiqi ilə istehsal, emal, logistika – məhsulları saxlama, çeşidləmə, qablaşdırma, markalama, daşınma, daxili və xarici bazarlarda satış, yaşıl marketlər və fermer mağazaları üzrə

*fəaliyyətlərin vahid ərazidə cəmləşməsi rəqabətqabliyyətli kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalına şərait yaradacaq. «Şəmkir Aqropark»da yaradılacaq müəssisələrin maliyyələşdirilməsinin böyük hissəsi İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə dövlətin güzəştli kreditləri hesabına həyata keçiriləcək.*

*Dövlətimizin başçısı aqroparkın təməlini qoydu.*

*Sonra prezident İlham Əliyev mənbəyini Şəmkirçay su anbarından götürən kanala baxdı. Bildirildi ki, uzunluğu 11 kilometr və su nəqli saniyədə 4,5 kubmetr olan kanal aqroparkın yaradılmasında mühüm rol oynayacaq. Saniyədə nəql olunan suyun təqribən 1 kubmetri aqroparkda istifadə ediləcək, qalan hissəsi isə regionda fəaliyyət göstərən fermerlərin təsərrüfatlarına veriləcək.*

## Yeni Çörək zavodunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Çörək zavodunun açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin 2014-cü ili «Sənaye ili» elan etməsi ilə əlaqədar olaraq sənayeləşmə siyasəti çərçivəsində qeyri-neft sektorunun şaxələndirilməsi, mövcud təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi, ənənəvi sənaye sahələri ilə yanaşı, yeni prioritet məhsulların istehsalı sahələrinin yaradılması, regionların sənaye potensialının gücləndirilməsi və sənayenin innovasiyalar əsasında inkişafının təmin edilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir.*

*Belə tədbirlərdən biri də Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, dövlətin güzəştli kreditləri hesabına çörəkbişirmə sənayesində ən müasir texnologiya və avadanlıqlar tətbiq edilməklə, regionlarda və Bakı şəhərinin qəsəbələrində müasir çörək zavodlarının yaradılmasıdır. Bu məqsədlə İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ümumi dəyəri 108 milyon manat, gündəlik istehsal gücü 820 tona yaxın olan 27 çörək zavodunun tikintisinə, ən müasir texnologiya və*

*avadanlıqlarla təchiz edilməsinə 49 milyon 500 min manat güzəştli kredit verilib. Bu çörək zavodlarından gündəlik istehsal gücü 437 ton olan 12-si Bakı şəhərinin qəsəbələrində, gündəlik istehsal gücü 382,5 ton olan 15-i isə regionlardadır. Dünyanın aparıcı şirkətlərinin müasir texnologiya və avadanlıqları əsasında qurulmuş gündəlik istehsal gücü 695 ton olan 21 çörək zavodu artıq istifadəyə verilib. Ölkədə ən müasir texnologiyaların tətbiqinə əsaslanan belə iri çörək zavodlarının yaradılması, istehlakçıları yüksəkkeyfiyyətli, müxtəlif çeşiddə çörək və çörək məhsulları ilə təmin etməyə imkan verib. Respublikanın regionları arasında ilk dəfə olaraq ən müasir avadanlıqlarla təchiz olunmuş və böyük istehsal gücünə malik olan Çörək zavodu Şəmkir rayonunda inşa edilib.*

*Müəssisənin maketi ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, 2,8 hektar ərazidə inşa olunmuş və dəyəri 20,5 milyon manat olan zavodun yaradılmasına İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 7,5 milyon manat güzəştli kredit verilib. Ərzaq təhlükəsizliyinin və əhalinin keyfiyyətli çörək məhsulları ilə təmin edilməsi məqsədilə Çörək zavodu dünyanın bu sahədə məşhur şirkətlərinin ən son texnologiyaları əsasında qurulub. Məhsul buraxılışında istifadə olunan su bir neçə mərhələdə süzgəcdən keçirildikdən sonra bütün xammal – su, un, duz, şəkər, maya və s. xüsusi laboratoriyada yoxlanılır və yalnız bundan sonra istehsal prosesinə buraxılır. Bu da sanitar-gigiyenik normalara əməl edilməklə, yağdan istifadə olunmadan yüksək keyfiyyət standartlarına cavab verən çörək və müxtəlif çeşidli digər məmulatların istehsalına şərait yaradır.*

*Prezident İlham Əliyev zavodu işə saldı.*

*İstehsal prosesini izləyən dövlətimizin başçısına məlumat verildi ki, çörək və kruasan bölmələrindən ibarət olan bu zavodda ölkəmizdə ilk dəfə Niderlandın «Daub» şirkətinin termoyağlı boru xətləri tətbiq olunub ki, bu da çörəyin daha yüksəkkeyfiyyətli bişirilməsini təmin edəcək. Müəssisədə 4 çörək istehsalı, qablaşdırma xətləri, xammalın daşınması və avtomatik bölgü sistemi olan anbar quraşdırılıb.*

*Zavodda «Nəfis çörək» brendi ilə ilkin olaraq 15 növ – sosial, baton, baton kəpəkli, kərpic dietik, kərpic çovdar, tost, dairəvi alman çovdar çörəyi, fransız bageti, türk batonu, Borodin çörəyi, rus Baltik çörəyi, rus karavayı, Litva çörəyi, düzbucaqlı və üzümlü çiabatta çörəkləri, həmçinin müxtəlif çeşidli bulka və bulka məhsulları istehsal olunacaq. Gələcəkdə məhsulların növləri artırılacaq. Gündəlik layihə gücü 50 ton olan zavodda istehsal prosesi tam avtomatlaşdırılıb. Un xüsusi nəqliyyat vasitələri ilə zavoda gətirilərək, hər birinin tutumu 30 ton olan 4 anbara boşaldılır. Bu andan etibarən istehsal prosesi başa çatanadək məhsula insan əli dəymir. Çörəklər növündən asılı olaraq xüsusi xətt vasitəsilə 60–180 dəqiqə ərzində soyudularaq bütöv və ya doğranmış formada qablaşdırılır ki, bu da məhsulun istifadə müddətini 48 saatadək artırır.*

*Hazır məhsullarla tanışlıq zamanı prezident İlham Əliyevə bildirildi ki, müasir texnologiyanın tətbiqi enerji məsrəflərinin azalmasına və məhsulun maya dəyərinin aşağı olmasına imkan verir. Bunun nəticəsində istehlakçılara daha münasib qiymətlərlə yüksəkkeyfiyyətli çörək məhsulları təqdim edilir. Hazır məhsulların istehlakçılara çatdırılması üçün ixtisaslaşdırılmış 8 nəqliyyat vasitəsi alınıb və satışın həyata keçirilməsi üçün 15 brend mağaza yaradılır. Zavodda ikinövbəli iş rejimi tətbiq edilməklə, ümumilikdə 100-dək yeni iş yeri açılıb.*

*Prezident İlham Əliyev müəssisənin potensialından səmərəli istifadə edilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## Şəmkir hərbi birliyinin hərbi şəhərciyi ərazisində yeni inşa olunmuş qərargah binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev noyabrın 15-də Şəmkir hərbi birliyinin hərbi şəhərciyi ərazisində yeni inşa olunmuş qərargah binasının açılışında iştirak etmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılıb. Bu gün Azərbaycanın bölgədə ən yüksək mövqelərə malik ölkə olmasını şərtləndirən əsas amillər sabitlik, dinamik iqtisadi inkişaf və güclü ordudur. Azərbaycan Ordusu həm peşəkarlıq, həm də maddi-texniki bazasının üstünlüyü baxımından bölgədə ən güclü ordudur. Son illərdə ölkədə gedən ordu quruculuğu tədbirləri bir daha təsdiqləyir ki, müharibə başlayacağı təqdirdə Azərbaycanın qələbəsini şərtləndirən kifayət qədər mühüm amillər var. Ali Baş Komandanın bölgələrdəki hərbi hissələrə mütəmadi səfərləri əsgərlərimizi Vətəni qorumağa, onları işğal altındakı torpaqlarımız uğrunda hər zaman savaşa qalxmağa ruhlandırır.*

*Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı hərbi hissənin ərazisində yeni inşa edilən qərargah binasında yaradılan şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, üçmərtəbəli bina ordu birliyinin tabeliyindəki birləşmə və hissələrin idarə olunması, İdarə Heyətinin generalları, zabit və gizirlərin xidmət aparmaları üçün təyin edilib və burada 76 xidməti otaq var. Yeni qərargahda birləşmə və hissələrin döyüş tapşırıqlarını yerinə yetirmələri, qərargah təlimlərinin keçirilməsi, döyüş və səfərbərlik hazırlığı, həmçinin maddi-texniki təminat məsələlərində vaxt itkisinə yol verilməməsi və qoşunların operativ idarə olunması üçün müasir avadanlıqlarla təchiz edilən taktiki siniflər, çertyoj və kompüter otaqları, rabitə qovşağı və ordu korpusunun müdafiə zolağını əks etdirən maket otaqları qurulub.*

*Ordu korpusunun rabitə sistemi müasir tələblərə uyğun fiber-optik kabel üzərindən yeni texnologiyalarla təchiz olunub. Burada müasir avtomat telefon stansiyaları quraşdırılıb. Qarşıdakı 2 ildə bu sistemin Silahlı Qüvvələrin bütün birlik, birləşmə və hərbi hissələrini əhatə etməsi, birinci eşelon qərargahlarına qədər genişləndirilməsi planlaşdırılır.*

Sonra Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev operativ müşavirə keçirdi.

Müşavirədə Müdafiə naziri Zakir Həsənov Azərbaycan–Ermənistan sərhədi boyu və təmas xəttindəki vəziyyət barədə məruzə etdi. Prezident İlham Əliyev bu yaxınlarda Ermənistan silahlı qüvvələrinin qoşunların təmas xəttini pozması ilə bağlı təxribatını pislədi və Azərbaycan Silahlı Qüvvələri tərəfindən bu təxribatın qarşısının uğurla alınmasını yüksək qiymətləndirdi. Dövlətimizin başçısı güclü döyüş qabiliyyətinə malik olan Silahlı Qüvvələrimizin bundan sonra da düşmənin hər hansı bir təxribatına layiqli cavab verəcəyinə əmin olduğunu bildirdi. Prezident İlham Əliyev vəziyyətlə bağlı müvafiq göstərişlərini verdi.

Daha sonra dövlətimizin başçısına hərbi qulluqçuların yay-qış geyim formaları göstərildi. Bildirildi ki, pilot variantda hazırlanan və hərbi hissələrdə istənilən iqlim şəraitində sınaqdan keçirilən yeni formalar yüksək dözümlülüyü və davamlılığı ilə fərqlənir. Eyni zamanda, hərbi qulluqçuların yataq şəraiti yaxşılaşdırılıb, köhnə tip əsgər çarpayıları müasir bir və ikimərtəbəli çarpayılarla əvəz olunub. Hazırda stasionar və çöl şəraitində yerləşən hərbi hissələrdə hamam-camaşırxana və məişət otaqlarının avadanlığının yeniləri ilə əvəz olunması istiqamətində müvafiq işlər görülür.

Onu da deyək ki, hərbi hissələrdə şəxsi heyətin qidalanmasının keyfiyyətinin yaxşılaşdırılmasına və bişirilən yeməklərin çeşidinin artırılmasına xüsusi fikir verilir. Hazırda bu işlərlə hərbçilər yox, mülki şəxslər məşğul olur, bu da yeməklərin keyfiyyətinə öz müsbət təsirini göstərir. Relyefinə görə yolları çətin, təhlükəli, əlverişsiz, yüksək dağ şəraitində yerləşən və uzunmüddətli ərzaq tədarükü edilən hərbi hissələrin şəxsi heyətinin konservləşdirilmiş milli yeməklərlə təmin edilməsi üçün də tədbirlər görülüb. Bu sırada qeyd edilən standartlar nəzərə alınaraq hərbi qulluqçuların içməli su ilə təmin olunması da diqqət mərkəzində saxlanılıb. Silahlı Qüvvələrin hərbi qulluqçularının səhra şəraitində quru ərzaq pay dəsti çeşidinin və qida rasionunun kaloriliyinin artırılması

*məqsədilə Nazirlər* Kabinetinin *müvafiq qərarı və Müdafiə* nazirinin *əmri ilə ərzaq payına əlavələr* edilib.

*Diqqətə çatdırıldı ki, hərbi hissənin ərazisində hərbi* qul*luqçular üçün nəzərdə* tutulan tam *təmirli 50 xidməti mənzildən ibarət* be*şmərtəbəli* bina da *inşa* olunub.

# BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN İQTİSADİYYAT NAZİRİ SULTAN BİN SƏİD ƏL-MANSURİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat naziri, iqtisadi, ticari-texniki əməkdaşlıq üzrə birgə hökumətlərarası Komissiyanın həmsədri Sultan Bin Səid əl-Mansurinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Sultan Bin Səid əl-Mansuri ölkəmizə səfərindən ötən dövr ərzində Bakıda gedən böyük inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını vurğuladı. O, Azərbaycanın əldə etdiyi uğurların ölkəsində maraqla izlənildiyini dedi. Sultan Bin Səid əl-Mansuri ölkələrimiz arasında iqtisadi, siyasi, investisiya qoyuluşu, birgə əməkdaşlıq sahələrində və digər sahələrdə münasibətlərin inkişaf etdirilməsinin regional əlaqələrin genişləndirilməsi baxımından önəmini qeyd etdi.*

*Dövlətimizin başçısı İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərində böyük inkişafa nail olunduğunu məmnunluqla qeyd etdi. Ölkəmizdə yeni inkişaf layihələrinin uğurla icra olunduğunu vurğulayan prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat naziri, iqtisadi, ticari-texniki əməkdaşlıq üzrə birgə hökumətlərarası Komissiyanın həmsədri Sultan Bin Səid əl- Mansurinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin ölkəmizdə həyata keçirilən investisiya layihələri ilə yaxından tanış olmaq üçün yaxşı fürsət yaradacağına ümidvar olduğunu bildirdi.*

*Görüşdə Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əməkdaşlığın iqtisadiyyatın müxtəlif sahələrində inkişaf etdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

## QAFQAZ XALQLARI ALİ DİNİ ŞURASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*17 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də «Dini tolerantlığın möhkəmləndirilməsi (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)» mövzusunda beynəlxalq konfransda iştirak edən Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərini qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Sizi yenidən Bakıda görməyimə şadam. Xoş gəlmisiniz! Şadam ki, görüşlərimiz müntəzəm xarakter alır, Bakıda və Azərbaycanın digər yerlərində tez-tez görüşürük. Həm də dini dözümlülük, tolerantlıq məsələlərini müzakirə edən beynəlxalq konfransda iştirak edirsiniz. Bu bizim regionumuzda, bütövlükdə dünyada, Yaxın Şərqdə və Avropada hazırda çox mühüm mövzudur. Azərbaycan öz tərəfindən müxtəlif dinlərin nümayəndələri və xalqlar arasında daha çox anlaşma olması üçün səy göstərir. Biz müntəzəm tədbirlər keçiririk. Dini həmrəylik və tolerantlıq mövzusunda 4 dəfə Beynəlxalq Humanitar Forum keçirmişik. Bu, əsas mövzudur. 2 dəfə Mədəniyyətlərarası Dialoq üzrə Beynəlxalq konfrans keçirmişik. Həmçinin Bakıda dünya dinləri rəhbərlərinin Sammitini keçirmişik. Yəni tarixi, coğrafi mövqe və bugünkü reallıqlar nəzərə alınmaqla, Azərbaycan bu istiqamətdə mühüm rol oynayır.

Əlbəttə ki, bizi təhlükəsizlik, sülh məsələləri birləşdirir. Qafqazda bunlar bizim ümumi mövzularımızdır. Qafqaz bizim ümumi evimizdir. Qafqazın təhlükəsizliyi, inkişafı və tərəqqisi bizim ümumi qayğımızdır. Dini liderlərin rolu gənc nəslin bizim ənənələrimiz və əməkdaşlıq ruhunda tərbiyəsi baxımından, eləcə də ağsaqqalların, dini rəhbərlərin tövsiyələrinin mötəbər sayılması cəhətdən çox böyük əhəmiyyət kəsb edir. Biz də bu ənənələri qoruyub saxlamalı və möhkəm-

ləndirməliyik. Bizim respublikaların gəncləri dini, milli ənənələrimiz ruhunda böyüməlidirlər. Bizim ənənələrimiz xeyirxahlığa, sülhə, qardaşlığa əsaslanır. İslam sülh dinidir. Dünyanın kütləvi informasiya vasitələrində dinimizi süni surətdə ləkələmək, islamı terrorçuluqla, ekstremizmlə eyniləşdirmək cəhdləri bizi çox narahat edir. Bu informasiya fonu həm də konfessiyalararası sülhün bütün dünyada bərqərar olmasını istəməyənlərin dəyirmanına su tökən bəzi siyasətçilərin məsuliyyətsiz bəyanatları ilə möhkəmləndirilir. Buna görə də bu konfrans baxışlarımızı, mövqemizi, nöqteyi-nəzərimizi, dini dəyərlərimizi geniş dünya ictimaiyyətinə çatdırmaq və qarşılıqlı anlaşmanın, hörmətin olması üçün daha bir imkandır. O zaman dünya daha təhlükəsiz olar.

Qarşılıqlı hörmət, beynəlxalq hüquq, ədalət, dini dəyərlər dünyanın müsbət istiqamətdə inkişafı üçün mühüm təməldir. Təəssüf ki, biz bunun əksini görürük. Qafqazda həm təhlükəsizliyi, həm əməkdaşlığı, həm də inkişafı birgə səylərlə möhkəmləndirəcəyik. Bir daha sizi səmimi-qəlbdən salamlayıram. Ümid edirəm ki, sizin bu konfransda iştirakınız xoş və faydalı olacaq.

**İsmayıl Berdiyev** (*Şimali Qafqaz Müftilərinin Əlaqələndirmə Şurasının sədri, Rusiya Federasiyası Qaraçay-Çərkəz müftisi*): Çox sağ olun, İlham Heydər oğlu. Biz həqiqətən, buraya məmnuniyyətlə gəlirik. Çünki Azərbaycanı sevirik. Bakı getdikcə gözəlləşir. Hər dəfə yeniliklə üzləşirsən, düşünürsən ki, daha nə etmək olar?! Gəlirsən və tamam başqa mənzərə görürsən.

*İsmayıl Berdiyev Azərbaycanda inkişafın sürətlə getdiyini, paytaxtda ən böyük məscidin inşa olunduğunu vurğulayaraq bildirdi:*

– Gördüyünüz işlər Sizin soy kökünüzlə bağlıdır. Sizin atanızla şeyxülislam Kəbəyə gedib, fotolar var. Sonra Sizinlə də gedib. Bütün bu işlər bundan irəli gəlir.

**İlham Əliyev:** Mən dostluğumuzu, şəxsi münasibətlərimizi, sizin şeyximizlə olan münasibətlərinizi çox yüksək qiymətləndirirəm. Biz əsrlərboyu dostluq və sülh şəraitində birlikdə yaşamışıq və gələcəkdə də belə yaşayacağıq. Əlbəttə,

bu dəyəri qorumalıyıq. Xalqlarımızı yaxınlaşdırmaq, eləcə də dini-mənəvi dəyərlərin ölkəmizin inkişafının əsasını təşkil etməsi üçün biz öz tərəfimizdən əlimizdən gələni edirik.

Görüş ərəfəsində bizim əvvəlki görüşlərimizi yada saldım. Biz Bibiheybət məscidinin genişləndirilməsi, bərpası, əslində yenidən qurulmasından sonra açılışı mərasimində, sonra Əjdərbəy məscidinin təmirdən sonra açılışında, Şamaxıda Azərbaycanın ən qədim məscidinin açılışında birgə iştirak etmişik. Həmçinin ümid edirəm ki, Bakıda inşa edilən ən böyük məscidin açılışı sizin iştirakınızla olacaq. Əminəm ki, əlaqələrimiz gələcəkdə daha da möhkəmlənəcək.

**A l l a h ş ü k ü r  P a ş a z a d ə** (*Qafqaz Müsəlmanları İdarəsinin sədri*, *şeyxülislam*) : Cənab Prezident!

Siz islam, din, xalq üçün çox böyük işlər görürsünüz. Bu tolerantlıq günündə mən istərdim ki, ulu öndər Heydər Əliyevi yada salım. Çünki bu gündə o həmişə bizi bir yerə yığardı, bizimlə görüşərdi, danışardı və bizə yol göstərərdi. Çünki bu tolerantlığın bünövrəsini qoyan Heydər Əliyev həzrətləri olmuşdur. Bu ənənə bu gün də davam edir. Bu bir daha Sizin, bayaq dediyiniz kimi, öz kökünüzə, islama, mənəviyyata verdiyiniz qiymətdir. Ona görə də Sizə minnətdarlığımı bildirirəm.

Bu gün Qafqaz Müsəlmanları İdarəsi Sizin mənəvi dəstəyinizlə imkan daxilində böyük işlər görür. Bu gün Azərbaycan hökuməti, Qafqaz Müsəlmanları İdarəsi, ATƏT-in və YUNESKO-nun ölkəmizdəki nümayəndəlikləri birlikdə, özü də ilk dəfə belə bir konfrans keçirdik.

Bu da Azərbaycanda din, vicdan azadlığının və tolerantlığın bir nümunəsidir. Bu da Sizin bizim üçün yaratdığınız bir şəraitdir. Ona görə də Sizə minnətdarlığımızı bildiririk.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Mən bir daha Qafqazda sabitliyin, təhlükəsizliyin, inkişafın möhkəmləndirilməsi işində rolunuza görə minnətdarlığımı bildirirəm.

*Dövlətimizin başçısı Azərbaycan və Şimali Qafqaz xalqları arasında tarixən dostluq münasibətlərinin hökm sürdüyünü dedi. Azərbaycanda yaşayan Şimali Qafqaz xalqlarının, Şimali Qafqaz*

*respublikalarında yaşayan azərbaycanlıların bu dostluğun daha da möhkəmləndirilməsində mühüm rol oynadıqlarını vurğuladı.*

– Konfrans Murtuza Muxtarovun evində keçirilib. O, Azərbaycanın ən zəngin adamlarından biri və mesenat olub.

Bakının əksər tarixi binalarını varlı insanlar tikdiriblər. Onların əksəriyyəti ləyaqətli insanlar idi. Onlar sərmayə qoyaraq məktəblər, xəstəxanalar inşa etdiriblər. Bizim indiyədək istifadə etdiyimiz Şollar su kəməri Hacı Zeynalabdin Tağıyevin vəsaiti hesabına tikilmişdi. Bu evi də Murtuza Muxtarov həyat yoldaşına hədiyyə kimi inşa etdirib. Onun həyat yoldaşı Osetiyadan idi. O həmçinin öz vəsaiti hesabına Vladiqafqazda məscid tikdirib. O çox ləyaqətli insan idi, faciəvi şəkildə həlak olub. Bolşevik inqilabından sonra əsgərlər onun evinə soxularaq, onu öz evindən çıxarmaq istəyiblər. O zaman Murtuza Muxtarov quldurlara mənzilini ləkələməyə imkan verməyib. Silahı çıxararaq hücum edənlərin bir neçəsini öldürüb və özü də həlak olub.

Sovet dövründə, təbii ki, hər şey milliləşdirilib. Orada müxtəlif kontorlar fəaliyyət göstərib. Sonra ora nikah evi kimi fəaliyyət göstərərək, «Səadət» sarayına çevrildi. Mənim də nikahım orada qeydiyyata alınıb. Sonralar bu saray pis vəziyyətə düşmüşdü. Biz bir neçə il ərzində oranı bərpa etdik. Çünki binanın tarixi hissəsini qoruyub saxlamaq və yeniləşdirmək lazım idi. İndi bura həm də nikahların qeydə alındığı saray kimi fəaliyyət göstərir. Burada rəsmi nikah mərasimləri, həmçinin müxtəlif dövlət tədbirləri keçirilir.

Bilirsiniz ki, Azərbaycanda bütün tarixi məscidlər bərpa olunub, son illər ərzində yüzlərlə yeniləri tikilib. Ancaq ürək ağrımız odur ki, işğal edilmiş ərazilərdə, Dağlıq Qarabağda, Şuşada məscidlər dağıdılıb. İnternetdə fotoşəkillər də var. Erməni işğalçı qüvvələri, həmçinin Ağdam məscidini və bir çox digər məscidləri dağıdıblar. Bakıda isə biz erməni kilsəsini bərpa etmişik. Şəhərin mərkəzindədir. Hamı baxa bilər. Bax, bu kimin hansı niyyətlərlə yaşadığını göstərir. Sizin müzakirə etdiyiniz mövzunun nəticəsi, bax, elə budur – tolerantlıq. Hətta müharibə şəraitində bəşəri və dini normaları pozmaq olmaz. Təəssüf ki, biz

bununla qarşılaşırıq. Dağıdılmış məscidlərimiz vandalizmin sübutudur. Digər hallarda da ümumbəşəri davranış və mənəviyyat normaları elə bu cür pozulub. Bir neçə il əvvəl bizim bir qəhrəman şəhid olub. O, təkbaşına 10-dan çox işğalçını məhv edib. Özü də həlak olub. Aşkar ölümə gedib. Onun cəsədini bir neçə ay qaytarmadılar. Təsəvvür edirsiniz, bir neçə ay! Heç bir dində belə vəhşilik yoxdur. O qəhrəmandır, öz torpağını müdafiə edirdi, öz torpağında həlak oldu. O, yad yerdə həlak olmamışdır. Bax, belə epizodlar, əlbəttə ki, Qafqazdakı vəziyyəti ağırlaşdırır. Biz – Qafqazda minilliklər boyu yaşayanlar, yeni köçənlərdən fərqli olaraq, ənənələrimizi qoruyuruq və qoruyacağıq. Biz xalqlarımızın həyatını daha da yaxşılaşdırmaq üçün əlimizdən gələni edəcəyik.

**Ş a f i k   P ş i x a ç e v** (*Qafqaz Müsəlmanları İdarəsinin Rusiya Federasiyasındakı səlahiyyətli nümayəndəsi)*: Mən də Sizə öz tərəfimdən təşəkkür etmək istəyirəm. Çox sağ olun. Həqiqətən də Bakıya gəlmək həmişə xoşdur. Bakı inkişaf tempi ilə bizi həmişə heyran qoyur. Amma daha çox Sizin daimi qayğınız, bizimlə görüşəndə dedikləriniz dəyər istiqamətləri, cəmiyyətin inkişafının dini-mənəvi tərkib hissəsi ötəri deyil. Bu heç bir parametrlərlə ölçülməyən böyük dəyərə malikdir.

Bildirmək istəyirəm ki, Sizinlə görüşmüşük. Sizin köməyinizlə, inşallah, gələn ildən Qafqaz Müsəlmanları İdarəsinin Rusiya Federasiyasında nümayəndəliyi tamhüquqlu fəaliyyətə başlayacaq. Bütün hüquqi sənədlər tərtib olunub, hər şey Rusiya Federasiyasının qanunları, Azərbaycan Respublikasının yeni qanunları ilə uyğunlaşdırılıb. İnşallah, biz səfirliklə, Moskvada Heydər Əliyev Fondunun nümayəndəliyi ilə birgə işləmək niyyətindəyik. İnşallah, qəti əminik ki, bu nümayəndəliyin işi Rusiya Federasiyasının və bizim qardaş Azərbaycan xalqlarının daha da yaxınlaşmasına, səmərəli qarşılıqlı fəaliyyətinə xidmət edəcək. Çox sağ olun. Biz Sizə məlumat verəcəyik, biz işləyəcəyik. Məsuliyyətimizi dərk edirik. İnşallah, bu istiqamətdə iş görəcəyik.

**İ l h a m   Ə l i y e v:** Çox sağ olun. Mən də çox şadam ki, artıq Moskvada nümayəndəliyiniz var. Bu xüsusən də son dövrdə bizim

olduqca fəal və dinamik inkişaf edən əlaqələri, dövlətlərarası münasibətləri nəzərə almaqla, çox vacibdir. Həmçinin deyərdim ki, bizim şeyxlə bütün Rusiyanın Patriarxı əlahəzrət Kirill arasında qardaşlıq münasibəti mövcuddur. Bu münasibətlər dostluğa, qardaşlığa əsaslanır. Bu çox vacibdir. Həm Rusiya, həm Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkələrdir. Ona görə də bizim ölkələrdəki sülh bütün dinlərin nümayəndələrinin qarşılıqlı fəaliyyəti, qarşılıqlı anlaşması və qarşılıqlı dəstəyindən asılıdır. Buna görə də biz Rusiya ilə ikitərəfli formatda qarşılıqlı fəaliyyət göstəririk. Əlbəttə ki, patriarxla şeyx arasında şəxsi münasibətlər də mühüm rol oynayır. Mən patriarx Kirilin Bakıda olduğunu, həmçinin məscidi ziyarət etdiyini xatırlayıram. İlk dəfə idi o, məscidi ziyarət edirdi. Bunun Azərbaycanda baş verməsi rəmzi məna daşıyır.

**Ş a f i k  P ş i x a ç e v**: Bu cür tolerantlıq təkcə bir-birinə qarşı dözümlülük nümayiş etdirmək deyil. O, səmərəli və fəal qarşılıqlı fəaliyyət kimi qəbul edilir. Deməli, gələcəkdə də bu istiqamətdə birgə irəli getmək lazımdır.

**İ l h a m  Ə l i y e v:** Bu tamamilə doğrudur. Çünki indi tolerantlıqdan çox danışılır. Amma bu anlayışı düzgün müəyyənləşdirmək lazımdır. Bu cür konfranslar da buna xidmət edir. Bu öz dəyərlərindən imtina etmək, kosmopolitizm, qloballaşmanın hər hansı bir hissəsi deyil. Hesab edirəm ki, bu ilk növbədə, öz dəyərlərinə və xalqına bağlılıq, öz dininə və başqa dinlərə də hörmətdir. Siz doğru deyirsiniz ki, bu bir-birinə dözmək deyil, əksinə, əlaqələrin, münasibətlərin və anlaşmanın daha çox olmasına xidmət etməkdir. Çünki müxtəlif kütləvi informasiya vasitələrində açıq antiislam təbliğatı aparılır. Biz buna dözə bilmərik. Biz burada, beynəlxalq forumlarda, BMT və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində fəaliyyətimizdə də bunu bəyan edirik. Bəyan edirik ki, buna son qoymaq lazımdır. Biz BMT Təhlükəsizlik Şurasında sədrlik edəndə qaldırdığımız mövzulardan biri İslam Əməkdaşlıq Təşkilatı ilə BMT arasında bu məsələlərlə bağlı qarşılıqlı fəaliyyət idi. Ona görə də, bax, bugünkü gün də, hətta bu

konfrans da, digər tədbirlər də islamın sülh dini olduğunu sübut edir.

Biz islam dinini ayrı-seçkilikdən, indi necə deyirlər, qara piardan hərtərəfli qorumaq üçün daha güclü olmalı, daha səmərəli işləməliyik və xarici qonaqları dəvət etməliyik. Bilirəm ki, xarici ölkələrdən Şimalı Qafqaz respublikalarına çoxlu insanlar gəlir, tanış olur, inkişaf, müasirlik görürlər. Hörmətli şeyx də dəfələrlə televiziyada Çeçenistan Respublikasında inkişaf barədə danışıb. Müasir şəhər, müasir infrastruktur. Bax, bu, inkişafın göstəricisidir.

* * *

*Sonra Rusiya Federasiyası Şimali Osetiya – Alaniya Respublikasının müftisi Hacımurat Qatsalov respublika başçısının xatirə hədiyyəsini prezident İlham Əliyevə təqdim etdi.*

## «BEYNƏLXALQ ANTİKORRUPSİYA AKADEMİYASINA ÜZV DÖVLƏTLƏRİN ASSAMBLEYASI»NIN III SESSİYASININ İŞTİRAKÇILARINA

Hörmətli assambleya iştirakçıları!

Sizi Bakı şəhərində Beynəlxalq Antikorrupsiya Akademiyası Assambleyasının açılışı münasibətilə təbrik edir və səmimi-qəlbdən salamlayıram.

Azərbaycan sürətlə inkişaf edən müasir dövlətdir. Bu dinamikanın saxlanılması üçün tədbirlər ardıcıl şəkildə davam etdirilir. Ölkəmizdə şəffaf ictimai münasibətlər sistemi formalaşdırılmış, demokratik institutların fəaliyyəti təmin edilmişdir. Fəaliyyətimiz beynəlxalq təşkilatlar və nüfuzlu reytinq agentlikləri tərəfindən yüksək qiymətləndirilir. Bu həm də dövlət idarəçiliyinin yenilənməsi və korrupsiyaya qarşı mübarizəni uğurla aparmaq üçün mövcud qətiyyət və möhkəm siyasi iradə ilə bağlıdır.

Azərbaycan Respublikası Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik etdiyi dövrdə də korrupsiyaya qarşı mübarizəni prioritet elan etmiş və beynəlxalq səviyyədə bu problemlə ciddi məşğul olmaq əzmini göstərmişdir. Ölkəmiz bu sahədə bütün beynəlxalq təşəbbüslərin aktiv iştirakçısıdır. Azərbaycan BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına ilk qoşulan dövlətlərdən biridir.

Şəffaflıq, açıq hökumət prinsipləri, «Elektron hökumət», innovativ yanaşma dövlət siyasətimizin prioritet istiqamətlərindəndir. Dövlət xidmətlərinin göstərilməsində tətbiq etdiyimiz, korrupsiyanı tam istisna edən xidmət modeli digər ölkələr üçün də uğurlu nümunə ola bilər.

Korrupsiyaya qarşı mübarizənin səmərəli olması üçün təhsil və təlim daim diqqətdə saxlanılmalı, yaxşı təcrübələr mütəmadi mübadilə edilməlidir. Beynəlxalq Antikorrupsiya Akademiyası

bu sahəyə aktiv töhfə verən yeni beynəlxalq təşkilatdır. Bu fəaliyyət üzv dövlətlər tərəfindən dəstəklənməlidir.

Əminəm ki, assambleya bu sahədə yeni təşəbbüslərin və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi üçün yeni imkanlar açacaqdır.

Sizi bir daha təbrik edir, assambleyanin işinə uğurlar arzulayıram!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 noyabr 2014-cü il*

**LİVAN RESPUBLİKASI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TAMMAM SALAMA**

Hörmətli cənab Sədr!

Livan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Livan xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 noyabr 2014-cü il*

**RUMINİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KLAUS İOHANNİSƏ**

Hörmətli cənab İohannis!

Rumıniyanın Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan və Rumıniyanı möhkəm dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri birləşdirir. Bu gün bu münasibətlər dinamik və hərtərəfli inkişaf edərək, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Ümidvaram ki, xalqlarımızın rifahı naminə istər ikitərəfli qaydada, istərsə də regional və beynəlxalq qurumlar çərçivəsində qarşılıqlı etimada və dəstəyə əsaslanan əməkdaşlığımızı daha da genişləndirmək üçün birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Rumıniya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 noyabr 2014-cü il*

## İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ ÖLKƏMİZƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ NASSAR ƏL-HABAŞNEH İLƏ GÖRÜŞ

*19 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da İordaniya Haşimilər Krallığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Nassar əl-Habaşnehin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Nassar əl-Habaşneh Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Nassar əl-Habaşneh etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Nassar əl-Habaşneh İordaniya kralı II Abdullahın salamlarını dövlətimizin başçısına çatdırdı. O, ikitərəfli əlaqələrimizin möhkəmləndirilməsində Azərbaycan prezidenti İlham Əliyevlə İordaniya kralı II Abdullah arasında mövcud olan dostluq münasibətlərinin önəmini vurğuladı. İordaniyalı diplomat ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.*

*İordaniya Kralı ilə yaxşı dostluq münasibətlərinin olduğunu vurğulayan dövlətimizin başçısı İlham Əliyev II Abdullah ilə Azərbaycanda, İordaniyada və müxtəlif beynəlxalq sammitlərdə, konfranslarda görüşlərini məmnunluqla xatırlatdı. Azərbaycan ilə İordaniya arasında ikitərəfli münasibətlərin yaxşı səviyyədə olduğunu deyən prezident İlham Əliyev əlaqələrimizin daha da inkişaf etdirilməsinin vacibliyini vurğuladı. Dövlətimizin başçısı ölkələrimizin BMT-də və digər beynəlxalq təşkilatlarda bir-birini dəstəkləməsinin önəmini qeyd etdi.*

*Prezident İlham Əliyev II Abdullahın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniyanın Kralına çatdırmağı xahiş etdi.*

## BEYNƏLXALQ OLİMPİYA VƏ AVROPA OLİMPİYA KOMİTƏLƏRİNİN PREZİDENTLƏRİ TOMAS BAX VƏ PATRİK HİKKİ İLƏ GÖRÜŞ

*20 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxı və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini qəbul etmişdir.*

*Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax Azərbaycanda həyata keçirilən böyük inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi və əldə olunan uğurlar münasibətilə dövlətimizin başçısını təbrik etdi.*

*Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyasının Bakıda keçirilməsini əhəmiyyətli hadisə kimi dəyərləndirən dövlətimizin başçısı ölkəmizin belə bir tədbirə ev sahibliyi etməsindən məmnun olduğunu dedi. Prezident İlham Əliyev qonaqların ölkəmizlə yaxından tanış olması üçün bu cür tədbirlərin yaxşı fürsət yaratdığını bildirdi. Bir sıra beynəlxalq tədbirlərin təşkilində ölkəmizin yaxşı təcrübəyə malik olduğunu vurğulayan dövlətimizin başçısı I Avropa oyunlarının da uğurla keçiriləcəyinə əminliyini ifadə etdi.*

*Görüşdə Azərbaycanda idmanın inkişafına dövlət səviyyəsində göstərilən diqqətin önəmi qeyd olundu, ölkəmizin bu sahədə beynəlxalq əməkdaşlığa verdiyi töhfədən danışıldı, Bakıda keçiriləcək I Avropa oyunlarına yüksək səviyyədə hazırlıq işlərinin görülməsindən məmnunluq ifadə olundu.*

*Sonra Tomas Bax Beynəlxalq Olimpiya Komitəsi tərəfindən dövlət başçıları üçün hazırlanmış Xatirə medalını prezident*

İlham Əliyevə təqdim etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu Xatirə medalının təqdim olunduğu ilk dövlət başçılarından biridir.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından noyabrın 20-də Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxın və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin şərəfinə ziyafət verildi.

## AVROPA OLİMPİYA KOMİTƏSİNİN BAKIDA KEÇİRİLƏN 43-cü BAŞ ASSAMBLEYASININ RƏSMİ AÇILIŞI MƏRASİMİ

*21 noyabr 2014-cü il*

*Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyası noyabrın 21-də Bakıda işə başlamışdır.*

*İki gün davam edəcək tədbirin rəsmi açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak etmişlər.*

*Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyası qarşıdakı dövrdə həllini gözləyən bir çox məsələlərin müzakirə olunması və həyata keçirilməsi baxımından mühüm tədbirdir. Avropa ölkələrinin milli olimpiya komitələrinin nümayəndə heyətlərinin, beynəlxalq idman qurumlarının rəhbərlərinin iştirak etdikləri assambleyada «Olimpiya oyunları», «Marketinq və rabitə», «İdman hamı üçün», «Olimpiya mədəniyyəti və irsi», «Tibb və antidopinq», «İdmanda gender bərabərliyi» və digər mövzularda hesabat məruzələri, o cümlədən ilk Avropa oyunları barədə məlumat və «Bakı–2015» Əməliyyat Komitəsinin hesabatı da dinləniləcək. 2016-cı il Yay Olimpiya, XXIII Qış Olimpiya oyunlarına və Avropa Yeniyetmələrinin Olimpiya Festivalına hazırlıq işlərinin gedişi ilə bağlı hesabatlar da assambleyanın gündəliyinə daxildir.*

*Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladılar.*

*Dövlətimizin başçısı və xanımı Avropa Olimpiya Komitəsinin rəhbər heyəti ilə görüşdülər.*

*Azərbaycan prezidenti İlham Əliyev Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyasında çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti cənab Tomass Bax!

Beynəlxalq Olimpiya Komitəsinin Fəxri prezidenti cənab Jak Roqq!

Avropa Olimpiya Komitəsinin prezidenti cənab Patrik Hikki!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Əvvəlcə sizin hamınızı Azərbaycanda salamlamaq istəyirəm. Avropa Olimpiya Komitəsinin Baş Assambleyasının toplantısını Bakıda qəbul etməkdən böyük şərəf hissi duyuruq.

Azərbaycan qədim tarixi, adət-ənənələri və mədəniyyəti ilə seçilən ölkədir. Əminəm ki, qonaqlarımız – bilirəm, onların əksəriyyəti ölkəmizə ilk dəfədir səfər edir – Azərbaycanı daha yaxşı tanımaq, tarixi yerlərimizi ziyarət etmək imkanını əldə edəcəklər. Yeri gəlmişkən, onlardan bəziləri YUNESKO tərəfindən qorunur və dünya mədəni irsinin bir hissəsidir.

Bununla belə, Azərbaycan müstəqil ölkə kimi gəncdir. Müstəqilliyimizin cəmi 23 yaşı var. Əlbəttə, müstəqilliyimizin ilk illərində əsas prioritet müstəqil ölkəni qurmaq, dövlətçiliyimizi və müstəqilliyimizi möhkəmləndirmək və siyasi təsisatları yaratmaq idi.

Avropa Olimpiya Komitəsinə üzv olmaq qərarı bu Komitə tərəfindən çox müsbət qarşılandı və prioritetlərimizi nümayiş etdirdi. Avropa olimpiya ailəsinə üzv olduqdan sonra Azərbaycan Avropa təsisatlarına daha sürətlə inteqrasiya etməyə başladı. Siyasi sistemimiz Avropanın siyasi sisteminin modelidir. Çünki bildiyiniz kimi, müstəqilliyimizi bərpa etdiyimiz vaxt müstəqil siyasi sistem, ümumiyyətlə, mövcud deyildi. Biz uğurları qazanmaq, müstəqillik fürsətini qaçırmamaq üçün müstəqil dövlət qurmalı, siyasi təsisatları yaratmalı, o cümlədən güclü iqtisadiyyatı formalaşdırmalı idik.

Bu baxımdan Avropa olimpiya ailəsinin hissəsi olmaq, həmçinin bizə Avropa təsisatlarına fəal şəkildə inteqrasiya imkanını yaratdı. Yeri gəlmişkən, Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsindəki sədrliyi bir həftə öncə başa çatıb. Sədrliyimiz çox uğurla keçdi. Əlbəttə ki, 2001-ci ildə reallaşmış Avropa Şurasına üzvlük bizə islahatları davam etdirmək və Avropa dəyərlərini ölkəmizdə təşviq etmək imkanını yaratdı. Siyasi islahatlar Azərbaycan üçün əsas prioritetlərdən biridir. Güclü demokratik təsisatların qurulması bizim üçün uğur şərtidir, çünki bizim bu gün güclü iqtisadiyyatımız var. Lakin möhkəm siyasi sistem olmadan inkişafımız görmək istədiyimiz qədər sürətli ola bilməzdi.

Bir sözlə, demokratiyanın və əsas azadlıqların təşviqi bizim üçün prioritetdir. Azərbaycanda bütün əsas azadlıqlar təmin edilib. Mətbuat azadlığı, azad internet var. Vətəndaşlarımızın 70 faizdən çoxu fəal internet istifadəçisidir. Toplaşmaq, təşkilatlanmaq azadlığı tam təmin edilib. Azərbaycanda 500-dən çox mətbu orqan fəaliyyət göstərir. Dini azadlıq tam təmin edilib. Ölkəmiz hazırda dünyada multikulturalizmin əsas mərkəzlərindən biri hesab olunur. Bir çox beynəlxalq tədbirlərin keçirilməsi və həmin mühüm məsələlərin müzakirəsi ümumi əməkdaşlıq amalına və dinlərarası dialoqa verilən töhfədir.

Eyni zamanda, biz müasir, özünü təmin edən iqtisadiyyatın qurulması üçün ürəkdən çalışırıq. Bu səbəbdən, iqtisadi islahatlar gündəliyimizdə olan məsələdir. Son 10 il ərzində Azərbaycan iqtisadiyyatı dünyada ən sürətlə artan iqtisadiyyat olub. Ümumi daxili məhsulumuz 3 dəfədən çox, büdcə xərclərimiz isə 20 dəfədən çox artıb. Biz yoxsulluğun səviyyəsini 49 faizdən 5 faizə qədər azalda bildik. İşsizlik isə 5 faizdən aşağıdır. Maliyyə vəziyyətimiz çox sabitdir. Xarici borc ümumi daxili məhsulun yalnız 8 faizini təşkil edir. İqtisadi islahatlarımız, həmçinin beynəlxalq maliyyə təsisatları tərəfindən xüsusi olaraq qeyd edilir. Yeri gəlmişkən, Davos Dünya İqtisadi Forumu qlobal rəqabətədavamlılıq baxımından ölkəmizi 38-ci yerdə qərarlaşdırıb. Bu səbəbdən, iqtisadi inkişafımızın aparıcı qüvvəsi, əlbəttə ki, islahatlar oldu.

Eyni zamanda, Azərbaycan zəngin təbii ehtiyatlara malik olan ölkədir. Təbii ehtiyatlardan səmərəli istifadə, milli ehtiyatların insan kapitalına çevrilməsi, həmçinin bizim üçün prioritet oldu. Gələcəyə sərmayə, təhsil, sosial problemlərin həlli və infrastrukturun yaradılması bizə iqtisadiyyatımızı şaxələndirməyə imkan verdi.

Beləliklə, enerji təhlükəsizliyi məsələlərinə gəldikdə, Azərbaycan bu gün Avropanın çox mühüm tərəfdaşıdır. Avropa İttifaqı ilə imzaladığımız sənədlər aydın göstərir ki, Azərbaycan «Cənub Qaz Dəhlizi»ni təşviq və təchiz edən, eləcə də inşasını başladan tərəfdir. Əslində biz «Cənub Qaz Dəhlizi»nin çəkilməsini başladan ölkə olduq. Təməlqoyma mərasimi avropalı həmkarlarımın geniş iştirakı ilə Bakıda 2 ay öncə, sentyabrın 20-də təşkil edilmişdir.

Bir sözlə, enerji təhlükəsizliyi və şaxələndirilməsi, əlbəttə ki, Avropa təsisatları ilə gələcək münasibətlərimizdə əsas rol oynayacaq. Avropa İttifaqı ilə əlaqələrimizi ortaq dəyərlərə, qarşılıqlı hörmətə və marağa əsaslanan, proqnozlaşdırılan, çox güclü əlaqələr hesab edirik. Buna görə fikrimizcə, bu münasibətlər sivilizasiyaların dialoqunda mühüm rol oynaya bilər. Çünki bu, coğrafi mövqemiz, tariximiz və irsimizdən gəlir. Azərbaycan coğrafi baxımdan Avropa ilə Asiya arasında yerləşir. Mədəniyyət, çoxmədəniyyətli və çoxkonfessiyalı cəmiyyət baxımından Azərbaycan sivilizasiyalar dialoqunda mühüm rol oynayır.

Biz Avropa təsisatlarının üzvüyük. Eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının da üzvüyük. Əslində dünyada nadir ölkələrdən biriyik ki, 200-dən artıq ölkəni əhatə edən hər iki təşkilatın üzvüyük. Avropa ilə münasibətlərimiz sırf enerji təhlükəsizliyi ilə bağlı deyil. Əməkdaşlığımızın daha geniş əhatə dairəsi var. Hesab edirəm ki, bu əlaqələr, artıq qeyd etdiyim kimi, regionumuzda, Avropa və Asiyada sabitliyin, proqnozlaşdırmanın və əməkdaşlığın gücləndirilməsində çox mühüm rol oynaya bilər. Bizim buna ehtiyacımız var. Bizə potensial riskləri azaltmaq üçün əməkdaşlıq lazımdır. Əfsuslar olsun, risklər burada hələ ki, mövcuddur, qapının kandarındadır.

Azərbaycan, həmçinin beynəlxalq ictimaiyyətin fəal üzvüdür. Cəmi 23 ildir ki, müstəqil ölkə və BMT-nin üzvü olmağımıza baxmayaraq, ölkəmiz açıq, mehriban, etibarlı tərəfdaş olduğunu nümayiş etdirə bildi. Bu səbəbdən Azərbaycan 155 ölkənin dəstəyi və səsi ilə BMT Təhlükəsizlik Şurasının 2012–2013-cü illər üçün qeyri-daimi üzvü seçildi. 2 il ərzində biz dünyanın bir nömrəli beynəlxalq qurumunun üzvü olduq. Təhlükəsizlik Şurasına 2 dəfə sədrlik etmişik. Bu, beynəlxalq ictimaiyyətin əksər hissəsinin bizə, siyasətimizə verdiyi hərtərəfli dəstəyin göstəricisidir. Siyasətimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır, əməkdaşlığın genişləndirilməsini və potensial risklərin azaldılmasını nəzərdə tutur. BMT Təhlükəsizlik Şurasının üzvü olmaq Azərbaycanın beynəlxalq səhnədə ən böyük diplomatik və siyasi qələbəsi idi. Əslində bu göstərir ki, ölkə daxilində atdığımız addımlar, qonşularımıza və tərəfdaşlarımıza aid siyasətimiz dünyada yüksək qiymətləndirilir. Bu gün dünya daha çox əməkdaşlığa və anlaşmaya, eləcə də mövcud və potensial təhlükələrin azaldılmasına ehtiyac duyur.

Əlbəttə, Azərbaycan haqqında çox söz söyləyə bilərəm. Lakin bilirəm ki, vaxt məhduddur və daha çox idman və olimpiya hərəkatının inkişafı sahəsindəki siyasətimiz haqqında danışmaq istərdim. Bu, Azərbaycan üçün prioritetlərdən biridir. Biz olimpiya dəyərlərinin təşviqi üçün çox işlər görürük. Bunlar dostluq, sülh və əməkdaşlıq dəyərləridir. Eyni zamanda, biz praktiki olaraq, müasir idman infrastrukturunun yaradılmasına böyük sərmayələr qoyuruq. Son 10–15 il ərzində Azərbaycanda 50-dən artıq müasir Olimpiya Mərkəzi tikilib. Yeri gəlmişkən, ilk Olimpiya İdman Mərkəzi Azərbaycanda 2000-ci ildə tikilmişdir və Beynəlxalq Olimpiya Komitəsinin Fəxri prezidenti, o vaxt Avropa Olimpiya Komitəsinin prezidenti cənab Jak Roqq həmin ilk idman mərkəzinin açılışı mərasimində iştirak etmişdir.

Həmin vaxtdan etibarən bu ənənə davam edir. Avropa Olimpiya Komitəsinin indiki prezidenti, əziz dostumuz cənab Patrik Hikki isə 2006-cı ildə ölkəmizin cənub bölgəsində yerləşən şəhərlərimizdən birində Olimpiya İdman Mərkəzinin açılışında

iştirak etmişdir. İdman infrastrukturuna qoyulan sərmayələr atletlərimizin nəticələrində əks olunub. Fərəhlənirik ki, Azərbaycan idmançıları ölkəmizi beynəlxalq səhnədə layiqincə təmsil edirlər. Londonda keçirilmiş son Olimpiya oyunlarında idmançılarımız 10 medal qazanıblar. Onlardan 2-si qızıldır. Ölkəmiz bütün iştirakçılar sırasında 30-cu, Avropa ölkələri arasında isə 15-ci oldu.

Bu il Nankində Yeniyetmələrin Olimpiya oyunlarında gənc idmançılarımız təxminən 200 ölkə sırasında 10-cu yeri tutmuşlar. Bu, müstəqilliyini yalnız 23 il öncə qazanan, əhalisi o qədər də çox olmayan ölkə üçün tarixi nailiyyətdir. 10-cu yer o deməkdir ki, biz dünyanın aparıcı idman ölkələri sırasındayıq. Bu, Azərbaycanda idmanın təşviqi, lazımi infrastrukturun qurulmasının bariz nümunəsidir. London və Nankində medal qazanmış bütün atletlər müstəqillik illərində formalaşmış idmançılardır. Müstəqillik bizim üçün ən böyük dəyərdir. Bu gün Azərbaycan xalqı nəinki müstəqil olmaqdan, həmçinin BMT-də bayrağını qaldırmaqdan fərəhlənir. Fərəhlənir ki, bu müstəqillik ölkəyə uğurlar, sosial rifah və xalqımıza çiçəklənmə gətirdi.

Bizim Avropa və dünya çempionatlarının keçirilməsində təcrübəmiz var. Bu tədbirlər Azərbaycanda dəfələrlə keçirilib. Lakin gələn il keçiriləcək Avropa oyunları bizim üçün ən yüksək səviyyəli idman hadisəsinə çevriləcək. Fərəhlənirik ki, ilk Avropa oyunları məhz Azərbaycanda keçiriləcək. Fürsətdən istifadə edərək, Avropa Olimpiya Komitəsinin Baş Assambleyasına qəbul etdiyi bu qərara görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Deyə bilərəm ki, biz sizi sevindirəcəyik və bu oyunların ən yüksək səviyyədə hazırlanması və keçirilməsi üçün əlimizdən gələni edəcəyik. Baxmayaraq ki, vaxtımız azdır. Hazırlıqlar üçün cəmi 2 il yarım vaxt ayrılmışdır. Lakin xoşbəxtlikdən əvvəlki illərdə idman infrastrukturuna qoyulmuş sərmayələr bir neçə ay ərzində hazır olmaq imkanı yaratdı. Əlbəttə, bu, Avropada və bütün dünyada nadir hadisə olacaq.

Hesab edirəm ki, biz bu oyunların keçirilməsində standartları müəyyən edəcəyik. Yəqin bilirsiniz ki, oyunlarda 20 idman növü

üzrə 6 mindən çox idmançı iştirak edəcək. 2016-cı ildə biz Dünya Şahmat Olimpiadasını, 2017-ci ildə isə İslam Həmrəyliyi oyunlarını keçirəcəyik. Bu da çox rəmzidir. Eyni ölkədə, eyni şəhərdə 2 ildə siz Avropa oyunlarını, sonra isə İslam Həmrəyliyi oyunlarını seyr edəcəksiniz. Bu, Azərbaycanın bugünkü reallığını əks etdirir. Ölkəmiz müasir və dinamikdir, əməkdaşlığa açıqdır, sivilizasiyaların və qitələrin kəsişməsində yerləşir, yaxşı potensiala, güclü dəstəyə və gələcək üçün aydın planlara malikdir.

Əminəm ki, qonaqlarımızın Azərbaycanı daha yaxşı tanımaq imkanı olacaq. Mən Sizə uğurlar arzulayıram və bu gün bizimlə olduğunuza görə minnətdaram.

Sağ olun.

* * *

**T o m a s  B a x** (*Beynəlxalq Olimpiya Komitəsinin prezidenti)*: Cənab Prezident!

Hörmətli birinci xanım Mehriban Əliyeva!

Avropa Olimpiya Komitəsinin prezidenti!

Milli olimpiya komitələrinin prezidentləri!

Hörmətli həmkarlar!

Həqiqətən də yenidən burada olmaqdan, bu assambleyanın işində iştirak etməkdən çox məmnunam. Azərbaycan artıq mənim üçün doğma bir məkana çevrilib.

Uzun illərdir ki, sizinlə bir arada olmaqdan, Avropa Olimpiya Komitəsinin Baş Assambleyasının iclaslarında iştirak etməkdən məmnun olduğumu bir daha dilə gətirmək istəyirəm. Bir neçə həftə bundan əvvəl biz Banqkokda milli olimpiya komitələrinin iştirakı ilə Baş Assambleyanın illik toplantısını keçirdik. İndi isə Azərbaycanda görüşürük. Mən Azərbaycan Respublikasının Prezidentini və birinci xanımını bir daha salamlamaqdan məmnunam.

Cənab Prezident, mən səmimi-qəlbdən təbriklərimi Sizə çatdırmaq istəyirəm. Mən bu təbriklərlə Sizin ölkənizdə idmanın, təhsilin, təbii ki, Azərbaycan cəmiyyətinin inkişafına göstərdiyiniz diqqət və qayğını, verdiyiniz töhfələri təqdir edirəm. Zənnimcə,

burada bütün tərəflər uğur qazanır. İdmana yatırılan sərmayə sadəcə, infrastrukturun yaradılması ilə kifayətlənmir. Bu sərmayə təbii ki, təhsilin də inkişafında mühüm rol oynayır. Sizin gördüyünüz işlər, töhfələriniz bütünlüklə cəmiyyətin inkişafına, təhsil sisteminin daha da təkmilləşməsinə, daha səmərəli olmasına müsbət təsir göstərməklə yanaşı, idmançıların beynəlxalq yarışlarda uğur qazanmalarına və dünya səviyyəsində Azərbaycanın imicinin möhkəmlənməsinə səbəb olur. Bütün bunların nəticəsidir ki, Azərbaycan idmançıları beynəlxalq yarışlarda çoxlu sayda medallar qazanırlar.

Gələn il Azərbaycanda ilk Avropa oyunları keçiriləcək. Burada gördüklərimizdən hamımız yekdilliklə belə bir qənaətə gələ bilərik ki, bu oyunlar müvəffəqiyyətlə keçiriləcək. İlk Avropa oyunları gələcək yarışlar üçün böyük bir uğur hekayəsi olacaq. Biz idmançıların, atletlərin Avropa oyunlarında çox möhtəşəm nəticələr göstərəcəklərinə əminik.

Həmçinin biz Azərbaycanın birinci xanımı, Təşkilat Komitəsinin rəhbəri Mehriban Əliyevaya minnətdarlığımızı bildiririk. Dünən biz öyrəndik ki, Avropa oyunları ilə əlaqədar kifayət qədər zəngin mədəni tədbirlər proqramı da hazırlanıb və həyata keçiriləcək. Obrazlı şəkildə desək, bu da bizim hamımıza çox qeyri-adi, nadir bir zövq verəcək. Mən inanıram ki, idmanla mədəniyyət tədbirlərinin vəhdəti çox maraqlı olacaq. Bu maraqlı təşəbbüslərə və göstərdiyi səylərə görə xanım Mehriban Əliyevaya dərin minnətdarlığımızı bildiririk.

Təbii ki, biz Baş Assambleyada bu yaxınlarda BMT tərəfindən qəbul olunmuş davamlı inkişaf məqsədlərinə dair qətnaməni də ətraflı müzakirə edəcəyik. Əlbəttə, Azərbaycanın, Azərbaycan hökumətinin idmanın yüksəlişinə dəstəyinin BMT-nin inkişaf məqsədlərinə daxil edilməsi ilə bağlı məsələlər də müzakirə olunacaq.

Cənab prezident İlham Əliyev, göstərdiyiniz qətiyyətə, yüksək iradəyə və dünənki görüşümüzə görə Sizə bir daha minnətdarlığımı bildirirəm.

Avropa idmanına gəldikdə isə, biz artıq uğurlu bir ilin sonuna çatmışıq. Bildiyiniz kimi, ilin əvvəlində Soçidə çox mükəmməl Qış Olimpiya oyunları keçirildi. Qeyd etməliyəm ki, Soçi Olimpiadası keyfiyyət baxımından əvvəlki Qış Olimpiya oyunlarını üstələdi. Bundan sonra Braziliyada futbol üzrə dünya çempionatı keçirildi. Amerika qitəsində keçirilən bu çempionatda dünya kubokunu, səhv etmirəmsə, Avropa komandası qazandı. Bayaqkı təbriklərinizə görə minnətdarlığımızı bildiririk.

İdman aləmində uğurlarla zəngin olan daha bir ilimiz başa çatmaq üzrədir. Biz qarşıdan gələn ildə keçiriləcək Avropa oyunlarından da qələbələr gözləyirik.

Siz doğru qeyd etdiniz, gələn ilin birinci yarısında Avstriyada və Lixtenşteyndə Avropa Yeniyetmələrinin Qış Olimpiya Festivalı, ilk Avropa oyunları isə məhz burada, Bakıda keçiriləcəkdir. Ondan sonra növbəti gənclər festivalı Gürcüstanın paytaxtı Tbilisidə təşkil olunacaq. Gələn il də, sözün əsl mənasında, gərgin qrafiki ilə seçiləcək bir idman ili olacaq. Ümidvaram ki, bu idman yarışları uğurla keçiriləcəkdir. İnanıram ki, 2016-cı ildə Rio-de-Janeyroda keçiriləcək Yay Olimpiya oyunlarına idmançıları yüksək səviyyədə hazırlaşdıra biləcəksiniz. Çünki kifayət qədər vaxtınız var. Ümid edirəm ki, həmçinin «Olimpiya–2020»nin proqramını da ərsəyə gətirə biləcəksiniz. Biz buna inanırıq. 2 həftədən sonra Beynəlxalq Olimpiya Komitəsinin Monte-Karloda keçiriləcək fövqəladə iclasında «Olimpiya–2020»nin proqramının təsdiq olunması gözlənilir. Beləliklə, bizim 43-cü Baş Assambleyada çox məhsuldar və çox maraqlı keçəcək müzakirələrdə sizin hamınıza uğurlar diləyirəm.

Ümid edirəm ki, bu il olduğu kimi, gələn il də idman yarışlarından kifayət qədər zövq alacaqsınız. Qarşıdan gələn 2015-ci ilin Avropa üçün çox uğurlu bir idman ili olacağına inanır və sizin hamınıza uğurlar diləyirəm.

Ölkənizdə idmanla, gənclərlə bağlı görəcəyiniz bütün işlərdə, irəli sürəcəyiniz təşəbbüslərdə sizin hamınıza bəri başdan uğurlar arzu edirəm. Sağ olun.

**P a t r i k   H i k k i** (*Avropa Olimpiya Komitəsinin prezidenti*): Zati-aliləri cənab prezident İlham Əliyev!

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva!

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax!

Əziz dostlar!

Böyük iftixar hissi ilə bir daha Bakıya gəlməkdən məmnunluğumu ifadə edirəm. Cənab prezident İlham Əliyev, Mehriban xanım Əliyeva, məni və həmkarlarımı belə səmimiyyətlə qarşıladığınıza görə minnətdarlığımı bildirirəm. Mən dəfələrlə Bakıda olmuşam və hər dəfə buraya gələndə sanki öz doğma evimə gəldiyimi hiss edirəm. «Eurovision» hamımızı ruhlandırıb.

Cənab prezident Əliyev, Azərbaycan Milli Olimpiya Komitəsinin rəhbəri kimi, Sizə minnətdarlığımı bildirirəm. Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyasını gözəl, füsunkar Bakı şəhərində mükəmməl səviyyədə təşkil etdiyinizə görə minnətdaram. Bu təbii ki, ən yüksək standartlara cavab verir. Mən bunu gələn il «Bakı–2015» ilk Avropa oyunlarında da görəcəyimizə inanıram.

Azərbaycanın birinci xanımı, Təşkilat Komitəsinin rəhbəri Mehriban Əliyeva, bu gün bu tədbirdə iştirakınıza görə Sizə öz minnətdarlığımızı bildiririk.

Hörmətli əziz dostlar, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxın burada olması məni xüsusilə məmnun edir. Biz çox şadıq ki, siz çox gərgin iş qrafikinizdə vaxt tapıb Avropa Olimpiya Komitəsinin Baş Assambleyasına təşrif buyurmusunuz. Sizin hamınızdan cənab Tomas Baxı Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyasına gəldiyinə görə sürəkli alqışlamağı xahiş edirəm.

Ümid edirəm, hamınız Bakıda olacağınız müddətdən zövq alacaqsınız. Bakı çox füsunkar və ecazkar bir şəhərdir. Burada əvvəl olmayanlar da əminəm, bu səfərdən sonra yekdilliklə söyləyəcəklər ki, Bakı həqiqətən də gələn il ilk Avropa oyunlarını çox mükəmməl səviyyədə, layiqincə keçirəcək. Azərbaycanın ev

sahibliyi əminəm ki, ürəyinizcə olacaq. Amma çox da arxayın olmamalıyıq, çünki görəcəyimiz işlər də var.

Baş Assambleyanın toplantısı olimpiya hərəkatında çox mühüm bir məqama təsadüf edir. Məhz 14 aydır ki, Tomas Bax Beynəlxalq Olimpiya Komitəsinin prezidenti seçilib və indi biz artıq onun rəhbərliyi ilə çox mühüm tarixi bir məqama çatırıq – 2020-ci ildə keçiriləcək Olimpiya oyunlarının proqramı tezliklə müəyyənləşdiriləcək. Cənab prezident Tomas Bax, biz, Avropa Olimpiya Komitəsinin rəhbərləri Sizi dəstəkləyirik. Gəlin öz işimizə başlayaq və 43-cü Baş Assambleyada atacağımız mühüm addımlarla Avropa Olimpiya Komitəsinin zəngin tarixinə öz töhfəmizi verək. Təşəkkür edirəm.

* * *

*Sonra Patrik Hikki Avropa Olimpiya Komitəsinin xatirə hədiyyələrini prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya, idman karyerası ərzində bir çox uğurlara nail olan, dünyada idmanın inkişafında mühüm xidmətlər göstərən, olimpiya ideallarına sadiqliyi ilə seçilən Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxa isə Avropa Olimpiya Komitəsinin «Şöhrət» medalını təqdim etdi.*

*Bununla da Baş Assambleyanın rəsmi hissəsi başa çatdı.*

## BOLQARISTAN RESPUBLİKASININ VİTSE-PREZİDENTİ MARQARİTA POPOVA İLƏ GÖRÜŞ

*21 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Beynəlxalq Antikorrupsiya Akademiyasına üzv dövlətlərin assambleyasının 3-cü sessiyasının işində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikasının vitse-prezidenti xanım Marqarita Popovanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi, əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı.*

*Bolqarıstan Respublikasının vitse-prezidenti xanım Marqarita Popova Beynəlxalq Antikorrupsiya Akademiyasına üzv dövlətlərin Assambleyasının 3-cü sessiyasının yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirdi. O, Azərbaycan Prezidentinin konfransa ünvanladığı müraciətin əhəmiyyətini xüsusi vurğuladı.*

*Söhbət zamanı Beynəlxalq Antikorrupsiya Akademiyasına üzv dövlətlərin Assambleyasının 3-cü sessiyasının Bakıda keçirilməsinin önəmi qeyd olundu, sessiyada müzakirə edilən məsələlərin bu sahədə qarşılıqlı təcrübə mübadiləsinin aparılması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

# AVROPA OLİMPİYA KOMİTƏSİNİN 43-cü BAŞ ASSAMBLEYASININ İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*21 noyabr 2014-cü il*

*Heydər Əliyev Mərkəzində «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsi tərəfindən noyabrın 21-də Bakıda keçirilən Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyasının iştirakçılarının şərəfinə ziyafət verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Heydər Əliyev Mərkəzinə gəldilər. Dövlətimizin başçısı və xanımı Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki ilə görüşdülər.*

*Sonra qonaqlar Heydər Əliyev Mərkəzi ilə tanış oldular. Məlumat verildi ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan bu Mərkəz dünya memarlığının nadir incilərindəndir. Fəaliyyətə başladığı vaxtdan Heydər Əliyev Mərkəzi Bakıda keçirilən çoxsaylı beynəlxalq tədbirlərə ev sahibliyi edib. Qonaqlara Mərkəzdəki Heydər Əliyev Muzeyinin fəaliyyəti barədə də məlumat verildi. Bildirildi ki, bu muzey 2013-cü ildə fəaliyyətə başlayıb. Ulu öndərin həyat və fəaliyyətinin müxtəlif məqamlarının əks olunduğu muzeydə ona aid fotoşəkillər, sənədlər və əşyalarla yanaşı, vaxtilə istifadəsində olan avtomobillər də saxlanılır. O da qeyd olundu ki, Heydər Əliyev Mərkəzi Azərbaycan tarixini, adət-ənənələrini öyrənmək və təbliğ etmək istiqamətində bir sıra layihələr həyata keçirir. Bu baxımdan Mərkəzdə təşkil olunan sərgi zallarında Azərbaycan tarixini və mədəniyyətini əks etdirən*

ekspozisiyalar təqdim olunur, bu da ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsinə dair nadir məlumatlar verir.

Qonaqlar «Mini-Azərbaycan» sərgi zalında da oldular. Bildirildi ki, bu layihə paytaxt Bakı və regionlardakı tarixi memarlıq abidələrinin tanıdılması baxımından xüsusi önəm kəsb edir. Hazırda sərgidə onlarla tarixi binanın və memarlıq nümunəsinin maketi təqdim edilir. Ziyarətçilərə hər bir bina, onun memarlıq üslubu haqqında məlumatlar, maraqlı faktlar çatdırılır.

Daha sonra «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsi tərəfindən Avropa Olimpiya Komitəsinin Bakıda keçirilən 43-cü Baş Assambleyasının iştirakçılarının şərəfinə verilən ziyafət mərasimi başlandı.

Əvvəlcə Bakıda keçiriləcək ilk Avropa oyunları ilə bağlı videotəqdimat oldu.

Avropa Olimpiya Komitəsinin nümayəndəsi Con Tibbs prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyasının yüksək səviyyədə təşkil olunmasına görə bir daha minnətdarlığını bildirdi. Qeyd etdi ki, bugünkü mərasimin əhəmiyyətini artıran mühüm amillərdən biri də burada Avropanın ən yaxşı atletlərinə «Pyotr Nurovski» mükafatının təqdim olunmasıdır. Con Tibbs vurğuladı ki, Avropa Olimpiya Komitəsi İcraiyyə Komitəsinin sabiq üzvü, Polşa Olimpiya Komitəsinin prezidenti vəzifəsində çalışmış mərhum Pyotr Nurovskinin xatirəsinin əbədiləşdirilməsi üçün təsis olunan bu mükafat idmançıların qazandığı uğurların yüksək səviyyədə tanınmasına xidmət edir, atletlərə daha güclü rəqabət aparmaq üçün stimul verir.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki də çıxışında idmançılara uğurlar arzuladı. Bildirdi ki, bu mükafat idmançıları daha yüksək nailiyyətlər qazanmağa həvəsləndirir. Bununla belə, gənc nəsli olimpiya dəyərləri və prinsipləri əsasında daha sağlam həyat tərzi keçirməyə dəvət edir.

Sonra Avropa Olimpiya Komitəsinin «Pyotr Nurovski» mükafatının verilməsi mərasimi başlandı. İtaliyadan olan üzgüçü

Simone Sabioni 5 idmançı arasından Avropanın ən yaxşı atleti seçilərək «Pyotr Nurovski» mükafatının qalibi elan olundu. Qalan idmançılara da Avropa Olimpiya Komitəsinin mükafatları təqdim edildi. Müxtəlif ölkələrin milli olimpiya komitələrinin nümayəndələri qalib idmançıları təbrik edərək, onlara yeni müvəffəqiyyətlər arzuladılar.

Xatirə şəkli çəkdirildikdən sonra tədbir ziyafət mərasimi və konsert proqramı ilə davam etdirildi.

## BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB MLADEN İVANİÇƏ

Hörmətli cənab Sədr!

Bosniya və Herseqovinanın milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Bosniya və Herseqovina arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı və möhkəmləndirilməsi yolunda birgə səylərimizi davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, Bosniya və Herseqovinanın dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2014-cü il*

## «XXI ƏSRDƏ SƏNAYELƏŞMƏ: SƏNAYE SİYASƏTİNDƏ ƏSAS TRENDLƏR, MÜASİR YANAŞMA VƏ TƏCRÜBƏLƏR» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi salamlayır və «XXI əsrdə sənayeləşmə: sənaye siyasətində əsas trendlər, müasir yanaşma və təcrübələr» Beynəlxalq Konfransının öz işinə başlaması münasibətilə təbrik edirəm.

Hazırkı dövrdə sənaye siyasəti rəqabətqabliyyətlilik, səmərəlilik və ekoloji təhlükəsizlik meyarlarına uyğun yüksək texnologiyaların tətbiqinə yönəlməli, elmi araşdırmalarla üzvi surətdə bağlı olmalı, müasir çağırışlara cavab verməli və yeni yanaşmalara əsaslanmalıdır.

Konfransınızın zəngin sənaye ənənələri ilə seçilən, böyük iqtisadi potensiala malik Azərbaycanda keçirilməsi təsadüfi deyil. Sürətlə modernləşən ölkəmizdə sənayenin inkişafına xüsusi diqqət yetirilir və 2014-cü il respublikamızda «Sənaye ili» elan edilmişdir.

Zamanın tələblərinə uyğun olaraq aparılan islahatlar, uğurla həyata keçirilən dövlət proqramları, genişmiqyaslı infrastruktur layihələri, biznes və investisiya mühitinin davamlı surətdə yaxşılaşdırılması, özəl sektora dövlət dəstəyi və siyasi, makroiqtisadi sabitlik ölkədə güclü sənayenin formalaşdırılması üçün əlverişli şərait yaradır.

İqtisadiyyatın şaxələndirilməsi indiki mərhələdə iqtisadi siyasətimizin prioritet istiqamətlərindəndir. Bu vəzifənin reallaşdırılması sənayenin inkişaf etdirilməsini, bu sahədə qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqini tələb edir.

Əminəm ki, konfransınız sənaye siyasətində əsas meyillərlə bağlı səmərəli fikir mübadiləsinin aparılmasına və yeni əməkdaşlıq əlaqələrinin qurulmasına təkan verəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 noyabr 2014-cü il*

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BUYAR NİŞANİYƏ**

Hörmətli cənab Prezident!

Albaniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Albaniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Albaniya xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 noyabr 2014-cü il*

**MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Mavritaniya əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Mavritaniya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 noyabr 2014-cü il*

## «BBC GLOBAL NEWS»un BAŞ İCRAÇI DİREKTORU CİM İQAN İLƏ GÖRÜŞ

*25 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də «BBC Global News»un baş icraçı direktoru Cim İqanı qəbul etmişdir.*

*«BBC Global News»un baş icraçı direktoru Cim İqan rəhbərlik etdiyi qurumun fəaliyyəti və beynəlxalq əməkdaşlıq sahəsində gördüyü işlər barədə prezident İlham Əliyevə məlumat verdi. O, Azərbaycanın tarixi, mədəni yüksəlişi və ölkəmizdə gedən inkişaf prosesləri barədə dolğun informasiyanın geniş tamaşaçı auditoriyasına çatdırılmasının önəmini vurğuladı.*

*Dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın əldə etdiyi iqtisadi uğurlar, müstəqillikdən sonra sürətli iqtisadi inkişaf proseslərinə nail olunması, ölkəmizdə azadlıq və demokratiyanın təmin edilməsi istiqamətində görülən işlər, Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı, respublikamızın energetika sahəsində qazandığı nailiyyətlər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışdı. Prezident İlham Əliyev Azərbaycanın zəngin tarixi, mədəniyyəti, inkişaf prosesləri barədə obyektiv və qərəzsiz informasiyanın çatdırılmasının önəmini vurğuladı.*

*Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## I AVROPA OYUNLARINA HAZIRLIQ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*25 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də gələn il Bakıda keçiriləcək I Avropa oyunlarına hazırlıqla bağlı görülən abadlıq və quruculuq işlərinin gedişi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyev I Avropa oyunlarına hazırlıqla bağlı görülən abadlıq və quruculuq işlərinin gedişi ilə tanış olmaq üçün paytaxtın bir sıra ərazilərində oldu, icra edilən layihələrin gedişi və həyata keçirilən yenidənqurma və inşaat işləri ilə maraqlandı.*

*Dövlətimizin başçısı Bakı Olimpiya stadionunun ətraf ərazilərində, mərkəzi küçə və prospektlərdə yol və nəqliyyat infrastrukturunun, Bayıl qəsəbəsindəki Su İdmanı Sarayının ətrafında həyata keçirilən abadlıq tədbirləri və müxtəlif idman infrastrukturunun yaradılması istiqamətində görülən işlərin gedişi ilə də tanış oldu.*

*Azərbaycan prezidenti İlham Əliyev işlərin yüksək keyfiyyətlə görülməsi ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

## BAKI OKSFORD MƏKTƏBİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*25 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Bakı Oksford məktəbinin yeni binasının açılışında iştirak etmişdir.*

*Zəngin təbii ehtiyatları ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə etməklə, insan kapitalının daha da inkişaf etdirilməsini başlıca amil seçib. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərini təşkil edir. Son illərdə dövlətimizin başçısının ölkədə məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı sərəncam və tapşırıqlarına uyğun olaraq yüzlərlə məktəb binası tikilib və ya təmir olunub. Prezidentin sərəncam və tapşırıqlarına uyğun olaraq ümumtəhsil məktəblərinin informasiya-kommunikasiya texnologiyaları ilə təminatı gücləndirilib. Hökumət ucqar bölgələrdə müəllim çatışmazlığını aradan qaldırmaqla bağlı müvafiq proqram qəbul edib.*

*Heydər Əliyev Fondu da dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına güclü dəstək verib. Fondun «Yeniləşən Azərbaycana yeni məktəb» və «Təhsilə dəstək» layihələri çərçivəsində ölkə üzrə yüzlərlə orta məktəb binası tikilib və bu proses davam etdirilir. Yüksək şəraiti, müasir təlim avadanlığı ilə diqqət çəkən bu təhsil ocaqlarından biri də Bakı Oksford məktəbidir. Məktəbin yeni binasında təlim-tədrisin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılıb. Bakı Oksford məktəbi 1998-ci ildə təsis olunub. Məktəbdə həm milli, həm də beynəlxalq təhsil standartlarını özündə əks etdirən müasir proqram həyata keçirilir.*

*Məktəbin təsisçisi Mehriban Məmmədova görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi ki, təhsil ocağının binası ən müasir tələblər səviyyəsində inşa olunub. Altımərtəbəli binanın ümumi sahəsi 30 min kvadratmetrdir. Bakı Oksford məktəbinin həyatində təhsilimizin inkişafında böyük xidmətləri olan ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılıb.*

*Prezident İlham Əliyev Bakı Oksford məktəbinin yeni binasının rəmzi açılışını bildirən lenti kəsdi və məktəblə tanış oldu.*

*Məktəbin birinci mərtəbəsində Heydər Əliyev Muzeyi yaradılıb. Muzeydəki fotostendlər, əyani vəsaitlər ulu öndər Heydər Əliyevin siyasi, dövlətçilik fəaliyyətinin öyrənilməsi və gələcək nəsillərə çatdırılmasında mühüm rol oynayır.*

*Bildirildi ki, məktəbdə təhsil 4 mərhələ üzrə keçirilir. «Məktəbə hazırlıq» mərhələsi 4-5 yaşında uşaqlar üçün nəzərdə tutulub. Bu mərhələdə uşaqlar Azərbaycan əlifbasını öyrənir, ingilis dili və hesab fənlərindən ilk biliklərə yiyələnirlər. Şagirdlər incəsənətə də xüsusi maraq göstərirlər. Bu baxımdan məktəbdə bir neçə «ART studio» fəaliyyət göstərir. Burada müxtəlif yaş qruplarından olan şagirdlər yaradıcılıq potensiallarını həyata keçirə bilirlər. Təhsil ocağında tez-tez incəsənət sərgiləri keçirilir və şagirdlərin əl işləri nümayiş olunur.*

*Növbəti, «İbtidai siniflər» mərhələsi isə 6–10 yaşında uşaqlar üçün nəzərdə tutulub və tədris Kembric Beynəlxalq Proqramı üzrə keçirilir. Bu mərhələni bitirdikdə şagirdlər «Cambridge Chekpoint Primary» imtahanlarını verirlər. Məktəbdə aşağı yaş qrupları üçün kitabxana fəaliyyət göstərir. Bütün sinif otaqları, fənn kabinetləri ən müasir tələblər səviyyəsində qurulub. Şagirdlərin nəzəri biliklərini laboratoriyalarda tətbiq etmələri üçün də zəruri avadanlıqlar quraşdırılıb.*

*Üçüncü mərhələ isə «Orta məktəb»dir. Bu mərhələdə 11–13 yaşında uşaqlar təhsil alırlar. Şagirdlər bu mərhələni bitirdikdə ingilis dili, riyaziyyat və təbiət fənləri üzrə yenidən «Cambridge Chekpoint Primary» imtahanları verirlər.*

*Şagirdlərin hərbi hazırlığının və vətənpərvərlik ruhunun yüksəldilməsi məqsədilə məktəbdə hərbi hazırlıq sinfi də yaradılıb.*

*Məktəbdə yuxarı sinif şagirdləri üçün müxtəlif dərnəklər fəaliyyət göstərir. Şagirdlər burada qədim el sənətlərinin də sirlərini öyrənə biləcəklər.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, sonuncu mərhələ olan «Tam orta məktəb» isə 14–18 yaşında uşaqlar üçün nəzərdə tutulub. Bu mərhələni bitirdikdə şagirdlər mərkəzləşdirilmiş imtahanları verərkən Azərbaycan Respublikasının tam orta təhsil haqqında sənədinə malik olurlar.*

*Məktəbdə informatika kabinetləri, fənn laboratoriyaları yaradılıb. Fizika, kimya və biologiya laboratoriyalarının hamısı müasir tədris vasitələri ilə təmin edilib. Bu təhsil ocağında hər cür şəraiti olan yeməkxana və müxtəlif tədbirlərin keçirilməsi üçün akt zalı qurulub. Bildirildi ki, hazırda məktəbdə 550 şagird təhsil alır. Bunlardan 30 faizi ABŞ, Avstraliya, Böyük Britaniya, Fələstin, Hollandiya, İordaniya, İtaliya, Kanada, Rusiya, Tailand, Türkiyə və başqa ölkələrdən olan şagirdlərdir.*

*Məktəbdə şagirdlərin təlim və tərbiyəsi ilə 100 müəllim məşğul olur. Onların arasında Böyük Britaniya, ABŞ, Kanada, Kolumbiya, İsveç, Rumıniya, Malayziya, Cənubi Afrika Respublikası və Nigeriyadan olan müəllimlər də var.*

*Dövlətimizin başçısının gənc nəslin intellektual və mənəvi inkişafının təmin edilməsi, vətənpərvərlik ruhunda tərbiyə olunması, onların innovativ ideyalarının və yaradıcı təşəbbüslərinin reallaşdırılması haqqında verdiyi sərəncamlara əsasən, həmçinin Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən «Təhsilə dəstək» layihəsi çərçivəsində 2010-cu ilin noyabrında Bakı Oksford məktəbinin Şəmkir filialı fəaliyyətə başlayıb. Hazırda orada 220 şagird təhsil alır. Filialda Şəmkirlə yanaşı, Gəncə, Gədəbəy, Tovuz, Qazax və digər ətraf rayonlardan gələn şagirdlərə ən yüksək səviyyədə təhsil verilir. 2013-cü ildə isə hər cür şəraiti olan «Campus» binası inşa edilib.*

*Bildirildi ki, Bakı Oksford məktəbində şagird–müəllim–valideyn interaktiv şəbəkəsi yaradılıb. Bu, valideynlərə şagirdlərin davamiyyəti, müvəffəqiyyəti, davranışı, ev tapşırıqları haqda operativ-interaktiv məlumat əldə etməyə imkan verir. Məktəbin kitabxanası*

*tədris planlarında nəzərdə tutulmuş fənlərə* dair *tədris*-informasiya *mənbələri ilə zənginləşdirilib. Məktəb fəaliyyətə başladığı gündən bir sıra nailiyyətlər əldə* edib. *Təhsildəki uğurlarına və yüksək* standartlara *görə Bakı* Oksford *məktəbi* Kembric *Beynəlxalq İmtahanlar Mərkəzi* statusunu *alıb. Bu* statusa *görə məktəb «*Cambridge Checkpoint*», «İGCSE» proqramlarının tədrisi, imtahanların keçirilməsi və* Kembric *Beynəlxalq* Sertifikatını *təqdim etmək hüququnu qazanıb. 2006-cı ildə isə təhsil ocağı* Avropa *keyfiyyət mükafatına* layiq *görülüb. Hazırda Bakı* Oksford *məktəbi məzunlarına «İGCSE», «A-LEVEL» sertifikatı və Azərbaycan Milli Sertifikatını* verir.

*Təhsil ocağının həyatində abadlıq və* quruculuq *işləri görülüb.*

*Bakı* Oksford *məktəbinin* yeni *binasının inşası* bir daha *təsdiqləyir ki, Azərbaycan* prezidenti *İlham Əliyevin diqqəti sayəsində təhsil islahatları uğurla* davam etdirilir. *Bütün* bunlar ilk *növbədə, şagirdlərin elmlərin sirlərinə* daha *dərindən yiyələnmələri üçün hərtərəfli* imkanlar *açır.*

*Prezident İlham Əliyev təhsilin yüksək səviyyədə aparılması üçün tapşırıq və tövsiyələrini* verdi.

## FİLİPPİN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MARİA ROVENA MENDOZA SANÇEZ İLƏ GÖRÜŞ

*26 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Filippin Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Maria Rovena Mendoza Sançezin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Maria Rovena Mendoza Sançez Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Maria Rovena Mendoza Sançez etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Fövqəladə və Səlahiyyətli səfir Maria Rovena Mendoza Sançez Filippin Respublikasının Prezidenti III Beniqno Akinonun salamlarını dövlətimizin başçısına çatdırdı. Ölkələrimiz arasındakı dostluq əlaqələrindən danışan səfir xalqlarımızın ümumi dəyərlərə malik olduğunu məmnunluqla qeyd etdi.*

*Azərbaycan ilə Filippin arasında ikitərəfli münasibətlərin inkişafını yüksək dəyərləndirən prezident İlham Əliyev əlaqələrimizin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, humanitar və digər sahələrdə genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi.*

*Dövlətimizin başçısı prezident III Beniqno Akinonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Filippinin dövlət başçısına çatdırmağı xahiş etdi.*

## QVATEMALA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ HERBERT ESTUARDO MENESES KORONADO İLƏ GÖRÜŞ

*26 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Qvatemala Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Herbert Estuardo Meneses Koronadonun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Herbert Estuardo Meneses Koronado Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Herbert Estuardo Meneses Koronado etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Qvatemala arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyini deyən prezident İlham Əliyev ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə genişləndirilməsi üçün də imkanların araşdırılmasının vacibliyini qeyd etdi. Dövlətimizin başçısı səfirin bu əlaqələrin inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi.*

*Səfir Qvatemala Respublikasının Prezidenti Otto Fernando Perez Molinanın salamlarını dövlətimizin başçısına çatdırdı, ölkəsinin prezidentinin Azərbaycan ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsinə böyük önəm verdiyini dedi. Səfir diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi işində səylərini əsirgəməyəcəyini bildirdi.*

*Dövlətimizin başçısı prezident Otto Fernando Perez Molinanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qvatemala Respublikasının dövlət başçısına çatdırmağı xahiş etdi.*

## TAİLAND KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ THARİT ÇARUNGVAT İLƏ GÖRÜŞ

*26 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Tailand Krallığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Tharit Çarungvatın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Tharit Çarungvat Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Tharit Çarungvat etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycan ilə Tailand arasında dostluq münasibətlərinin mövcud olduğunu vurğulayan prezident İlham Əliyev ikitərəfli əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində yaxşı əməkdaşlıq etdiyini qeyd edən dövlətimizin başçısı iqtisadiyyatın müxtəlif sahələrində əlaqələrin daha da genişləndirilməsi üçün də böyük imkanların olduğunu vurğuladı.*

*Tailand Krallığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Azərbaycana səfərindən ötən dövr ərzində ölkəmizdə gedən yüksək inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi və əldə olunan uğurlar münasibətilə dövlətimizin başçısını təbrik etdi. O, ölkələrimiz arasında ticarət dövriyyəsinin yüksək səviyyədə olduğunu məmnunluqla qeyd etdi.*

## AVSTRALİYA İTTİFAQININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ CEYMS MARTİN LARSEN İLƏ GÖRÜŞ

*26 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Avstraliya İttifaqının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Ceyms Martin Larsenin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Ceyms Martin Larsen Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Ceyms Martin Larsen etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycan Respublikası ilə Avstraliya İttifaqı arasında yaxşı əlaqələrin mövcud olduğunu vurğulayan dövlətimizin başçısı Avstraliyanın Baş naziri ilə görüşünü və ikitərəfli münasibətlərimizin inkişafı ilə bağlı apardıqları müzakirələri məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin perspektivləri, qarşılıqlı biznes və investisiya imkanlarının öyrənilməsi istiqamətində işlərin aparılmasının vacibliyini qeyd etdi.*

*Avstraliya İttifaqının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Ceyms Martin Larsen ölkəsinin Azərbaycan ilə ikitərəfli əlaqələri müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, təhsil və digər sahələrdə inkişaf etdirməkdə maraqlı olduğunu dedi. O, ikitərəfli münasibətlərimizin genişləndirilməsi işində səylərini əsirgəməyəcəyinə əminliyini ifadə etdi.*

# YENİ ZELANDİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ CONATAN ENDRYU KARR İLƏ GÖRÜŞ

*26 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Yeni Zelandiyanın ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Conatan Endryu Karın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Conatan Endryu Karr Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Conatan Endryu Karr etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Yeni Zelandiyanın ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Conatan Endryu Karr Azərbaycanda diplomatik fəaliyyətə başlamasından məmnun olduğunu dedi.*

*Azərbaycan ilə Yeni Zelandiya arasında çox yaxşı siyasi əlaqələrin olduğunu deyən dövlətimizin başçısı bu əlaqələrin iqtisadi sahədə də inkişaf etdirilməsi üçün güclü qarşılıqlı siyasi iradənin olduğunu vurğulayaraq biznes, sərmayə qoyuluşu və digər sahələrdə imkanların araşdırılmasının zəruriliyini qeyd etdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASINA ÜZV ÖLKƏLƏRİN TƏHSİL NAZİRLƏRİNİN III GÖRÜŞÜNÜN İŞTİRAKÇILARINA

Hörmətli görüş iştirakçıları!

Əziz qonaqlar!

Sizi Bakı şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin təhsil nazirlərinin III görüşünün öz işinə başlaması münasibətilə təbrik edir, hər birinizə ölkələrinizin gələcəyi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Türkdilli ölkələrlə əməkdaşlığın daim yüksələn xətlə inkişaf etdirilməsi Azərbaycan dövləti üçün həmişə mühüm əhəmiyyət daşımışdır. Əməkdaşlıq Şurası çərçivəsində birgə həyata keçirilən çoxsaylı layihələr ölkələrimiz və xalqlarımız arasında tarixi mədəni əlaqələrin dərinləşməsinə xidmət göstərir. Əsrlərboyu formalaşmış ənənələrimizin gələcək nəsillərə layiqincə çatdırılmasında təhsilin misilsiz rolunu nəzərə alaraq, bu sahədə aparılan siyasəti təqdirəlayiq hal kimi yüksək qiymətləndirirəm. İnanıram ki, artıq müntəzəm şəkil alan görüşləriniz dostluq və qardaşlıq münasibətlərimizin daha da genişlənməsi baxımından yeni imkanlar yaradacaqdır.

Son illər ərzində Türk Universitetlər Birliyinin qurulması, Türk Akademiyasının təsis olunması və eləcə də bu qəbildən digər müştərək layihələr türkdilli ölkələrin əməkdaşlığının yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirir. Hazırda ölkəmizdə təhsil sahəsində islahatların «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»na uyğun olaraq reallaşdırılması keyfiyyətcə yeni mərhələnin başlanmasının bariz nümunəsidir. Qardaş türkdilli dövlətlərin bu istiqamətdə nailiyyətlərinin, müsbət təcrübələrinin

öyrənilməsinin tərəflər üçün faydalı olacağına və ölkələrimizin təhsil sisteminə layiqli töhfələr verəcəyinə əminəm.

Ümidvaram ki, görüş zamanı müzakirə olunacaq problemlər, aparılacaq fikir mübadiləsi və qəbul ediləcək qərarlar ölkələrimiz arasında təhsil üzrə əməkdaşlığın yeni inkişaf perspektivlərini müəyyənləşdirərək cəmiyyətlərimizin daha da yetkinləşməsi istiqamətində əhəmiyyətli addım olacaqdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 noyabr 2014-cü il*

**RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TRAYAN BESESKUYA**

Hörmətli cənab Prezident!

Rumıniyanın milli bayramı – Birlik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Rumıniya arasındakı münasibətlər bu gün dinamik və hərtərəfli inkişaf yolundadır. Ölkələrimizi və xalqlarımızı birləşdirən sıx dostluq əlaqələri bütün sahələrdə səmərəli əməkdaşlığımız üçün əlverişli zəmindir.

Ümidvaram ki, Azərbaycan–Rumıniya dostluğu, qarşılıqlı əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətlərimiz bundan sonra da möhkəmlənəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Rumıniya xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 noyabr 2014-cü il*

## KOREYA RESPUBLİKASININ BAŞ NAZİRİ ÇANQ HONQVONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Koreya Respublikasının Baş naziri Çanq Honqvonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev:** Hörmətli cənab Baş nazir!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda salamlamağıma şadam. Ölkəmizə xoş gəlmisiniz! Mən əminəm ki, Sizin səfəriniz ikitərəfli münasibətlərimizə yeni impuls verəcək. Biz əlaqələrimizin inkişafından razıyıq. Bu əlaqələr çox dinamik irəliləyir, getdikcə yeni sahələri əhatə edir və inkişaf üçün yaxşı potensiala malikdir. Siyasi səviyyədə möhkəm əlaqələr iqtisadi sahədə, biznes sahəsində yaxşı nəticələr əldə olunmasına kömək edir. Sizin ölkənizin əksər şirkətləri Azərbaycanda müxtəlif layihələrdə fəal iştirak edirlər. Həmçinin əminəm ki, Sizin səfəriniz ikitərəfli münasibətlərimizə yeni təkan verəcək və faydalı olacaq. Bir daha xoş gəlmisiniz!

**Çanq Honqvon:** Cənab Prezident, mən də bu səfərimizə böyük önəm verirəm. Çünki Azərbaycan Qafqaz mədəniyyətinin, həmçinin Xəzər regionunun mərkəzidir. Cənab Prezident, mən Sizinlə görüşməyimə şadam və səmimi qəbula görə çox sağ olun. Mən bilirəm ki, Sizin atanız Heydər Əliyev sürətli iqtisadi yüksəlişə nail olub və Siz də çox parlaq nəticələrə nail olursunuz.

Cənab Prezident, Azərbaycan Sizin parlaq rəhbərliyiniz altında möhkəm siyasi sabitlik əsasında gur inkişaf yolu keçir. Sizin prezidentliyiniz dövründə ölkənizin gəlirləri 10 dəfə artıb və bunu Azərbaycanın möcüzəsi hesab etmək olar. Buna görə

də Sizə böyük hörmətimi bildirmək istərdim. Biz diplomatik münasibətlərimizi 20 il əvvəl qurmuşuq. Bu, qısa müddətdir. Buna baxmayaraq bizim münasibətlərimiz sürətlə inkişaf edir.

*Görüşdə Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında infrastruktur, energetika, inşaat, informasiya texnologiyaları, investisiya qoyuluşu və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## MALTA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ CON DEBONO İLƏ GÖRÜŞ

*27 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Malta Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Con Debononun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Con Debono Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Con Debono etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin çox yaxşı səviyyədə olduğunu vurğuladı. Prezident İlham Əliyev Malta Respublikasının Baş naziri ilə görüşünü və ikitərəfli münasibətlərimizin inkişafına dair məsələləri müzakirə etdiklərini məmnunluqla xatırlatdı. Enerji sektorunda əməkdaşlığımızın artıq mövcud olduğunu vurğulayan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin digər sahələrdə də genişləndirilməsinin zəruriliyini qeyd etdi.*

*Səfir Con Debono ölkəsinin Azərbaycan ilə ikitərəfli əlaqələri müxtəlif istiqamətlərdə genişləndirməkdə maraqlı olduğunu dedi.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığa dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# İSPANİYA KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ RAFAEL MENDİVİL PEYDRO İLƏ GÖRÜŞ

*27 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də İspaniya Krallığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Rafael Mendivil Peydronun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Rafael Mendivil Peydro Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Rafael Mendivil Peydro etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Səfir Rafael Mendivil Peydro İspaniya kralı VI Felipenin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev Azərbaycan ilə İspaniya arasında siyasi, iqtisadi və digər sahələrdə fəal əməkdaşlığın mövcud olduğunu vurğuladı. Dövlətimizin başçısı beynəlxalq tədbirlərdə İspaniyanın Baş naziri ilə görüşünü və əməkdaşlığımızın gələcək inkişafı ilə bağlı aparılan səmərəli müzakirələri məmnunluqla xatırlatdı. İspaniya şirkətlərinin ölkəmizdəki uğurlu fəaliyyətinə toxunan Azərbaycan Prezidenti ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu dedi.*

*Prezident İlham Əliyev kral VI Felipenin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İspaniya Kralına çatdırmağı xahiş etdi.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığa dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAYİD ƏL-NƏHƏYYANA**

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı və möhkəmləndirilməsi yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Birləşmiş Ərəb Əmirliklərinin qardaş xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 noyabr 2014-cü il*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ VƏ BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, qardaş xalqınıza daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 noyabr 2014-cü il*

**LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇOUMMALİ SAYOSONEYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Respublika Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Laos arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı və möhkəmlənməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Laos xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 noyabr 2014-cü il*

## «ROSSİYA-24» İNFORMASİYA TELEKANALINA MÜSAHİBƏ

*Bakı*

*28 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Ümumrusiya Dövlət Teleradio Verilişləri Yayım Şirkətinin «Rossiya-24» informasiya telekanalına müsahibə vermişdir.*

**M ü x b i r: Cənab Prezident, günaydın. Bizi yenidən Azərbaycan torpağında qəbul etdiyinizə görə çox sağ olun.**

**İ l h a m Ə l i y e v:** Günaydın, xoş gəlmisiniz!

**S u a l: Cənab Prezident, bu gün tərəfdaşlıq münasibətlərinin çoxu sınaqdan keçir. Rusiya–Azərbaycan əməkdaşlığı dinamik, dolğun inkişaf edir. Bu il səfərlər, ikitərəfli əlaqələr nöqteyi-nəzərindən çox məhsuldar olub. Mövcud tarixi məqamda Siz Rusiya ilə Azərbaycan arasında siyasi dialoqu necə qiymətləndirirsiniz?**

**C a v a b:** Biz daim siyasi dialoq aparırıq. Qeyd etdiyiniz kimi, münasibətlər çox dinamik inkişaf edir, bütün sahələri əhatə edir və aramızda həll olunmamış məsələlər, problemlər yoxdur. Münasibətlərimizin indiki mərhələsində əməkdaşlığımızı dərinləşdirmək üçün yeni imkanlar, ilk növbədə, iqtisadi sahədə imkanlar yaranır və biz ilin yekunlarına əsasən görürük ki, artıq əmtəə dövriyyəsi genişlənir, Azərbaycandan Rusiyaya ixrac artır. Zənnimcə bu, uzun illər ərzində münasibətlərimizi məhz tərəfdaşlıq, qarşılıqlı dəstək, dostluq, mehriban qonşuluq əsasında qurmağımızın nəticəsidir. Bu da ölkələrimizə, xalqlarımıza fayda gətirir. Bu gün Azərbaycan ilə Rusiya fəal inkişaf edən və dünyada

mövcud çağırışlara müqavimət göstərməyə hazır olan iki qonşu və dost dövlətdir.

**S u a l: Siz hansı sahələrdə əməkdaşlığı inkişaf etdirmək imkanları görürsünüz?**

**C a v a b:** Bizdə ənənəvi əməkdaşlıq sahələri var. Əlbəttə, bu, energetika sektoru, neft-qaz sahəsidir. Burada əməkdaşlığın yaxşı tarixi və yaxşı potensialı var. Bu il neft-qaz sahəsində sazişlər imzalanıb. Həmin sazişlər gələcəkdə bu münasibətlərin daha dinamik inkişafını müəyyən edəcək. Elektroenergetika, nəqliyyat sahələrində də yaxşı potensial və artıq əməkdaşlıq təcrübəsi var. Biz – Rusiya da, Azərbaycan da Şimal–Cənub nəqliyyat dəhlizinin daha fəal işləməyə başlamasında maraqlıyıq. Biz öz tərəfimizdən zəruri infrastruktur yaradırıq. Bu həm dəniz limanları, həm dəmir yolu, həm də avtomobil yollarının yenidən qurulmasıdır. Rusiya tərəfi də eyni səyləri göstərir. Əlbəttə, Azərbaycanın kənd təsərrüfatı məhsullarının Rusiya bazarlarında satılması sahəsində yaxşı əməkdaşlıq potensialı var. Biz ixrac potensialını artırırıq. Prinsipcə, bu bizim hökumətin strateji xətti olub. Lakin Rusiya bazarında indiki vəziyyəti və mallarımıza olan tələbatı nəzərə alaraq, biz məhz Rusiya istehlakçısının ehtiyacı olan çeşidi məqsədyönlü şəkildə artırmağa başladıq.

Turizmin də yaxşı perspektivləri var. Biz yayda da, qışda da Azərbaycana gələn rusiyalı turistlərin sayının artdığını görürük. Burada yaxşı şərait var – məsafə də böyük deyil, dil maneəsi də yoxdur. Bir də, əlbəttə, mədəniyyət, təhsil sahələri. Zənnimcə, bu sahələr əməkdaşlığımızın təməlidir. Rusiyanın tanınmış kollektivləri, demək olar, hər həftə Bakıda qastroldadır. Onlar burada çox populyardırlar.

**S u a l: Əsas budur ki, dil maneəsi yoxdur və bu da bir çox baxımdan Azərbaycanın səyləri, rus dilinə münasibətdə həyata keçirdiyi məqsədyönlü və ardıcıl siyasət sayəsindədir. Təhsil də bu gün Rusiya ilə Azərbaycan arasında uğurlu əməkdaşlığın çox perspektivli sahələrindən biridir. Rusiyanın ali məktəblərində 13 min azərbaycanlı tələbə təhsil alır. Siz bu gün qarşılıqlı fəaliyyət, rus dilinin Azərbaycanda yeri barədə nə deyə**

**bilərsiniz? Çünki Azərbaycanda çox böyük rus icması var. Bu gün bunu da xatırlatmaq lazımdır. O, mane olmur ki, hər hansı bir narahatlıq yaratmır ki? Azərbaycanda rus dilinin həqiqətən, bu rahat mövcudluğu necə təmin edilir?**

**C a v a b:** Siz düzgün qeyd etdiniz ki, Azərbaycanda rus icması Cənubi Qafqazda ən böyük icmadır. Onun üzvlərinin sayı 120 min nəfərdən çoxdur. Azərbaycanı beynəlxalq məkanda layiqincə təmsil edən bu insanlar həm müxtəlif beynəlxalq tədbirlərdə iştirak edir, həm də ölkəmizin inkişafına böyük töhfə verirlər. Onlar dövlətimizin layiqli vətəndaşları, Azərbaycanın vətənpərvərləri, eyni zamanda, öz dilinə, mədəniyyətinə, ənənələrinə bağlı olan insanlardır.

Leksikonumuzda nisbətən yeni söz olan multikulturalizm ənənələri Azərbaycanda əsrlərboyu həmişə mövcud olub. Sadəcə, müxtəlif cür adlanıb, lakin mahiyyəti dəyişməyib. Zənnimcə, əsrlər ərzində, o cümlədən sovet dövründə yaranan müsbət meyillər müasir Azərbaycanda möhkəmlənir. Bu da ölkəmizdə milli həmrəyliyin əsası, müasir dinamik inkişafın təməlidir.

Təəssüf ki, biz müasir dünyada çox vaxt başqa mənzərə – qarşıdurma, təcridolunma, ayrı-seçkilik görürük. Bəzi ölkələrdə, ümumiyyətlə, yüksək səviyyədə bəyan edirlər ki, multikulturalizm siyasəti fiaskoya uğrayıb. Bu çox təhlükəli meyildir. Düşünürəm ki, Azərbaycanın nümunəsi bunun tam əksini göstərir. Onu göstərir ki, öz mədəniyyətinə, tarixinə bağlı olmaqla bərabər, başqa xalqların və dinlərin nümayəndələrinin mədəniyyətinə də hörmətlə yanaşmaq olar. Təsadüfi deyil ki, Bakı bu sahədə beynəlxalq əməkdaşlığın özünəməxsus mərkəzinə çevrilib. Bu yaxınlarda bizdə Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb, müxtəlif tədbirlər, beynəlxalq forumlar keçirilir. Əlbəttə, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkə kimi, belə bir nümunə göstərir ki, sosial sifariş və dövlətin düzgün siyasəti olanda bütün bu məsələləri bacarıqla həll etmək mümkündür.

Azərbaycanda rus dilinə əvvəllər olduğu kimi, hörmətlə yanaşılır. Bizdə tədris rus dilində olan 300-dən çox məktəb var. Bütün dövlət ali məktəblərində rus dilində təhsil almaq üçün

bölmələr var. Moskva Dövlət Universitetinin filialı, Slavyan Universiteti yaradılıb. Hesab edirəm ki, bu müsbət təcrübə dili hücum hədəfi seçən ölkələr üçün faydalı ola bilər.

**S u a l: Tolerant, beynəlmiləl şəhər olaraq qalmağı Bakıya tarixin özü diktə edir. Bakı Sovet İttifaqının ən beynəlmiləl şəhəri idi. Deyə bilərsinizmi bəs indi, müasir dünyada, məsələn, Avropanın aparıcı siyasətçilərinin multikulturalizmin iflasa uğradığını etiraf etdiyi bir vaxtda bu cür şəhər və bu cür ölkə kimi qalmaq çətindirmi? Siz daxildən və ya xaricdən təzyiqlər hiss edirsinizmi?**

**C a v a b:** Yox, hiss etmirəm. Daxildən təzyiq yoxdur. Çünki cəmiyyət dövlətin bu məsələyə yanaşmasını tam bölüşür. Burada heç bir fikir ayrılığı yoxdur. Prinsipcə dövlət siyasəti cəmiyyətdə bu əhval-ruhiyyəni dəstəklədiyi kimi, ictimai rəy də dövlətin həmin siyasəti yeritməsinə kömək edir. Biz cəmiyyətin belə vəziyyətinin üstünlüklərini görürük. Çünki həmişə belə olmayıb. Axı müstəqilliyin ilk illərində, Xalq Cəbhəsi hakimiyyətdə olanda vəziyyət tamamilə başqa idi. O vaxt dözümsüzlük əslində dövlət siyasəti səviyyəsinə qaldırılmışdı. Mənfi münasibətlər, qeyri-yerli əhalinin sıxışdırılması cəhdləri – bütün bunlar gözümüzün qarşısında olub. Həmin illər ölkəmiz, xalqımız üçün milli rüsvayçılıq illəri idi. Azərbaycan xalqı müdriklik göstərdi və bu hakimiyyətə cəmi 1 ildən bir qədər çox dözdü, sonra bu hakimiyyət tarixin xarabalığına atıldı.

**S u a l: Bu peyvənd hələ də təsir edirmi?**

**C a v a b:** Bəli. Çünki cəmiyyət bu yanaşmaları rədd etdi. Milli siyasət sahəsində çox böyük səhvlərə, bəlkə də cinayətlərə yol verilib, eləcə də bütün digər sahələrdə. Odur ki, cəmiyyət bu yad təsirdən tez bir vaxtda təmizləndi, öz köklərinə qayıtdı. Bu gün bu, cəmiyyətimizin inkişafının normal vəziyyətidir. Odur ki, daxildə bu siyasətin təftiş olunmasına heç bir zəmin yoxdur.

O ki qaldı sərhədlərimizin hüdudlarından kənarda baş verənlərə, şübhəsiz, bu, narahatlıq doğurur. Çünki biz adada yaşamırıq, regionda gedən proseslər istər-istəməz müəyyən təsir göstərir. Burada da yenə cəmiyyətin yüksək şüuru, habelə səmərəli

dövlət siyasəti və belə münasibətin üstünlüklərinin əyani şəkildə nümayişi, zənnimcə, əsas hərəkətverici qüvvədir.

**S u a l: Gəlin Azərbaycanın iqtisadiyyatından danışaq. Çünki hər hansı ölkənin cəmiyyətinin vəziyyətinə dünya iqtisadiyyatı da nəzərəçarpan təsir göstərir. Bu il Azərbaycanda ümumi daxili məhsul üçfaizlik artım göstərir. Bu yetərincə sabit artımdır və bu gün çox cəhətdən nümunə olan, hökumətin, dövlətin seçdiyi iqtisadi siyasətin səmərəliliyini sübut edən göstəricidir. Siz gələn il üçün hansı proqnozları verirsiniz və Sizin fikrinizcə, yaxın gələcəkdə iqtisadiyyatın inkişafını nə müəyyən edəcək?**

**C a v a b:** Qeyd etdiyiniz kimi, bu il bizdə üçfaizlik artım gözlənilir. Lakin biz ümumi daxili məhsulu hesablayarkən, əsasən qeyri-neft sektoruna diqqət yetiririk və orada vəziyyət daha yaxşıdır. Biz bu il orada 6-7 faiz artım gözləyirik. Ötən il artım 10 faiz olub. Gələn il də iqtisadiyyatın qeyri-neft sektorunda 6 faizdən 10 faizədək artım gözləyirik. Bu məhz şaxələndirmə siyasətinin, həm də əvvəlki illərdə Azərbaycanın iqtisadiyyatını şaxələndirmək üçün çoxlu investisiya yatırmağımızın və səylər göstərməyimizin nəticəsidir. Bu gün ümumi daxili məhsulda neft sektorunun payı təqribən 45 faiz, yəni yarıdan az təşkil edir. Dünyada neftin qiymətinin düşməsi, şübhəsiz, planlarımıza mənfi təsir göstərəcək. Lakin biz müxtəlif ssenarilər işləyib hazırlamışıq. Neftin qiymətinin 60 dollar olacağı təqdirdə, iqtisadiyyat sabit inkişaf edəcək.

**S u a l: Bəs büdcədə hansı qiymət nəzərdə tutulub?**

**C a v a b:** Büdcədə 90 dollar nəzərdə tutulub. Ötən il 100 olub.

**M ü x b i r: Bu, nikbin rəqəmdir.**

**C a v a b:** Bəli. Amma biz 90 dollar nəzərdə tutanda və büdcəni qəbul edəndə qiymət 90 dollar olub. Yeganə mənfi hal budur ki, biz il ərzində görməyi planlaşdırdığımız işləri 2 ilə görəcəyik. Sadəcə, prioritet olmayan istiqamətlər, infrastruktur layihələri üzrə büdcə xərclərini azaldacağıq. Yaxşı ki, əvvəlki illərdə biz artıq həmin layihələri əsasən həyata keçirmişik.

İqtisadiyyatı hətta builki səviyyəyə qədər inkişaf etdirmək üçün sahibkarlığın stimullaşdırılması, güzəştli kreditlərin verilməsi, fermerlərə subsidiyaların ayrılması üzrə ciddi tədbirlər görülüb. Bizdə fermerlər torpaq vergisindən başqa, bütün vergilərdən azad olunub. Dövlət kənddə istehsalın inkişafına fəal şəkildə subsidiya ayırır.

Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sahəsi sabit inkişaf edir. Azərbaycan artıq kosmik sənayesi olan ölkədir. Artıq birinci peyk buraxılıb, tezliklə ikincisi buraxılacaq. Yəni bu sahə, kənd təsərrüfatı fəal inkişaf edir. Turizmə böyük ümidlər var. Hazırda bütün ölkə ərazisində çoxlu müasir mehmanxana yaradılır. Biz Bakıya istirahət yeri kimi üstünlük verən turistlərin sayının artdığını görürük. Bax, bu əsas istiqamətlər və üstəgəl artıq neçə ildir həyata keçirdiyimiz sənayeləşdirmə siyasəti, şübhəsiz, öz bəhrəsini verir. Biz özümüzü təkcə ərzaq məhsulları ilə deyil, tikinti materialları ilə də tam təmin etməyə çalışırıq və bu istiqamətdə hələ çox iş görülməlidir.

**S u a l: Siz iqtisadiyyatın şaxələndirilməsi siyasətini davam etdirmək niyyətindəsiniz? Elədirsə, idealda ümumi daxili məhsulun strukturunda neft, xammal gəlirlərinə neçə faiz ayrılmalıdır?**

**C a v a b:** Əlbəttə, biz çalışacağıq ki, idealda neft gəlirləri bizim ümumi daxili məhsulun təqribən üçdəbirini təşkil etsin. Artıq onda şaxələndirmə siyasətimizin baş tutduğunu hesab edə bilərik. Biz buna doğru gedirik. Çünki biz bu proqramları başlayanda, neft amili, ümumiyyətlə, az qala 80 faiz idi, indi isə 45 faizdir. Yəni meyil azalmaya doğru gedir. Nəzərə almaq lazımdır ki, biz yaxın illərdə qaz hasilatının və satışının xeyli artacağını gözləyirik. Odur ki, ümumi daxili məhsulda neftin payı artacaq.

**M ü x b i r: O, artıq neft-qaz olacaq.**

**C a v a b:** Tamamilə doğrudur.

**S u a l: Buna baxmayaraq, xarici konyunkturadan asılılıq da artacaq. Siz deyirsiniz ki, neftin bir barreli 60 dollar olsa, Azərbaycan iqtisadiyyatı sabit inkişaf edəcək. Analitikləriniz**

**bu proqnozu nə dərəcədə real sayır və bütövlükdə neftin qiymətlərinə nə kimi proqnozlar verirlər?**

**C a v a b:** Bilirsiniz, analitiklərimizdən, dünya analitiklərindən daha ətraflı təhlil gözləmək çətindir. Ona görə yəqin ki, onlar dünya trendi kimi ümumi proqnoza əsaslanırlar. Heç kəs nə olacağını irəlicədən dəqiq deyə bilməz. Görünür, bunun üçün obyektiv səbəblər var. Axı indiyədək heç kəs dəqiq izah edə bilmir ki, bütün bunlar nə üçün baş verib.

**S u a l: Soruşmaq istəyirəm, Siz hansı nəzəriyyəyə meyillisiniz? Bir neçə konspiroloji, həmçinin obyektiv, daha real nəzəriyyələr var...**

**C a v a b:** Mən öz təhlilimdə bütün bu nəzəriyyələri bir qədər inteqrasiya edərdim. Çünki baş verənlərin obyektiv səbəbləri də var. Əlbəttə, başqa qəbildən səbəblər də ola bilər. Çünki tarixdən elə dövrlər tanıyırıq ki, neftin qiymətlərinin kəskin düşməsi bəzi ölkələrdə müəyyən problemlərə səbəb olub. Odur ki, bunu istisna edə bilmərik. Xüsusən ona görə ki, mətbuatda da bu barədə çox tez-tez danışılır, analitiklər də danışırlar və burada kimdənsə hər hansı proqnoz gözləmək yəqin ki, çox çətindir.

**S u a l: İqtisadi siyasətin səmərəliliyinin mühüm meyarlarından biri vətəndaşların sosial vəziyyətidir. Siz dediniz ki, xərcləri azaltmaq lazım gəlsə, infrastruktur layihələrini ixtisara salacaqsınız. Bu o deməkdir ki, sosial proqramlarınız toxunulmaz qalır? Siz sosial dövlət haqqında vektoru, tezisi dəstəkləyirsinizmi?**

**C a v a b:** Bəli, əlbəttə, sosial proqramlara dəyişiklik edilməyəcək. Əksinə, biz çalışacağıq ki, daha çox imkanlar yaradaq. İndiki halda söhbət, əlbəttə, əməkhaqqının artırılmasından, habelə sosial infrastrukturun yaradılmasından gedir. Bizim üçün sosial sahə həmişə prioritet olub. Biz onu iqtisadi sahədən heç vaxt ayırmamışıq və apardığımız islahatlar da sosial amilə bağlıdır. Buna görə də əsaslı islahatlara baxmayaraq, Azərbaycanda sosial məsələlər son illərdə çox müvəffəqiyyətlə həll olunur.

Son 10 ildə 500-dən çox tibb müəssisəsi, 3 mindən çox məktəb binası inşa olunub. Bütün regionlarda su təchizatına dair

infrastruktur layihələri həyata keçirilir. Yəni sosial infrastruktura sərmayə yatırmaq bizim prioritetimizdir. Onlar ixtisar edilməyəcək. Eyni zamanda, bu sahə iqtisadi sahədən ayrılıqda inkişaf edə bilməz. Axı biz son 10 ildə məhz iqtisadiyyatı inkişaf etdirmək hesabına yoxsulluğu 49 faizdən 5 faizə endirə bilmişik. Bunu əsas etibarilə yeni iş yerlərinin və iş üçün əlverişli şəraitin yaradılması hesabına etmişik. Azərbaycanda işsizlik sosial təzahür kimi, praktiki olaraq aradan qaldırılıb.

**S u a l: Azərbaycanda işsizlik neçə faizdir?**

**C a v a b:** 5 faiz. Təbii ki, bütün bunlar dövlətin iqtisadi siyasətinin, habelə biznes üçün yaxşı şəraitin yaradılmasının nəticəsində olub. Çünki iş yerləri neft sahəsində yaradılmayıb. Neft sahəsində iş yerləri belə tez yaradılmır. Bu yerlər istehsal və xidmət sahələrində, regionlarda yaradılıb. İqtisadi artım olmadan, yalnız büdcə xərcləri hesabına sosial məsələləri həll etmək çətindir. Burada əsas məsələ o qədər də prioritet olmayan sahələrlə cəmiyyətin sosial vəziyyətinə təsir göstərməyən sahələr arasında xərclərin azaldılmasının məhz düzgün balansının tapılmasıdır.

**S u a l: İqtisadiyyatda hər hansı böhran halları yarandıqda, bir qayda olaraq, qarşıya belə bir dilemma çıxır: pulları inkişaf üçün xərcləməli, yoxsa qənaət etməli, yığmalı, sabitləşdirmə fondları yaratmalı? Siz hansı yolu seçmisiniz?**

**C a v a b:** Biz hər iki yolu seçmişik. Fəal islahat illəri ərzində bizim valyuta xərclərimiz də, investisiyalarımız da ilbəil artıb. Keçən il Azərbaycan iqtisadiyyatına 28 milyard dollar sərmayə qoyulub. Əhalisinin sayı 10 milyona yaxın olan ölkə üçün bu az məbləğ deyil, onun 70 faizi daxili investisiyalardır. Əlbəttə, daxili investisiyaların strukturunda hələlik infrastruktur xarakterli dövlət sərmayələri üstünlük təşkil edir. Buna görə biz çalışmışıq ki, valyuta ehtiyatlarımız ilbəil artsın. Bu ehtiyatlar ilbəil artır. Şaxələndirilmiş iqtisadiyyatın yaradılması üçün nə qədər lazımdırsa, o qədər xərcləyirik. Regionlarda normal həyat şəraiti olmadan isə bunu etmək mümkün deyil.

Müstəqilliyin ilk illərində Azərbaycan vətəndaşlarının xeyli hissəsi qazanc dalınca başqa ölkələrə, o cümlədən Rusiyaya

gedirdi. İndi bu proses praktiki olaraq dayanıb və ya yavaşıyıb. Lakin başqa proses başlanıb – regionlardan Bakıya gəlirlər. Bu səbəbdən bizim əsas vəzifəmiz regional inkişaf ilə bağlı məsələlərin həlli idi ki, yerlərdə yaxşı xəstəxanalar, yaxşı məktəblər, su, elektrik, qaz təchizatı və iş üçün şərait olsun. Buna görə iqtisadiyyatın şaxələndirilməsi təkcə struktur baxımından deyil, həm də coğrafi baxımdan vacibdir. Zənnimcə, biz son illərdə ölkəmizin məhz bu baxımdan davamlı inkişafını təmin edə bilmişik.

**S u a l: Coğrafiya mövzusunu bir qədər genişləndirək, xarici investisiyalar və bu gün dövlət vəsaitlərinin qorunması, inkişaf etdirilməsi üçün hansı bazarların perspektivli olması barədə danışaq. Siz hazırda nəzərlərinizi haraya yönəldirsiniz? Şərqin, məsələn, Çinin bazarları Sizin fikrinizcə, nə dərəcədə perspektivli və maraqlıdır? Mən bilirəm ki, Azərbaycan suveren fondlara sərmayə qoyur, hazırda yuanla xeyli sərmayə yatırır.**

**C a v a b:** Bəli, biz investisiyalarımızı bir neçə il bundan əvvəl şaxələndirməyə başlamışıq. Bunun bir neçə səbəbi var idi. Birinci səbəb odur ki, ölkə daxilində iqtisadiyyatı hədsiz inkişaf etdirə bilməzdik. Bu da təbiidir ki, investisiya portfelimizi şaxələndirmək istəyirdik. Buna görə sərmayə qoymağa başladıq. Bu həm Asiya, həm Avropa, həm Rusiyadır...

**S u a l: Mən bunu eşidəcəyimə ümid edirdim.**

**C a v a b:** Bəli. Buna görə biz həm səhmlərə, həm daşınmaz əmlaka, həm bank sektoruna, həm istehsalata sərmayə qoyuruq. Rusiyaya gəldikdə isə, biz bank sektoruna sərmayə qoymuşuq, VTB bankının səhmlərini almışıq, daşınmaz əmlaka, istehsalata da sərmayə qoymuşuq. Rusiya bazarı bizim üçün perspektivlidir. Biz hər hansı vəziyyətə, qondarma sanksiyalara baxmayaraq, Rusiya bazarına fəal sərmayə qoymaqda davam edəcəyik. Ona görə ki, əvvələn, bütün bunlar müvəqqətidir, ikincisi, biz elə işləməliyik ki, münasibətlərimiz möhkəmlənsin. Axı investisiyalar sadəcə, öz vəsaitlərini şaxələndirmək deyil. Bu həm də əməkdaşlıq münasibətlərinin və onun səviyyəsinin nümayişidir. Prinsip etibarilə heç bir ölkə sabitlik,

mehriban münasibətlər olmayan yerə dövlət vəsaitlərini yatırmayacaq. Rusiya bizim dostumuz, tərəfdaşımızdır. Rusiyaya sərmayə yatırılması davam etdiriləcək. Əlbəttə, biz həm də Rusiyadan Azərbaycana daha çox sərmayə qoyulmasını görmək istərdik.

**S u a l: Siz dəfələrlə demisiniz ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli Azərbaycan üçün əsas problemlərdən və ağrılı mövzulardan biri olaraq qalır. Sizin fikrinizcə, son vaxtlarda bu məsələnin həllinə nə dərəcədə yaxınlaşa bilmisiniz?**

**C a v a b:** Təəssüf ki, burada danışıqlar prosesində uğurlar barədə danışa bilmərik. Səbəb də kifayət qədər sadə və aydındır. Bizdə belə təsəvvür yaranıb və özü də bu təsəvvür cəmiyyətdə artıq kifayət qədər qərarlaşıb ki, Ermənistan sülh istəmir, bu məsələnin tənzimlənməsini istəmir, hər şeyi olduğu kimi saxlamaq istəyir. Başqa sözlə, status-kvonu saxlamaq istəyir. Hərçənd ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin – Rusiyanın, ABŞ-ın və Fransanın prezidentləri dəfələrlə bəyan ediblər ki, status-kvo qəbuledilməzdir, o dəyişilməlidir. Status-kvonun dəyişilməsi Azərbaycan ərazilərinin işğaldan azad edilməsi deməkdir. Bu, münaqişənin tənzimlənməsi üçün başlıca şərtdir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi postsovet məkanındakı bütün başqa münaqişələrdən onunla fərqlənir ki, onun həlli üçün BMT Təhlükəsizlik Şurasının qətnamələri mövcuddur. Özü də 1 yox, 4 qətnamə. Həmin sənədlərdə erməni qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Artıq 20 ildən çoxdur ki, bu qətnamələr yerinə yetirilmir.

Ermənistan həmin qətnamələrə sadəcə, məhəl qoymur. Çünki bu qətnamələrin reallaşdırılması mexanizmi yoxdur. Bu qətnamələr münaqişənin tənzimlənməsinin əsasını təşkil etməlidir, çünki başqa variant sadəcə, mümkün deyil. Dağlıq Qarabağ Azərbaycanın tarixi ərazisidir. Dağlıq Qarabağ ona görə «dağlıq» adlanır ki, Aran Qarabağ da var. Qarabağ qədim Azərbaycan torpağıdır. Bu gün Qarabağın bir hissəsi işğal altındadır. Özü də yalnız keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti hüdudlarında yox, həm də keçmiş DQMV hüdudlarından kənarda yerləşən, erməni

əhalisinin, ümumiyyətlə, olmadığı ərazilər də işğal edilib. Biz etnik təmizləməyə məruz qalmışıq, bu gün ərazimizin xeyli hissəsi işğal altındadır.

Yəni bu məsələnin həlli üçün hüquqi baza mövcuddur. Bu, BMT Təhlükəsizlik Şurasının qətnamələridir. Tarixi baza mövcuddur. Ona görə ki, «Qarabağ» sözünün özü Azərbaycan mənşəli sözdür, bu regionun tarixi tarixçilərə və bu mövzu ilə məşğul olanlara yaxşı məlumdur. Ermənistan isə öz hərəkətləri ilə danışıqlar prosesini hər vasitə ilə pozmağa çalışır.

Deməliyəm ki, bu il əvvəlki illərdən danışıqlar prosesinin intensiv xarakteri ilə fərqlənib. Bu il həm də onunla fərqlənib ki, Minsk qrupunun həmsədrləri olan ölkələrin rəhbərləri danışıqlar prosesində fəal iştirak ediblər, əvvəllər heç vaxt belə olmayıb. Avqust ayında prezident Putin Soçidə Azərbaycan və Ermənistan prezidentləri ilə görüş keçirdi. Sentyabr ayında ABŞ-ın Dövlət katibi Kerri bizimlə analoji görüş keçirdi, oktyabrın axırında isə Fransa prezidenti Olland da Azərbaycan və Ermənistan prezidentlərini Parisdə görüşə dəvət etdi və biz həm ikitərəfli, həm də üçtərəfli diskussiyalar keçirdik. Müzakirə mövzuları arasında münaqişənin tənzimlənməsi və danışıqlar prosesi ilə yanaşı, etimad tədbirlərinin gücləndirilməsi, təmas xəttində insidentlərin azalması, tərəflərin bir-birinə daha çox etimad göstərməsi məsələləri də vardı. Hər iki tərəf – həm erməni, həm də Azərbaycan tərəfi Paris görüşünü müsbət qiymətləndirdi və bunu açıq şərhlərində qeyd etdi. Lakin düz 2 həftədən sonra Ermənistan bizim ərazimizin işğal edilmiş hissəsində qondarma hərbi təlimlər keçirməyə başladı. Özü də onlar bu təlimləri Ermənistan və hətta keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti hüdudlarında deyil, Azərbaycanın Ağdam rayonunun ərazisində, bilavasitə təmas xətti boyunca keçirirdilər. Ermənistanın özünün məlumatına görə, orada 47 min hərbi qulluqçu və minlərlə texnika növü iştirak edib. Sual olunur: Parisdəki müsbət görüşdən dərhal sonra provokasiyalar törətməyə nə lüzum vardı?! Üstəlik, həmin təlimlər keçirilən bir neçə gün ərzində Azərbaycan təmkin və səbir nümayiş etdirmiş, buna heç bir reaksiya verməmişdi. Görünür, erməni tərəfi bununla

kifayətlənməmiş və bizim mövqelərə Mi-24 döyüş helikopterləri ilə hərbi hücum etməyə cəhd göstərmişdi. Helikopterlər praktiki olaraq bizim qoşunların mövqelərinə hücum edəndə ordumuz onlardan birini vurmağa məcbur oldu. Bu bizi cavab tədbirlərinə təhrik etmək və bununla da danışıqlar prosesini yenidən pozmaq üçün bundan bir bəhanə kimi istifadə etmək məqsədilə şüurlu surətdə törədilən fitnəkarlıq idi.

Zənnimcə, ATƏT-in Minsk qrupu ermənilərin bu fitnəkarlığına daha dəqiq münasibət bildirməli və onların belə hərəkətlərini pisləməli idi. Lakin bu, baş vermədiyinə görə onlar bildiklərini edirlər. Buna görə 2015-ci ildə tənzimləmənin perspektivləri bir neçə amildən asılı olacaq və həmin amillərdən biri vasitəçilərin erməni tərəfini buna inandırmağı bacarmalarıdır ki, münaqişənin tənzimlənməsi onların da xeyrinədir.

**S u a l: Ümumiyyətlə, Siz müasir münaqişələrin həllində beynəlxalq təsisatların səmərəliliyi barədə nə düşünürsünüz?**

**C a v a b:** Mən buna o qədər də nikbin baxmıram və güman edirəm ki, belə düşünən təkcə mən deyiləm. Dünyada baş verən hadisələr göstərir ki, beynəlxalq təsisatlar öz vəzifələrinin öhdəsindən gələ bilmir, həmçinin onlara bəslənilən ümidləri doğrultmur. Bu, ATƏT-in 20 ildən çoxdur ki, vasitəçi olduğu bizim məsələyə də aiddir. Bu, BMT-nin səlahiyyətində olan məsələlərə də aiddir. Buna görə prinsip etibarilə dünyada beynəlxalq təsisatların deformasiyası gedir. Bu çox narahatedici, təhlükəli meyildir. Hesab edirəm ki, dünyanın aparıcı ölkələri burada öz qəti sözlərini deməlidir, təkcə bəyanatlarla deyil, həm də qəbul edilən qərarlara hörmət göstərməklə. Yaxud da qərarlar qəbul edilmir, amma tədbirlər görülür – biz bunu müasir dünyada yaxın vaxtlarda dəfələrlə görmüşük. Ona görə də mövcud beynəlxalq əməkdaşlıq mexanizminin qırılması sadəcə, total hərc-mərcliyə gətirib çıxaracaq. İndi nə isə təzə bir şey fikirləşib tapmaq çətindir, mövcud beynəlxalq təsisatlarda islahatlar aparmaq daha çətindir, çünki bu istiqamətdə məhdudiyyətlər vardır. Zənnimcə, indiki tarixi mərhələdə yeganə məsuliyyət dünyanın aparıcı ölkələrinin üzərinə düşür. Onlar ilk növbədə, beynəlxalq hüququ

pozmamalıdırlar. Onlar beynəlxalq hüququ dəstəkləməlidirlər. Lakin təəssüf ki, çox vaxt belə olmur.

**S u a l: Bu il biz dünya xəritəsində özünü «İraq Şam İslam Dövləti» adlandıran yeni bir terrorçu qurumun yaranmasını gördük. Bu radikal islamçı qruplaşma get-gedə yeni əraziləri zəbt edir və qonşularına hədə-qorxu gəlir. Deməliyik ki, bu hadisələr Azərbaycandan o qədər də uzaqda baş vermir. Bu təcavüzkar və yetərincə qətiyyətli fenomen barədə Siz nə fikirləşirsiniz?**

**C a v a b:** Əvvələn, vəziyyəti düzgün qiymətləndirmək üçün bu qondarma strukturun necə əmələ gəlməsini, haradan meydana çıxmasını dəqiq başa düşmək lazımdır. Bunlar başqa planetdən uçub gəlməyib, ən azı son 10 ildə Yaxın Şərqdə baş verən hadisələrin nəticəsidir. Yaxın Şərqdə həyata keçirilən siyasətin bəhrəsi və həmin siyasətin nəticəsidir. Bu bir daha sübut edir ki, radikal, fanatik qrupların dəstəklənməsi məsələlərində çox ehtiyatlı və uzaqgörən olmaq lazımdır. Terrorçuları yaxşılara və pislərə bölmək olmaz. Yəni sənin düşməninə qarşı mübarizə aparan terrorçu yaxşı, sənin özünə qarşı mübarizə aparan isə pis terrorçudur. Mənim fikrimcə, öz həllini tapmalı olan başlıca məsələ budur. Bu məsələ dünyanın aparıcı ölkələri tərəfindən həll edilməyincə, radikalizmə və terrorizmə qarşı mübarizədə ümumi anlaşma olmayınca, belə vəziyyətlər daim yaranacaq.

Əlbəttə, deməzdim ki, bu bizim üçün böyük təhlükədir. Amma təbii ki, biz bu mövzunu izləməliyik. Dediyiniz kimi, bizim sərhədlərdən elə də uzaq deyil. Azərbaycanın daxildə radikalizm mənbələri yoxdur. Biz, əlbəttə, müsəlman ölkəsiyik, cəmiyyət öz ənənələrinə, dininə sadiqdir. İslam sülh dinidir. Bizim milli və dini dəyərlərimiz bütün məsələlərin həllinə məhz bu cür sülh yolu ilə yanaşma tələb edir. Azərbaycan dünyəvi cəmiyyəti olan dünyəvi ölkədir, təhsilin yüksək səviyyədə olduğu müasir dövlətdir. Təhsil radikalizmə qarşı başlıca qarantdır. 100 faiz savadlılıq olan ölkədə, savadlı cəmiyyətin daxilində potensial təhlükə ola bilməz. Lakin kənardan baxanda, biz regionun bir hissəsiyik, buna görə də Yaxın Şərqdə, sərhədlərimizin ətrafında baş verən

proseslər, təbii ki, bizi narahat edir. Ona görə ki, bu, cəmiyyətdə ictimai şüura mənfi təsir göstərə bilər və fiziki təhlükə ola bilər. Lakin bizim sərhədlərimiz etibarlı qorunur.

**S u a l: Sonda insanları hələ birləşdirə biləcək bir məsələ barədə, idman haqda danışmağı təklif edirəm. Rusiyada bu il Qış Olimpiadası keçirildi, Azərbaycan 2015-ci ildə Avropa oyunlarına ev sahibliyi edəcək. Siz bu bayrama necə hazırlaşırsınız?**

**C a v a b:** Əvvələn, fürsətdən istifadə edib rusiyalıları Soçidə Olimpiadanın uğurlu keçirilməsi münasibətilə təbrik etmək istərdim. Mən Olimpiya oyunlarının açılışında oldum. Bu gözəl, möhtəşəm tamaşa həm Rusiyanın gücünü, həm müasirliyini, həm inkişafını nümayiş etdirirdi. Biz Rusiyanın uğurlarına, habelə rusiyalıların qələbəsinə çox sevindik. Buna görə ikiqat təbrik edirəm.

Biz isə Avropa oyunlarına hazırlaşırıq. Bu oyunlar ilk dəfə keçiriləcək. Biz çox şadıq ki, Avropa Olimpiya Komitəsi bu hüququ Azərbaycana etibar etdi. Avropa oyunları heç vaxt keçirilməyib. Lap əvvəldən, oyunların Bakıda keçiriləcəyi haqda qərar qəbul edilən vaxtdan biz bu oyunları ən yüksək səviyyədə, Yay Olimpiya oyunları səviyyəsində keçirməyi qərara aldıq.

Bu oyunlar yetərincə miqyaslı olacaq. Biz idmanın 20 növündə yarışacaq 6 mindən çox idmançı gözləyirik. Ümumiyyətlə, bu, Yay Olimpiya oyunları ilə müqayisə edilə bilər. Biz daha çox idmançı və idmanın daha çox növünü qəbul edə bilərdik. Lakin müəyyən edildi ki, bu miqdar kifayətdir. Bizim əsas çətinliyimiz ondan ibarət idi ki, hazırlıq üçün vaxt çox az idi – cəmi 2 il yarım. Lakin biz vaxtı hədər yerə itirmədik. Yeni idman obyektləri tikilir və yeni nəqliyyat infrastrukturu yaradılır. Şəhərimiz bu oyunları gözləyir. Oyunlar yarım ildən sonra keçiriləcək. Bu, böyük Avropa bayramı olacaq. Zənnimcə, Avropa oyunlarının müsəlman ölkəsində keçirilməsi müdrik qərardır. Bu məhz sizinlə danışdığımız mövzu – multikulturalizm, sivilizasiyaların və mədəniyyətlərin qarşılıqlı nüfuz etməsi baxımından müdrik qərarlardan biridir. 2017-ci ildə isə Bakıda İslam Həmrəyliyi oyunları keçiriləcək. Yəni 2 il ərzində Azərbaycan

həm Avropanı, həm də islam dünyasını, arada isə «Formula-1» yarışlarını qəbul edəcək. Yeri gəlmişkən, Soçidə bu yarışlar uğurla keçirildi. Bu münasibətlə də sizi təbrik edirəm. Beləliklə, «Formula» yarışları üçün əvvəlcə Soçi, ondan sonra isə Bakı yeni şəhər olacaq, necə ki, Olimpiada. Buna görə fürsətdən istifadə edib rusiyalıları təkcə Avropa oyunlarına yox, ümumiyyətlə, Bakıya tez-tez gəlməyə dəvət etmək istərdim.

**M ü x b i r: Azərbaycana və Azərbaycan atletlərinə qarşıdakı bütün oyunlarda yeni qələbələr arzulayıram. Sağ olun.**

**İ l h a m Ə l i y e v:** Sağ olun.

## AVROPA KOMİSSİYASININ VİTSE-PREZİDENTİ MAROŞ ŞEVÇOVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Avropa Komissiyasının enerji məsələləri üzrə vitse-prezidenti Maroş Şevçoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Avropa Komissiyasının enerji məsələləri üzrə vitse-prezidenti Maroş Şevçoviç Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin xüsusi əhəmiyyət daşıdığını vurğulayaraq, bu əlaqələrin daha da genişləndirilməsində maraqlı olduğunu dedi. Ölkəmizlə enerji sahəsində əməkdaşlığın önəmini qeyd edən Maroş Şevçoviç «Cənub Qaz Dəhlizi» layihəsi ilə bağlı qəbul edilən qərarın strateji əhəmiyyət daşıdığını dedi.*

*Maroş Şevçoviçi Avropa Komissiyasının enerji məsələləri üzrə vitse-prezidenti vəzifəsinə təyin olunması münasibətilə təbrik edən dövlətimizin başçısı qısa müddət sonra onun Azərbaycana səfər etməsini əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Enerji sektorunda əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev ölkəmizlə Avropa təsisatları arasında əlaqələrin fəal və dinamik şəkildə davam etməsindən məmnunluğunu bildirdi.*

*Azərbaycan ilə Avropa İttifaqı arasında artıq Çərçivə Sazişinin və enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumunun mövcud olduğunu deyən prezident İlham Əliyev «Cənub Qaz Dəhlizi» ilə bağlı çoxlu işlər görüldüyünü vurğuladı. Bu layihəni əməkdaşlığın yeni formatı kimi dəyərləndirən prezident İlham Əliyev onun vaxtında icra edilməsi üçün səmərəli əlaqələndirmənin olmasının vacibliyini qeyd etdi.*

## QAZ İXRAC EDƏN ÖLKƏLƏRİN FORUMUNUN BAŞ KATİBİ SEYİD MƏHƏMMƏD HÜSEYN ADELİ İLƏ GÖRÜŞ

*29 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Qaz İxrac edən Ölkələrin Forumunun baş katibi Seyid Məhəmməd Hüseyn Adelini qəbul etmişdir.*

*Baş katib Seyid Məhəmməd Hüseyn Adeli rəhbərlik etdiyi təşkilat barədə dövlətimizin başçısına məlumat verdi. O, Qaz İxrac edən Ölkələrin Forumuna üzv olan 17 dövlətin ölkəmizlə əməkdaşlıqda maraqlı olduğunu dedi. Azərbaycanın bu sahədə böyük potensiala malik olduğunu vurğulayan Seyid Məhəmməd Hüseyn Adeli qlobal qaz bazarında ölkəmizin mühüm rol oynayacağına əminliyini bildirdi.*

*Ölkəmizin böyük qaz ehtiyatlarına malik olduğunu deyən prezident İlham Əliyev hazırda təbii qazın müxtəlif marşrutlarla nəqlinin uğurla həyata keçirildiyini vurğuladı. Dövlətimizin başçısı Qaz İxrac edən Ölkələrin Forumu ilə əməkdaşlığın təşkilata üzv olan ölkələrlə ikitərəfli əlaqələrin inkişafına da xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «BAKUTEL–2014» XX AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli sərgi və konfrans iştirakçıları!

Sizi ölkəmizin paytaxtı Bakı şəhərində səmimi-qəlbdən salamlayır, «Bakutel–2014» XX Azərbaycan Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları yubiley sərgisi və konfransının işinə müvəffəqiyyətlər arzulayıram.

Son illər gerçəkləşdirilən mühüm layihələr Azərbaycanın dayanıqlı və şaxələnmiş iqtisadi potensialını daha da gücləndirmişdir. Ölkə iqtisadiyyatının prioritet hədəflərindən olan informasiya-kommunikasiya texnologiyalarının inkişafında yüksək göstəricilər əldə edilmişdir və indi əhalinin əksəriyyəti genişzolaqlı internet istifadəçisidir.

«Azərspace-1» ilk telekommunikasiya peykinin orbitə çıxarılması nəticəsində kosmik ölkələr sırasına qoşulan ölkəmizin təşəbbüskarı olduğu «Trans–Avrasiya Super İnformasiya Magistralı» layihəsi Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının qətnamələri ilə dəstəklənmişdir və mərhələlərlə reallaşdırılmaqdadır. İnformasiya cəmiyyətinin inkişafına dair 2014–2020-ci illər üçün Milli Strategiyanın qəbul edilməsi dövlətimizin bu sahədə siyasətinin ardıcıl xarakter daşıdığının bariz nümunəsidir.

«Bakutel» sərgi və konfransı artıq öz uğurlu fəaliyyətinin 20 illiyini qeyd edir. Bu ənənəvi tədbiriniz ötən dövr ərzində qabaqcıl texnoloji nailiyyətlərin və yeniliklərin təqdimatına, biznes əlaqələrinin qurulmasına, təcrübə mübadiləsinə və eləcə də ölkəmizlə yaxından tanışlığa imkan verən tribunaya çevrilmişdir. Şərqlə qərb və şimalla cənub arasında körpü təşkil edən Azərbaycanın tarixi İpək yolunun virtual məkana

keçirilməsinə dair təşəbbüsü mötəbər beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilmişdir.

İnanıram ki, sərgi və konfrans çərçivəsində aparacağınız səmərəli müzakirələr qarşılıqlı əlaqələrin daha da dərinləşdirilməsinə töhfələr verəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 dekabr 2014-cü il*

## ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİNİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*1 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də ölkəmizdə işgüzar səfərdə olan Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşmüşdür.*

*Azərbaycan prezidenti İlham Əliyev Əfqanıstan prezidenti Məhəmməd Əşrəf Qanini qarşıladı.*

*Prezidentlər birgə foto çəkdirdilər.*

*Daha sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü oldu.*

*Prezident İlham Əliyev Məhəmməd Əşrəf Qanini seçkilərdə qazandığı qələbə münasibətilə Azərbaycan xalqı adından və öz adından təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı. «Bu səfər bizim əməkdaşlığımızın, dostluğumuzun göstəricisidir və mən əminəm ki, biz bütün sahələrdə əməkdaşlığımızı davam etdirəcəyik» – deyən Azərbaycan Prezidenti ölkələrimiz arasında çox yaxşı siyasi əlaqələrin olduğunu bildirdi. Qeyd etdi ki, Azərbaycan və Əfqanıstan hər zaman beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir. İqtisadi əməkdaşlıq üçün də yaxşı imkanlar mövcuddur, ticarət dövriyyəsi artır, bu sahədə yaxşı dinamika müşahidə olunur. Bu səfərdən sonra ticarət, investisiya, enerji və digər sahələrdə iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün əlavə tədbirlərin görüləcəyinə ümidvar olduğunu bildirən prezident İlham Əliyev ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığın da mühüm əhəmiyyət kəsb etdiyini vurğuladı. «Biz hər sahədə fəal əməkdaşlığa hazırıq, çünki Əfqanıstan bizim üçün qardaş ölkədir və xalqlarımız*

*əsrlərboyu sülh və dostluq şəraitində yaşayıb» – deyən dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığı daha da genişləndirmək üçün bütün imkanlardan istifadə edilməsinin vacibliyini bildirdi, Əfqanıstan Prezidentinin ölkəmizə səfərinin yaxşı nəticələri olacağına əminliyini ifadə etdi.*

*Əfqanıstan prezidenti Məhəmməd Əşrəf Qani ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə təşəkkür etdi. «İlk növbədə, Sizi Azərbaycanın möhtəşəm uğurları münasibətilə təbrik edirəm» – deyən Əfqanıstan dövlətinin başçısı bu gün prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə baş verən dəyişikliklərin bir örnək olduğunu vurğuladı. Azərbaycan ilə müxtəlif sahələrdə əməkdaşlıq etmək niyyətində olduqlarını bildirən Məhəmməd Əşrəf Qani ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı həyata keçirilən islahatları öyrənmək arzusunu diqqətə çatdırdı. «Sizi Azərbaycanın neftə əsaslanan iqtisadiyyatını çox zəngin, şaxələndirilmiş iqtisadiyyata çevirməyiniz münasibətilə bir daha təbrik edirəm» – deyən prezident Məhəmməd Əşrəf Qani Əfqanıstanda sülhyaratma missiyasına Azərbaycan hərbçilərinin verdiyi töhfəyə görə minnətdarlığını bildirdi. Məhəmməd Əşrəf Qani dövlətimizin başçısına Əfqanıstana yatırılan investisiyalara görə də təşəkkür etdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikir mübadiləsi aparıldı. Dövlət başçıları, həmçinin regional əməkdaşlıq, investisiya, energetika, inşaat, kənd təsərrüfatı, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın perspektivlərini müzakirə etdilər.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev, Əfqanıstan prezidenti Məhəmməd Əşrəf Qani və Əfqanıstanın icra rəisi Abdulla Abdulla çay süfrəsi arxasında söhbəti davam etdirdilər.*

**TAİLAND KRALI ƏLAHƏZRƏT BHUMİBOL ADULYADEJƏ**

Əlahəzrət!

Tailand Krallığının milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tailand xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *2 dekabr 2014-cü il*

## «BAKUTEL–2014» XX AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ İLƏ TANIŞLIQ

*2 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də «Baku Expo Mərkəzi»ndə «Bakutel–2014» XX Azərbaycan Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi ilə tanış olmuşdur.*

*İqtisadi və sosial sahələrin bütün istiqamətlərdə davamlı artım tempinə nail olan Azərbaycan informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsində də dünyanın sürətlə inkişaf edən ölkələri səviyyəsinə yüksəlib. Son illərdə ölkəmizdə bu sahədə beynəlxalq tədbirlər və konfranslar keçirilir. «Bakutel» sərgisi də Xəzər və Qafqaz regionlarında telekommunikasiya, o cümlədən informasiya texnologiyaları sahəsində ən böyük tədbirdir. Artıq 20-ci dəfədir baş tutan «Bakutel» sərgisi keçirildiyi illər ərzində telekommunikasiya bazarında mühüm hadisəyə çevrilib. Bu sərginin beynəlxalq nüfuzu Birləşmiş Millətlər Təşkilatı, Beynəlxalq Telekommunikasiya İttifaqı və Regional Rabitə Birliyinin nümayəndələrinin mütəmadi iştirakı, həmçinin Dünya Sərgi Sənayesi Assosiasiyasının keyfiyyət nişanı ilə təsdiq olunub.*

*Bu gün ölkəmizdə İKT sektoru sürətlə inkişaf edir. Prezident İlham Əliyev ölkədə bu sahənin inkişafını daim diqqət mərkəzində saxlayır. 2013-cü ilin Azərbaycanda «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilməsi də bunun əyani təsdiqidir. Təsadüfi deyil ki, həmin ildə ölkəmiz üçün tarixi hadisə baş verdi – «Azərspace-1» ilk milli telekommunikasiya peyki orbitə çıxarıldı. Bununla da Azərbaycan kosmik ölkələr sırasına qoşuldu. Bundan əlavə, ölkəmizin təşəbbüskarı olduğu*

«Trans–Avrasiya Super İnformasiya Magistralı» layihəsi BMT Baş Assambleyasının qətnamələri ilə dəstəklənib və mərhələlərlə reallaşdırılmaqdadır. İnformasiya cəmiyyətinin inkişafına dair 2014–2020-ci illər üçün Milli Strategiyanın qəbul edilməsi də dövlətin bu sahədə siyasətinin ardıcıl xarakter daşıdığının bariz nümunəsidir. Artıq ölkədə İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun, Yüksək Texnologiyalar Parkının, Elektron Təhlükəsizlik Mərkəzinin, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinin fəaliyyəti təşkil olunub. Yeni yaradılan İnformasiya Texnologiyaları Universiteti də bu sahənin inkişafına olan diqqətin əyani göstəricisidir. Bu mənada informasiya-kommunikasiya texnologiyaları üzrə qazanılan nailiyyətlərin və dünyada tətbiq olunan qabaqcıl yeniliklərin nümayiş etdirildiyi «Bakutel» sərgi-konfransı artıq geniş miqyasda özünəməxsus nüfuza malikdir. Bu il sərgi və konfransın uğurlu fəaliyyətinin 20 illik yubileyinin qeyd edilməsi onun əhəmiyyətini daha da artırır. Ötən 20 il ərzində dünyanın 50 ölkəsindən 2000-dən artıq şirkətin sərgiyə qatılması, xüsusilə də prezident İlham Əliyevin son illərdə bu sərgi ilə tanış olması tədbirin yüksək statusunu bir daha təsdiqləyir.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təşkilatçılığı ilə keçirilən builki yubiley sərgisində dünyanın 23 ölkəsindən 250 şirkət iştirak edir. Onların arasında aparıcı İKT şirkətləri, Azərbaycanın mobil rabitə operatorları, internet provayderləri, sistem inteqratorları və məşhur brendlərin distribüterləri var. Sərgidə telekommunikasiya və şəbəkələr, genişzolaqlı rabitə və yayım texnologiyaları, proqram təminatı və sistemin avtomatlaşdırılması, İT və ofis texnologiyaları, yüksək texnologiyalar, habelə texnoloji yeniliklər və bir sıra digər məhsullar da nümayiş etdirilir.

Rabitə və Yüksək Texnologiyalar naziri Əli Abbasov prezident İlham Əliyevə məlumat verdi ki, artıq ikinci ildir sərgidə Azərbaycan milli pavilyonu yaradılır. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin son illərdə həyata keçirdiyi işlər, habelə İKT sənayesinin inkişafı üzrə gələcək planlar barədə dolğun məlumat

*verən Azərbaycan milli pavilyonu ziyarətçilərin böyük marağına səbəb olur.*

*Prezident İlham Əliyev Milli Nüvə Tədqiqatları Mərkəzinin maketi ilə tanış oldu. Bildirildi ki, artıq mərkəzin sterilizasiya məqsədli qamma şüalanma kompleksi və kiçik aktivlikli qamma şüalanma mərkəzinin binaları hazırdır.*

*Azərbaycan bu il Beynəlxalq Telekommunikasiya İttifaqının Səlahiyyətli Konfransı çərçivəsində sahə üzrə bu mötəbər təşkilatın ali idarəedici qurumu olan Şuraya üzv seçilib. Uzun illər Azərbaycan hökumətinin etibarlı tərəfdaşı olan BMT-nin İKT sahəsi üzrə həyata keçirdiyi layihələrinin nümayiş etdirildiyi pavilyon da burada təşkil olunub. BMT-nin ölkəmizdəki rezident-əlaqələndiricisi Antonius Broek dedi ki, qurum İnkişaf Proqramı çərçivəsində 4 sahə üzrə Azərbaycan hökuməti ilə əməkdaşlıq edir. Bunlar demokratik idarəçilik, davamlı inkişaf, qadınlara səlahiyyətlərin verilməsi və böhranların qarşısının alınmasıdır. BMT Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birlikdə mühüm layihələr həyata keçirir.*

*Qeyd olundu ki, sərgidə Beynəlxalq Telekommunikasiya İttifaqı ilk dəfə olaraq öz stendi ilə iştirak edir. Təşkilatın baş katibi Hamadun Ture dedi ki, İKT sahəsində həyata keçirilən dinamik inkişafın və əldə olunan nailiyyətlərin nəticəsidir ki, Azərbaycan qurumun ali idarəetmə orqanı olan Şuraya üzv seçilib. Qurumun stendində gələn il təşkilatın 150 illiyini və bu illər ərzində baş vermiş texnoloji inkişafı əks etdirən ekspozisiya təqdim edilir.*

*Azərbaycan «Bakı–2015» I Avropa oyunlarına fəal şəkildə hazırlaşır və bu hadisə «Bakutel» sərgisində də geniş əks olunub. «Baku Expo Mərkəzi»nin foyesində yerləşən stend Avropa oyunlarına hazırlıq prosesini, onun texniki və texnoloji məsələlərini, habelə növbəti ilin ən böyük idman bayramı çərçivəsində bizim hər birimizi gözləyən sürprizləri əks etdirir.*

*Bu il Böyük Britaniya, İran, İtaliya, Kanada, İsrail, Türkiyə, Estoniya və bir sıra digər ölkələr sərgidə maraqlı və innovativ layihələri, habelə İKT sahəsi üzrə məhsullarını və xidmətlərini təqdim edirlər.*

*Prezident İlham Əliyev sərginin digər pavilyonları ilə də tanış oldu.*

*Azərbaycanın ilk mobil operatoru olan «Bakcell» indi ölkəmizin aparıcı mobil internet provayderlərindən biridir. Şirkət müasir mobil kommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təqdim edir. Sərgidə şirkətin Azərbaycanda gənclərin, futbolun və regionların inkişafına göstərdiyi dəstəyə həsr olunan xüsusi guşə də yaradılıb.*

*Dövlətimizin başçısı «Delta Telekom» MMC-nin fəaliyyətindən bəhs edən pavilyonda oldu. Bildirildi ki, regionun ən iri telekommunikasiya operatorlarından olan «Delta Telekom» rabitə və telekommunikasiya xidmətlərinin keyfiyyət göstəricilərinə görə ən etibarlı infrastruktura malikdir.*

*«AzerFon» MMC 2007-ci ildən fəaliyyət göstərir. «Narmobile» hazırda Azərbaycanın telekommunikasiya bazarının inkişafında mühüm rol oynayır və xidmət sektorunu daha da genişləndirir. Şirkət Azərbaycanda İKT sahəsinin inkişafına töhfəsini verən və ölkədə mütərəqqi mobil texnologiyaları tətbiq edən ticarət nişanı kimi tanınıb. «Narmobile» həm də «Bakı–2015» ilk Avropa oyunlarının rəsmi mobil rabitə təminatçısıdır.*

*2010-cu ildə «AzQtel» MMC şirkəti tərəfindən yaradılan «SAZZ» əmtəə nişanı da Azərbaycanda 4G Mobile WiMAX texnologiyası əsasında genişzolaqlı simsiz internet xidməti göstərən ən böyük operatordur. İlkin olaraq Bakı və Xırdalan şəhərlərini əhatə dairəsinə daxil edən şirkət qısa vaxtda Abşeron yarımadasının və respublikanın digər 15 şəhərinin internet istifadəçilərinə də simsiz və limitsiz internetin verdiyi imkanlardan faydalanmağa imkan yaradıb. Son bir neçə ayda «SAZZ 4G İnternet» şirkəti Bakı şəhərinin daxilində də mövcud əhatə dairəsinin gücünü əhəmiyyətli dərəcədə artırıb.*

*2013-cü ildə Azərbaycanın ilk telekommunikasiya peyki «Azərspace-1»in uğurla orbitə çıxarılması ilə «Azərkosmos» ASC öz müştərilərinə peyk rabitəsi əsasında yayım və genişzolaqlı internet xidmətləri, eləcə də yüksəketibarlı peyk əsaslı rabitə platformaları təqdim etməyə başlayıb. Sonra prezident İlham*

*Əliyevin iştirakı ilə Azərbaycanın milli peyk operatoru «Azərkosmos» ASC və Fransanın «Airbus Defence and Space» şirkəti arasında müqavilə imzalandı. Bu müqavilə ilə Azərbaycan ilə Fransa arasında kosmik sənaye üzrə strateji əməkdaşlıq çərçivəsində bu ilin iyununda orbitə çıxarılan və yeni adı «Azersky» olacaq «Spot-7» yüksək ayırdetməli Yer səthinin məsafədən müşahidə peyki «Azərkosmos» ASC-yə təhvil verildi. Dövlətimizin başçısı peykdən ilk rəmzi görüntünü əldə etməklə «Azersky» peykinin kommersiya fəaliyyətinə start verdi. Müqaviləyə əsasən «Azərkosmos»a məxsus «Azersky» və «Airbus Defence and Space» şirkətinə məxsus «SPOT-6» yüksək ayırdetməli Yer səthinin məsafədən müşahidə peyki hər iki şirkətin daha yüksək xidmət göstərməsi üçün peyk toplusu formasında birgə istifadə olunacaq. Həmçinin Azərbaycanda quraşdırılacaq yerüstü stansiya «Azərkosmos» ASC-yə kommersiya hüquqları «Airbus Defence and Space» şirkətinə məxsus çox yüksək ayırdetməli Pleiades 1A və 1B peyklərindən istifadə imkanı yaradacaq. Bu peyk toplusu Yer səthinin məsafədən müşahidəsi üçün istifadə olunan tətbiqlərə geniş imkanlar yaradır və ən yeni peyk görüntülərini indiyə qədər mümkün olmayan cəldliklə əldə etmək imkanı verir. «Azersky» və «SPOT-6» peyk toplusu bir gün ərzində 6 milyon kilometr ərazinin şəklini çəkə bilir. Bu o deməkdir ki, Yer kürəsinin hər bir nöqtəsi hər gün «Azersky» və «SPOT-6» peykləri tərəfindən yüksək ayırdetmədə müşahidə oluna bilər. Bütün bunlar Azərbaycanın mövqelərini peyk xidmətləri göstərən azsaylı ölkələr arasında daha da möhkəmləndirəcək.*

*Sonra dövlətimizin başçısı İsrailin sərgidə təmsil olunan şirkətlərinin stendlərinə baxdı. «PİNEAPP LTD» şirkəti təhlükəsizlik üzrə qabaqcıl həll variantlarının təchizatçısı kimi bazara e-poçtun təhlükəsizlik sistemlərini təklif edir. Ümumilikdə, İsrail budəfəki sərgidə 14 şirkətlə təmsil olunur.*

*Prezident İlham Əliyev Böyük Britaniyanın pavilyonunda oldu. Sərgiyə 7 şirkətlə qatılan Böyük Britaniya İKT sahəsində ən son texnologiyaları təqdim edir.*

İran sərgidə «KAVOSHCOM ASİA» şirkəti ilə təmsil olunur. Şirkət telekommunikasiya, elektrik, antenna qüllələri və digər metal avadanlıqların istehsalı ilə məşğuldur.

Sərgidə Rusiya Federasiyasının telekommunikasiya avadanlığı və məhsullarının istehsalı, proqram təminatı, rabitə və texnologiyalarının digər sahələri ilə məşğul olan 10-a yaxın şirkəti iştirak edir. Rusiyanın «İnsol» şirkətinin sistem inteqrasiyası və proqram inkişafı sahəsində nailiyyətlərini əks etdirən ekspozisiyası maraq doğurdu. Şirkət ən böyükləri Rusiya, Ukrayna və Azərbaycanda olmaqla, MDB-yə üzv olan 8 ölkədə ofis və nümayəndəliklərə malikdir.

Sərgidə Yüksək Texnologiyalar Parkı haqqında da geniş məlumat verilir. Dövlətimizin başçısının sərəncamı ilə yaradılan parkın əsas funksiyası İKT, digər yeni və yüksək texnologiyalar üzrə fəaliyyətin genişləndirilməsi, burada çalışan fiziki və hüquqi şəxslər üçün əlverişli şəraitin yaradılması və digər xidmətlərin inkişaf etdirilməsidir.

Qeyd olundu ki, bu il sərgidə yeni iştirakçılar böyük fəallıq göstərirlər. Sərginin debütantları əsas etibarilə Azərbaycanın iqtisadi göstəricilərindəki yüksəlişlə əlaqədar olaraq yerli bazara marağı xeyli artan xarici iştirakçılardır. Debütantların arasında bu il rekord sayda təmsil olunan «startap»lar var. Bütün «startap»lar «Baku Expo Mərkəzi»nin ikinci zalında – Yüksək Texnologiyalar Parkının stendində yerləşir. Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən «startap»lara fəal dəstək göstərilir. Bu cür dəstək «Bakutel» sərgisinin də ənənələrindən biridir. Regionun İKT sektoru üzrə ən böyük tədbirində sənaye liderləri və dövlət strukturları ilə birgə iştirak etmək, eləcə də dövlət və özəl investisiyaları cəlb etmək məqsədilə fərdi layihələri təqdim etmək üçün nadir imkan yaradılır. Bu il ölkənin 30-dan artıq gənc layihəçisi bu imkandan istifadə edib və onlar sərgi çərçivəsində öz innovativ proqram və xidmətləri barədə məlumat verirlər.

Prezident İlham Əliyev sərginin əsas tərəfdaşlarından olan «İNTEL» şirkətinin stendi ilə də yaxından tanış oldu. Şirkət

kompüter innovasiyaları sahəsində dünya üzrə aparıcı mövqe tutur və bütün dünyada kompüter cihazları üçün baza funksiyasını yerinə yetirən zəruri texnologiyaların layihələndirilməsi və istehsalı ilə məşğuldur. Artıq şirkətin təqdim etdiyi virtual siniflər Bakının bir neçə təhsil ocağında tətbiq olunur.

Estoniyanın informasiya-kommunikasiya texnologiyaları şirkətləri «Bakutel–2014» sərgisində milli pavilyonu ilə təmsil olunur. Pavilyonda 18 şirkət müxtəlif innovativ İKT məhsullarını nümayiş etdirir. Sərginin ziyarətçiləri Azərbaycanın mobil elektron imza xidməti olan «ASAN imza» ilə Estoniyada tətbiq olunan analoji «Mobil ID» xidmətinin müqayisəli statistik təhlili ilə tanış olmaq imkanı əldə edirlər.

Dövlətimizin başçısı Türkiyənin stendinə də baxdı. Qeyd edildi ki, qardaş ölkə bu sərginin fəal iştirakçılarından biridir. Budəfəki sərgidə Türkiyənin İKT sahəsində inkişaf etmiş 16 şirkəti təmsil olunub.

«Azercell» 1996-cı ildə təsis edilib və hazırda bazarda lider mövqeyini saxlayır. Şirkət Azərbaycana bir sıra innovativ texnologiyalar və konsepsiyalar gətirib. Ziyarətçilər sərgidə «Azercell»in bir neçə istiqamətdə yeniliklərindən faydalana biləcəklər. Bu innovativ texnoloji həllərə «Mobil sağlamlıq», «Valideyn nəzarət sistemi», Barama İnnovasiya Mərkəzinin təqdim etdiyi təhlükəsizlik sistemi və «Google Glass» eynəyinin 2-ci versiyası daxildir.

Sərgidə ən yeni texnologiyalarla təmsil olunan «Huawei» dünya üzrə aparıcı İKT həlləri təmsil edən şirkətdir. Şirkətin məhsulları 100-ə yaxın ölkədə istifadə olunur. «Huawei» dünyanın ən yaxşı 50 telekommunikasiya operatorlarından 45-nə xidmət göstərir.

«CASPEL» şirkəti Azərbaycan ərazisində informasiya texnologiyaları və telekommunikasiya sahəsində kompleks həll variantlarını təqdim edən ən iri inteqrator şirkətlərdən biridir. Şirkət Azərbaycanın bütün ərazisini əhatə edən özünün fiber-optik şəbəkəsinə malikdir.

*Prezident İlham Əliyev «SİNAM» MMC-nin stendinə də baxdı. Əsası 1994-cü ildə qoyulan «SİNAM» regionda geniş-miqyaslı İT xidmətləri və məhsulları təklif edən aparıcı şir-kətdir. «Elektron hökumət» həllərinin provayderi və sistem inteqratoru kimi tanınan «SİNAM» aparat və proqram təminatı komplekslərindən tutmuş, konsaltinq, dəstəkləmə və zəmanət xidmətləri də daxil olmaqla, bütöv bir zənciri özündə birləş-dirən istifadəyə hazır məhsullar təqdim edir.*

*Qeyd edək ki, builki sərgi və konfransın proqramı həm də əvvəlkilərdən daha geniş və zəngindir. Gündəliyə «Əşyaların interneti», «Elektron hökumət» üzrə beynəlxalq konfransların və digər tədbirlərin daxil edilməsi İKT-yə dair yeni nailiyyət və təşəbbüslərin işgüzar dairələrə çatdırılması, gələcək inkişaf prioritetlərinin müəyyən edilməsi, qarşılıqlı faydalı əmək-daşlığın və təcrübə mübadiləsinin genişləndirilməsi üçün hər-tərəfli imkanlar açacaq.*

*Dövlətimizin başçısı sərgidə «Euronews» telekanalının müxbirinə müsahibə verdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin «Euronews» telekanalına müsahibəsi

**S u a l: Cənab Prezident, innovativ texnologiyaların həyata keçirilməsi baxımından Siz bu müqaviləni necə qiymətləndirirsiniz?**

**C a v a b:** Bu bizim üçün əlamətdar gündür. Bu müqavilənin imzalanması kosmik sənayenin inkişafı baxımından Azərbaycan üçün çoxlu imkanlar açır. Bildiyiniz kimi, biz iqtisadiyyatımızın şaxələndirilməsi siyasətini həyata keçiririk və bu siyasət uğurludur. İnformasiya-kommunikasiya texnologiyaları və kosmik texnologiyalar bizim üçün əsas prioritetlərdən biridir. Yəqin bilirsiniz ki, biz artıq ilk peykimizi orbitə buraxmışıq. Bu ikincidir. Proses davam edəcək. Bu, texnologiya, inkişaf, biznes, təhsil baxımından bir çox imkanlar açır. Eyni zamanda, bu peyk bizə

kənd təsərrüfatı, fövqəladə hallar sahələrində, həyatımızın müxtəlif sahələrindəki imkanlarımızı daha ətraflı qiymətləndirməyə kömək edəcək. Mən bu müqaviləni yüksək qiymətləndirirəm. Bu, Fransa ilə Azərbaycan arasında ikitərəfli səviyyədə beynəlxalq əməkdaşlığın yaxşı nümunəsidir, çünki bu layihə hər iki prezident tərəfindən dəstəklənir. Eyni zamanda, «Azərkosmos» və «Airbus» arasında yaxşı əməkdaşlıq mövcuddur.

**S u a l: Cənab Prezident, yəqin razılaşarsınız ki, «Bakutel» sərgisi telekommunikasiya nəhənglərini bir araya gətirir. Bu yüksək səviyyəli mütəxəssislər üçün növbəti prioritet nədən ibarət olmalıdır?**

**C a v a b:** «Bakutel»in böyük tarixi var. Artıq 20 ildir ki, biz bu sərgini keçiririk. Bu onu göstərir ki, İKT-nin inkişafı baxımından Azərbaycan regionun mərkəzlərindən biridir. Bildiyiniz kimi, biz neft-qaz sahəsinin inkişafı, neft-qaz infrastrukturu baxımından da regionun mərkəzlərindən biriyik. Lakin bir neçə il bundan əvvəl biz iqtisadiyyatı neft iqtisadiyyatından qeyri-neft iqtisadiyyatına çevirməyi qərara aldıq və transformasiya çox uğurludur. Biz qara qızıl olan nefti insan kapitalına çevirmək siyasətini həyata keçiririk. Bu səbəbdən «Bakutel» şirkətlərin Azərbaycanda fəaliyyət göstərməsi, Azərbaycanın artan iqtisadiyyatından faydalanması üçün bir çox imkanlar açır. Eyni zamanda, bu bizə müasir beynəlxalq ekoloji inkişafın bir hissəsi olmağa imkan verir. Sonuncusu isə təhsildir. Minlərlə azərbaycanlı gənc burada hazırlanır, müxtəlif beynəlxalq şirkətlərdə çalışır və təhsil kurslarında iştirak edir. Bu, ölkənin inkişafına, müasirləşməsinə, uğurlu gələcəyinə olduqca müsbət təsir göstərir.

**M ü x b i r: Bizə vaxt ayırdığınız və cavablarınız üçün təşəkkür edirəm.**

**İ l h a m Ə l i y ev:** Mən də sizə təşəkkür edirəm.

# BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN TİCARƏT ELÇİSİ ÇARLZ HENDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Böyük Britaniya Baş nazirinin Azərbaycan, Qazaxıstan və Türkmənistan üzrə ticarət elçisi, parlamentin üzvü Çarlz Hendrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu və dinamik inkişaf etdirildiyini vurğuladı. Prezident İlham Əliyev Böyük Britaniya şirkətlərinin ölkəmizdə qeyri-enerji sektorunun inkişafında fəal iştirak etməsindən məmnunluğunu bildirdi və bunu tərəfdaşlığımızın yaxşı əlaməti kimi dəyərləndirdi. Dövlətimizin başçısı İlham Əliyev Çarlz Hendrinin Bakıda keçirilən «Bakutel–2014» telekommunikasiya və informasiya texnologiyaları sərgisində iştirakının önəmini vurğuladı. Azərbaycan Prezidenti ölkələrimiz arasında neft-qaz, sənaye, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlıq üçün böyük potensialın olduğunu dedi.*

*Bakıda keçirilən «Bakutel–2014» telekommunikasiya və informasiya texnologiyaları sərgisində iştirakından məmnunluğunu bildirən Çarlz Hendri bu sahədə əməkdaşlığın gələcək illərdə də davam etdiriləcəyinə ümidvar olduğunu vurğuladı. Çarlz Hendri Böyük Britaniya şirkətlərinin Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən metro tikintisi sahəsində əməkdaşlıqda maraqlı olduqlarını bildirdi.*

## BEYNƏLXALQ TELEKOMMUNİKASİYA İTTİFAQININ BAŞ KATİBİ HAULİN ZAON İLƏ GÖRÜŞ

*2 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Beynəlxalq Telekommunikasiya İttifaqının yeni seçilmiş baş katibi Haulin Zaonu qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük uğurların əldə edildiyi vurğulandı, «Bakutel–2014» telekommunikasiya və informasiya texnologiyaları sərgisinin ənənəvi olaraq hər il Bakıda keçirilməsinin və tədbirə olan marağın ildən-ilə artmasının önəmi qeyd edildi, sərginin bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# TÜRKİYƏNİN ELM, SƏNAYE VƏ TEXNOLOGİYALAR NAZİRİ FİKRİ İŞIKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Türkiyə Respublikasının Elm, Sənaye və Texnologiyalar naziri Fikri İşıkın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Fikri İşık Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Əhməd Davudoğlunun salamlarını dövlətimizin başçısına çatdırdı. O, Bakıda keçirilən «Bakutel–2014» telekommunikasiya və informasiya texnologiyaları sərgisinin əhəmiyyətini vurğuladı. Fikri İşık Bakıda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının elm və texnologiyalar üzrə nazirlər toplantısında iştirak edəcəklərindən məmnun olduqlarını dedi.*

*Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə dekabrın 1-dəki telefon söhbətini xatırladan prezident İlham Əliyev bir daha Türkiyə tərəfindən Azərbaycanın «G20»nin tədbirlərinə və zirvə toplantısına dəvət edilməsini ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin yaxşı göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında bütün sahələrdə uğurla inkişaf edən əməkdaşlığı elm və yüksək texnologiyalar sahəsində daha da genişləndirməyin önəmini qeyd etdi.*

*Türkiyəli nazir bildirdi ki, biz hamımız Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin «bir millət – iki döv-*

*lət» fəlsəfəsinin daha da möhkəmləndirilməsində səylərimizi əsirgəməməliyik.*

*Dövlətimizin başçısı İlham Əliyev prezident Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Əhməd Davudoğlunun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Respublikasının Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

**FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAULİ NİİNİSTÖYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Finlandiya əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Finlandiya xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *3 dekabr 2014-cü il*

# XƏTAİ RAYONU ƏRAZİSİNDƏKİ FƏVVARƏLƏR VƏ ŞƏLALƏLƏR KOMPLEKSİNDƏ İŞLƏRİN GEDİŞİ İLƏ TANIŞLIQ

*3 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də paytaxtın Xətai rayonu ərazisindəki fəvvarələr və şəlalələr kompleksində həyata keçirilən tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısının tapşırığı ilə Bakı şəhərində parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığı üçün istirahət guşələrinin yaradılması istiqamətində ardıcıl tədbirlər davam etdirilir. Salınan yeni parklar və yaşıllıq zolaqları, bağlarda və xiyabanlarda ən müasir tələblərə cavab verən infrastrukturun yaradılması, müasir iaşə obyektləri Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi məqsədinə xidmət edən əhəmiyyətli tədbirlərdəndir.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Qeyd edildi ki, 150 metr uzunluğunda olan kompleks ən müasir tələblər səviyyəsində qurulacaq. Fəvvarələr və şəlalələr kompleksinin altında müasir texniki infrastruktur və idarəetmə mərkəzi yerləşəcək. Müxtəlifrəngli 700-dən artıq işıq effekti fəvvarələrə xüsusi yaraşıq verəcək. Kompleksin ətraf ərazilərində abadlıq və yaşıllaşdırma işləri aparılacaq, qranit plitələr döşənəcək, ən müasir işıqlandırma sistemi qurulacaq.*

*Fəvvarələr və şəlalələr kompleksində işlərin gedişi ilə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## SERBİYA RESPUBLİKASI PARLAMENTİNİN SƏDRİ MAYA QOYKOVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Serbiya Respublikası Parlamentinin Sədri xanım Maya Qoykoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Serbiya arasında dostluq münasibətlərinin mövcud olduğunu vurğulayan dövlətimizin başçısı siyasi əlaqələrimizin yüksək səviyyəsindən məmnunluğunu ifadə etdi və bunun iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı zəmin yaratdığını bildirdi.*

*Xanım Maya Qoykoviç ölkəsinin iqtisadi əməkdaşlığın genişləndirilməsində və Azərbaycanın Serbiya iqtisadiyyatına investisiya qoymasında maraqlı olduğunu bildirdi. Parlament Sədri ölkələrimizin beynəlxalq təşkilatlarda da uğurlu əməkdaşlıq etdiyini dedi.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü əsasında həllini dəstəklədiyini deyən xanım Maya Qoykoviç Kosovo ilə bağlı Azərbaycanın mövqeyinə görə minnətdarlığını bildirdi. Parlament Sədri ölkəsində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin abidəsinin ucaldılmasını, eləcə də dahi bəstəkar Üzeyir Hacıbəylinin Serbiyada, Bakıda isə serb xalqının böyük oğlu Nikola Teslanın abidələrinin açılışını ölkələrimiz arasında dostluq əlaqələrinin yaxşı göstəricisi kimi dəyərləndirdi. O, Serbiyada məscid və kilsənin əsaslı şəkildə yenidən qurulmasına və bu yaxınlarda daşqınlar zamanı ilk ölkələrdən biri olaraq Azərbaycanın*

*göstərdiyi yardıma görə* serb *xalqı və şəxsən öz adından* prezident *İlham Əliyevə minnətdarlıq* etdi.

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Serbiyanın mövqeyini yüksək qiymətləndirən* prezident *İlham Əliyev Azərbaycanın* da Kosovo *ilə əlaqədar* Serbiyanın *mövqeyini dəstəklədiyini* bir daha *vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında nəqliyyat,* investisiya qoyu*luşu,* energetika *və digər sahələrdə əməkdaşlıqla bağlı* fikir *mübadiləsi aparıldı.*

## BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ

Əlahəzrət!

Bəhreyn Krallığının Milli Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Bəhreyn münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq daim dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Bəhreyn xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *12 dekabr 2014-cü il*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli Nursultan Abişeviç!

Sizi və Sizin şəxsinizdə bütün qardaş Qazaxıstan xalqını milli bayramınız – Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Qazaxıstanı sıx qardaşlıq telləri, tarixən yaranmış dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətləri bağlayır. Bu gün Sizin rəhbərliyinizlə qardaş Qazaxıstan ölkənin dünya birliyində nüfuzunun möhkəmləndirilməsi yolunda inamla irəliləyir. Bu yaxınlardakı görüşlərimizi və söhbətlərimizi yüksək qiymətləndirir və böyük səmimiyyətlə xatırlayıram.

Əminəm ki, Azərbaycan ilə Qazaxıstan arasında ənənəvi dostluq münasibətlərinin hərtərəfli inkişaf etməsi və möhkəmlənməsi, çoxplanlı qarşılıqlı əlaqələr və qarşılıqlı dəstək bundan sonra da xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət edəcəkdir.

Hörmətli Nursultan Abişeviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uğurlar və firavanlıq, qardaş Qazaxıstan xalqına isə sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *12 dekabr 2014-cü il*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2014-cü il*

*Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 11 il keçir. Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün ilboyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıtmış, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınmış böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.*

*Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 11-ci ildönümü günü – dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın ümummilli liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirlər.*

*Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev əslində sosial-iqtisadi böhran keçirən Azərbaycanı ötən əsrin 70–80-ci illərində keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suve-*

*renliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.*

*1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük qayıdış idi və ulu öndər özünün müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.*

*Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.*

*Milli Məclisin deputatları, nazirlər, komitə, şirkət və idarə rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.*

*Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.*

*Azərbaycanın Dövlət himni səsləndi.*

*Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.*

*Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.*

*Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov və digər rəsmi şəxslər iştirak etdilər.*

## BEYNƏLXALQ ATÇILIQ FEDERASİYASININ PREZİDENTİ HAYA BİNT ƏL-HÜSEYN İLƏ GÖRÜŞ

*12 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Beynəlxalq Atçılıq Federasiyasının prezidenti şahzadə Haya bint əl-Hüseyni qəbul etmişdir.*

*Şahzadə Haya bint əl-Hüseyn İordaniya Haşimilər kralı II Abdullahın və Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubay Əmiri əlahəzrət şeyx Məhəmməd bin Rəşid əl-Məktumun salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Beynəlxalq Atçılıq Federasiyası Baş Assambleyasının illik iclasının Bakıda keçirilməsinin önəmi qeyd olundu, ölkəmizdə idmana, o cümlədən atçılıq idman növünün inkişafına dövlət səviyyəsində göstərilən diqqətdən məmnunluq ifadə edildi, Azərbaycanda müasir idman infrastrukturunun yaradılması istiqamətində görülən işlərin əhəmiyyəti vurğulandı.*

*Söhbət zamanı I Avropa oyunlarının Azərbaycanda keçirilməsi ölkəmizin idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə verdiyi töhfənin nəticəsi kimi dəyərləndirildi.*

*Dövlətimizin başçısı İordaniya Haşimilər Kralının və Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubay Əmirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniya Kralına və Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş nazirinə, Dubay Əmirinə çatdırmağı xahiş etdi.*

## QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİYƏ

Əlahəzrət!

Qətər Dövlətinin Milli Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Əminəm ki, Azərbaycan–Qətər dostluğu və əməkdaşlığının inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Qətər xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *15 dekabr 2014-cü il*

## MALTA RESPUBLİKASININ BAŞ NAZİRİ COZEF MUSKATIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Malta Respublikasının Baş naziri Cosef Muskatın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Malta arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. Əməkdaşlığımızın genişləndirilməsindən məmnunluğunu bildirən prezident İlham Əliyev Malta Respublikasının Baş naziri Cosef Muskatın ölkəmizə səfərinin ikitərəfli əlaqələrin perspektivlərinin müəyyənləşdirilməsi üçün yaxşı imkan yaratdığını dedi.*

*Ölkəsinin Azərbaycan ilə münasibətlərin inkişafına böyük önəm verdiyini deyən Maltanın Baş naziri Cosef Muskat səfəri zamanı əlaqələrimizin həm ikitərəfli, həm də Avropa İttifaqı çərçivəsində inkişaf perspektivləri ilə bağlı səmərəli müzakirələrin aparılacağına ümidvar olduğunu qeyd etdi. Əməkdaşlığımızın genişləndirilməsindən məmnunluğunu bildirən Cosef Muskat iqtisadi sahədə əlaqələrin inkişaf etdirilməsində böyük qarşılıqlı marağın olduğunu diqqətə çatdırdı. O, enerji sahəsində, o cümlədən Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə əməkdaşlığın iqtisadi əlaqələrimizin genişləndirilməsi baxımından önəmini vurğuladı. Baş nazir digər sahələrdə də əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi. Ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi üçün bir sıra sənədlərin üzərində fəal iş aparıldığını deyən Cosef Muskat Azərbaycan ilə imzalanacaq Anlaşma Memorandumunun bu baxımdan əhəmiyyətini vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak etdiyi layihənin ikitərəfli münasibətlərimizin inkişafında yeni imkanların açılması işinə xidmət edəcəyini dedi. Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın Avropa İttifaqı çərçivəsində də inkişafının əhəmiyyətini qeyd etdi. Energetika, nəqliyyat, ticarət və investisiya qoyuluşu sahələrində əlaqələrimizin genişləndirilməsi üçün yaxşı imkanların olduğunu deyən prezident İlham Əliyev Malta ilə iqtisadi əlaqələrin regional əməkdaşlıq işinə də töhfə verə biləcəyini bildirdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## POLŞA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ YANUŞ PEXOÇİNSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Polşa Respublikası Baş nazirinin müavini, İqtisadiyyat naziri, Azərbaycan–Polşa iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası Komissiyanın Polşa tərəfindən həmsədri Yanuş Pexoçinskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Polşa arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan prezident İlham Əliyev ölkələrimizin ticarət dövriyyəsinin artdığını da məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı ölkələrimizin iqtisadi, sərmayə qoyuluşu və digər sahələrdə əməkdaşlığının genişləndirilməsi üçün də böyük potensialın olduğunu dedi. Prezident İlham Əliyev ikitərəfli əlaqələrimizin inkişafının regional əməkdaşlıq baxımından önəmini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan Respublikası və Polşa Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası Komissiyanın iclasının uğurlu olacağına əminliyini bildirdi.*

*Azərbaycanda gedən böyük inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını deyən Yanuş Pexoçinski əldə olunan uğurlar münasibətilə dövlətimizin başçısını təbrik etdi. O, Polşa Respublikasının Prezidenti Bronislav Komorovskinin və Polşanın Baş naziri xanım Eva Kopaçın salamlarını dövlətimizin başçısına çatdırdı. Ölkələrimiz arasında qarşılıqlı iqtisadi münasibətlərə toxunan Yanuş Pexoçinski Azərbaycana Polşa iş adamlarından ibarət böyük nümayəndə heyəti ilə səfər etdiyini*

vurğuladı və ölkəmizin əməkdaşlıq üçün cəlbedici olduğunu məmnunluqla qeyd etdi. Yanuş Pexoçinski Azərbaycanda qeyri-neft sektorunda əldə edilən uğurların da ölkəsində maraqla izlənildiyini dedi.

Dövlətimizin başçısı prezident Bronislav Komorovskinin və Baş nazir xanım Eva Kopaçın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Polşanın dövlət başçısına və Baş nazirinə çatdırmağı xahiş etdi.

## SABİRABAD RAYONUNA SƏFƏR

*15 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sabirabad rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı rayonda bir sıra infrastruktur və sosial təyinatlı obyektlərin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev əvvəlcə Sabirabad şəhərinin mərkəzi meydanında ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov dövlətimizin başçısına meydanda aparılan abadlıq işləri barədə məlumat verdi.*

### Nizami–Əliləmbəyli–Azadkənd–Sarxanbəyli avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sabirabad rayonuna səfəri çərçivəsində Nizami–Əliləmbəyli–Azadkənd–Sarxanbəyli avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Son dövrlərdə prezident İlham Əliyevin həyata keçirdiyi sosialyönümlü siyasət nəticəsində bölgələrimizdə mühüm infrastruktur layihələri reallaşdırılır. Bu layihələr arasında yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi, yeni körpülərin və yolayrıcılarının, qovşaqların tikilməsi, magistral yolların salınması mühüm əhəmiyyət daşıyır. Ötən il prezident İlham Əliyevin Sabirabad rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında sərəncamına uyğun olaraq Nizami–Əliləmbəyli–Azadkənd–Sarxanbəyli avtomobil yolunun tikintisi məqsədi ilə 2013-cü il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə kəndlərarası avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin ilkin olaraq 6 milyon manatı Sabirabad Rayon İcra Hakimiyyətinə ayrılıb. Yolun inşası zamanı ən müasir texnoloji*

*üsullardan istifadə edilib, işlərin keyfiyyətlə, həm də qısa zamanda həyata keçirilməsinə xüsusi diqqət yetirilib.*

*Dövlətimizin başçısına yolun texniki-iqtisadi göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, 22 min nəfərin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən bu yol ən müasir səviyyədə inşa edilib. Uzunluğu 46 kilometr olan yolun inşası zamanı 36 su keçidi tikilib, yol kənarlarında 900-ə yaxın yol nişanı və siqnal dirəyi, 12 dayanacaq quraşdırılıb. Texniki göstəricilərinə görə 4-cü dərəcəli yol sakinlərin rahatlığı ilə yanaşı, həm də hərəkət iştirakçılarının təhlükəsizliyini təmin edəcək. Bu cür kəndarası yolların inşası sosialyönümlü tədbirlər olmaqla yanaşı, həm də ölkəmizin iqtisadi qüdrətinin nümayişi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu tədbirlər sübut edir ki, ölkədə həyata keçirilən infrastruktur layihələri Azərbaycanın hər bir bölgəsini, rayonunu və kəndini əhatə edir, həmçinin regionlarda yol-nəqliyyat infrastrukturunun daha da müasirləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

**Əsaslı şəkildə yenidən qurulan Sabirabad rayon Mədəniyyət evində yaradılan şəraitlə tanışlıq**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də əsaslı şəkildə yenidən qurulan Sabirabad rayon Mədəniyyət evində yaradılan şəraitlə tanış olmuşdur.*

*Bu gün Azərbaycanda bütün sahələrə olduğu kimi, mədəniyyət sahəsinə də xüsusi diqqət göstərilir. İndi paytaxtla yanaşı, respublikanın bölgələrində də fəaliyyət göstərən mədəniyyət ocaqları əsaslı təmir edilir və yeniləri tikilir. Sabirabad rayon Mədəniyyət evinin binasının əsaslı şəkildə təmir edilməsi ölkədə mədəniyyətin və incəsənətin inkişafına diqqətin daha bir göstəricisidir.*

*Qeyd edildi ki, Mədəniyyət evi 1976-cı ildə istifadəyə verilib. O vaxtdan bəri burada əsaslı təmir işləri aparılmayıb. İndi*

*yenidən qurulan bu bina ən müasir səviyyəyə çatdırılıb, incəsənət adamlarının fəaliyyəti üçün geniş imkanlar yaradılıb.*

*Bildirildi ki, Mədəniyyət evinin ikimərtəbəli binasında əsaslı təmir işlərinə 2013-cü ilin aprelində başlanılıb və bu ilin dekabrında başa çatdırılıb. Bölgələrdə mədəniyyət ocaqlarının yenidən qurulması, müasir tipli yeni mədəni infrastrukturun yaradılması bu sahənin regionlarda hərtərəfli inkişafına stimul verir. Bütün bu tədbirlər bir daha onu göstərir ki, qədim və zəngin mədəni dəyərlərə malik olan Azərbaycanda mədəniyyət məsələləri daim diqqətdə saxlanılır. Bu gün mədəniyyət xadimləri, incəsənət adamları ən yüksək səviyyədə qayğı ilə əhatə olunublar. Onların sosial məsələlərinin həllinə dövlət səviyyəsində həmişə diqqət göstərilib.*

*Binada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə mədəniyyətin inkişafına göstərdikləri qayğıdan bəhs edən fotostend yaradılıb. Ulu öndər Heydər Əliyevin 1976-cı ildə Sabirabada səfəri zamanı bu Mədəniyyət evinin açılışında iştirakının əbədiləşdiyi foto diqqəti xüsusilə cəlb edir.*

*Diqqətə çatdırıldı ki, binanın 377 yerlik akt zalında Sabirabadın mədəni həyatında baş verən hadisələri qeyd etmək, həmçinin respublika və rayon əhəmiyyətli müxtəlif tədbirləri keçirmək üçün hər cür şərait var. Bütün bunlar rayonun mədəniyyət və incəsənət işçilərinə yeni uğurlar əldə etmək üçün həm stimul verir, həm də geniş imkanlar yaradır.*

*Mədəniyyət evinin zəngin kitab fondu, oxu zalı və 20 yerlik konfrans zalı da var. Musiqi alətləri otağı, rəqs zalı, ədəbiyyat, muğam, aşıq sənəti, təsviri incəsənət, evdarlıq, heykəltəraşlıq dərnəkləri gənclərin asudə vaxtlarını səmərəli keçirmələri baxımından mühüm əhəmiyyət kəsb edir.*

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə Sabirabadda inşa olunan uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə Sabirabadda inşa olunan uşaq bağçasının açılışı mərasimində iştirak etmişdir.*

*Ölkənin gələcəyi olan uşaqların təlim-tərbiyəsinin yüksək səviyyədə təşkili, onların sağlamlığının qorunması dövlətimizin daim diqqət mərkəzindədir. Heydər Əliyev Fondu da bu istiqamətdə mühüm layihələr həyata keçirir. Fondun məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması ilə bağlı həyata keçirdiyi layihələr bu baxımdan mühüm rol oynayır. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun «Məktəbəqədər təhsil müəssisələrinin inkişafı» Proqramı bir daha sübut edir ki, uşaqların təlim-tərbiyəsi Fondun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Fondun təhsilin inkişafı ilə bağlı fəaliyyətində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Sabirabad rayonunda inşa edilmiş 100 yerlik uşaq bağçası bir daha göstərir ki, Fondun həyata keçirdiyi bu cür layihələr ardıcıl xarakter alıb.*

*Dövlətimizin başçısı uşaq bağçasının binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bağçada 3 yaşdan 6 yaşadək 100 uşaq 4 qrupda təlim-tərbiyə alacaq. Burada qruplar yaradılarkən müasir təlim-tərbiyə prosesləri əsas götürülüb. Binada uşaqların istirahəti və əyləncəsi üçün geniş imkanlar var. Bağçada balacaların intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması diqqət mərkəzində saxlanılır.*

*Uşaq bağçasının ərazisində abadlıq işləri görülüb, yaşıllıqlar salınıb, yay çardağı, oyun meydançası yaradılıb, su anbarı və transformator yarımstansiyası quraşdırılıb.*

## SABİRABAD ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*16 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sabirabad şəhərinə içməli suyun verilməsi mərasimində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

*Sabirabad şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması Azərbaycan hökuməti və Dünya Bankı tərəfindən birgə maliyyələşdirilən «Milli su təchizatı və kanalizasiya xidmətləri» layihəsi çərçivəsində həyata keçirilir. Layihə 2030-cu ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla, Sabirabad şəhəri, Qalaqayın, Suqovuşan, Kürkənd, Əsədli, Bulaqlı, Balakənd kəndlərində 50 min nəfərdən artıq insanın su təchizatının yaxşılaşdırılmasına hesablanıb. Sabirabad və Saatlı şəhərlərində istehlakçıların keyfiyyətli və dayanıqlı su təchizatının təmin edilməsi məqsədilə Hacıqabul rayonu ərazisində yerləşən və Abşeron yarımadasını içməli su ilə təmin edən Kür sutəmizləyici qurğularından 62 kilometr uzunluğunda magistral su kəməri tikilib.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına məlumat verdi ki, «Sabirabad şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsinin icrasına başlanandan indiyə qədər şəhərdə layihələşdirilmiş 151 kilometr uzunluğunda daxili su şəbəkəsinin 130 kilometrlik hissəsi tikilib, 3640 ünvana ev birləşmələri verilib. İçməli su və kanalizasiya xidmətlərindən istifadənin dəqiq uçotunun aparılması məqsədilə hər bir abunəçinin «smart-kart» tipli sayğacla təmin edilməsi nəzərdə*

*tutulur. Hazırda paylayıcı su şəbəkəsinin və hər birinin tutumu 5 min kubmetr olan 2 su anbarının inşası davam etdirilir. Layihənin davamı olaraq Sabirabad şəhərində 135 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi inşa olunacaq. Tullantı suların təmizlənib zərərsizləşdirilməsi məqsədilə Sabirabad şəhərinin kənarında məhsuldarlığı sutkada 80 min kubmetr olan çirkab sutəmizləyici qurğu tikiləcək. Gələcəkdə Saatlı şəhərinin tullantı suları da burada təmizlənib zərərsizləşdiriləcək. Layihənin icrası 2017-ci ildə başa çatdırılacaq.*

*Layihənin icrasına qədər olan vəziyyət barədə məlumat verilərkən bildirildi ki, Sabirabad şəhərinin mərkəzləşdirilmiş içməli su təchizatı sistemi ötən əsrin 70-ci illərində yaradılıb. «Azərsu» ASC hazırda şəhərin 28500 sakinindən 11 mininə və ya təqribən 39 faizinə xidmət göstərir və onlar Kür çayının suyundan istifadə edirlər. Mərkəzləşdirilmiş qaydada su alan əhaliyə hər gün qrafik üzrə 4-5 saat su verilir. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyir. Şəhərin kiçik bir hissəsi kanalizasiya şəbəkəsi ilə təmin olunub. Şəbəkənin uzunluğu təqribən 15 kilometrdir.*

*Qeyd edildi ki, Kür sutəmizləyici qurğuları, Sabirabad–Saatlı magistral su kəməri 2030-cu ilə perspektiv inkişaf nəzərə alınmaqla, Sabirabad şəhəri və rayonunun 28 kəndinin 100 min, Saatlı şəhəri və rayonun 12 kəndinin 47 min, Hacıqabul rayonunun 4 kəndinin 10 min əhalisinin içməli suya olan tələbatını ödəyəcək. Sabirabad və Saatlı şəhərlərinin dayanıqlı su təchizatına nail olmaq üçün magistral kəmərin üzərində ümumi tutumu 20 min kubmetr olan 4 anbarın inşası davam etdirilir.*

*Sonra dövlətimizin başçısı Sabirabad rayon ictimaiyyətinin nümayəndələrini salamladı.*

**İ l h a m Ə l i y e v:** Sizi ürəkdən salamlayıram. Bu gün gözəl bir gündür. Sabirabad rayonunda içməli su layihəsi artıq başa çatıb, istifadəyə verilir. Biz artıq həm Sabirabad, həm Saatlı şəhərlərini təmiz içməli su ilə təmin edəcəyik.

**S a k i n:** Sizə minnətdarıq, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Eyni zamanda, 2 rayonun 40 kəndinə də bu sudan veriləcək və beləliklə, biz böyük bir sosial məsələni həll etmiş oluruq. Tamamilə yeni bir layihədir. İçməli su bu bölgədə və bütövlükdə Azərbaycanın müxtəlif bölgələrində ən ciddi məsələlərdən biridir. Biz bunu da tədricən həll edirik. Azərbaycanda içməli su layihələri geniş vüsət almışdır və o cümlədən bu zonanın problemləri də öz həllini tapır.

Bilirəm, bu problem uzun illərdir ki, insanları incidirdi. İnsanlar haqlı olaraq istəyirdilər ki, keyfiyyətli içməli su verilsin. Stendlərdə göstərildiyi kimi, indi burada təmizləyici qurğular, süzgəclər, hər şey yüksək səviyyədədir və bu, beynəlxalq səviyyəyə uyğun içməli sudur.

İçməli su bildiyiniz kimi, insan orqanizmi üçün başlıca amildir. Təmiz, keyfiyyətli içməli su insanın sağlamlığı üçün böyük əhəmiyyətə malikdir. Beləliklə, bu böyük sosial məsələnin həlli artıq reallaşır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

**S a k i n l ə r:** Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Yenidən Sabirabadda olmağımdan çox məmnunam. Sabirabad rayonunda dəfələrlə olmuşam.

**S a k i n:** Arzu edirik ki, tez-tez olasınız, inşallah.

**İ l h a m Ə l i y e v:** Bəli, tez-tez oluram. Demək olar ki, hər il gəlirəm.

**S a k i n:** Allah Sizi qorusun, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Burada çox böyük işlər görülür. Bu gün bir neçə obyektin açılışında iştirak etmişəm. O cümlədən kənd yolları tikilir. Artıq bu gün açılan yol bir neçə kəndi birləşdirir. Minlərlə insan o yoldan istifadə edəcək. Gündəlikdə yenə də yol layihələri var. Biz onları da tədricən həll edəcəyik. Çünki kənd yolları indi bizim üçün içməli su kimi vacib olan məsələlərdəndir. İnsanların rahatlığı, eyni zamanda, hər bir rayonun inkişafı üçün kənd yolları böyük əhəmiyyət daşıyır. Kənd yolları yaxşı olanda inkişaf da gedir, biznes imkanları da artır. Biz bunu insanların rahatlığı üçün edirik və edəcəyik. Artıq bir çox məsələlər həllini

tapıb. Ancaq hələ yaxşı vəziyyətdə olmayan kənd yolları var ki, biz gələcək illərdə onları da həll edəcəyik.

**S a k i n l ə r:** İnşallah.

**İ l h a m Ə l i y e v:** Yadımdadır, keçən dəfə biz körpünün açılışını qeyd etdik. O da Sabirabad sakinləri tərəfindən irəli sürülmüş bir təklif idi. Çalışırıq ki, sizin bütün təkliflərinizi yerinə yetirək. Çünki bu bizim iş prinsipimizdir. Azərbaycan xalqı daha da yaxşı yaşamalıdır. Hər bir bölgədə quruculuq, inkişaf daha da sürətlə getməlidir. Sosial məsələlərin həlli də bizim üçün prioritetdir və bu, sosial məsələdir. Bu gün açılışını etdiyimiz kənd yolu, uşaq bağçası, tikilən məktəb binası da sosial məsələdir.

Ancaq hələ görüləsi işlər çoxdur, o cümlədən Sabirabad rayonunda. Qəzalı vəziyyətdə məktəblər var. Onların da təmiri, digər infrastruktur layihələrinin həyata keçirilməsi nəzərdə tutulur. Qazlaşdırma aparılır. Şəhər tamamilə qazlaşdırılıb, bir neçə kənddə qazlaşdırma işləri başa çatdırılıb və bu iş davam etdirilir. Bu gün şəhərin içməli su problemi həll olunur. Kənd yolları tikilir, şəhər gözəlləşir. Vaxtı ilə ulu öndər tərəfindən irəli sürülmüş təşəbbüs əsasında tikilmiş Mədəniyyət evi əsaslı təmirdən sonra yenidən açılıb. Gözəl park yaradılıb. Keçən dəfə Heydər Əliyev Mərkəzinin açılışını birlikdə qeyd etmişik.

Çox şadam ki, rayonda işlər yaxşı gedir. Çalışacağam ki, bundan sonra da Sabirabad rayonunun inkişafı üçün öz dəstəyimi verim. Siz yaxşı bilirsiniz ki, ulu öndər Heydər Əliyev Sabirabada xüsusi münasibət göstərirdi.

**S a k i n l ə r:** Sabirabadda 14 dəfə olub.

**İ l h a m Ə l i y e v:** Mən hər dəfə burada olanda yerli sakinlər bunu xatırladırlar. Gələcəkdə də biz tez-tez görüşəcəyik. Əlbəttə, belə olacaq. Çünki burada görüləsi işlər çoxdur, açılışlar hələ çox olacaq və hər açılışda mən sizinlə bərabər olmaq istəyirəm.

Sabirabad üçün çətin anlar da olub. Xüsusilə o daşqın, sel zamanı. Amma sabirabadlılar öz vətəndaşlıq missiyasını şərəflə yerinə yetiriblər. Böyük əziyyətlərə baxmayaraq özlərini

ləyaqətlə aparıblar. Azərbaycan dövlətinə sabirabadlıların inamı çox yüksək səviyyədədir. Mən də o vaxt burada olanda söz vermişdim ki, qısa müddət ərzində bütün evlər tikiləcək, bərpa ediləcək və buna da biz nail olduq. Dövlət hesabına minlərlə ev tikildi.

**S a k i n l ə r:** Minnətdarıq.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, təbiət bizi bəzi hallarda sınaqlara çəkir. Ancaq biz hər bir sınağa hazırıq, hər bir sınaqdan bu günə qədər üzüağ, şərəflə çıxmışıq. Azərbaycan vətəndaşları üçün nə lazımdırsa, biz onu edirik və edəcəyik.

**S a k i n l ə r:** Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Sizi bu gözəl hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm.

**S a k i n l ə r:** Çox sağ olun.

*** * ***

*Daha sonra dövlətimizin başçısı suyun verilməsini bildirən düyməni basdı.*

# VƏTƏNDAŞLARA XİDMƏT VƏ SOSİAL İNNOVASİYALAR ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN SABİRABAD REGİONAL «ASAN XİDMƏT» MƏRKƏZİNİN AÇILIŞI MƏRASIMI

*15 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Sabirabad regional «ASAN xidmət» Mərkəzinin açılışında iştirak etmişdir.*

*Son illər dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. 2012-ci il iyulun 13-də bu sahədə daha mühüm islahata imza atıldı. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan «ASAN xidmət» mərkəzləri yaradıldı. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək «ASAN xidmət» mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi. Buraya xidmət mərkəzlərinə qoşulan dövlət orqanları əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət qurumlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi və bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi daxildir. 2012-ci il dekabrın 29-da pilot layihə olaraq Bakıda 1 saylı «ASAN xidmət» Mərkəzi fəaliyyətə başladı. 2013-cü il ərzində paytaxtın bir neçə rayonunda «ASAN xidmət» mərkəzləri istifadəyə verildi. Daha sonra bu proses regionları da əhatə etməyə başladı. Hazırda bu mərkəzlərə*

*daxil olan müraciətlər arasında şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat fəaliyyəti, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı olan xidmətlər üstünlük təşkil edir. Əgər əvvəllər «ASAN xidmət» mərkəzlərində 23 hüquqi xidmət həyata keçirilirdisə, indi 10 dövlət orqanı tərəfindən 30 növ xidmət göstərilir. Eyni zamanda, mərkəzlərdə 28 növ funksional yardımçı xidmətlər təşkil edilib. Bütün bunlar dövlət qulluqçusu – vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir.*

*Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi beynəlxalq əlaqələrə də üstünlük verir. Avropa Parlamentində «İnnovasiya və Mobil İmza–Avropa ilə yeni rəqəmsal inteqrasiya vasitəsi kimi» mövzusunda keçirilən konfransda «ASAN xidmət»in fəaliyyəti ilə bağlı təqdimat olub. Bu faktın özü bir daha təsdiqləyir ki, Azərbaycan brendi olan «ASAN xidmət»ə dünyada böyük maraq var və o öz ətrafında kifayət qədər diqqət toplaya bilib. Təsadüfi deyil ki, bir sıra dövlətlərin rəsmiləri ölkəmizə gələrək «ASAN xidmət» mərkəzlərinin fəaliyyəti ilə yaxından tanış olurlar.*

*Artıq Sabirabad rayonunda da «ASAN xidmət» Mərkəzi fəaliyyətə başlayır.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Bildirildi ki, Sabirabad regional «ASAN xidmət» Mərkəzinin dördmərtəbəli binasının tikintisi ən yüksək standartlara uyğun həyata keçirilib. Həyətdə uşaq avtoşəhərciyi yaradılıb və burada balacaların yol hərəkəti qaydalarını öyrənmələri və yol nişanlarını tanımaları üçün bütün şərait var.*

*Binada müasir müstəqil Azərbaycanın inkişafında mühüm xidmətləri olan ümummilli lider Heydər Əliyevin büstü qoyulub.*

*Artıq «ASAN xidmət» təcrübəsinin özünəməxsus hüquqi strukturu bir çox beynəlxalq tərəfdaşlar və ekspertlər tərəfindən yüksək qiymətləndirilir və bu təcrübə Azərbaycan modeli kimi xüsusi təqdim olunur. Odur ki, «ASAN xidmət»in təkcə Azərbaycanda deyil, digər ölkələrdə də tətbiqi genişlənir. Bu,*

*müxtəlif beynəlxalq tərəfdaşlarla, o cümlədən Avropa İttifaqı ilə aparılan əməkdaşlığın əsas istiqamətlərindən birini təşkil edir. Geniş beynəlxalq marağın nəticəsidir ki, bu il Sabirabad «ASAN xidmət» Mərkəzi «OHSAS 18001:2007» standartı üzrə beynəlxalq dərəcəli sertifikata layiq görülüb. Standartın əsas tələbi xidmət mərkəzinin fəaliyyət göstərdiyi inzibati binalarda təhlükəsiz və sağlam iş mühitinin yaradılmasıdır. İşin bu standarta uyğun təşkilinin əsas xüsusiyyətlərindən biri inzibati binada həm əməkdaşların tam səmərəli, şəffaf və operativ xidmət göstərmələri, eyni zamanda, vətəndaşların təhlükəsizliyinin təmin edilməsi üçün müvafiq zəruri tədbirlərin nəzərə alınmasıdır.*

*Məlumat verildi ki, «ASAN xidmət» Mərkəzinin fəaliyyətindən Sabirabadla yanaşı, Saatlı, İmişli, Kürdəmir, Hacıqabul, Salyan, Beyləqan rayonlarının və Şirvan şəhərinin 900 minə yaxın sakini yararlanacaq.*

*«ASAN xidmət» Mərkəzinin fəaliyyətinin məqsədi dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaşların razı salınması, şəffaflığın təmin edilməsi, korrupsiya hallarının tam aradan qaldırılması, müasir texnologiyaların, «bir qapı» prinsipinin tətbiq olunması, dövlət qulluqçusu–vətəndaş münasibətlərində yeni düşüncə tərzinin – «dövlət qulluqçusunun vəzifəsi vətəndaşın hüququnu təmin etməkdir» yanaşmasının formalaşdırılmasıdır. «ASAN xidmət» Mərkəzinin əsas prinsipləri operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və etik davranış qaydalarına nəzarət və rahatlıqdır. Bununla yanaşı, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyindəki «ASAN xidmət» mərkəzləri öz fəaliyyətini yüksək standartlar çərçivəsində quran və inkişaf etdirən dövlət orqanı qismində «vahid məkan» prinsipinə əsaslanan qurumlardandır.*

*Dövlətimizin başçısının imzaladığı müvafiq fərmana əsasən «ASAN ödəniş» sistemi həyata keçirilir. Bu sistem vətəndaşla dövlət orqanı əməkdaşı arasında birbaşa təması istisna edir, şəffaflığı və operativliyi təmin edir, korrupsiya və digər mənfi halların qarşısını alır. Artıq inzibati xətalarla bağlı bildirişlər SMS vasitəsilə dərhal vətəndaşların telefonlarına göndəriləcək. İlkin*

olaraq bu qayda yol hərəkəti qaydalarını pozanlara tətbiq olunacaq. Cərimələrin ödənilməsini də bu sistem vasitəsilə aparmaq mümkündür. Yaxın gələcəkdə ödəniş terminallarının ictimai yerlərdə quraşdırılmasına başlanılacaq.

Vətəndaşların rahatlığı məqsədi ilə «ASAN xidmət» mobil proqram təminatı da yaradılıb. İnsanlar mobil telefon vasitəsilə müvafiq xidmətlə bağlı ərizələri elektron formada doldura bilərlər.

Prezident İlham Əliyevə «Google Glass» – biometrik tanınma sistemi barədə də məlumat verildi. Xatırladaq ki, digər mərkəzlərdə olduğu kimi, burada da internetə açıq olan kompüterlər qoyulub və vətəndaşların bütün növ elektron xidmətlərdən yararlanmaları üçün şərait yaradılıb.

«ASAN xidmət» Mərkəzində vətəndaşların gözləmələri və vaxtlarını səmərəli keçirmələri üçün funksional yardımçı xidmətlər – bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, poçt şöbələri, fotostudiya da fəaliyyət göstərir. Xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin ödənişi, kredit və sığorta ödənişlərinin həyata keçirilməsi mümkündür.

Xidmət sistemi müasir İP telefon və İP şəbəkə ilə təmin edilib. Burada «ASAN xidmət» sistemində ilk dəfə miniatür tropik meşə layihəsinin tətbiqinə başlanılıb ki, bu da bina daxilində havanın təmizlənməsini nəzərdə tutur.

Bundan başqa, «ASAN könüllüləri» üzrə məlumat bazası da yaradılıb. Bu bazada yüzlərlə könüllü haqqında müxtəlif məlumatlar saxlanılır. Ölkəmizdə təşkil ediləcək bir sıra beynəlxalq tədbirlərdə, o cümlədən 2015-ci ildə keçiriləcək ilk Avropa oyunlarında bu könüllülərin bacarıqlarından və xidmətlərindən geniş istifadə olunması nəzərdə tutulur.

Qeyd edildi ki, Sabirabaddakı «ASAN xidmət» Mərkəzində çalışan əməkdaşların ümumi sayı 179 nəfərdir və onların 60 nəfəri könüllüdür. Burada kitabxana, kafe, ana-uşaq otağı, uşaq əyləncə mərkəzi də yaradılıb.

*Prezident İlham Əliyev səyyar «ASAN xidmət» avtobuslarında yaradılan şəraitlə də tanış oldu. Bildirildi ki, avtobusdakı bütün texniki avadanlıq günəş enerjisi ilə işləyir. Bu avtobuslarda vətəndaşlara xidmət göstərmək üçün ofis şəraitinə uyğun ən müasir server və şəbəkə avadanlığı quraşdırılıb.*

*Diqqətə çatdırıldı ki, 2014-cü il ərzində 25 məntəqədə 30 rayonun əhalisinə səyyar xidmət göstərilib. Bu çərçivədə edilən 59 mindən çox müraciətin 90 faizə yaxını təmin olunub.*

*Qeyd edildi ki, mərkəzdə 50 avtomobil tutumu olan dayanacaq da tikilib.*

## SABİRABADDA «ASAN KÖNÜLLÜLƏRİ»NİN I ÜMUMRESPUBLİKA FORUMUNUN AÇILIŞI MƏRASİMİ

*16 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Sabirabadda Heydər Əliyev Mərkəzində keçirilən «ASAN könüllüləri»nin I Ümumrespublika Forumunun açılışı mərasimində iştirak etmişdir.*

*Forumun məqsədi ölkəmizdə son illərdə könüllülük fəaliyyətinin həyata keçirilməsi istiqamətində dövlət qayğısının nümayiş etdirilməsi, «ASAN xidmət» mərkəzlərində çalışan könüllülər üçün tətbiq olunan yeniliklərin müzakirəsi, «ASAN könüllüləri» Gənclər Təşkilatı İctimai Birliyinin gələcək fəaliyyəti üçün rəy və təkliflərin formalaşdırılmasıdır. İlk «ASAN xidmət» Mərkəzi üçün könüllü elanı 2012-ci ildə olub və bununla bağlı ümumilikdə 11 mindən çox müraciət qeydə alınıb. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və «ASAN xidmət» mərkəzlərində indiyədək 3061 könüllü əməkdaş fəaliyyət göstərib. Hazırda «ASAN xidmət» mərkəzlərində 489 könüllü əməkdaş çalışır. İndiyədək 300-dən çox könüllü gənc «ASAN xidmət» mərkəzlərində və digər dövlət orqanlarında işə qəbul edilib.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Bu gün Sabirabadda «ASAN könüllüləri»nin birinci forumu keçirilir. Forum iştirakçılarını səmimiyyətlə salamlayıram. Əminəm ki, forum çox uğurlu keçəcək, çox maraqlı diskussiyalar aparılacaqdır.

Şadam ki, artıq «ASAN xidmət»in böyük könüllülər dəstəsi vardır. «ASAN xidmət» cəmi 2 ilə yaxındır ki, fəaliyyət göstərir. Bu müddət ərzində 2 mindən çox könüllü «ASAN xidmət»də işləmiş, təcrübə toplamış və ümumi işimizə öz töhfəsini vermişdir. Hazırda 500 könüllü bizim mərkəzlərdə çalışır və beləliklə, gözəl bir gənc nəsil yetişir. Gənclərimiz bizim gələcəyimizdir. Mən şadam ki, Azərbaycanda çox müasir, dövlətə, Vətənə bağlı olan gənc nəsil yetişir və «ASAN könüllüləri»nin fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Çünki siz bu işlərə könüllü şəkildə qoşulmusunuz, özünüz bu təşəbbüsü göstərmisiniz və işinizlə ölkəmizin ümumi inkişafına töhfənizi verirsiniz. Bu çox gözəl haldır, təqdirəlayiq hadisədir. Əminəm ki, bütün başqa sahələrdə könüllülər institutu Azərbaycanda daha da sürətlə formalaşacaq və ümumiyyətlə, bu, cəmiyyətin niyyətini ifadə edir. Çünki Azərbaycanda hazırda mövcud olan ictimai-siyasi vəziyyət, gözəl ab-hava belə təşəbbüslərin irəli sürülməsinə imkan yaradır.

«ASAN xidmət» 2 ilə yaxındır ki, yaradılıb. 2 il ərzində böyük və uğurlu yol keçibdir. Bu müddət ərzində 3 milyon 500 min müraciət olmuşdur, 3 milyona yaxın vətəndaşa müxtəlif sənədlər verilmişdir. Bu ictimai xidmətlər sahəsində ciddi dönüş olmuşdur və deyə bilərəm ki, təkcə Azərbaycanda deyil, dünya miqyasında «ASAN xidmət» kimi nadir müəssisə, nadir təsisat yoxdur. Azərbaycan bu sahədə də liderlik keyfiyyətlərini göstərmişdir və biz intellektual məhsulun yaradılmasına nail ola bilmişik. Bu müddət ərzində artıq 7 «ASAN xidmət» Mərkəzi tikilmişdir, 4-ü Bakıda, 1-i Sumqayıtda, 1-i Gəncədə, dünən axşam isə Sabirabadda 7-ci mərkəz fəaliyyətə başlamışdır.

Siz bunu yaxşı bilirsiniz ki, vətəndaşlara səyyar xidmət də göstərilir və bu məqsədlə ilk dövrdə 2, indi isə 10 avtobus gətirilib və ən müasir avadanlıqlarla təchiz edilibdir. Bu bizə imkan verəcək ki, ölkəmizin müxtəlif bölgələrində daimi, fasiləsiz xidmət göstərək. Nəzərə alsaq ki, hazırda digər bölgələrdə mərkəzlər tikilir – Bərdədə artıq tikintisi başa çatmaq üzrədir, Masallıda, Qəbələdə, gələn il ən azı 3 yeni mərkəz istifadəyə veriləcəkdir – bu da insanların rahatlığı üçün əlavə imkanlar yaradacaqdır.

Dediyim kimi, qısa müddət ərzində həm xidmətin maddi-texniki bazası formalaşıb və bu gün ən yüksək səviyyədədir. Eyni zamanda, xidmətdə kreativ, yəni yaradıcı meyillər də özünü göstərir və hər dəfə yeni mərkəzin açılışında olarkən mən yenilikləri görürəm. Mən bu 7 mərkəzin hər birinin açılışında şəxsən iştirak etmişəm. Mən bu təşəbbüsə çox böyük dəstək verirəm və səmimiyyətlə deyə bilərəm ki, son illər ərzində Azərbaycanda aparılan islahatlar arasında «ASAN xidmət»in xüsusi yeri vardır. «ASAN xidmət»in yaradılması Azərbaycanda, ümumiyyətlə, islahatların aparılmasında önəmli hadisə olmuşdur və bizim islahatlarımızın təzahürüdür. Çünki bugünkü Azərbaycanın reallıqları ondan ibarətdir ki, əldə etdiyimiz uğurlar məhz düşünülmüş islahatlar nəticəsində mümkün olmuşdur.

Düşünülmüş siyasət, hər bir istiqamət üzrə düzgün strategiyanın seçilməsi və hər bir istiqamət üzrə düzgün addımların planlaşdırılması nəticəsində bu gün Azərbaycan dünya miqyasında uğurlu model kimi artıq tanınır. Siz də yaxşı bilirsiniz ki, mötəbər beynəlxalq təşkilatların rəhbərləri Azərbaycanda olarkən «ASAN xidmət»in fəaliyyəti ilə tanış olurlar və ondan sonra mənə deyirlər ki, onlar gözləmirdilər ki, Azərbaycanda bu səviyyədə xidmət göstərilə bilər. Onu da vurğulayırlar ki, yaxşı olardı, bütün başqa ölkələrdə də bu cür xidmətlər yaradılsın. Biz isə öz növbəmizdə, bu layihənin başqa ölkələrdə həyata keçirilməsi üçün yardımımızı göstərməyə hazırıq. Mən bunu bir neçə dəfə demişəm, «ASAN xidmət» Azərbaycan məhsuludur, Azərbaycan brendidir və biz hazırda nəinki neft-qaz resurslarımızı, artıq intellektual məhsulumuzu ixrac etməyə hazırıq və dünyada belə xidmətlərə böyük ehtiyac vardır.

Beynəlxalq təşkilatlar bu xidməti yüksək qiymətləndirirlər. Bu bizi sevindirir. Ancaq mənim üçün əsas məsələ Azərbaycan xalqının bu xidmətə olan münasibətidir. Siz də yaxşı bilirsiniz ki, Azərbaycan xalqının mütləq əksəriyyəti bu xidməti bəyənir, dəstəkləyir, təqdirlə yanaşır və mənə ünvanlanan çoxsaylı məktublarda öz fikirlərini ifadə edir. Statistik göstəricilərimiz

də belədir ki, müraciət edənlərin mütləq əksəriyyətinin istəkləri, tələbləri yerinə yetirilir.

«ASAN xidmət»də yüksək səviyyəli xidmət göstərilir. Bir daha demək istəyirəm ki, bu xidmətin yaradılması və formalaşması çox yaradıcı bir prosesdir. Çünki 2 il bundan əvvəl sərəncam imzalayanda məndə təsəvvür var idi ki, xidmət, fəaliyyət növləri necə olacaq və biz bunun əsasında bu işə başlamışdıq. Ancaq iş başlanandan sonra biz gördük ki, artıq daha da böyük imkanlar var. «ASAN xidmət»in fəaliyyəti o qədər uğurlu olmuşdur ki, bəzi əlavə funksiyalar da ona verilir və veriləcəkdir. O funksiyalar ki, insanlara daha çox rahatlıq verəcək, o funksiyalar ki, cəmiyyətdə və ictimai xidmətlər sahəsində daha çox şəffaflıq yaradacaq. Biz bunu istəyirik.

Azərbaycan bu gün inamla irəliləyir. Azərbaycan müasir dövlətdir. Müasir dövlətə xas olan bütün atributlar Azərbaycanda vardır. Biz nəinki başqa inkişaf etmiş ölkələrin təcrübəsini öyrənirik və əgər bizə yararlıdırsa tətbiq edirik, eyni zamanda, özümüz təşəbbüs göstərərək, dünyada gedən proseslərə təsir edirik. Ona görə Azərbaycan xalqının bu xidmətə olan münasibəti həm mənim üçün, həm də sizin üçün ən böyük mükafatdır. Bu məqsədlə artıq 7 mərkəz tikilibdir. Gələn ilin sonunadək ən azı 10-a çatdırılacaqdır. Səyyar avtobus xidməti də öz növbəsində imkan verəcək ki, ölkəmizin hər bir bölgəsində bu xidmət göstərilsin. Yəqin siz bilirsiniz ki, ilkin mərhələdə 2 avtobus sifariş edilmişdi. Ancaq sonra mənə məlumat verildi ki, avtobusların ezam olunduğu yerlərdə əhali o avtobusları buraxmaq istəmir, istəyirlər ki, daim orada qalsın. Ona görə biz qərara gəldik ki, onların sayını 10-a çatdıraq və bu gün bu da öz həllini tapmışdır.

«ASAN xidmət»i yaradanda biz qarşımıza bir neçə məqsəd qoymuşduq. Onların hamısı bizim üçün vacibdir. Onların reallaşması ölkəmizi daha da sürətlə inkişaf etdirməyə imkan verəcəkdir. İlk növbədə, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə «ASAN xidmət» vasitəsilə müsbət həllini tapmaqdadır. Biz bu təcrübəni bütün başqa sahələrdə də tətbiq

etməliyik ki, Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə daha da ciddi aparılsın. Mən bu məsələlərlə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm. Azərbaycan dövləti bu sosial bəlanı aradan götürmək üçün böyük səylər göstərir. Ancaq biz görürdük ki, bəzi hallarda cəza tədbirləri, inzibati tədbirlər kifayət deyil. Belə olan halda sistem xarakterli, institusional tədbirlərin görülməsinə də böyük ehtiyac var idi. Biz bu işlərə çox ciddi yanaşırıq və «ASAN xidmət» burada nadir bir vasitədir. «ASAN xidmət»də korrupsiya, rüşvətxorluq yoxdur və bu onu deməyə əsas verir ki, hər bir sahədə belə bir sistem yarana bilər.

«ASAN xidmət»in təcrübəsi indi başqa sahələrə köçürülür, orada da tətbiq ediləcəkdir. Şəffaflıq hər bir ölkənin gələcəyini müəyyən edən məsələdir. Çünki şəffaflıq olmadan biz heç bir islahatı apara bilmərik və nə iqtisadi, nə siyasi cəhətdən ölkə sürətlə inkişaf edə bilməz. Eyni zamanda, hər bir ölkənin uğurlu inkişafı üçün gərək cəmiyyətdə aparılan siyasətə dəstək, xalqla iqtidar arasında birlik olsun. Biz görürük ki, harada bu birlik pozulur, ölkələr böyük problemlərlə, fəlakətlərlə üzləşir. Bu bizim gözümüzün qabağında baş verən hadisələrdir. Azərbaycanda xalqla iqtidar arasındakı birlik bizim uğurlarımızın əsas dayağıdır və bu birliyi biz daim möhkəmləndirməliyik. Bunu etmək üçün, əlbəttə ki, insanların yaşayış səviyyəsi daha da yaxşı, ölkənin beynəlxalq nüfuzu daha da güclü olmalıdır. Ölkə elə inkişaf etməlidir ki, hər bir vətəndaş Azərbaycan vətəndaşı olmağı ilə fəxr etsin. Eyni zamanda, cəmiyyətdə xoşagəlməz hallara yol verilməməlidir və biz bu məqsədə çatmaq üçün bundan sonra da öz səylərimizi göstərəcəyik.

«ASAN xidmət» korrupsiyaya və rüşvətxorluğa qarşı institusional tədbirlər arasında xüsusi yer tutur və əminəm ki, əgər başqa ölkələrdə bu təcrübə tətbiq olunarsa, onlar da bunun müsbət cəhətlərini tezliklə görəcəklər. «ASAN xidmət» eyni zamanda, insanların rahatlığı üçün yaradılmış bir xidmətdir. Təsadüfi deyil ki, adı da «asan»dır.

İnsanlar burada vaxt itirmədən, heç bir bürokratik əngəllə üzləşmədən öz haqlarını tələb edirlər və alırlar. İstənilən sənədi dəqiqələr ərzində əldə edə bilirlər. «ASAN xidmət» eyni zamanda, xidmətlərin mədəni şəkildə göstərilməsində də nadir bir təcrübədir. Sirr deyil, təbii ki, siz gənclər yəqin bunu xatırlamırsınız, ancaq sovet dövrünün əlamətlərindən biri də bürokratiya və insanlara bəzi hallarda ictimai qurumlar tərəfindən qeyri-normal münasibət idi. Biz 23 ildir ki, müstəqil dövlət kimi yaşayırıq, ancaq hələ də o dövrün bütün fəsadlarını aradan götürə bilməmişik.

Burada həm psixoloji məsələlər ortaya çıxır, həm də müəyyən təcrübə öz mənfi rolunu oynayır. Ona görə «ASAN xidmət»də olan xidmət növləri və eyni zamanda, xidmətə olan yanaşma tam fərqlidir. Bu belə də olmalıdır. Azərbaycan vətəndaşları hər yerdə hörmətlə qarşılanmalıdır, xüsusilə dövlət orqanları tərəfindən. Onlara yuxarıdan aşağı baxılmamalıdır, onların haqları tapdalanmamalıdır. Onları dövlət məmurları incitməməlidir. Onlardan əsassız tələblər istəməməlidirlər. Bax, bu prinsiplər əgər tam şəkildə bərqərar olarsa, onda, əlbəttə ki, bizim işimiz daha da sürətlə gedəcək.

«ASAN xidmət»də yaradılmış sistem belədir ki, burada insanlara böyük hörmətlə yanaşılır və hər şey ədalətli şəkildə həllini tapır. Çünki bəzi hallarda indi məişətdə də biz görürük ki, ədalət pozulur, hətta indi bəzən elə hallar olur ki, kimsə növbəsiz qabağa keçmək istəyir, ancaq burada bu, mümkün deyil – hər şey ədalətli, növbə ilə, şəffaf, təmiz. Heç kim deyə bilməz ki, kimsə məndən qabağa düşdü və kimsə məndən daha da yaxşı münasibət gördü. Bəli, xidmətlər sahəsində əldə edilmiş dönüş «ASAN xidmət»in böyük uğurudur.

Burada innovasiyalar tətbiq olunur. Dediyim kimi, hər bir mərkəzin açılışında mən texniki yeniliklərlə üzləşirəm və şadam ki, artıq bu proses daimi xarakter almışdır. Dünən axşam Sabirabad «ASAN xidmət» Mərkəzini açanda da dedim ki, yəqin gələn dəfə yeni mərkəzin açılışında siz məni daha bir yeniliklə tanış edəcəksiniz. Bu da bizim yaradıcı gənclərin bu işlərə cəlb edilməsi üçün çox vacibdir. Çünki dünya təşəbbüs əsasında inkişaf edir.

Təşəbbüs olmasa, durğunluq olar, hər şey yerində sayar. Ona görə Azərbaycanda innovasiyalara böyük diqqət göstərilir.

İndi Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sahəsində dünya miqyasında tanınır. Azərbaycan indi kosmik sənayeyə malik olan bir ölkədir. İndi bizim 2 peykimiz var. İkinci peyk bizə bu yaxınlarda təhvil verildi və dünyada cəmi 20 ölkədə belə peyklərdən var. Onlardan biri Azərbaycandır.

İnnovativ təşəbbüslər, intellektual araşdırmalar «ASAN xidmət» tərəfindən daha da stimullaşdırılır. Burada, bu xidmətdə öz Vətəninə bağlı olan gözəl gənclər yetişir. «ASAN xidmət»də işləyənlərin də və təbii ki, könüllülərin də mütləq əksəriyyəti gənclərdir. Gənclər bizim gələcəyimizdir. Siz gələcəkdə Azərbaycanı idarə edəcəksiniz. Azərbaycanın uğurlu inkişafı sizdən asılı olacaqdır. Ona görə siz gənclər bilikli, savadlı olmalısınız. Bu gün dünyada hər şeyi bilik, savad həll edir. Hətta ölkələrin gücünü, potensialını indi bilik, savad həll edir. Texnoloji, elmi tərəqqi haradadırsa, inkişaf da oradadır. İntellektual cəhətdən böyük imkanlara malik olan ölkələr də dünyada öz mövqelərini möhkəmləndirirlər. Ona görə də bilik, savad hər bir gənc üçün – həm onun özü, həm də cəmiyyət üçün çox önəmlidir. Bizim gənclərimiz Vətənə bağlı, vətənpərvər olmalıdırlar və mən şadam ki, bu belədir. Bizim gənclərimiz əsl vətənpərvər gənclərdir. Fəxr edirlər ki, Azərbaycan vətəndaşlarıdırlar və həqiqətən də vətəni sevən hər bir insan bu gün qürur hissi ilə deyə bilər ki, mən Azərbaycan vətəndaşıyam. Çünki Azərbaycan dünya miqyasında nadir inkişaf, transformasiya, islahatlar təcrübəsinə malik olan bir ölkədir. Bizim təcrübəmiz öyrənilir. Son illər ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır.

Gənc, müstəqil dövlət olduğumuza baxmayaraq, biz dünyanın bir nömrəli qurumu olan BMT Təhlükəsizlik Şurasına üzv seçilmişik. Bu il Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik etmişik. Azərbaycanın çox böyük beynəlxalq nüfuzu var. Etibarlı tərəfdaş kimi tanınan Azərbaycanın güclü iqtisadi dayaqları, güclü ordusu var. Ordumuz bu gün dünya miqyasında güclü ordular

sırasındadır. Azərbaycanda ictimai-siyasi vəziyyət çox müsbətdir, iqtisadi və siyasi vəziyyət sabitdir. Amma bizim ətrafımızda hər tərəf, demək olar ki, qaynayır, alovlanır, qanlı toqquşmalar, müharibələr, böhranlar hökm sürür.

İndi neftin qiyməti çox aşağı düşüb. Azərbaycanda bir adam bunu hiss edibmi? Xeyr, hiss etməyəcəkdir. Çünki bizim çox güclü iqtisadi dayaqlarımız var. Manatın məzənnəsi sabitdir və bu onu deməyə əsas verir ki, həm iqtisadi gücümüz, həm də düşünülmüş sosial siyasətimiz var. İndi manatın məzənnəsinin sabit olması bəlkə də bizim ixrac potensialımız üçün o qədər də müsbət hal deyil. Ancaq bu, sosial məsələdir. Belə də olmalıdır.

Azərbaycan doğrudan da nadir inkişaf modelini ortaya qoyur və öz təcrübəsini bölüşməyə hazırdır. Ona görə hər bir gənc haqlı olaraq fəxr edir və fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır. Hər bir gənc çalışmalıdır ki, ölkəmiz daha da möhkəmlənsin, daha da güclü olsun, bizim təsir imkanlarımız artsın. Hər bir gənc milli köklərə, milli ənənələrə, bizim adət-ənənələrə bağlı olmalıdır. Xarici təsirdən azad olmalıdır. Biz dünyanın müsbət təcrübəsini onsuz da Azərbaycanda tətbiq edirik, nə lazımdırsa onu edirik. Mən çox istəyirəm və əminəm ki, belə də olacaq, çünki bugünkü reallıq da belədir.

Azərbaycan öz yolu, müstəqillik yolu ilə gedir. Biz əsrlərboyu başqa ölkələrin, imperiyaların tərkibində olmuşuq. Azad, müstəqil olmamışıq. Nə üçün bizim xalqımız azad, müstəqil yaşaya bilməz? Biz 23 ildir ki, müstəqilik. Bu, böyük xoşbəxtlikdir. Bu, ən böyük sərvətimizdir. Ancaq bu müstəqillik eyni zamanda, siyasi müstəqilliklə də tamamlanmalıdır və bu gün bu, Azərbaycanda var. Biz müstəqil siyasət aparırıq. Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Biz heç kimin diktəsi ilə oturub durmuruq və oturub durmayacağıq. Öz sözümüzü daim açıq deyəcəyik və prinsipial mövqemizi nümayiş etdirəcəyik. Həmişə də belə olmalıdır. Siz də bu ruhda böyüməlisiniz, tərbiyə almalısınız ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməsin və Azərbaycan inkişaf, azadlıq, müstəqillik yolu ilə getsin.

Əziz dostlar, əziz gənclər, mən sizi bir daha səmimiyyətlə salamlayıram. Foruma uğurlar arzulayıram. Əminəm ki, forumun nəticələri çox gözəl olacaq. Sağ olun.

* * *

**F ə r i d S a d ı x l ı** *(«ASAN könüllüləri» Gənclər Təşkilatı İctimai Birliyinin sədri*): Möhtərəm Prezident!

Xanımlar və cənablar!

Əziz könüllülər!

Hamınızı «ASAN könüllüləri»nin I Ümumrespublika Forumunda görməkdən böyük sevinc və məmnunluq hissi duyuruq.

Möhtərəm Prezident, bu gün bizə vaxt ayırdığınız üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Bizim fəaliyyətimizə ən böyük qiymət və dəstək məhz Sizin bu gün bizimlə birlikdə olmağınızdır. 1 il öncə bir qrup ASAN könüllüsü «ASAN könüllüləri» Gənclər Təşkilatı İctimai Birliyini təsis etməyi qərara almışdı. Bu təşkilatın məqsədi 2500 nəfərlik bir ailəni şəbəkələşdirmək və könüllülərin fərdi inkişafına təkan verməkdir. Bu təşkilat, cənab Prezident, tələbələrdən ibarət olmaqla yanaşı, tam könüllü əsaslarda fəaliyyət göstərir. Bu günə qədər layihələrimiz 1730 gənci əhatə etmişdir. Layihələrimizin istiqaməti vətənpərvərlik və dövlətçilik ruhunun aşılanmasına, könüllülər arasında fərdi inkişafa təkan verilməsinə və sosial məsuliyyəti artırmağa yönəlibdir. Hər bir layihə bizim bundan öncə söylədiyimiz məqsədə doğru, hər bir könüllünün inkişafına yönəlmişdir. Hər bir layihəni həyata keçirməzdən əvvəl biz, təşkilatçılar qarşımıza belə bir sual qoyuruq: bu layihədən könüllümüz nə qazanacaq və cəmiyyət könüllünün qazandığından nə əldə edə biləcək?

Əlbəttə, hər bir nəslə xas olan problemlərdən biri də gənclərin peşə seçməkdə çətinlik çəkməsidir. Biz bu məsələdə belə bir qənaətə gəlmişik ki, bunun səbəbi gənclərin bəzən özlərini tam tanımamaları, həyatlarını hansı işlə bağlamaqda çətinlik çəkmələridir. Biz bir təşkilat kimi, bu istiqamətdə bir sıra tədbirlər görmüşük. Könüllülərimizin birinə dövlət qulluğuna qəbul

imtahanında iştirak etmək üçün onlayn portalın yaradılmasına tam təşkilati dəstək vermişdik. Eyni zamanda, Azərbaycanda ilk dəfə ana dilimizdə psixoloji portal yaratmışıq. Bundan başqa, 500-ə yaxın gənci fərdi inkişaf təlimləri ilə əhatə edə bilmişik. Biz «ASAN Akademiya» konsepti yaratmışıq. Bu konseptin əsas məqsədi könüllülərə gündəlik bacarıqların, vərdişlərin öyrədilməsidir. Biz könüllülərə bilik yox, vərdişlər və bacarıqlar öyrətməyə çalışırıq. Bunun əsas mahiyyəti könüllülərimizə tənqidi təfəkkür aşılamaqdır. Bundan savayı, bir sıra layihələrimiz – natiqlik klubu, «bir gənc – bir beyin» kimi layihələrimiz də məhz bu məqsədə istiqamətlənmişdir.

Möhtərəm Prezident, eyni zamanda, Sizin diqqətinizə çatdırmaq istəyirik ki, fəaliyyətimizin ilk ilində Avropa Gənclər Parlamentinin Gəncə şəhərində ilk Beynəlxalq Forumunu keçirməyə nail olmuşuq. Bu forumda 13 Avropa ölkəsindən 70 gənc iştirak edib və bununla biz Avropa gənclərinə ölkəmizin nəinki paytaxtını, eyni zamanda, regionlarını da göstərməyi bacarmışıq.

Cənab Prezident, ulu öndərimiz Heydər Əliyevin söylədiyi kimi, hər bir xalqın gələcəyə ümidi məhz onun gənc nəsli ilə bağlıdır. Ölkəmizin sabahından əmin olmaq üçün biz bu günün gənclərindən əmin olmalıyıq. Çünki gənclər genofondumuzun əsas elementlərindən biridir. Odur ki, bizim gənclər sağlam fiziki duruma, sağlam düşüncəyə və sağlam mənəviyyata malik olmalıdır. Sağlam düşüncə deyəndə biz təhsilin vacibliyini dərk edən, məsələlərə düzgün mövqedən yanaşmağı bacaran, ölkəmizin maraqları olan yerdə dövlətin ali maraqlarını hər şeydən üstün tutan gəncləri nəzərdə tuturuq. Eyni zamanda, gənclər sağlam mənəviyyatlı, vətənpərvər, dövlətçi, ölkəsinə və dövlətinə bağlı olmalıdır.

Cənab Prezident, ulu öndər keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanı siyasi və iqtisadi böhrandan xilas etmişdir. Bu gün isə Azərbaycan Sizin rəhbərliyinizlə qüdrətli, öz gücünə güvənən və müstəqil siyasət yürüdən ölkədir. Sizin dediyiniz kimi, bu gün ətrafımızdakı bəzi regionlarda müharibələr gedir, hər şey alışıb yanır. Amma bizdə sabitlikdir, gücümüz ildən-ilə

artır. Güclü dövləti olmayan xalq güclü ola bilməz. Bizə «ASAN xidmət»də aşılanan dəyərlərdən ən əsası məhz dövlətçilikdir və biz dövlətimizə bağlı, vətənimizi sevən və Sizin siyasi kursunuzu dəstəkləyən gənclərik.

Möhtərəm Prezident, bu gün bizə vaxt ayırdığınız və buraya təşrif buyurduğunuz üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Bir daha təkrar etmək istərdim ki, bizim könüllü fəaliyyətimiz üçün bu, ən böyük dəyər və Sizin gənclərə göstərdiyiniz qayğının bariz nümunəsidir. Forumumuzda iştirak etdiyinizə görə Sizə bir daha təşəkkür edirik. Sağ olun.

**R ə v a n ə  D a v u d o v a** (*Sabirabad «ASAN xidmət» Mərkəzinin könüllüsü)*: Cənab Prezident, Sabirabada xoş gəlmisiniz!

Bakı, Gəncə və Sumqayıt kimi böyük şəhərlərdən sonra regionlarda ilk olaraq Sabirabadda belə müasir və görkəmi ilə fərqlənən «ASAN xidmət» Mərkəzinin təşəbbüskarı olduğunuza görə Sizə minnətdarıq. Sabirabad rayonu hər zaman Sizin dəstək və qayğınızı hiss etmişdir.

Ulu öndərin adını daşıyan Heydər Əliyev Mərkəzi, Mədəniyyət Mərkəzi və «ASAN xidmət» Mərkəzi Sabirabadımızın ab-havasını dəyişdirir. «ASAN xidmət» Mərkəzinin binası isə öz müasirliyi ilə şəhərimizə əlavə gözəllik verir.

«ASAN xidmət» sayəsində gənclərimizin məşğulluq məsələləri həll olunacaq. Region gəncləri, həmçinin könüllülük fəaliyyəti sayəsində asudə vaxtlarını səmərəli keçirəcəklər. Burada biz iş təcrübəsi, biliklər qazanacağıq və müasir dövlət idarəçiliyi təcrübəsinə yiyələnəcəyik. Sizin daim dediyiniz kimi, gələcək biz gənclərin əlindədir. Biz isə buradakı təcrübəni öyrənməklə, ixtisaslı kadr kimi, gələcəkdə dövlət orqanlarında və müxtəlif yerlərdə çalışacağıq.

Bu mərkəzdə biz vətəndaşlarımıza xidmət göstərəcəyik. «ASAN xidmət» ideyasının prinsiplərini – etik davranışı, nəzakətliliyi, məsuliyyətliliyi daim rəhbər tutacağıq. Sizin dediyiniz kimi, nəcib bir fəaliyyət olan könüllülük ideyasının regionlardakı «ASAN xidmət» mərkəzlərində genişlənməsi biz gəncləri sevindirir və biz gələcəyə daha ümidlə baxırıq. Biz bu təcrübəni

nəzərə alaraq gələcəkdə könüllülük fəaliyyətinin təbliği və bu hərəkatın genişlənməsi üçün çalışacağıq.

Cənab Prezident, biz gənclər Sizin dəstəyinizi daim öz üzərimizdə hiss etmişik və bu əlamətdar gündə bizimlə olduğunuz üçün Sizə təşəkkür edirik.

**İ l h a m  Ə l i y e v:** Mən bir daha Sizi ürəkdən salamlayıram. Sizə öz minnətdarlığımı bir daha bildirirəm ki, siz bu nəcib işdə iştirak edirsiniz. Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edirəm, yeni ildə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

## İSVEÇRƏ KONFEDERASİYASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ XANIM SİMONETTA SOMMARUQAYA

Hörmətli xanım Sommaruqa!

İsveçrə Konfederasiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan–İsveçrə münasibətləri bu gün dinamik inkişaf yolundadır. Ümidvaram ki, dost ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi, əməkdaşlığımızın bütün sahələrdə dərinləşməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İsveçrə xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *16 dekabr 2014-cü il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ**

Hörmətli cənab Prezident!

Peşəvar şəhərində hərbi məktəbə silahlı hücum nəticəsində əksəriyyəti uşaq olmaqla, çoxsaylı insan tələfatı xəbəri bizi olduqca sarsıtdı.

Bu qanlı hadisə terrorizmin dəhşətli bəla olduğunu, onun bütün təzahürlərinə qarşı qətiyyətlə və ardıcıl mübarizə aparılmasının zəruriliyini bir daha təsdiq edir.

Baş vermiş faciə ilə əlaqədar kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Pakistan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *17 dekabr 2014-cü il*

# «QARABAĞ» FUTBOL KLUBUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*17 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də «Qarabağ» futbol klubunun üzvlərini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Mən sizi ürəkdən salamlayıram. «Qarabağ» futbol klubu ölkəmizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil edir. Neçə ildir ki, siz azarkeşləri sevindirirsiniz və Azərbaycan bayrağını uca tutursunuz. Bildiyiniz kimi, futbolun inkişafı Azərbaycanda dövlət siyasətidir, Dövlət Proqramı qəbul edilmişdir. Əminəm ki, gələcək illərdə Azərbaycanda futbol daha da sürətlə inkişaf edəcəkdir.

Bütövlükdə Azərbaycan hazırda dünyada idman ölkəsi kimi tanınır. Bütün mötəbər beynəlxalq idman qurumları Azərbaycanın uğurlarını yüksək qiymətləndirir. Bu yaxınlarda Avropa Olimpiya Komitəsinin Bakıda keçirilmiş Baş Assambleyasında Azərbaycanda idmanla bağlı olan inkişaf xüsusi qeyd edildi. Mötəbər qonaqlar – Beynəlxalq Olimpiya Komitəsinin prezidenti, Avropa Olimpiya Komitəsinin prezidenti Azərbaycanın uğurlarını qeyd etdilər. Həm idmançılarımızın uğurlu çıxışları, eyni zamanda, ölkəmizdə yaradılan infrastruktur və idmana dövlət tərəfindən qayğı, əlbəttə ki, təqdirəlayiqdir. İdmançılarımız da bizi, Azərbaycan xalqını sevindirirlər. Azərbaycan 2012-ci il Olimpiya oyunlarında komanda hesabında 30-cu yerə layiq görülmüşdü, Avropada isə 15-ci idi. Gözəl gənc nəsil yetişir. Onlar da öz növbəsində, həm bu gün, həm də gələcəkdə böyüklər arasında keçiriləcək yarışlarda ölkəmizi ləyaqətlə təmsil edəcəklər.

Bu il Çində Yeniyetmələrin Yay Olimpiya oyunlarında bizim komandamız 10-cu yerə qalxmışdır. Təsəvvür edin, dünya miqyasında 200-ə yaxın ölkənin iştirakı ilə keçirilən bu Olimpiadada 10-cu yerə nail olmaq tarixi qələbədir. Yəni gənc

nəsil, müstəqillik dövründə yetişən uşaqlarımız görün nə qədər böyük peşəkarlığa malikdirlər və eyni zamanda, onlarda vətənpərvərlik ruhu nə qədər yüksək səviyyədədir.

İdmanda – əlbəttə, siz idmançılar bunu yaxşı bilirsiniz – bir neçə amil hər bir idmançının, yaxud da ki, komandanın qələbəsini təmin edir. İlk növbədə, peşəkarlıq, təlim-məşq toplanışları, əlbəttə ki, məşq prosesinin düzgün həyata keçirilməsi, məşqçilərlə idmançılar arasındakı ünsiyyət və eyni zamanda, qələbə əzmi, vətənpərvərlik hissləri – bunlar da çox vacib amillərdir.

İdmançılarımız bizi sevindirirlər, əminəm ki, gələcəkdə biz daha da böyük qələbələrə imza atacağıq. Azərbaycan dövləti də idmanın inkişafı ilə bağlı ardıcıl siyasət aparır, idman infrastrukturu yaradılır. Son illər ərzində 50-dən çox olimpiya mərkəzi tikilmişdir ki, onların 40-dan çoxu bölgələrdədir. Dediyim kimi, futbolun inkişafı ilə bağlı həm Dövlət Proqramı vardır, eyni zamanda, stadionlar da tikilir. Bizim Tofiq Bəhramov adına əsas stadionumuz əsaslı şəkildə təmir edilmişdir, Mərdəkanda «Dalğa» stadionu, «8-ci kilometr» stadionu inşa olunub, bölgələrdə stadionlar tikilir. Nəhayət, ən böyük Olimpiya stadionumuz yaxın gələcəkdə açılacaq. Bu, bölgənin ən böyük, ən gözəl, ən müasir Olimpiya stadionu olacaqdır. Orada çıxış etmək, oynamaq hər bir futbolçuya zövq verəcək. Həm stadionun özü, həm onun yerləşməsi, ətrafındakı infrastruktur ən yüksək səviyyədədir. Bununla paralel olaraq stadionun arxasındakı Böyükşor gölü indi xüsusi ekoloji layihə çərçivəsində təmizlənir və onun birinci mərhələsinin gələn il başa çatması da gözlənilir. Bu təmizləmə işlərinin getdiyi vaxtda artıq Böyükşor gölünə köçəri quşlar da qonur. Budur əsas göstərici, yəni uzun illər ekoloji fəlakət mənbəyi olan bu göl indi təmizlənir və gözəl ekoloji bir sahə yaradılacaqdır.

Deyə bilmərəm ki, futbolçularımız bizi tez-tez sevindirirlər. Ancaq gözəl anlar da kifayət qədər çoxdur və «Qarabağ» futbol klubu o klublardandır ki, bu anları xalqımıza bəxş edir. Bu münasibətlə mən sizi həm təbrik etmək, həm də təşəkkürümü

bildirmək istəyirəm. Çünki sizin uğurlu çıxışlarınız, qələbələriniz azarkeşləri ruhlandırır, sevindirir. Siz xalqımıza qələbə sevinci də bəxş edirsiniz. Xüsusilə son yarışlarda, Avroliqadakı yarışlarda sizin oyunlarınız ən yüksək qiymətə layiqdir. Sizin qrupunuzda yarışan klubların büdcəsi sizinkindən qat-qat böyükdür, bəlkə 10 dəfədən çoxdur. Ancaq həyatda, idmanda, siyasətdə maliyyə vəsaiti hər şeyi həll etmir. Sizdə Vətənə olan bağlılıq, vətənpərvərlik, peşəkarlıq və iradə, bax, bu qələbələri şərtləndirib. Siz bütün komandalarla çox uğurlu yarışmısınız, qələbələr qazanmısınız. Hər kəs – həm Azərbaycanda, həm də dünyada futbolla maraqlanan hər bir insan yaxşı görür və bilir ki, siz böyük qələbələrə layiq idiniz. Ancaq bu, qələbələr sizin əlinizdən vicdansızcasına alınmışdı. Bütün dünyanın gözü qarşısında bu qədər ədalətsizlik, bu qədər vicdansızlıq bəlkə də futbol tarixində nadir hallarda baş verir. Əlbəttə, bilirəm ki, siz də məyus olmusunuz, azarkeşlər də, Azərbaycan xalqı da. İlk növbədə, ona görə ki, siz bu qələbəyə layiq idiniz.

Bu sonuncu oyun – dekabrın 11-də «İnter» komandası ilə keçirilən oyun həlledici idi. Bu oyunda siz çox gözəl mübarizə apardınız. Qələbəyə layiq idiniz və qələbəni əldə etdiniz. Bütün dünyanın gözü qarşısında təmiz qol vurdunuz. Ancaq hakim briqadasının qeyri-peşəkarlığı, ya da ki, qərəzli münasibəti ucbatından o qol sayılmadı və beləliklə, sizin qarşınıza bir sədd qoyuldu. Bu, böyük ədalətsizlikdir. Ədalətsizliklə barışmaq çox çətindir, həm həyatda, həm idmanda, həm də siyasətdə.

Əfsuslar olsun ki, ədalətsizlik hələ ki özünü müxtəlif sahələrdə büruzə verir, o cümlədən siyasi aləmdə. Biz – gənc, müstəqil Azərbaycan dövləti də bəzi hallarda ədalətsizliklə, ikili standartlarla, ayrı-seçkiliklə üzləşirik. Bizim uğurlu inkişafımızı həzm etməyən, uğurlarımıza kölgə salmaq istəyən bəzi xarici dairələr var ki, Azərbaycanı ləkələmək, qaralamaq, şər-böhtan atmaq üçün ardıcıl şəkildə səy göstərirlər. Ancaq bu səylərin heç bir nəticəsi yoxdur. Çünki Azərbaycan öz yolu – müstəqillik, azadlıq, inkişaf yolu ilə gedir. Heç bir qüvvə bizi bu yoldan döndərə bilməz. Ancaq belə cəhdlər var. İkili

standartlar göz qabağındadır. Əfsuslar olsun ki, indi ikili standartlar dünya siyasətinin standartlarına çevrilmişdir. Biz isə öz yolumuzla gedirik. Amma bizim üstünlüyümüz ondan ibarətdir ki, başqa ölkələrlə, yaxud da ki, beynəlxalq təşkilatlarla münasibətlərimizi tənzimləyən heç bir hakim briqadası yoxdur. Biz bu mübarizədə öz sözümüzü deyirik və əksər hallarda qələbə bizimlə olur.

Bu gün Azərbaycan reallıqları göz qabağındadır. Lakin hər tərəf alovlanır. Bölgədə, Avropada iqtisadi, siyasi, hərbi böhran, toqquşmalar, davalar, qanlı müharibələr gedir. Azərbaycan sabitlik adasıdır, inkişaf məkanıdır. Biz buna Azərbaycan xalqının zəhməti hesabına nail ola bilmişik. Heç vaxt bu yoldan dönməyəcəyik.

İdmanda isə əfsuslar olsun ki, bəzi hallarda hakimlərin ədalətsiz qərarı həlledici olur. Mən idmanla yaxından maraqlanan, eyni zamanda, idmana rəhbərlik edən insan kimi, dəfələrlə onun şahidi olmuşam ki, beynəlxalq yarışlarda, hətta fərdi idman növlərində də bizim idmançılarımıza qarşı ədalətsizlik göstərilmişdir. Yenə də deyirəm, qələbə qazanmaq olar, məğlub olmaq olar. Bu idmandır, heç kim sığortalanmayıb ki, o, məğlub olmayacaq. Əgər siz ədalətli mübarizədə məğlub olsaydınız, yaxud da ki, o qolu vurmasaydınız, heç kim heç nə deməzdi. Lakin belə oldu, gələn dəfə daha da yaxşı oyun nümayiş etdirmək olar. Ancaq təmiz, halal qələbəni komandanın əlindən almaq böyük ədalətsizlik və idman aləmində cinayətdir. Ona görə hesab edirəm ki, bu cinayəti, idman cinayətini törətmiş hakim briqadası öz cəzasını almalıdır. Əks təqdirdə, bu, başadüşülən olmayacaq.

Mən sizi ilk növbədə, ona görə dəvət etmişəm ki, son illərdə göstərdiyiniz oyunlar, əlbəttə, məni də, xalqımızı da sevindirir. Digər tərəfdən, bilirəm ki, komanda üçün indiki dövr o qədər də asan dövr deyil. Çünki sizin bütün fikirləriniz artıq növbəti mərhələdə idi. O mərhələdə siz çıxış etməli idiniz. Bu qələbə sizdən vicdansızcasına oğurlanıb. Ancaq həyat davam edir. Bu ədalətsizlik sizi ruhdan salmamalıdır. Əksinə, sizi daha da çox

ruhlandırmalıdır ki, qələbə əzmi daha da güclü olsun, növbəti yarışlarda Avropa idman ailəsinə bir daha sübut edəsiniz ki, «Qarabağ» futbol klubu böyük uğurlara imza ata və Azərbaycan futbolunu ləyaqətlə təmsil edə bilər.

Klubun adı «Qarabağ»dır, bu da sizin üzərinizə əlavə məsuliyyət qoyur. Əminəm ki, gələcək illərdə siz bu gözəl adı şərəflə, ləyaqətlə daşıyacaqsınız və «Qarabağ» klubu Azərbaycan xalqını yeni qələbələrlə sevindirəcək.

Sizə yeni uğurlar arzulayıram. Arzu edirəm ki, siz növbəti yarışlara yaxşı hazırlaşasınız. Bilirəm ki, klubda ab-hava da yaxşıdır. Məşqçi heyəti, klubun rəhbərliyi, oyunçular – siz bir ailə kimisiniz. Mən bunu da alqışlayıram.

Bir daha sizə göstərdiyiniz uğurlar və nəticələr münasibətilə Azərbaycan xalqı adından təşəkkürümü bildirir və yeni qələbələr arzulayıram. Sağ olun.

**Qurban Qurbanov** (*baş məşqçi*): Cənab Prezident, mən də ilk növbədə, bütün klub adından, bütün futbolçular adından Sizi salamlayıram. Çox sağ olun ki, bizim üçün vaxt ayırdınız. Həqiqətən, həmin oyundan sonra futbolçularda bir az üzgünlük vardı. Hər birimiz çox təəssüflənmişdik. İstəyirdik ki, başda Siz olmaqla, bütün Azərbaycan xalqına bu oyunda qələbə hədiyyə edək.

Amma Sizin söylədiyiniz kimi, qələbə əlimizdən alındı. Bunu Sizə hədiyyə etmək bizə nəsib olmadı. Amma Sizin bu görüşünüz, bizləri qəbul etməyiniz düşünürəm ki, gələcək işlərimiz üçün çox faydalı oldu. Biz o oyunu yaddan çıxarıb çalışmalıyıq ki, qarşıdakı yarışlarda daha da yaxşı, uğurlu nəticələr əldə edək.

Komandamızın bütün heyəti adından Sizə minnətdarlığımızı bildirirəm. Sizin Azərbaycan idmanına, Azərbaycan futboluna diqqət və qayğınız məsuliyyətimizi daha da artırır. Çalışırıq ki, işimizi düzgün qurub, uğurlu nəticələr əldə edək. Siz qeyd etdiniz ki, futbolda uğurlarımız azdır. Həqiqətən, bu bizlərə təsir edir. Bunun üzərində daim çalışırıq və inanıram ki, gələcək oyunlarımızda, gələcək işlərimizdə Sizi və bütün Azərbaycan

xalqını, o cümlədən bütün qarabağlıları, köçkünlərimizin hər birini sevindirəcəyik.

Bir daha Sizə «Çox sağ olun!» – deyirəm. Çox şadıq ki, bizimlə belə bir görüş təşkil etdiniz.

**T a h i r G ö z ə l** *(«Qarabağ» futbol klubunun vitse-prezidenti)*: Cənab Prezident, mən də «Qarabağ» futbol klubu, azarkeşlərimiz, «Qarabağ»ı sevən bütün Azərbaycan xalqı adından klubumuzun tarixinə yazılacaq bu gün üçün Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Doğrudan da «Qarabağ» klubu Azərbaycan bayrağını Sizin də dediyiniz kimi, Avropada, dünyada ucaldıb. Cənab Prezident, biz bu günlərə Sizin dəstəyiniz, qayğınız, Sizdən aldığımız ruh və enerjini ürəyimizdə hiss edərək, Azərbaycan xalqının mənəvi dəstəyi ilə çatmışıq.

«İnter»lə oyunumuzda təmiz qolumuzun sayılmamasına gəldikdə, cənab Prezident, çox maraqlı bir şey müşahidə etdik ki, dünyada, Avropada bizə nə qədər dəstək göstərildi. Ukraynanın «Dnepr» komandasının oyunçuları «Avropaya biz deyil, «Qarabağ» getməli idi» – dedilər. Türkiyə, Rusiya, Avropa mediası Azərbaycanın, «Qarabağ»ın tərəfini tutaraq göstərdi ki, bu, təmiz qol idi. Cənab Prezident, biz bir daha gördük ki, Azərbaycan nə qədər ehtirama layiq, nə qədər sevilən, rəğbət bəslənilən, güclü bir ölkəyə çevrilib, insanların nəzərində imici nə qədər yüksəkdir. Biz bunun bir daha şahidi olduq. Bu, cənab Prezident, Sizin diqqət və qayğınızın, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi əsasların bəhrəsidir. Biz bunlara görə Sizə dərin təşəkkür edirik. Sizə kiçik hədiyyələrimiz var. İcazənizlə, onu Sizə təqdim etmək istəyirəm. Bu topun üzərində klubumuzun hər bir üzvünün imzası var. Doğrudan da biz bir ailəyik. Bu mənəvi ailənin üzərində Sizin işığınız, dəstəyiniz var.

*Tahir Gözəl dövlətimizin başçısına klubun xatirə hədiyyələrini təqdim etdi.*

**İ l h a m Ə l i y e v:** Mənə də məlumat verildi ki, doğrudan da Avropada böyük narahatlıq hissi yaranıb. Bu ədalətsizliyə qarşı Avropa da öz səsini ucaltdı. Çünki bir daha demək

istəyirəm ki, insanlar bir çox məsələ ilə – məhrumiyyətlərlə, yoxsulluqla barışa bilərlər. Amma ədalətsizliklə barışmaq mümkün deyil, özü də bu ədalətsizlik hamının gözü qarşısında baş verəndə. Əlbəttə, bu, insanları haqlı olaraq coşdururdu və şadam ki, burada, Avropanın idman aləmində də həmrəylik göstərilmişdir. Yəni sizə olan mənəvi dəstəyi mən yüksək qiymətləndirirəm.

Bir məsələni də vurğulamaq istəyirəm. O hadisə oyunun son dəqiqələrində baş vermişdi. Ancaq mən oyunu izləyərkən bir məqama da diqqət yetirdim ki, komanda özünü necə ləyaqətlə aparmışdır. Çünki o anda emosiyaları, ehtirasları cilovlamaq o qədər də asan məsələ deyildi. O, sıravi bir oyun deyildi, həlledici oyun idi və hər kəs gözəl görürdü ki, təmiz qol vurulmuşdu. Ona görə burada idmana xas olan etik normalar çərçivəsində davranmaq böyük bir mədəniyyət tələb edirdi. Siz də bu mədəniyyəti göstərmisiniz, bütün Avropaya göstərmisiniz. Bir çox komandalar özlərini başqa cür aparardılar. Həm azarkeşlər, həm oyunçular. Ancaq Azərbaycan azarkeşləri də, «Qarabağ» futbol komandası da yüksək mədəniyyət, ləyaqət göstərmişdir. Bu hər şeydən üstündür. Qələbələr olacaq və ədalətsizliklər aradan götürüləcək. Əminəm ki, ədalət bərpa olunacaq və növbəti yarışlarda siz qələbənizi əldə edəcəksiniz. Ancaq «Qarabağ» artıq tarixə ləyaqətli komanda kimi daxil oldu. Sizə olan hörmət və eyni zamanda, dünyada, Avropada Azərbaycana olan rəğbət daha da artacaq.

Biz hər bir sahədə özümüzü ləyaqətlə aparırıq. Bu, əsas şərtdir. Məişətdə, həyatda, siyasətdə, idmanda ləyaqət hər bir insana başucalığı gətirir. Bu isə insanın daxilində olmalıdır və eyni zamanda, bu, tərbiyə olunmalıdır. Bax, bu gün Azərbaycanda yaşanan gözəl ab-hava, xoş ictimai iqlim bu müsbət meyilləri daha da gücləndirir. Bizim ölkəmiz dinamik inkişaf edir, dünyaya açıqdır, əməkdaşlığa açıqdır, öz taleyini özü həll edir. Ölkəmiz 23 ildir müstəqil dövlət kimi yaşayır və bütün dünyaya sübut edə bilib ki, müstəqil dövlət kimi yaxşı yaşaya bilir və öz taleyini öz əlində saxlayır və saxlayacaq.

İdman indi dünyada ictimai fenomendir. İdmanı ictimai həyatdan ayırmaq mümkün deyil və iqtisadi cəhətdən güclü olan ölkələrdə, adətən, idman da sürətlə inkişaf edir. Ona görə idman infrastrukturunun, idmançılara yaxşı şəraitin yaradılması və bütövlükdə idman siyasətini prioritet kimi qəbul etməyimiz, bax, bugünkü imkanları yaradıb ki, dünyada Azərbaycan idman dövləti kimi tanınır. Təsadüfi deyil ki, I Avropa oyunları gələn il Bakıda keçiriləcək. Böyük hazırlıq gedir. Əminəm ki, futbolçularımız da hazırlıq işlərində fəal iştirak edəcəklər. 2017-ci ildə İslam Həmrəyliyi oyunları keçiriləcəkdir. Həm Avropa, həm İslam Həmrəyliyi oyunlarını keçirəcək ikinci belə ölkə yoxdur və yəqin ki, olmayacaq. Azərbaycan həm Avropada böyük rəğbətə malikdir, həm də islam aləmində çox böyük hörmətlə qarşılanır.

Əlbəttə, İslam Həmrəyliyi oyunlarını, Avropa oyunlarını keçirməklə biz sivilizasiyalararası dialoqu daha da möhkəmləndiririk. Çünki Bakı, Azərbaycan bu dialoq üçün mərkəz rolunu oynayır və 2020-ci ildə Avropa futbol çempionatı da Bakıda keçiriləcək. Bildiyiniz kimi, 13 şəhər seçilmişdir. Bakı onların arasındadır. 13 şəhərdən 4-ü seçilmişdir ki, dörddəbir yarışlar bu şəhərlərdə keçiriləcək. Onlardan biri Bakıdır. Bax, budur bugünkü Azərbaycan, gözəl Bakı şəhərimiz və bizim uğurlarımız.

Əlbəttə ki, hər birimiz, hər bir Azərbaycan vətəndaşı öz sahəsində fəal işləməli, ümumi işimizə öz töhfəsini verməlidir. Çalışmalıdır ki, ölkəmiz daha da çiçəklənsin, inkişaf etsin, xalqımız daha da yaxşı yaşasın, təhlükəsizlik, əmin-amanlıq olsun, insanlarımız rahat yaşasın və belə də olacaq.

Sizi qələbə münasibətilə bir daha təbrik edirəm. Mən hesab edirəm ki, siz həm dekabrın 11-də, həm də, ümumiyyətlə, Avroliqada qələbə qazanmısınız. Sizə yeni qələbələr arzulayıram.

## ***bp*** **ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ**

*17 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də bp şirkətinin icraçı direktoru Robert Dadlini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə bp şirkəti arasında əməkdaşlığın uğurla həyata keçirildiyi vurğulandı, «Azəri–Çıraq–Günəşli» və «Şahdəniz» yataqlarında işlərin icrasından məmnunluq ifadə olundu, bu ilin sentyabrında «Cənub Qaz Dəhlizi»nin təməli qoyulduqdan sonra layihə üzrə işlərin müvəffəqiyyətlə aparıldığı bildirildi. Əminliklə qeyd olundu ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə bp arasında bu layihə ilə bağlı əməkdaşlıq uğurla davam etdiriləcəkdir.*

*Prezident İlham Əliyev və icraçı direktor Robert Dadli Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə bp arasında tərəfdaşlıq əlaqələrinə söykənən əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduqlarını bildirdilər.*

*Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN ALİMLƏRİNİN I QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycan alimlərinin I Qurultayının öz işinə başlaması münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı və ölkəmizin gələcəyi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Sivilizasiyaların qovuşuğunda yerləşən qədim mədəniyyət mərkəzi Azərbaycanda elmin çoxəsrlik tarixi və ənənələri vardır. Xalqımızın dünya mədəniyyəti xəzinəsinə bəxş etdiyi mütəfəkkir alimlər Antik dövrün elmi nailiyyətlərinin Avropaya çatdırılmasında özünəməxsus rol oynamış, mədəniyyətlərarası dialoqun qurulması və Şərqlə Qərb arasında mədəni-elmi varislik əlaqələrinin qorunub saxlanması işinə misilsiz töhfələr vermişlər. Onların yüzillər boyu dəyərini itirməyən əsərləri bəşəriyyətin intellektual inkişafına xidmətin parlaq nümunələridir.

Elmimiz tarixində XX əsr taleyüklü hadisələrlə zəngin olmuşdur. Milli Elmlər Akademiyasının, universitetlərin və digər elmi-tədqiqat qurumlarının təşkili Azərbaycan elminin dünya elm məkanına inteqrasiyasına əlverişli zəmin yaratmışdır. Müasir cəmiyyət quruculuğunu təmin edən əsas amil kimi, elm bu gün də müstəqil Azərbaycanın dövlət siyasətinin prioritet sahələrindəndir.

Qurultayınız ölkəmizdə sosial-iqtisadi və mədəni-mənəvi tərəqqi istiqamətində quruculuq işlərinin müvəffəqiyyətlə aparıldığı dövrə təsadüf edir. İnanıram ki, bu ilk məclisiniz qloballaşma dövrünün yeni-yeni çağırışlarına cavablar axtaracaq və milli-elmi potensialın ölkənin dinamik yüksəlişi naminə yeni, innovativ prinsiplər əsasında səfərbər olunması yolunda mühüm addım təşkil edəcəkdir.

İqtisadiyyatımızın davamlı inkişafı, biliklərə əsaslanan cəmiyyətin formalaşdırılması və insan kapitalına investisiyaların qoyuluşu yaxın perspektiv üçün başlıca strateji məqsədlərimizdəndir. Bütün bunlar yüksəkixtisaslı insan resursları, yeni elmi yanaşmalar və çevik innovasiya fəallığı tələb edərək, Azərbaycan elmi qarşısında tamamilə yeni vəzifələr irəli sürür. Əminəm ki, ilk qurultayınızda bununla əlaqədar səmərəli fikir mübadiləsi və müzakirələr aparılacaq, respublikamızın gələcəyi baxımından böyük əhəmiyyətə malik fəaliyyət proqramı qəbul olunacaqdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 dekabr 2014-cü il*

## SOSİALİST İNTERNASİONALININ BAŞ KATİBİ LUİS AYALA İLƏ GÖRÜŞ

*18 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Sosialist İnternasionalının baş katibi Luis Ayalanı qəbul etmişdir.*

*Sosialist İnternasionalının baş katibi Luis Ayala Azərbaycan Sosial-Demokrat Partiyasının 25 illik yubiley konfransında iştirak etmək üçün ölkəmizə səfərindən məmnun olduğunu bildirdi. O, Azərbaycana səfərindən ötən dövr ərzində ölkəmizdə gedən böyük inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi.*

*Prezident İlham Əliyev Azərbaycanda bütün sahələrin inkişafı ilə bağlı əldə olunan nailiyyətlərdən danışdı.*

*Görüşdə beynəlxalq əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «MÜSLÜM MAQOMAYEV» VƏ «LƏNKƏRAN» GƏMİLƏRİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK

*18 dekabr 2014-cü il*

*SSRİ Xalq artisti, dünya şöhrətli müğənni Müslüm Maqomayevin adını daşıyan gəminin dekabrın 18-də istismara verilməsi mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Müslüm Maqomayevin həyat yoldaşı, SSRİ Xalq artisti Tamara Sinyavskaya mərasimdə iştirak etmişlər.*

*Qeyd edək ki, 2013-cü ilin oktyabrında prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanmasının birləşdirilərək yenidən təşkil olunması nəticəsində «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyəti yaradıldı. Bu qurumun təşkili aparılan struktur islahatlarının mühüm tərkib hissəsi olmaqla, ölkədə gedən inkişaf proseslərini özündə əks etdirirdi. Bu həm də dəniz gəmiçiliyi sahəsində yerli və beynəlxalq daşımaların artırılması, ölkənin rəqabətqabliyyətinin və tranzit potensialının gücləndirilməsi sahəsində daha çox nailiyyətlərin əldə olunmasına hesablanmışdı. Digər tərəfdən, yeni yaradılan qurumun qarşısında «Azərbaycan–2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında nəqliyyat sahəsində nəzərdə tutulmuş digər vacib vəzifələrin qoyulması onun fəaliyyətinə verilən önəmi bir daha nümayiş etdirir. Bütün bunlar da son illərdə ölkədə nəqliyyat infrastrukturunun daha da təkmilləşdirilməsi və Azərbaycanın tranzit potensialının gücləndirilməsi üçün silsilə və kompleks tədbirlərin həyata keçirilməsi sayəsində mümkün olub. Odur ki, son illərdə gəmiçiliyin maddi-texniki bazasının gücləndirilməsi*

*istiqamətində xeyli işlər görülüb, yeni gəmilər alınıb. Artıq istismara hazır olan «Müslüm Maqomayev» gəmisi də bu sırada mühüm yer tutur.*

*Gəminin istismara verilməsini bildirən rəmzi lenti Tamara Sinyavskaya kəsdi. Sonra Müslüm Maqomayevin məşhur «Azərbaycan» mahnısı səsləndirildi və xatirə şəkli çəkdirildi.*

*Gəminin kapitanı prezident İlham Əliyevə raport verdi.*

*Gəmidə yaradılan şəraitlə tanış olan prezident İlham Əliyevə «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev bildirdi ki, «Caspian Marine Services» şirkəti ilə uzunmüddətli alyans razılaşması çərçivəsində alınan «Müslüm Maqomayev» sürətli sərnişin gəmisinin uzunluğu 70, eni 16, bortunun hündürlüyü isə 6 metrdir. Gövdəsi ikiqat, bütövlükdə alüminium qatlarından yığılmış katamaran tipli gəmi təyinatına görə dünyada həmin kateqoriyada ilk sürətli sərnişin gəmisidir. Gəminin inşası Beynəlxalq Dənizçilik Təşkilatının sürətli gəmilərin tikintisində tətbiq edilən «HSC kodu» tələblərinə uyğun olaraq, Avstraliyanın «Incat Tasmania» gəmiqayırma zavodunda 1 il ərzində həyata keçirilib. Dəniz sınaqlarını müvəffəqiyyətlə başa vuran «Müslüm Maqomayev» gəmisi oktyabrın 4-də Xəzər dənizinə istiqamət alıb. Bakıya çatmaq üçün gəmi 11486 mil məsafə qət edib. Gəmidə Müslüm Maqomayevin xatirə guşəsi yaradılıb. Burada dünya şöhrətli müğənninin müxtəlif fotoları yer alıb.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, gəminin yüksək keyfiyyətli alüminium gövdəsi, eləcə də son texnologiyalar əsasında istehsal olunan güc və hərəkət mexanizmləri onun dənizdə idarəolunma qabiliyyətinin yüksək standartlara cavab verməsinə zəmin yaradıb. Beləliklə, Azərbaycan dənizçilərinin səyi və məharəti nəticəsində gəmi uzun yol qət edərək, dekabrın 4-də Bakı limanına yan alıb. Əməliyyat təyinatına gəlincə, «Müslüm Maqomayev» gəmisi dənizdə çalışan neftçilərin sərəncamına verilərək, 150 nəfərədək xüsusi dənizmədən heyətinin Xəzərdəki neft-qaz platformalarına çatdırılması işlərini yerinə yetirəcək. Hava şəraitindən asılı olaraq*

*(küləyin sürəti saniyədə 17 metr, dalğanın hündürlüyü 4 metrədək olduqda) gəmi saatda 38 dəniz milinədək sürətlə hərəkət edə bilir.*

*Dünya şöhrətli müğənni Müslüm Maqomayevin xatirəsinə göstərilən diqqətə görə SSRİ Xalq artisti Tamara Sinyavskaya prezident İlham Əliyevə təşəkkür etdi.*

**Tamara Sinyavskaya:** Çox sağ olun, cənab Prezident! Dedilər ki, mən indi bu gəminin «xaç anası» kimiyəm və onun «yolu uğurlu olsun» sözlərini deməliyəm.

Cənab Prezident, Sizə böyük minnətdarlığımı bildirirəm. Mən gözləmirdim ki, Müslüm Maqomayevin vəfatından 6 il sonra sakit gülümsəyə bilərəm. Gözləmirdim, çünki burada göz yaşlarından başqa məndə tamamilə fərqli hisslər oyanır. Cənab Prezident, mənim fikrimdə tutduğum arzumu qısa vaxt ərzində gerçəkləşdirdiyinizə görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Məni qoruyan mələk isə həmişə Mehriban xanım Əliyeva olub və bundan sonra da olacaq.

*Müslüm Maqomayevin bənzərsiz yaradıcılığından danışan prezident İlham Əliyev onun xatirəsinin Azərbaycan xalqının qəlbində əbədi yaşayacağını vurğuladı.*

**İlham Əliyev:** Bu gün həqiqətən, gözəl bir gündür. Müslümün adı verilən bu gəmi gözəl ölkəmizə, Müslümün çox sevdiyi, bağlı olduğu, şərəfinə «Azərbaycan» adlı çox gözəl mahnı bəstələdiyi Vətəninə xidmət edəcək. Bu gün bu nəğmə ölkəmizin rəmzidir. Müslümün bəstələdiyi «Dəniz» mahnısı bizim şəhərimizə, dənizə olan məhəbbətini əks etdirir. Yəqin ki, dəniz haqqında daha yaxşı mahnını heç kəs bəstələməyib. Bu gün bu bizim əziz Müslümümüzün, Azərbaycan xalqının fəxrinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində ilk addımdır. İlk, amma sonuncu addım deyil. Gələcəkdə də addımlar atılacaq. Onun adı bizim xatirəmizdə, qəlbimizdə, Azərbaycan xalqının, Rusiyanın ürəyində əbədi yaşayacaq. O həmişə deyirdi ki, Azərbaycan mənim atam, Rusiya isə anamdır. Müslüm Azərbaycanda anadan olub, formalaşıb, məşhurlaşıb, Rusiyada isə ümumdünya şöhrəti qazanıb, öz yaradıcı potensialını tam reallaşdıra bilib. Nadir

şəxsiyyət, çoxtərəfli istedad olub. Bir şəxsiyyətdə bu qədər istedadın birləşməsini təsəvvür etmək çətindir. Amma bu həqiqətən, belə idi. Onu tanıyanlar bunu bilirdilər. Bununla yanaşı, Müslüm gözəl insan idi. Bir şəxsiyyətdə həm insani, həm yaradıcı keyfiyyətlərin cəmləşməsi çox nadir haldır. Bu günə qədər heç kəs Müslümün mahnılarını onun özü kimi ifa edə bilmir. Cəhdlər çoxdur. Bu başadüşüləndir, onun mahnılarını ifa etmək arzusunda olanlar çoxdur. Mən bunu alqışlayıram. Çünki bu mahnılar yaşamalıdır. Lakin bu günə qədər heç kim bu mahnıları Müslüm kimi ifa edə bilməyib. Düşünürəm ki, bundan sonra da bunu edə bilməyəcəklər. Bu gün də hər dəfə onun mahnılarını dinləyəndə sevinc hissi duyuruq, Müslümün bizi çox tez tərk etməsindən isə kədərlənirik. Müslüm bizim ürəyimizdə, xatirəmizdə, dostlarının yaddaşında yaşayır.

Biz onunla çox yaxın dost olmuşuq, bir-birimizə böyük rəğbət və hörmətlə yanaşmışıq. Çox şadam ki, bu gün Tamara və Mehriban xanımla gəmidə Müslümün atamla birlikdə olduğu və onların münasibətlərini əks etdirən fotolara baxdıq. Atam ona oğul kimi, o isə Heydər Əliyevə ata kimi yanaşırdı. Düşünürəm ki, bizim ailəvi münasibətlərimizdə hökm sürən ab-hava bütün cəmiyyətə sirayət edib. Müslümü Azərbaycanda seviblər, sevirlər və bundan sonra da əbədi olaraq sevəcək və xatırlayacaqlar.

**Tamara Sinyavskaya**: Təşəkkür edirəm! İlahi, Azərbaycan torpağını qoru! Cənab Prezident, Allah Sizi, Mehriban xanımı, bu gəmini qorusun! Yolu uğurlu olsun!

*Sonra Tamara Sinyavskaya gəminin istismara verilməsini bildirən düyməni basdı.*

*Dövlətimizin başçısının diqqətinə o da çatdırıldı ki, «Müslüm Maqomayev» gəmisinin istifadəsi xüsusi heyətin və yüklərin dənizdəki platformalara helikopterlər vasitəsilə daşınmasını minimuma endirəcək. Dənizçilik Təsnifat Cəmiyyətinin tələblərinə uyğun olaraq, gəmidə tam komfort sistemi yaradılıb ki, bu da öz növbəsində, hətta sərt hava şəraitində belə, sərnişinlərin təyinat məntəqələrinə tez və rahat çatdırılmasına əlverişli imkan verir. Atmosfer çirklənmələrinin qarşısının alınması və ətraf mühitə*

*zərərli təsirin azaldılması məqsədilə gəmidə müasir tələblərə cavab verən enerji verici qurğulardan istifadə olunur.*

* * *

*Daha sonra prezident İlham Əliyev «Lənkəran» yedək-təchizat gəmisində yaradılan şəraitlə tanış oldu.*

*Prezident İlham Əliyev Qara dənizdə Azərbaycan bayrağı altında üzən gəminin kapitanı ilə videobağlantı vasitəsilə söhbət etdi.*

**K a p i t a n**: İcazənizlə, möhtərəm cənab Prezident, mən Əmirov Fuad Adil oğlu «Natəvan» gəmisinin kapitanı olaraq Sizi Rusiyanın Taqanroq limanından salamlayıram və bütün heyət üzvləri adından donanmamızın yeniləşdirilməsinə, dənizçilərimizin əmək və həyat şəraitinin yüksəldilməsinə göstərdiyiniz yüksək diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Qürurverici faktdır ki, son 5 illik fasilədən sonra artıq yenidən Xəzər dənizindən kənarda, dünya sularında Azərbaycan bayrağı altında üzən gəmilərimiz var.

**İ l h a m Ə l i y e v:** İndi haradasan?

**K a p i t a n:** Hazırda Taqanroq limanındayıq. Gəmiyə yük vurulur. Buradan, inşallah, Türkiyənin İzmir limanına yola düşəcəyik.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı ki, Xəzər Gəmiçiliyinin gəmiləri Qara dənizdə də fəaliyyət göstərir. Gəmiçiliyin gözəl gələcəyi var. Aparılan islahatlar, struktur islahatları və gəmiçiliyin fəaliyyəti ilə bağlı atılan addımlar gözəl nəticələr verir. Daha da böyük nəticələr olacaq. Bu yaxınlarda gəmiçiliyin fəaliyyəti üçün əlavə maddi dəstək verilmişdir. Əminəm ki, Xəzər Gəmiçiliyi dünya miqyasında çox gözəl və müasir şirkətə çevriləcəkdir.

Azərbaycanda artıq bir neçə beynəlxalq şirkət fəaliyyət göstərir – SOCAR, AZAL və digər şirkətlər. Əlbəttə, özəl şirkətlər də bu sıradadır. Ancaq dövlət şirkətləri arasında Xəzər Gəmiçiliyinin öz yeri, böyük tarixi, ənənələri var. Xəzərdə bizim gəmiçiliyimiz həmişə böyük rola malik olub. Biz bu gün müasir şirkət

yaratmaqla, həm iqtisadi potensialımızı möhkəmləndirəcəyik, eyni zamanda, Xəzər Gəmiçiliyi dünya miqyasında müasir, çox səmərəli şəkildə idarəolunan şəffaf şirkət kimi özünü təqdim edəcək. Sizə uğurlar arzulayıram.

*Məlumat verildi ki, «Lənkəran» gəmisinin uzunluğu 74,5, eni isə 17,2 metrdir. Texniki göstəricilərinə görə Xəzərdə birinci olan, 16320 at gücündəki bu yeni yedək-təchizat gəmisinin dartma qüvvəsi 207 tondur. «Lənkəran» gəmisinin geniş texniki üstünlükləri onun Xəzərdə bir çox layihələr, o cümlədən «Şahdəniz-2», «Şəfəq–Asiman», «Abşeron Faza-1» layihələri çərçivəsində nəzərdə tutulan işlərə cəlb olunmasına da imkan verir.*

*«Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-nin tərkibinə nəqliyyat və neft donanmaları daxildir. Nəqliyyat donanmasının tərkibində 97 gəmi var. İxtisaslaşdırılmış neft donanması isə 188 gəmidən ibarətdir. 2003–2014-cü illərdə «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» üçün 23 yeni gəmi, o cümlədən 11 tanker, 6 bərə, 2 quru yük gəmisi, 4 yedək və yedək-təchizat gəmisi alınıb. Həmçinin bu ilin aprelində Bakı Gəmiqayırma zavodu ilə bağlanan müqaviləyə əsasən 3 sərnişin gəmisinin tikintisinə başlanılıb. Hər biri 80 nəfər sərnişin tutumuna malik olacaq bu gəmilər dəniz neftçilərinin daha təhlükəsiz və rahat şəraitdə iş yerlərinə çatdırılmasında mühüm rol oynayacaq.*

*Sonda prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

**YAPONİYA İMPERATORU
ƏLAHƏZRƏT AKİHİTOYA**

Əlahəzrət!

Yaponiyanın milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Yaponiya xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının
Prezidenti**

Bakı, *19 dekabr 2014-cü il*

## AVSTRİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ AKSEL VEX İLƏ GÖRÜŞ

*19 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Aksel Vexin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Aksel Vex Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Diplomat etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Səfir Aksel Vex yüksək səviyyəli qarşılıqlı səfərlərin, həmçinin ölkələrimizin müvafiq qurumları arasında sıx əlaqələrin mövcud əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yaxşı baza yaratdığını dedi. Avstriyalı diplomat ölkəsinin Azərbaycan ilə əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən enerji və turizm sahələrində genişləndirilməsində maraqlı olduğunu bildirdi.*

*Prezident İlham Əliyev ikitərəfli əlaqələrin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunaraq Avstriya prezidenti Hayntz Fişerlə keçirdiyi görüşləri və apardığı səmərəli müzakirələri məmnunluqla xatırlatdı. Azərbaycan ilə Avstriya arasında əməkdaşlığın kənd təsərrüfatı, tikinti və informasiya-kommunikasiya texnologiyaları sahələrində genişləndirilməsi məsələlərinin qarşılıqlı maraq doğurduğunu qeyd edən dövlətimizin başçısı Avstriya şirkətlərinin ölkəmizdə uğurla fəaliyyət göstərdiyini dedi. Prezident İlham Əliyev səfir Aksel Vexin ölkəmizdəki diplomatik fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyinə ümidvar olduğunu bildirdi.*

# ӘFQANISTAN İSLAM RESPUBLİKASININ AZӘRBAYCANDA YENİ TӘYİN OLUNMUŞ SӘFİRİ MӘHӘMMӘD TAQİ XALİLİ İLӘ GÖRÜŞ

*19 dekabr 2014-cü il*

*Azәrbaycan Respublikasının Prezidenti İlham Әliyev dekabrın 19-da Әfqanıstan İslam Respublikasının ölkәmizdә yeni tәyin olunmuş Fövqәladә vә Sәlahiyyәtli sәfiri Mәhәmmәd Taqi Xalilinin etimadnamәsini qәbul etmişdir.*

*Sәfir Mәhәmmәd Taqi Xalili Fәxri qarovul dәstәsinin qarşısından keçdi.*

*Diplomat etimadnamәsini tәqdim etdikdәn sonra Azәrbaycan prezidenti İlham Әliyev sәfirlә söhbәt etdi.*

*SәfirMәhәmmәd Taqi Xalili Әfqanıstan prezidenti Mәhәmmәd Әşrәf Qaninin salamlarını dövlәtimizin başçısına çatdırdı. O, ölkәmizdәki diplomatik fәaliyyәti müddәtindә Azәrbaycan ilә mövcud olan yüksәk sәviyyәli әlaqәlәrin daha da genişlәndirilmәsi vә dәrinlәşdirilmәsi istiqamәtindә sәylәrini әsirgәmәyәcәyini dedi.*

*Dövlәtimizin başçısı Әfqanıstan prezidenti Mәhәmmәd Әşrәf Qaninin bu yaxınlarda ölkәmizә sәfәrini mәmnunluqla xatırlatdı. Prezident İlham Әliyev sәfәr zamanı ölkәlәrimiz arasında gәlәcәk әmәkdaşlıq üçün әsas sahәlәrin müәyyәnlәşdirilmәsi ilә bağlı sәmәrәli müzakirәlәrin aparıldığını dedi vә bu әmәkdaşlığın daha da genişlәndirilәcәyinә ümidvar olduğunu bildirdi.*

*Dövlәtimizin başçısı prezident Mәhәmmәd Әşrәf Qaninin salamlarına görә minnәtdarlığını bildirdi, onun da salamlarını Әfqanıstan dövlәtinin başçısına çatdırmağı xahiş etdi.*

# MİLLİ OLİMPİYA KOMİTƏSİNDƏ 2014-cü İLİN İDMAN YEKUNLARINA HƏSR EDİLMİŞ MƏRASİMDƏ İŞTİRAK

*22 dekabr 2014-cü il*

*Milli Olimpiya Komitəsində dekabrın 22-də 2014-cü ilə yekun vurulub, idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim edilmişdir.*

*Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Mərasim iştirakçıları prezident İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısı tədbirdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar, hər il olduğu kimi, ilin sonunda biz ilin idman yekunlarını müzakirə edirik. Artıq bu gözəl ənənə neçə ildir ki, yaşayır və əminəm ki, bundan sonra da yaşayacaqdır. Yadımdadır, 1997-ci ildə Milli Olimpiya Komitəsinə prezident vəzifəsinə seçiləndə mən demişdim ki, Azərbaycan dövləti və Milli Olimpiya Komitəsi idmançılara qayğı göstərəcək, idmançılardan isə biz qələbələr gözləyirik.

Bu siyasət uğurlu siyasət olmuşdur. Bu siyasət nəticəsində Azərbaycan bu gün dünyada idman dövləti kimi tanınır. İdmana rəhbərlik edən bütün qurumlar fəal işləyirlər. Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, cəmiyyətlər, klublar, bir sözlə, idman Azərbaycanda uğurla inkişaf edir, yüksək səviyyədə dövlət siyasəti aparılır. Bu siyasət nəticəsində bu gün həm idmançılarımız bizi qələbələrlə sevindirirlər, həm də Azərbaycanda idman infrastrukturu yaradılır.

Bir daha deməmk istəyirəm ki, Azərbaycanın idman nailiyyətləri artıq dünyada yüksək qiymətləndirilir.

Bütövlükdə, 2014-cü il ölkə iqtisadiyyatı üçün uğurlu il olmuşdur. Eyni zamanda, bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənmişdir. Bütün çətinliklərə, dünyada və bölgədə yaşanan böhranlı vəziyyətə baxmayaraq, Azərbaycan inamla inkişaf edir. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra edilmişdir və biz 2014-cü ili yaxşı nəticələrlə başa vururuq. O cümlədən bu il də idman sahəsində gözəl nəticələr əldə edilmişdir. Bizim idmançılar ildən-ilə daha da çox medal qazanırlar. Bu il də istisna il olmamışdır. Beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında 805 medal qazanılmışdır və onlardan 275-i qızıl medaldır. Keçən ilə nisbətən yenə də medalların sayı artıb. Bu həm onu göstərir ki, idmançılarımız daha da gözəl nəticələr qazanırlar, eyni zamanda, daha geniş mənada beynəlxalq yarışlarda iştirak edirlər. Medalların sayı, əlbəttə ki, bizi sevindirir. Çünki bu, idmanın inkişafının əsas göstəricisidir.

İl ərzində Azərbaycanda bir neçə mötəbər beynəlxalq yarış keçirilmişdir. Onlardan ikisi Avropa çempionatıdır – bədii gimnastika və taekvondo üzrə. Hər il Azərbaycanda beynəlxalq yarışlar keçirilir. Beləliklə, Azərbaycan bu sahədə də öz imkanlarını ortaya qoyur. Hər bir beynəlxalq yarışın keçirilməsi həm böyük məsuliyyətdir, eyni zamanda, gözəl imkandır ki, qonaqlar, idmançılar ölkəmizlə tanış olsunlar, Azərbaycan reallıqlarını görsünlər və bilsinlər ki, dünyada güclü, qüdrətli, müasir Azərbaycan dövləti vardır.

Uğurlarımızın davamı, əlbəttə ki, təmin ediləcək. Buna əyani sübut olaraq, bu il Çində keçirilmiş Yeniyetmələrin Yay Olimpiya oyunlarını misal göstərmək olar. Bu oyunlar bizim üçün tarixi oyunlardır. Çünki bizim idmançılarımız bu oyunlarda ən böyük və deyə bilərəm ki, tarixi qələbə qazanmışlar. Bu oyunlarda 204 ölkə iştirak edirdi və Azərbaycan yeniyetmələri komanda hesabında 10-cu yerə layiq görülmüşlər. Bu, böyük tarixi nailiyyətdir. Dünya miqyasında 10-

cu yerə nail olmaq böyük uğurdur. Bu uğuru gələcəkdə təkrarlamaq çətin olacaq. Ancaq biz buna çalışmalıyıq.

Bu bir daha onu göstərir ki, Azərbaycanda çox gözəl gənc nəsil yetişir. Bizim əsas uğurlarımızın mahiyyəti ondan ibarətdir ki, ardıcıllıq təmin edilir. Peşəkar idmançılar bizi sevindirirlər, dünya, Avropa çempionatlarında, Olimpiya oyunlarında idman şöhrətimizi yüksəklərə qaldırırlar və gənc nəsil də yetişir.

İdmançılarımızın uğurları xalqımızı sevindirir. Bu uğurları müstəqillik dövründə böyümüş idmançılar əldə ediblər. Bu bir daha onu göstərir ki, görün müstəqilliyimizin nə qədər böyük mənası, nə qədər böyük üstünlükləri var. Azərbaycan idmançıları tarixdə heç vaxt bu qədər qələbələr qazanmamışlar. Ancaq müstəqillik dövründə, Azərbaycan xalqının öz taleyini öz əlində saxladığı dövrdə biz buna nail ola bilmişik. Əminəm ki, biz bundan sonra da ardıcıllıqla bu uğurlara imza atacağıq. Gənc idmançılarımızın uğurları tarixi nailiyyətdir və onlar böyüdükcə bu uğurları təkrarlayacaqlar.

Bu il idman qurğularının tikintisi davam etdirilmişdir. Göygöl şəhərində Olimpiya Mərkəzi açılmışdır. Hazırda 9 rayonda olimpiya komplekslərinin tikintisi aparılır, yaxud da ki, ona hazırlıq işləri gedir. Bütövlükdə, bölgələrdə 41 Olimpiya Mərkəzimiz var. Ümumiyyətlə isə son illərdə 50-dən çox böyük Olimpiya Mərkəzi yaradılıb. Beləliklə, idmanla məşğul olmaq üçün hər bir bölgədə yaxşı imkanlar – üzgüçülük hovuzları, açıq, qapalı zallar və bütün infrastruktur var. Ona görə tam əminəm ki, bizim beynəlxalq yarışlardakı nailiyyətlərimiz uğurla davam edəcək.

Gənc, peşəkar idmançılar bizim fəxrimizdir. Onlar Azərbaycanı dünyada ləyaqətlə təmsil edirlər. Azərbaycan idman dövləti kimi, artıq özünü təsdiq edib. Bunu beynəlxalq idman qurumları da qeyd edirlər. Noyabr ayında Bakıda Avropa Olimpiya Komitəsinin Baş Assambleyasında Azərbaycanın uğurlu inkişafı, o cümlədən idmanın inkişafı ilə bağlı çox dəyərli fikirlər səsləndirildi. Bu assambleyada 300-dən çox qonaq iştirak edirdi. Avropanın bütün yerlərindən gələn qonaqlar şəhərimizlə, idman nailiyyətlərimizlə

tanış oldular. Həm Avropa Olimpiya Komitəsinin prezidenti, həm də bu tədbirdə iştirak edən Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Azərbaycanın bu sahədəki uğurlarını qeyd etdi.

Bizim bütövlükdə beynəlxalq idman qurumları ilə əməkdaşlığımız uğurla davam etdirilir. Təsadüfi deyil ki, Bakıda I Avropa oyunları keçiriləcək. Bu oyunların keçirilməsi tarixi hadisədir. Çünki bildiyiniz kimi, ilk dəfə olaraq Avropada belə oyunlar keçiriləcək və bu məsuliyyət bizim üzərimizə düşür. Biz bu məsuliyyəti öz üzərimizə götürmüşük, buna hazır idik. Görülən bugünkü işlər onu göstərir ki, Avropa Olimpiya Komitəsi düzgün qərar qəbul etmişdir.

Hazırlıq işləri son mərhələdədir. Bildiyiniz kimi, hazırlıq üçün bizim cəmi 2 il yarım vaxtımız var idi. Biz bu hazırlıq işlərini çox məhdud bir vaxt, zaman çərçivəsində görürük. Ancaq bütün işlər yüksək keyfiyyətlə, qrafik üzrə aparılır və bütün idman qurğuları vaxtında hazır olacaq. Bu o qədər də asan məsələ deyil. Çünki bizim bəzi idman qurğularımız var idi, bəziləri isə tikilir, olanlar da əsaslı təmir edilir. Ona görə hazırda çox böyük quruculuq işləri aparılır. Bütün idman obyektlərində gərgin iş gedir. Bu oyunların keçirilməsi nəticəsində Azərbaycanda yenilənmiş və yeni gözəl idman infrastrukturu yaradılacaqdır ki, gələcəkdə Yay Olimpiya oyunlarını da keçirmək mümkün olacaq.

Əslində Avropa oyunları idmançıların, idman növlərinin sayına görə Yay Olimpiya oyunlarına çox yaxındır, 6 mindən çox idmançı iştirak edəcək və 20 idman növündə yarışacaqdır. Müqayisə üçün deyə bilərəm ki, keçən əsrin 80-ci illərinə qədər Yay Olimpiya oyunlarında təxminən 6 min idmançı iştirak edirdi. Ondan sonra idman növlərinin artırılması nəticəsində Yay Olimpiya oyunlarında təqribən 9-10 min idmançı iştirak edib. Yəni bizim oyunlarımız Yay Olimpiya oyunlarından o qədər də çox fərqlənməyəcək. Eyni zamanda, bizim oyunlarımızın bir neçə üstünlüyü olacaq. Çünki bir neçə idman klasteri yaradılıbdır, idmançılar və mətbuat nümayəndələri üçün olimpiya şəhərciyi və media şəhərciyi yaradılır. Bu da ən

yüksək səviyyədə olan binalardır, orada ən gözəl şərait yaradılacaqdır, özü də şəhərin mərkəzində yaradılır. Yay Olimpiya oyunlarında olimpiya şəhərciyi şəhər kənarında yerləşir. Oraya gedib çatmaq üçün ən azı bir saat vaxt lazımdır. Bizdə isə şəhərin mərkəzindədir.

Bizim mövcud olan bütün idman obyektlərimiz təmir olunur – Heydər Əliyev adına İdman Kompleksi, Bakı İdman Sarayı və bizim digər obyektlərimiz, «Crystal Hall» – indi orada da bir neçə idman növü üzrə yarışlar keçiriləcəkdir. Milli Gimnastika Arenası bu yaxınlarda istifadəyə verilib. Stend Atıcılığı Mərkəzi uğurla inşa edilir. Su İdmanı Sarayının tikintisi son mərhələdədir. Böyük Olimpiya stadionu tikilməkdədir. «Baku Sport City» adlanan mərkəz də inşa edilir və bu, nadir bir idman mərkəzi olacaqdır. Eyni zamanda, bu oyunların keçirilməsi nəticəsində şəhərimizin infrastrukturuna böyük dəstək verilir, nəqliyyat məsələləri öz həllini tapır, yeni nəqliyyat istiqamətləri açılır, yollar, körpülər, estakadalar salınır və şəhər nəqliyyatının təkmilləşdirilməsi üçün yeni avtobuslar alınır. Yəni bu oyunlardan sonra, əlbəttə ki, Bakı şəhərində yeni imkanlar yaranacaq.

İndi böyük ekoloji layihələr icra edilir. Göllərin təmizlənməsi prosesi gedir, o cümlədən Böyükşor gölünün təmizlənməsi uğurla davam etdirilir. Böyükşor gölü ikiyə bölünür. Göl üzərində bənd artıq tikilibdir. Bəndin üzərində geniş avtomobil yolu çəkilir, yəni nəqliyyat üçün çox gözəl imkanlar açılır. Böyükşor gölünün təmizlənməsinin birinci mərhələsi nəticəsində – o da oyunlara qədər hazır olacaq, şəhərin mərkəzində 300 hektar sahədə təmiz, gözəl, abad bir göl olacaq ki, onun ətrafında bulvar, meşə, gəzinti, idman, velosiped zolaqları – hər şey nəzərdə tutulubdur. Təmizləmə prosesi getdiyi bir vaxtda – mən bunu böyük sevinclə qeyd etmişəm – artıq köçəri quşlar da o gölə qonur. Bu da onu göstərir ki, deməli, orada su təmizlənir.

Eyni zamanda, «Baku Sport City» yerləşən ərazidə, köhnə buruqların yerində gözəl bir idman mərkəzi salınır. Bibiheybət neft yataqları dünyanın ən qədim neft yataqlarından biridir.

Vaxtilə neft hasilatının fəsadları orada özünü büruzə vermişdi, o yer tamamilə ekoloji fəlakət mənzərəsini əks etdirirdi. Orada olan buruqlar bəzi filmlərdə də öz əksini tapmışdır. İndi o ərazi tamamilə təmizlənir, böyük – 20 hektarlıq bir park salınır. Su İdmanı Sarayının ətrafı gözəl Bakının bəlkə də ən gözəl park zonasına çevriləcəkdir. Beləliklə, bulvarın uzunluğu da artacaqdır. Ənənəvi bulvarın uzunluğu 3 kilometr yarım idi. İndi isə yeni layihələr nəticəsində bulvarın uzunluğu 16 kilometrə çatacaqdır. Bu, dünyanın bəlkə də ən uzun bulvarı olacaq. Hər bir insan «Ağ şəhər»dən başlayaraq ta Bibiheybət buruqlarına qədər piyada gedə bilər. Ancaq bu çox uzun məsafədir. Ona görə bulvara əlavə xüsusi kiçik avtobuslar gətiriləcək ki, onlar da insanlara rahatlıq verəcək.

Demək istəyirəm ki, görün bu oyunların keçirilməsi bizim üçün nə qədər böyük imkanlar açır. Düzdür, onsuz da biz bu layihələri icra edəcəkdik. Həm Böyükşor gölünün təmizlənməsi, həm bulvarın tikintisi bu günün məsələləri deyil. Biz böyük Olimpiya stadionunun da təməl daşını qoyanda hələ oyunların keçirilməsi haqqında qərar verilməmişdi. Biz onsuz da bunları edəcəkdik. Sadəcə olaraq, oyunlar bizi məcbur edir ki, bunu daha da qısa müddət ərzində həyata keçirək. 6 aydan sonra bütün bu gözəl, yeni yerlər ictimaiyyət üçün açıq olacaq və oyunlardan sonra Bakı sakinləri, onun qonaqları bu gözəl imkanlardan istifadə edəcəklər. Bizim gözəl şəhərimiz Bakı daha da gözəl olacaq və əminəm ki, qonaqlar, idmançılar, şəhərimizə gələn bütün turistlər bunu bir daha görəcəklər.

Bu oyunların keçirilməsi eyni zamanda, ölkəmizin gücünü göstərir. Çünki ancaq güclü dövlətlər belə böyük tədbirləri, idman tədbirlərini keçirə bilərlər. Azərbaycan da güclü dövlətdir. Son illərdə aparılan islahatlar, görülən işlər nəticəsində ölkəmiz gücləndi, güclü iqtisadiyyata malikdir, siyasi proseslər müsbət istiqamətdə gedir. Beynəlxalq aləmdə Azərbaycan çox böyük hörmətə malik olan bir ölkədir. İdman aləmində isə, qeyd etdiyim kimi, idmana rəhbərlik edən bütün vəzifəli şəxslər Azərbaycanın uğurlarından danışırlar. Ona görə

bu oyunlar bizə imkan verəcək ki, Azərbaycanı olduğu kimi dünyaya təqdim edək və bir daha göstərək ki, gənc müstəqil Azərbaycan böyük uğurlara imza atır, dünyaya açıqdır, ölkəmiz müasirdir, öz tarixinə, mədəni köklərinə bağlıdır, ölkəmizdə təhlükəsizlik tədbirləri yüksək səviyyədə təmin edilir. Bakı və Azərbaycan dünyanın ən təhlükəsiz şəhərlərindən, ölkələrindən biridir. Beləliklə, Azərbaycan dünyaya öz imkanlarını bir daha göstərəcək.

O ki qaldı bizim idman uğurlarımıza, əminəm ki, gələn il də bu uğurlar təmin ediləcək. Artıq gözəl bir ənənə vardır. İdmançılarımız həm peşəkardırlar, həm vətənpərvərdirlər, Vətənə bağlıdırlar və Azərbaycan bundan sonra da beynəlxalq arenalarda öz sözünü deyəcək.

Bu gün biz idmançıları, idman mütəxəssislərini ənənəvi olaraq təltif edəcəyik. Dövlət, xalq üçün görülən hər bir iş, əlbəttə ki, dövlət tərəfindən layiqli qiymətini alacaqdır. Biz idmançıları hər il təltif edirik, müxtəlif mükafatlar verilir. Bu gün də bu mükafatlar veriləcək. Əminəm ki, biz gələn il Avropa oyunlarının qaliblərini təltif edəcəyik.

Mən fürsətdən istifadə edərək, sizi və bütün Azərbaycan idmançılarını, bütün Azərbaycan xalqını qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm, sizə gələn ildə yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra 2014-cü ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olundu.*

*Prezident İlham Əliyev müxtəlif beynəlxalq yarışlarda fərqlənən, ölkəmizdə idmanın inkişafına töhfə verən bir qrup idmançı və idman mütəxəssisinə yeni mənzillərin orderlərini təqdim etdi.*

İdmanda yüksək nailiyyətlər göstərən Elsevər Quliyev, Elvin Əhmədli, Əkbər Fərəcov və Cəsarət Əhmədov Milli Olimpiya Komitəsinin prezidentinin fəxri fərmanları ilə təltif edildilər.

Respublikamızda idmanın inkişafında xidmətləri olan Rafiq Həsənova və Məmməd Useynova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında sənədlər təqdim olundu.

Azərbaycan Prezidenti ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə Maqomed Aliomarova, Vaqif Cəfərova, Musa Həsənova və Çingiz İsmayılova «Əməkdar bədən tərbiyəsi və idman xadimi», Akif Atakişiyevə və Şəmsəddin Şahbazova isə «Əməkdar müəllim» fəxri adlarının döş nişanlarını təqdim etdi.

Azərbaycan Qol Güləşi Federasiyasının prezidenti Cəsarət Əhmədov federasiya üzvləri adından dövlətimizin başçısına minnətdarlığını ifadə etdi. Bildirdi ki, bu il qol güləşi üzrə 24-cü Avropa çempionatı Azərbaycanda keçirilib. 33 ölkədən 600-dən çox idmançının iştirak etdiyi yarışda Azərbaycan pəhləvanları 41 medal qazanıblar. Qeyd edildi ki, bu il həm də federasiyanın yeni mərkəzinin açılışı olub.

Ağır Atletika Federasiyasının nümayəndəsi, veteran Məmməd Useynov fərdi təqaüd aldığına və idman veteranlarına göstərdiyi diqqətə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Bakı Dövlət Universitetinin idman kafedrasının müdiri Akif Atakişiyev dövlətimizin başçısına idmanın inkişafına göstərdiyi qayğıya, həmçinin idman mütəxəssislərinə və idmançılara ayrılan diqqətə görə minnətdarlığını ifadə etdi.

Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar incəsənət xadimi Zərifə Salahova prezident İlham Əliyevə xatirə hədiyyələri təqdim etdi, dövlətimizin başçısına doğum günü münasibətilə təbriklərini çatdırdı, fəaliyyətində uğurlar arzuladı.

## BƏLƏDİYYƏ SEÇKİLƏRİ MÜNASİBƏTİLƏ 6 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏSVERMƏ MƏRASİMİNDƏ İŞTİRAK

*23 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xanımı Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə dekabrın 23-də seçki məntəqəsinə gələrək, qarşıdakı 5 il üçün yerli özünüidarəetmə orqanlarına üzvlüyə layiq bildikləri namizədlərə səs vermişlər.*

*Seçki prosesinin başladığı ilk dəqiqələrdən Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 saylı tam orta məktəbində yerləşən 6 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunurdu.*

*6 saylı məntəqə 667 seçicini əhatə edir. Digər seçki məntəqələrində olduğu kimi, burada da səsvermənin normal keçməsi üçün hər şey nəzərə alınmışdı. Müşahidəçilər səsvermənin gedişini izlədilər.*

*Prezident İlham Əliyev, sonra isə Mehriban Əliyeva və ailə üzvləri səs verdilər.*

## «BAKU SPORT CİTY»DƏ, SU İDMANI SARAYINDA VƏ DÖVLƏT BAYRAĞI MEYDANININ ƏRAZİSİNDƏ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*23 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Azərbaycanın birinci xanımı, «Bakı–2015» Avropa oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva ailə üzvləri ilə birlikdə dekabrın 23-də «Baku Sport City»də, Su İdmanı Sarayında və Dövlət Bayrağı Meydanının ərazisində həyata keçirilən inşaat işlərinin gedişi ilə tanış olmuşlar.*

*2015-ci ildə Azərbaycan daha bir mötəbər idman yarışına ev sahibliyi edəcək. I Avropa oyunları ilk dəfə olaraq Bakıda keçiriləcək. Avropa Olimpiya Komitəsinin bununla bağlı qərarı beynəlxalq idman ictimaiyyətinin ölkəmizin olimpiya hərəkatında oynadığı rola, idmanın inkişafına göstərdiyi yüksək dəstəyə verilən önəmin ifadəsidir. Bakının 2015-ci il Avropa oyunlarının keçirilməsi üçün böyük potensiala malik olmasını beynəlxalq idman təşkilatları da təsdiqləyib. Müasir idman infrastrukturuna malik olan Azərbaycan eyni zamanda, beynəlxalq yarışları keçirmək təcrübəsinə də malikdir.*

*I Avropa oyunlarına hazırlıqla bağlı işlər yüksək səviyyədə həyata keçirilir. «Baku Sport City» ərazisində su polosu, çimərlik voleybolu və futbolu, basketbol yarışları üçün qurğular inşa edilir. Ərazidə eyni zamanda, iclas və konfrans zalları, mətbuat üçün çəkiliş sahəsi, eləcə də avtomobil dayanacağı və digər xidmət sahələrinin də yaradılması nəzərdə tutulur.*

*Qeyd edək ki, dövlətimizin başçısı Azərbaycanda su idmanı növlərinin inkişaf etdirilməsi, yerli və beynəlxalq səviyyəli yarışların təşkili məqsədilə 2012-ci il avqustun 30-da Bakıda*

*müasir standartlara cavab verən Su İdmanı Sarayının tikilməsi haqqında sərəncam imzalayıb. 6 hektar ərazidə tikinti işləri yüksək sürət və keyfiyyətlə aparılır. Ümumi sahəsi 66 min kvadratmetr olan Su İdmanı Sarayı Beynəlxalq Üzgüçülük Federasiyasının tələblərinə tam cavab verir. Burada 3 üzgüçülük hovuzu olacaq. Uzunluğu 50, eni 25 metr olacaq hovuz yarışlar üçün nəzərdə tutulub. İkinci hovuzda isə məşqlər keçiriləcək.*

*«Baku Sport City»də həyata keçirilən inşaat işlərinin gedişi ilə tanışlıqdan sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Dövlət Bayrağı Meydanı ərazisinə gəldilər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva meydanın ətrafında yaradılan yeni mədəniyyət və incəsənət obyektləri, o cümlədən sərgi salonlarında aparılan tikinti işlərinə baxdılar, ictimai yerlər və xiyabanlar, insanların rahatlığı və istirahəti üçün yaradılan gəzinti yerlərində yenidənqurma və təmir işlərinin gedişi ilə tanış oldular.*

*Son illərdə Dənizkənarı Milli Parkın genişləndirilməsi istiqamətində görülən işlər, Dövlət Bayrağı Meydanı, onun ətrafında həyata keçirilən abadlıq, quruculuq tədbirləri şəhərimizin daha da gözəlləşməsinə, insanların rahatlığına xidmət edir və paytaxt sakinlərində xoş təəssüratlar, dərin məmnunluq hissi yaradır. Açılışı 2010-cu ilin sentyabrında olan Dövlət Bayrağı Meydanı artıq sürətlə inkişaf edən Bakının yeni rəmzlərindən birinə çevrilib. Azərbaycan paytaxtının görkəminə xüsusi yaraşıq verən bu meydan həm də şəhərimizə gələn çoxsaylı qonaqların böyük marağına səbəb olur. Çünki Dövlət bayrağının dirəyi 2010-cu ildə hündürlüyünə görə Ginnesin rekordlar kitabına düşüb və bu meydanın ətrafında həyata keçirilən irimiqyaslı tikinti-quruculuq işləri indi ərazini Bakının ən orijinal və görməli yerlərindən birinə çevirib. Hazırda meydana yaxın ərazilərdə abadlıq işləri sürətlə davam etdirilir. Bir vaxtlar ərazidə mövcud olan köhnə zavodların, sosial və iqtisadi səmərəsini itirmiş, böyüyən paytaxtın tələblərinə cavab verməyən, ən çox da ekoloji tarazlığı pozan müəssisələrin yerində indi geniş yaşıllıq zolaqları, təbii landşaft salınır, şəhərimizin sakinlərinin və qonaqlarının istifadəsi üçün iaşə və*

*əyləncə məkanları yaradılır. Bütün bunlar bu ərazinin həm idman, həm də istirahət məkanı kimi şəhərimizin arxitekturasına xüsusi yaraşıq verəcəyini bir daha təsdiqləyir və onun əhəmiyyətini artırır. Çünki gələn il Bakıda keçiriləcək I Avropa oyunlarının proqramına daxil olan yarışlardan bir neçəsi məhz bu ərazidə təşkil olunacaq. Həmçinin bulvarın Bibiheybət buxtasına qədər uzadılması ilə bağlı layihənin icrası da davam etdirilir. Bundan əlavə, prezident İlham Əliyevin tapşırıqlarına əsasən ərazidəki tarixi əhəmiyyətli binaların bərpası və qorunması istiqamətində də mühüm addımlar atılır. Odur ki, son illərdə xaricdən Bakıya gələn qonaqların hamısı şərq və qərb koloritinin, qədimliklə müasirliyin nadir formada əks olunduğu bu şəhərin gözəlliklərinə heyranlıqlarını gizlətmirlər. Onlar vurğulayırlar ki, Bakıda həyata keçirilən böyük tikinti-quruculuq işləri Azərbaycan paytaxtını dünyanın ən gözəl şəhərlərindən birinə çevirib.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Dövlət Bayrağı Meydanı ərazisində həyata keçirilən işlərlə yaxından tanış oldular.*

*Dövlətimizin başçısı görülən işlərlə bağlı müvafiq tapşırıqlarını verdi.*

## BAKININ ZİYA BÜNYADOV PROSPEKTİNİN YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*23 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Bakının Ziya Bünyadov prospektinin yenidən qurulmasından sonra açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev prospektin yenidən qurulması layihəsi əsasında yolun hazırkı texniki göstəricilərini əks etdirən stendə baxdı. Həyata keçirilən yenidənqurma işləri barədə dövlətimizin başçısına məlumat verildi.*

*Ziya Bünyadov prospektinin təmir və yenidənqurma işlərinə ötən ilin may ayında başlanılıb. Bu yol «Koroğlu» qovşağı ilə «Qələbə» dairəsini birbaşa birləşdirəcək. 12 zolaqdan ibarət olan prospekt boyu 11 yol qovşağı mövcuddur. Tunel və körpülərdən ibarət olan yol qovşaqları nəqliyyatın hərəkətinin intensivliyinin təmin edilməsi baxımından olduqca əhəmiyyətlidir. Tunel tipli qovşaqların dördünün tikintisi prospektin yenidən qurulması işləri ilə bərabər həyata keçirilib. Bu işlər görülən zaman «Çermet» adlandırılan altızolaqlı körpü də tamamilə yenidən qurulub. Ziya Bünyadov prospekti ilə Əhməd Rəcəbli küçəsinin kəsişməsində nəqliyyatın hərəkətinin sıxlığının aradan qaldırılması məqsədilə altızolaqlı yeni körpü də inşa olunub. Layihəyə uyğun olaraq prospekt boyunca piyadaların təhlükəsiz hərəkəti üçün 5 piyada keçidi də inşa edilib.*

*Qeyd edək ki, dövlətimizin başçısının göstərişi ilə Bakıda və eləcə də respublikamızın ayrı-ayrı rayonlarında yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər ardıcıl olaraq davam etdirilir. Prezident İlham Əliyevin sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarına uyğun olaraq*

*yol* infrastrukturunun daha da *müasirləşdirilməsi, Bakı və ətraf qəsəbələrin yollarının ən müasir səviyyədə inşası,* yeni-yeni *yolötürücülərinin, körpü,* tunel, *yeraltı və yerüstü* piyada *keçidlərinin* tikintisi son *illər böyük sürət alıb. Paytaxtın* Ziya *Bünyadov* prospektinin *yenidən qurulması ilə bağlı görülən işlər də* bu *sıradandır.*

*Dövlətimizin başçısı* yolun *açılışını bildirən* lenti *kəsdi.*

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Hər il böyük sevinclə qeyd etdiyimiz 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində Sizi ürəkdən salamlayır, hamınıza xoşbəxtlik, sülh və əmin-amanlıq arzulayıram!

Dünyada yaşayan soydaşlarımızın Vətənə və azərbaycançılıq məfkurəsinə sədaqətini, xalqımızın öz keçmişinə və milli-mənəvi dəyərlərinə ehtiramını əks etdirən bu bayram tarixi yaddaşımızın mühüm tərkib hissəsinə çevrilmişdir. Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri sayəsində milli birlik və həmrəylik ideyaları daha dolğun məzmun kəsb edərək, real fəaliyyət sahəsi kimi dövlət siyasəti səviyyəsinə yüksəlmişdir. «Güclü dövlət – güclü diaspor» prinsipini rəhbər tutan həmin siyasətin əsas qayəsi xarici ölkələrdə yaşayan soydaşlarımızın tarixi Vətənlə bağlılığını möhkəmləndirmək, mütəşəkkilliyini artırmaq, diaspor qurumlarının imkanlarından həmvətənlərimizin hüquqlarının və milli dövlət maraqlarının qorunmasında daha səmərəli istifadə etməkdən ibarətdir.

Sevindirici haldır ki, diaspor quruculuğu sahəsində aparılan işlər öz bəhrəsini verir. Xaricdəki həmvətənlərimiz məskunlaşdıqları ölkələrin cəmiyyətlərində mövqelərini genişləndirir, Azərbaycanın dünyada tanıdılmasına, zəngin mədəniyyətimizin təbliğinə çalışır, bəzi qüvvələrin dövlətimiz və xalqımızın əleyhinə yönəlmiş məkrli planlarına qarşı təsirli tədbirlər görürlər. Diaspor təşkilatlarımız bundan sonra da səylərini artırmalı, Azərbaycanın müvafiq dövlət qurumları və xarici ölkələrdəki diplomatik nümayəndəlikləri ilə əməkdaşlıq şəraitində daha məqsədyönlü və çevik fəaliyyət göstərməlidirlər.

Bu gün hər bir həmvətənimiz Azərbaycan Respublikası ilə fəxr etməkdə haqlıdır. Biz keçən illər ərzində iqtisadiyyatımızı sürətlə inkişaf etdirməyə, əhalinin rifah halını yüksəltməyə, yoxsulluq və işsizlik kimi sosial bəlaların səviyyəsini minimuma endirməyə nail olmuşuq. Enerji resurslarından əldə edilən gəlirlər iqtisadiyyatın şaxələndirilməsinə, insan kapitalının və demokratik institutların inkişafına yönəldilmişdir. Ölkədə nəhəng nəqliyyat və sosial infrastruktur layihələri icra edilmiş, elm, təhsil, səhiyyə, mədəniyyət və idmanın inkişafı üçün müasir və güclü maddi-texniki baza yaradılmışdır.

Sivilizasiyalararası dialoq və humanitar əməkdaşlıq istiqamətində irəli sürülən təşəbbüslər, yüksək səviyyədə keçirilən beynəlxalq forumlar ölkəmizi multikulturalizm və tolerantlığın mərkəzi kimi tanıtmışdır.

Azərbaycan müstəqil dövlət kimi, dünyanın siyasi, iqtisadi və humanitar həyatında fəal rol oynayır. 2014-cü ildə Avropa Şurası Nazirlər Komitəsinə sədrliyi dövründə ölkəmiz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmişdir.

Cari ildə «XXI əsrin müqaviləsi» adlandırılan layihənin icrası istiqamətində mühüm addım atılmışdır. «Cənub Qaz Dəhlizi»nin təməlinin qoyulması ilə Azərbaycan Avropanın enerji təhlükəsizliyi sistemində öz mövqelərini daha da möhkəmləndirmək və beynəlxalq aləmə inteqrasiyanı dərinləşdirmək üçün yeni imkanlar qazanmışdır.

Gələn ilin yayında paytaxtımız I Avropa oyunlarına ev sahibliyi edəcəkdir. Biz bu böyük idman bayramına ciddi hazırlaşır, ölkəmizə bəslənilən inam və etimadı doğrultmaq üçün əzmlə çalışırıq.

Müstəqillik dövrünün qısa tarixi dövlətimizin strateji xəttinə alternativin olmadığını, azərbaycançılıq ideologiyasına söykənən siyasətin düzgünlüyünü sübut edir. Əminəm ki, dünya azərbaycanlılarının həmrəyliyi bundan sonra da xalqımızın qarşısında dayanan bütün vəzifələrin öhdəsindən uğurla gəlməyə, torpaqlarımızı tezliklə Ermənistanın işğalından azad etməyə, sürətlə dəyişən, ziddiyyətli dünyanın çağırışlarına

adekvat cavab verməyə kömək edəcəkdir. Bunun üçün biz sıralarımızı daha da möhkəmləndirməli, əcdadlarımızdan miras qalmış çoxəsrlik mədəniyyətimizi inkişaf etdirməli və hamımızın pənah yeri olan müstəqil Azərbaycanımızın güclənməsinə birgə əməli fəaliyyətimizlə yeni töhfələr verməliyik.

Bu bayram münasibətilə sizi səmimi-qəlbdən təbrik edir, hər bir soydaşımıza və həmvətənimizə səadət, firavanlıq, işlərində uğurlar diləyirəm!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *24 dekabr 2014-cü il*

# HEYDƏR MƏSCİDİNİN İNŞASINDA SON TAMAMLAMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*24 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də paytaxtın Binəqədi rayonunun ərazisində inşa edilən Heydər məscidində aparılan son tamamlama işlərinin gedişi ilə tanış olmuşlar.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov tikintinin başa çatdığını, hazırda burada son tamamlama işlərinin həyata keçirildiyini bildirdi. Dövlətimizin başçısının tapşırığı ilə inşa olunan bu yeni məscid 12 min kvadratmetr sahədə salınıb. Artıq məscidin fasadında bütün işlər görülüb, 95 metr hündürlüyündə 4 minarənin inşası başa çatdırılıb.*

*Prezident İlham Əliyev məscidin tikintisini daim diqqət mərkəzində saxlayıb, həyata keçirilən inşaat işlərinin gedişi ilə yaxından maraqlanıb, mütəmadi olaraq buraya gələrək, görülən işlərlə bağlı müvafiq tapşırıqlarını verib.*

*Məscidin fasadı Şirvan–Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənib. Tikinti işləri zamanı bəzək elementləri xüsusi ustalıqla yerinə yetirilib. Ornamentlərin zənginliyi məscidin fasadının arxitekturasında xüsusi harmoniya yaradıb. Ümumi sahəsi 4200 kvadratmetr olan məscidin daxilində də tamamlama-bəzək işləri başa çatmaq üzrədir. Burada da xüsusi bəzək elementlərindən istifadə olunub, günbəzin kənarlarına Quran ayələri yazılıb. Hündürlükləri 55 metr və 35 metr olan baş və ikinci günbəzlər məscidin daxilinə xüsusi gözəllik verir.*

*Maddi mədəniyyət abidələrinin bərpası və mühafizəsini daim diqqət mərkəzində saxlayan dövlətimizin başçısının sərəncamları ilə son bir neçə ildə qədim tarixi abidələrin, ziyarətgahların*

*bərpası ilə bağlı görülən silsilə tədbirlər dini-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisidir. Prezident İlham Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin mühüm prioritetlərindən birinə çevrilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirib. Dini, mədəni və tarixi abidələrin bərpasına, onların yenidən xalqın qan yaddaşına qaytarılmasına həssaslıqla yanaşan, bu sahədə həyata keçirilən layihələrə ciddi dəstək verən prezident İlham Əliyevin son illərdə bir çox dini abidələrin bərpası ilə bağlı imzaladığı sərəncamlar, verdiyi tapşırıqlar artıq ölkəmizdə mövcud olan milli-mənəvi dəyərlər sisteminin ayrılmaz hissəsinə çevrilib. Bunun nəticəsidir ki, son illərdə Təzəpir, Bibiheybət, Əjdərbəy məscidlərində geniş tikinti və yenidənqurma işləri həyata keçirilib. Hazırda prezident İlham Əliyevin tapşırıqlarına əsasən Gəncədəki İmamzadə kompleksində təmir-bərpa işləri aparılır. Artıq Azərbaycan və Şərq memarlığının nadir incilərindən olan Şamaxı Cümə məscidi də dindarların istifadəsinə verilib. Bütün bunlar bir daha göstərir ki, prezident İlham Əliyev tarixi keçmişimizin unudulmasına imkan vermir və çalışır ki, gələcək nəsillər xalqımızın milli-mənəvi dünyasına daha çox bağlı olsunlar.*

*Prezident İlham Əliyev məsciddə son tamamlama işlərinin yüksək keyfiyyətlə yerinə yetirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## «BAKI AĞ ŞƏHƏR»İN İNŞASI BAŞA ÇATAN OFİS BİNASI İLƏ TANIŞLIQ

*24 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də «Bakı Ağ şəhər»in inşası başa çatan ofis binası və «Bakı Ağ şəhər» layihəsi çərçivəsində görülən digər işlərlə tanış olmuşlar.*

*Müstəqilliyin ilk illərində bütün sahələr üzrə gələcək inkişafın təməlini qoyan xalqımızın ümummilli lideri Heydər Əliyev «Qara şəhər» kimi tanınan bu ərazinin paytaxtın ən gözəl guşələrindən birinə çevrilməsini prioritet vəzifələrdən biri kimi müəyyənləşdirdi. 2011-ci il dekabrın 24-də «Bakı Ağ şəhər»in təməli qoyuldu. Ötən 3 il ərzində layihə çərçivəsində xeyli iş görülüb.*

*«Bakı Ağ şəhər» layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlətimizin başçısına layihə çərçivəsində həyata keçirilən işlər barədə ətraflı məlumat verdi. Qeyd olundu ki, «Bakı Ağ şəhər»in ilk landmarkı və giriş qapısı sayılan yüksək səviyyəli ofis binası artıq istifadəyə hazırdır. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri aparılıb. Layihə çərçivəsində yol və kommunikasiya infrastrukturları da inşa olunmaqdadır. Tikintisi gedən 45 metr enində Xəqani Rüstəmov küçəsi Neftçilər prospektini Nobel və Babək prospektləri ilə birləşdirəcək. Metropolitenin «Ağ şəhər»in ərazisindən keçəcək xəttinin tikintisinə də başlanılıb. Layihədə nəzərdə tutulan 6 yeraltı piyada keçidindən 3-nün inşası davam edir. Ofis binasının yanında 360-dan çox avtomobil üçün ən müasir standartlara cavab verən parkinq də inşa olunub. «Bakı Ağ şəhər» ofis binasının cazibədar, estetik xətləri müasir memarlığın mükəmməl nümunələrindəndir.*

Prezident İlham Əliyevə xəritə, maket və digər əyani vasitələr əsasında layihə çərçivəsində reallaşdırılan silsilə tədbirlər barədə məlumat verildi. Qeyd edək ki, yeni yaradılan «Mənzilim» monitorinq xidməti vasitəsilə əmlakın alınmasına dair müqavilələrin bağlanması və digər məsələlər operativ qaydada həllini tapacaq. Layihənin reallaşması zamanı prezident İlham Əliyevin müvafiq tapşırıq və tövsiyələri, həmçinin «2006–2010-cu illərdə Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılması üzrə kompleks tədbirlər planı» da əsas götürülüb. Layihənin həyata keçirilməsində əsas məqsəd çirklənmiş torpaqların təmizlənməsi, ərazidə beynəlxalq standartlara uyğun sosial infrastrukturun formalaşdırılması, paytaxt sakinləri və qonaqlar üçün yeni yaşayış, iş və istirahət məkanlarının yaradılmasıdır. Müxtəlif memarlıq üslublarını, ekoloji məsələləri və «Ağ şəhər»in paytaxtın digər hissələri ilə üzvi şəkildə qovuşmasını özündə ehtiva edən layihənin reallaşması sırf peşəkarlara etibar edilib. Yerli şirkətlərlə yanaşı, «Atkins», «Un studio», «Foster and Partners», «F and A Architects» və digər dünya şöhrətli şirkətlər bu layihəyə cəlb edilib. «Bakı Ağ şəhər» layihəsi nəinki respublikamızda, eləcə də beynəlxalq səviyyədə tanınan layihədir. Ötən müddətdə bu layihə «Cityscayp Global», «MİPİM Asia» və digər nüfuzlu beynəlxalq sərgilərdə «Ən yaxşı şəhərsalma layihəsi» və «Mərkəzi və Qərbi Asiyanın ən yaxşı gələcək layihəsi» nominasiyalarında mükafatlara layiq görülüb. «Bakı Ağ şəhər»də müxtəlif xidmət, ticarət və əyləncə növlərini özündə birləşdirəcək Ticarət-Əyləncə Mərkəzi də nadirliyi ilə yanaşı, eyni zamanda, regionda sahəcə ən böyük belə obyekt olacaq və respublikamızda turizmin daha da genişlənməsinə əlavə imkanlar yaradacaq.

Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ofisdə iş adamları üçün yaradılan şəraitlə tanış oldular. Qeyd edildi ki, ən müasir beynəlxalq standartlara cavab verən yeni ofis binasını Britaniyanın məşhur «Atkins» şirkəti layihələndirib. Bina yerli və beynəlxalq mütəxəssislər tərəfindən inşa olunub. Tikinti dövründə ofis binası «BREEAM» beynəlxalq ekoloji sertifikatına layiq görülüb. Xatırladaq ki, «Bakı Ağ şəhər» ofis binası

*respublikamızda və regionda «BREEAM» sertifikatına layiq görülən ilk və yeganə binadır. Binada ən son elmi-texniki yeniliklərə əsaslanan arxiv otağı da yaradılıb. Ofisdə yerləşəcək iqtisadi qurumların səmərəli fəaliyyəti üçün burada hərtərəfli şərait var.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, «Ağ şəhər»in 10 rayonundan 6-sının ərazisi tamamilə təmizlənib və inşaat işləri gedir. Layihənin icra müddətində «Ağ şəhər»in neft məhsulları ilə çirklənmiş ərazisinin böyük hissəsi təmizlənib və yararlı vəziyyətə gətirilib. Hazırda bu işləri Dövlət Neft Şirkəti həyata keçirir. «Bakı Ağ şəhər»in «Yaşıl ada» rayonunda aparılan tikinti-quraşdırma işləri ildən-ilə vüsət götürür. Burada fransız üslubunda inşa olunan 7 mərtəbəli yaşayış binaları paytaxt sakinlərinin rahatlıq üçün üstünlük verdikləri məkanlardan biri olacaq. Hazırda buradakı yaşayış komplekslərinin bəzilərində tikinti işləri son mərhələdədir və onlar tezliklə hazır olacaq. Ümumi sahəsi 24 hektara çatan «Park» rayonunda da inşaatçılar səylə çalışırlar. Burada 20 mərtəbəli hündür yaşayış binaları tikilir. Sahənin relyefinə uyğun olaraq amfiteatr üslubundakı «Park» rayonundan bulvara və Bayraq Meydanına gözəl mənzərə açılır. Nizami parkının yaxınlıqda yerləşməsi də buranın gələcək sakinlərinin istirahətlərini mənalı keçirmələrinə əlavə imkanlar yaradacaq. Ofis binasındakı səliqə-sahman və müasirlik diqqəti çəkir.*

*Prezident İlham Əliyev «Ağ şəhər»in sahil boyunca yerləşən hissəsindəki tikililəri və «Ağ şəhər» bulvarını seyr etdi. 2011-ci ilin payızında «Bakı Ağ şəhər»də təməli qoyulan və 2014-cü il sentyabrın 12-də açılışı olan Fransız liseyinin tikintisi də yüksək səviyyədə aparılıb. Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan və respublikamızın nümunəvi təhsil ocaqlarından biri sayılan Fransız liseyində şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılıb. 2013-cü il mayın 25-də prezident İlham Əliyevin təməlini qoyduğu «Bakı Ağ şəhər» bulvarı da dünyadakı ən qabaqcıl təcrübə əsasında yaradılır. Tikintisi dövlətimizin başçısı tərəfindən mütəmadi olaraq diqqət mərkəzində saxlanılan həmin bulvarın uzunluğu 5 kilometr olacaq.*

«Ağ şəhər»də beynəlxalq səviyyəli hotellərin tikintisi də aparılır. Artıq «Bakı Ağ şəhər» hotelinin inşası başa çatmaq üzrədir. Ümumi sahəsi 52 min kvadratmetr olacaq həmin hoteldə 818 otaq var. Bu obyekt 2015-ci ildə Bakıda keçiriləcək ilk Avropa oyunlarının qonaqlarını qəbul etməyə hazır olacaq. Hotelin yaxınlığında 90 min kvadratmetr sahəsi olacaq «Ağ şəhər Mall»un inşasına da başlanılıb.

Prezident İlham Əliyevə inşası davam edən və tikintisi nəzərdə tutulan layihələr barədə xəritə və eskizlər əsasında məlumat verildi. Artıq «Ağ şəhər»də müasir və klassik üslublu 7 mərtəbəli yaşayış komplekslərinin tikintisinə başlanılıb. «Ağ şəhər»in ərazisini qərb və şərq hissələrinə ayıran, mərkəzi prospektin ortasında yerləşən meydan da füsunkar görkəmi ilə fərqlənəcək. «Ağ şəhər»in mərkəzi rayonu sayılan Fəvvarələr meydanında da inşaat işlərinin miqyası artmaqdadır. Burada müasir üslublu yaşayış binalarının tikintisinə başlanılıb. Fəvvarələr meydanının mərkəzində 1 hektar ərazini əhatə edəcək park sakinlərin sevimli istirahət guşəsinə çevriləcək.

Dövlətimizin başçısına Nobel prospekti boyunca və sahil rayonunda görüləcək işlər barədə də məlumat verildi, prezident İlham Əliyev layihə ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

Dövlətimizin başçısı ofis binasının arxa hissəsində salınan yaşıllıq və memarlıq nümunələri ilə də tanış oldu. Dünyadakı müasir şəhərsalma meyilini maksimum ehtiva edən və bitkinliyi ilə seçilən «Bakı Ağ şəhər» layihəsi tezliklə reallığa çevriləcək və paytaxtımızın gözəlliyini daha da artıracaq.

Sonda xatirə şəkli çəkdirildi.

**YAPONİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ŞİNZO ABENƏ**

Hörmətli cənab Baş nazir!

Yaponiyanın Baş naziri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Yaponiya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Ümidvaram ki, xalqlarımız arasındakı dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Yaponiya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *25 dekabr 2014-cü il*

## TUNİS RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BEJİ KAİD ƏS-SEBSİYƏ

Hörmətli Beji Kaid əs-Sebsi!

Tunis Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Tunis arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Tunis xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *25 dekabr 2014-cü il*

## «YASAMAL» PARKININ AÇILIŞI MƏRASİMİ

*25 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də Bakıda «Azərsu» Açıq Səhmdar Cəmiyyətinin «+82 Qərb» su anbarının ərazisində yeni salınan «Yasamal» parkının açılışında iştirak etmişdir.*

*«Azərsu» ASC-nin sədri Qorxmaz Hüseynov parkın tikintisi ilə bağlı dövlətimizin başçısına məlumat verdi.*

*Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq əhalinin istirahətinin təmin edilməsi və abadlıq-yaşıllıq işlərinin aparılması məqsədilə «Azərsu» ASC-nin «+82 Qərb» su anbarının ərazisində, Yasamal rayonunun Akim Abbasov və Zahid Xəlilov küçələrinin kəsişməsində yeni istirahət parkı salınıb. Park salınarkən su anbarlarının təhlükəsizliyi üçün əvvəlcədən bütün texniki tədbirlər görülüb. Xüsusi dizayn əsasında layihələndirilən parkın inşasına bu ilin əvvəllərində başlanılıb və bir ildən də az müddətə başa çatdırılıb.*

*Dövlətimizin başçısı parkın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Layihə çərçivəsində «+82 Qərb» su anbarının giriş və çıxış hissələri də abadlaşdırılıb, seyrəngahlar yaradılıb. Yeni salınan parkda sakinlərin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait var. Burada görülən işlər ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olmaqla, paytaxtımızın daha da gözəlləşməsinə xidmət edir. Bu bir daha təsdiq edir ki, şəhər və rayonlarımızda aparılan quruculuq işləri çərçivəsində park və xiyabanların salınması diqqətdən kənarda qalmır. Parkda abadlıq-quruculuq işləri yüksək zövqlə həyata keçirilib, geniş yaşıllıq işləri görülüb. Burada çoxillik ağaclar, gül və bəzək kolları əkilib.*

*Parkda 2 uşaq oyun meydançası və böyüklər üçün idman meydançası yaradılıb. Bu meydançalarda trenajorlar, müxtəlif əyləncə vasitələri quraşdırılıb. Eyni zamanda, parkın ərazisində 2 kafe fəaliyyət göstərəcək. Parkın salınması zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb, istirahət məkanı orijinal elementlər və formalarla zənginləşdirilib. Həmçinin parkın ərazisində müxtəlif fəvvarələr, süni şəlalələr və xüsusi dizaynla hazırlanmış bulaqlar quraşdırılıb.*

*Dövlətimizin başçısının tapşırığı ilə Bakı şəhərində parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində son illərdə paytaxtda ardıcıl tədbirlər davam etdirilir. Yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. «Yasamal» parkı da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir.*

*Prezident İlham Əliyev «+82 Qərb» su anbarları kompleksinin 3-cü, 4-cü və 5-ci anbarları ilə də tanış oldu.*

**KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA**

Hörmətli cənab Sədr!

Kuba Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kuba xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *26 dekabr 2014-cü il*

**MYANMA İTTİFAQI RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB THEYN SEYNƏ**

Hörmətli cənab Prezident!

Myanma İttifaqı Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının
Prezidenti**

Bakı, *26 dekabr 2014-cü il*

## HEYDƏR MƏSCİDİNİN AÇILIŞI MƏRASİMİ

*26 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri dekabrın 26-da Bakıda Heydər məscidinin açılışı mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısının tapşırığı ilə inşa olunan bu yeni məscid 12 min kvadratmetr sahədə salınıb. Məscidin fasadı Şirvan–Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənib, ornamentlərin zənginliyi fasadda xüsusi arxitektura harmoniyası yaradıb. Burada 95 metr hündürlüyündə 4 minarə inşa olunub.*

*Qeyd edək ki, prezident İlham Əliyev məscidin tikintisini daim diqqət mərkəzində saxlayıb, burada həyata keçirilən inşaat işlərinin gedişi ilə yaxından maraqlanıb, mütəmadi buraya gələrək, görülən işlərlə bağlı müvafiq tapşırıqlarını verib. Ümumi sahəsi 4200 kvadratmetr olan məscidin daxilində də xüsusi bəzək elementlərindən istifadə olunub, günbəzin kənarlarına Quran ayələri yazılıb. 55 metr hündürlüyündə olan baş günbəz, o cümlədən hündürlüyü 35 metr olan ikinci günbəz məscidin daxilinə xüsusi gözəllik verir.*

*Sonra prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Heydər məscidinin açılışı münasibətilə keçirilən mərasimdə iştirak etdilər.*

*Mərasim «Qurani-Kərim»dən ayənin oxunması ilə başlandı.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli şeyx həzrətləri!

Hörmətli din xadimləri, hörmətli qonaqlar, mərasim iştirakçıları!

Bu gün ölkəmizin həyatında çox əlamətdar və tarixi bir gündür. Bu gün biz Azərbaycanın ən böyük məscidi olan Heydər məscidinin açılışına toplaşmışıq. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu gün ölkəmizin hər bir rayonundan dindarlar, ictimai xadimlər, nümayəndələr gəlmişlər və bu mərasimdə iştirak edirlər. Şimali Qafqaz müftiləri də bizim qonaqlarımızdır. Mən onları səmimiyyətlə salamlayıram. Mənim dəvətimi qəbul edib bugünkü mərasimdə iştirak etdiklərinə görə onlara minnətdaram. Onların bu mərasimdə iştirakı Qafqaz müsəlmanlarının birliyini bir daha təsdiq edir.

2 il bundan əvvəl bu məscidin tikintisi ilə bağlı müvafiq sərəncam verilmişdir. 2012-ci ilin sentyabr ayında bu məscidin tikintisi başlanılmışdır. Cəmi 2 il ərzində belə möhtəşəm memarlıq əsəri yaradılmışdır. Tikinti zamanı mən dəfələrlə burada olmuşam, işlərin gedişi ilə maraqlanmışam. Şadam ki, biz Heydər məscidinin tikintisinə qısa müddət ərzində nail ola bildik. Bu ərazi genişləndirildi, yeni yollar salındı. Bu məscidə 3 istiqamətdən yeni yollar çəkilib, ərazi abadlaşdırılıb, mərasim zalı tikilib.

Bu doğrudan da tarixi hadisədir. Çünki bu, Azərbaycanın gücünü, inkişaf dinamikasını, bizim öz milli, dini ənənələrimizə nə qədər sadiq olduğumuzu göstərir. Bu məscid ulu öndər Heydər Əliyevin adını daşıyır. Bu da təbiidir. Heydər Əliyev dahi şəxsiyyətdir. Azərbaycan xalqına bütün dövrlərdə ləyaqətlə xidmət etmişdir. Onun rəhbərliyi altında hələ sovet dövründə – keçən əsrin 70–80-ci illərində Azərbaycanda böyük inkişaf prosesi getmişdir. Azərbaycan qabaqcıl respublikaya çevrilmişdir. Məhz o illərdə yaradılan böyük sənaye potensialı bu gün müstəqil Azərbaycanın uğurlu inkişafına xidmət göstərir. O illərdə – sovet dövründə

ulu öndər milli dəyərlərə böyük diqqət göstərirdi. Onun bu sahədəki fəaliyyəti xalq tərəfindən yüksək qiymətləndirilibdir. Heydər Əliyev öz xalqına həmişə çox bağlı olub və onun məşhur kəlamı – «Mən fəxr edirəm ki, azərbaycanlıyam» – bu gün hər bir azərbaycanlı üçün yol göstərir.

Müstəqillik dövründə ulu öndərin xalq qarşısında əvəz-olunmaz xidmətləri olmuşdur. Hətta müstəqilliyə qədər olan dövrdə müstəqilliyə aparan yola da Heydər Əliyev birinci qədəm qoymuşdur. Məhz onun təşəbbüsü ilə hələ sovet dövründə Naxçıvanda, Naxçıvanın Ali Məclisinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət bayrağı kimi təsdiq edilmişdir. Yəni budur müstəqilliyə aparan yollarımız.

Azərbaycan xalqı ulu öndərə böyük etimad göstərərək, onu özünə rəhbər seçəndən sonra ölkədə vəziyyət müsbətə doğru dəyişməyə başladı. Biz o illəri yaxşı xatırlayırıq. Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçmişdi. Ölkəmizin, ümumiyyətlə, müstəqil ölkə kimi yaşaması sual altında idi. İqtisadi böhran, siyasi böhran, sənaye istehsalının tənəzzülü, demək olar ki, ölkə iflic vəziyyətinə düşmüşdü. Bundan əlavə, erməni işğalı, vətəndaş müharibəsi Azərbaycanı sarsıdırdı, dağıdırdı. Azərbaycan xalqı öz müdrikliyini bir daha göstərərək, ulu öndərə üz tutub onu hakimiyyətə dəvət etdi və böyük dəstək göstərərək, 1993-cü ildə Heydər Əliyevi prezident vəzifəsinə seçdi.

Ondan sonra Azərbaycanda sabitlik və inkişaf dövrü başlandı. Məhz ulu öndərin dünyagörüşü, baxışları, siyasi bacarığı sayəsində Azərbaycan bütün ağır sınaqlardan şərəflə, üzüağ çıxa bildi. Onun qoyduğu strateji xətt bu gün də dəyişməz olaraq qalır. Ulu öndər Heydər Əliyev Azərbaycanın bütün istiqamətlər üzrə strateji hədəflərini müəyyən etmişdir. Biz bu hədəflərə çatmaq üçün bu gün də çalışırıq və bu yolda böyük uğurlara imza atmışıq.

Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində o illərdə sağlam zəmində dövlət–din münasibətləri quruldu. O həmişə qeyd

edirdi ki, biz öz milli, dini adət-ənənələrimizə sadiq olaraq müasir, güclü dövlət qurmalıyıq. Bu idi onun strateji baxışları. Dövlə–din münasibətlərinin qurulması, formalaşması böyük nailiyyətimizdir. Bu gün də bu siyasət davam etdirilir.

Heydər Əliyevin dövründə Azərbaycanda 500-dən çox məscid tikilib. Yüzlərlə məscid təmir edilib. Ulu öndər müqəddəs Kəbənin içində namaz qılıb. Mən xoşbəxtəm ki, bu xoşbəxtlik mənə də nəsib olub. Yəni o illərdə milli, dini dəyərlərə göstərilən diqqət və müəyyən edilmiş istiqamət bugünkü Azərbaycanın güclənməsinə xidmət edir. Çünki indi bizim güclü iqtisadiyyatımız var. Siyasi dayaqlarımız da möhkəmdir. Ən önəmlisi, cəmiyyətdə ölkəmizin inkişafı ilə bağlı vahid yanaşma, vahid mövqe var. İctimai-siyasi vəziyyət müsbətdir və əlbəttə ki, dövlət–din münasibətləri burada böyük rol oynayır.

Bir sözlə, ulu öndərin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir, əvəzolunmazdır. Azərbaycan xalqı ulu öndərin xatirəsinə olan məhəbbətini öz ürəyində daim saxlayır. Biz – onun davamçıları isə onun yolu ilə gedərək, ölkəmizi daha da gücləndiririk, onun müəyyən etdiyi siyasi xətti davam etdiririk.

Azərbaycan bu gün dünyada ən sürətlə inkişaf edən ölkədir. Heydər Əliyev siyasəti bu gün Azərbaycanda yaşayır, möhkəmlənir, yeni formalarla zənginləşdirilir. Azərbaycanda çox gözəl ictimai-siyasi vəziyyət hökm sürür, xalqla iqtidar arasındakı birlik möhkəmdir, sarsılmazdır. Bu birliyin təməlində xalq tərəfindən bizim siyasətimizə olan dəstək dayanır. Bizim siyasətimiz isə milli maraqlara söykənir. Azərbaycan xalqının maraqları bizim üçün hər şeydən üstündür.

Azərbaycan iqtisadi sahədə dünyada ən böyük nailiyyətlərə çata bilibdir. Bunu bütün mötəbər beynəlxalq qurumlar qeyd edir. İqtisadi inkişaf, iqtisadi islahatlar, sosial məsələlərin həlli, insanlara göstərilən diqqət, regionların inkişafı – bütün bunlar reallıqdır. Qeyd etdiyim kimi, bu gün bu məscidin açılışı mərasimində iştirak edən soydaşlarımız Azərbaycanın bütün rayonlarını təmsil edirlər. Onlar, orada yaşayan insanlar yaxşı

görürlər ki, bu dəyişikliklər insanlara nə qədər yeni imkanlar açır, rahatlıq verir. İnfrastruktur layihələri, sosial layihələr, iqtisadi inkişaf, yoxsulluğun, işsizliyin aradan qaldırılması – bütün bunlar Azərbaycan reallıqlarıdır.

Bütün bunlara biz o qədər də asan olmayan beynəlxalq vəziyyətdə nail olmuşuq. Dünyada indi maliyyə-iqtisadi böhranının artıq ikinci mərhələsi yaşanır. Ancaq mən həmişə demişəm ki, Azərbaycan sabitlik adasıdır. Biz Azərbaycanı bütün bəlalardan qoruyuruq və qoruyacağıq. Azərbaycan xalqı təhlükəsizlik şəraitində, rifah içində yaşamalıdır. Biz təhlükəsizliyi qoruyuruq, ölkəmizin sürətli inkişafını təmin edirik və beləliklə, ulu öndərin yoluna bir daha öz işimizlə, əməlimizlə sadiq olduğumuzu sübut edirik.

Azərbaycan bu gün dünyada söz sahibidir. Beynəlxalq nüfuzumuz gündən-günə möhkəmlənir. Dünya birliyinin üzvlərinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir və bu dəstəyi bizə verilən səslərdə ifadə edir. Azərbaycan özünü dünyada etibarlı tərəfdaş kimi təsdiq edibdir. Azərbaycanın regional inkişaf üçün gördüyü işlər həlledici rol oynayır. Regional təhlükəsizlik, əməkdaşlıq, regional məsələlərin həlli – bunlar bizim bu bölgədə ümumi işimizə verdiyimiz töhfələrdir.

Bir sözlə, ictimai-siyasi vəziyyət sabitdir, ölkə daxilindəki problemlər öz həllini tapmaqdadır. Beynəlxalq mövqelərimiz kifayət qədər möhkəmdir, iqtisadi dayaqlar isə bu gün özünü göstərir. Hətta dünyada, bölgədə, yaxın qonşuluqda yaşanan istənilən xoşagəlməz hallar Azərbaycana təsir etmir. Ona görə yox ki, biz özümüzü təcrid etmişik, əksinə, biz dünyaya açığıq. Ona görə ki, Azərbaycanda aparılan siyasət milli maraqlara söykənir. O ölkələrdə ki, siyasət milli maraqlara söykənir, o ölkələrdə sabitlik də, inkişaf da olacaq. Dəfələrlə demişəm, ulu öndərin adını daşıyan möhtəşəm məsciddə bir daha demək istəyirəm ki, Azərbaycan müstəqillik yolu ilə gedir, müstəqil siyasət aparır, öz məsələlərini özü həll edir. Mənim üçün prezident kimi, əsas vəzifə xalqın etimadını doğrultmaqdır, xalqa xidmət etməkdir. Mən bütün dövlət məmurlarını dəfələrlə

buna çağırmışam, onlara öz göstərişlərimi vermişəm. Demişəm ki, biz hamımız – prezident başda olmaqla, xalqın xidmətçiləriyik. Budur bizim vəzifəmiz!

Azərbaycanda bütün azadlıqlar – mətbuat azadlığı, söz azadlığı, sərbəst toplaşmaq azadlığı, vicdan azadlığı təmin edilir. Azərbaycanda bütün dini azadlıqlar tam şəkildə təmin edilir. Bu da hesab edirəm ki, bizim ümumi inkişafımızda çox böyük əhəmiyyətə malik olan bir sahədir. Din, etiqad azadlığı Azərbaycanda tam şəkildə təmin edilir.

Son 11 il ərzində Azərbaycanda 250-yə yaxın məscid tikilib və ya təmir edilibdir. Xalqımız üçün çox böyük dəyər kəsb edən Bibiheybət, Təzəpir, Əjdərbəy, 743-cü ildə tikilmiş Şamaxı məscidi onların arasındadır. Hazırda İmamzadə dini, tarixi, mədəni mərkəzində təmir-bərpa işləri aparılır. Bu gün ölkəmizin ən böyük, möhtəşəm, əzəmətli Heydər məscidi açılır. Azərbaycanda digər başqa dinlərin məbədləri, o cümlədən dövlət vəsaiti hesabına tikilir, təmir edilir. Onu da qeyd etməliyəm ki, bu məscid dövlət vəsaiti hesabına tikilib, necə ki, rus pravoslav, katolik, alban kilsələrinin tikintisi, təmiri işlərində də dövlət öz dəstəyini verib. Azərbaycanda sinaqoqlar tikilir, təmir edilir. Yəni Azərbaycanda bu sahədə nadir təcrübə əldə edilibdir. Bu bizim üçün təbiidir, normal həyat tərzidir, cəmiyyətin normal yaşamasıdır, bizim dövlət siyasətimizdir. Bax, bu 2 amil bu müsbət ab-havanı yaradır. Həm cəmiyyətdən gələn istəklər, sifarişlər, eyni zamanda, dövlət siyasətimiz.

Azərbaycanda təhlükəsizlik tam şəkildə təmin edilib. İctimai iqlim müsbətdir. Burada dövlət–din münasibətləri və dinlərarası münasibətlər xüsusi yer tutur. Bu gün bu belədir, sabah da belə olacaqdır. Azərbaycanda bütün xalqların, bütün konfessiyaların, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar və yaşayacaqlar. Heç vaxt ölkəmizdə dini zəmində heç bir qarşıdurma olmamışdır və olmayacaqdır. Hətta heç bir anlaşılmazlıq da olmamalıdır və yoxdur. Biz bu yolla gedirik və dünyaya bu yolu göstəririk.

Bu gün sivilizasiyalararası dialoq haqqında müxtəlif fikirlər, fərziyyələr irəli sürülür. Alimlər, jurnalistlər, ictimai xadimlər, hətta siyasətçilər də bəzi hallarda bu münasibətlərin gələcəyinə o qədər də müsbət baxmırlar, yanaşmırlar. Çox təəssüf edirəm. Gəlsinlər Azərbaycanın təcrübəsini görsünlər, öyrənsinlər. Görsünlər ki, bir ölkədə bütün dinlərin nümayəndələri mehribanlıq şəraitində necə yaşaya bilər, bütün millətlərin hüquqları necə təmin edilə bilər. Biz buna necə nail ola bilmişik? Bəzi hallarda xarici qonaqlar məndən bunu soruşurlar. Bunu izah etmək üçün gərək bir neçə gün vaxt sərf edəsən. Yenə də deyirəm ki, bu bizim dövlət siyasətimizdir, tarixən də belə olubdur. Azərbaycanda cəmiyyət də bu gözəl mənzərəni görərək, öz töhfəsini verir ki, bu proses daim davam etsin.

Biz bu gün beynəlxalq aləmdə dinlərarası dialoqun möhkəmləndirilməsi üçün öz dəyərli töhfəmizi veririk. Təsadüfi deyil ki, məhz Azərbaycan dünyanın multikulturalizm mərkəzlərindən birinə çevrilmişdir. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, dialoqlar, mədəniyyətlərarası dialoq, humanitar forum, dünya dinlərinin liderlərinin zirvə görüşləri – bütün bunlar bu gün Azərbaycan reallıqlarıdır. Biz çalışırıq bu tədbirlərin keçirilməsi ilə ümumi işimizə töhfəmizi verək ki, dünyada da dini, milli zəmində heç vaxt anlaşılmazlıq, qarşıdurma olmasın. Əfsuslar olsun ki, biz bir çox hallarda bunun əksini görürük. Yaxın Şərqdə, Avropada, digər yerlərdə dini amil əsasında müharibələr, davalar, qanlı toqquşmalar baş verir. Bu, əlbəttə ki, bizi çox narahat edir. Yenə də deyirəm, ümid edirəm ki, Azərbaycan öz müsbət təcrübəsini başqa ölkələrlə bölüşərək, ümumbəşəri dəyərlərə qiymətli töhfəsini verir və verəcəkdir.

Bir daha demək istəyirəm ki, biz Azərbaycanda bütün məsələləri ardıcıllıqla, məqsədyönlü şəkildə həll edirik. Bizim siyasətimizin mənbəyi Azərbaycan xalqıdır. Azərbaycan xalqının arzularını Azərbaycan iqtidarı gerçəkləşdirir. Biz bundan sonra da bu yolla gedəcəyik. Əminəm ki, ölkənin qarşısında duran bütün vəzifələr uğurla icra ediləcəkdir. O cümlədən ən ağrılı problem – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ

problemi də öz həllini tapacaq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək.

Bu gün güclü Azərbaycan Ordusu, güclü Azərbaycan iqtisadiyyatı, beynəlxalq mövqelərimiz imkan verir ki, biz bu istiqamətdə istədiyimizə nail olaq. Bizim istədiyimiz bizim haqqımızdır. Haqlı tələblərimiz var. Biz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik. Biz istəyirik ki, azərbaycanlılar bütün tarixi Azərbaycan torpaqlarında, Dağlıq Qarabağda, digər işğal edilmiş torpaqlarda yaşasınlar. Vaxt gələcək, azərbaycanlılar bizim tarixi torpaqlarımızda – İrəvan xanlığında, Göyçə, Zəngəzur mahallarında da yaşayacaqlar. Ona görə biz daha da fəal işləməliyik, çalışmalıyıq, hər bir vətəndaş öz sahəsində ümumi işimizə töhfə verməlidir. Mən tam əminəm ki, gün gələcək, biz Şuşa məscidini, Ağdam məscidini və hazırda Azərbaycanın erməni vəhşiləri tərəfindən dağıdılmış bütün digər məscidlərini bərpa edəcəyik, orada birlikdə namaz qılacağıq. Biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik.

Mən bir daha Sizi və bütün Azərbaycan xalqını bu tarixi hadisə – Heydər məscidinin açılışı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Qarşıdan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı gəlir. Bu bayramlar münasibətilə bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm. Azərbaycan xalqına rifah, sülh, tərəqqi arzulayıram. Sağ olun.

* * *

**İsmayıl Berdiyev** (*Şimali Qafqaz Müftilərinin Əlaqələndirmə Şurasının sədri, Rusiya Federasiyası Qaraçay-Çərkəz müftisi*): Hörmətli cənab Prezident!

Hörmətli Mehriban xanım!

Hörmətli şeyx!

Hörmətli həmkarlar, müftilər, qardaş və bacılar!

Bu gün həqiqətən, əsl bayramdır. Mən də bu fürsətdən istifadə edərək, Sizi ad gününüz münasibətilə təbrik edirəm. Bu, ən gözəl məscidlərdən biridir. Bu mənim gözlədiyimdən də ecazkar bir mənzərədir. Belə bir möhtəşəm bina səmavi bir təəssürat oyadır. Sanki hər bir nəqşi əsl möcüzədir. Mən belə bir möcüzəni heç

yerdə görməmişəm. Həqiqətən də bu binaya verilən ad belə gözəlliyə layiqdir. Biz hələ sovet dövründə onunla fəxr edirdik. Həmin vaxtlar o, Siyasi Büronun üzvü kimi, hakimiyyətin zirvəsində olanda, Sosialist Əməyi Qəhrəmanı adını daşıyanda hamımız fəxr edirdik ki, hakimiyyətdə belə bir müsəlman var.

O dövrdə həqiqətən, çox qorxunc bir müharibə gedirdi. Şəhidlərin də sayı çox idi. Bütün bu məşəqqətlərə dövlətin başçısı da, siz hamınız da davam gətirdiniz. Allah-Taala «Qurani-Kərim»də belə buyurur: «Siz çətinliklərə tab gətirdiniz, bu isə sizə yüngüllük bəxş edəcək». Belə bir çətin dövrdə xalq Heydər Əliyevi çağırdı, o, əsl müdrik insan kimi, ayağa qalxaraq, xalqın çağırışına səs verdi. Bu müdrik insan qarşıda duran vəzifələrin öhdəsindən məharətlə gəldi. Onun dediyi ilk kəlmədən biri də bu oldu ki, Azərbaycan müstəqil dövlətdir. O öz milləti və xalqı ilə fəxr edirdi və o həqiqətən, fantastik uğurlara nail oldu. Siz hamınız bütün bunları görmüsünüz və onunla bir yerdə olmusunuz. Belə bir məsəl də var ki, ağac öz bəhrəsini zəhmət görəndə verir. Siz də bu istiqamətdə fəaliyyətinizi davam etdirirsiniz. Mən Sizə bu yolda uğurlar arzu edirəm. Mən buraya gələndə həmişə şeyx həzrətlərinə deyirəm ki, siz xoşbəxt xalqsınız. Belə bir dövlət başçısı hər bir xalq üçün böyük xoşbəxtlikdir. Mən həmişə şeyxə deyirəm ki, bəxtəvər insanlarsınız ki, bu cür prezidentiniz var.

**Aleksandr ata** (*Rus pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri*): Möhtərəm cənab Prezident!

Hörmətli Mehriban xanım!

Hörmətli şeyx həzrətləri!

Hörmətli müftilər, din xadimləri, xanımlar və cənablar!

Bu gün ümummilli liderimiz Heydər Əliyev haqqında xeyli söhbət edildi. Həqiqətən də müasir Azərbaycan Heydər Əliyevin şah əsəridir. O həm müdrik siyasi xadim, həm peşəkar təşkilatçı, həm də istedadlı, dahi iqtisadçı idi. Cənab Prezident də öz çıxışında qeyd etdi ki, Heydər Əliyevin həyatında ən mühüm hadisələrdən biri Məkkədə müqəddəs Kəbəni ziyarət etmək olub. Təbii ki, onun ziyarətgahda duaları təkcə öz ailəsi üçün deyil, həm də doğma

xalqı və ölkəsi üçün idi. Həm də demək lazımdır ki, Heydər Əliyevin bu fəaliyyəti hələ sovet dövründə özünü büruzə verirdi. Heydər Əliyev xalqın, cəmiyyətin həyatında dinin əhəmiyyətini çox gözəl başa düşürdü. Mən keçmiş din xadimlərinin sözlərini xatırlayıram. Onlar deyirdilər ki, bütün Sovet İttifaqından fərqli olaraq, Azərbaycanda dini dəyərlərə münasibət tamam fərqlidir. Məlum olduğu kimi, Sovet İttifaqında dinə ateist münasibət bəslənirdi. Amma Azərbaycanda hətta o dövrün tanınmış din xadimlərinə hörmətlə yanaşırdılar. Elə buna görə də mömin insanların minnətdarlıq əlaməti olaraq Heydər Əliyev adına məscid ucaldılıb.

Belə bir məscidin ucaldılması son dərəcə əlamətdardır. Bu, müasir cəmiyyətin tələbatına uyğun hadisədir. Amma bu, təkcə Heydər Əliyevin xatirəsinə ithaf deyil, həm də Azərbaycanın gələcəyi deməkdir. Cənab Prezident, şəhərə və xalqa verdiyiniz bu töhfəyə görə çox sağ olun.

**Milix Yevdayev** (*Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri)*: Möhtərəm Prezident!

Hörmətli Mehriban xanım!

Şeyx həzrətləri!

Bəli, ulu öndər ölməzliyə qovuşub. Ulu öndər sizin üçün böyük bir xəzinə qoyub gedib. Ulu öndər öz amallarını, öz arzularını, öz niyyətlərini sizin üçün böyük bir xəzinə olaraq saxlamışdır. Hər şeydən əvvəl isə o sizin üçün öz təmiz, ülvi adını saxlayıb getmişdir.

Allah-Taalaya çox şükürlər olsun ki, Prezident həzrətləri, Siz o xəzinənin üstündən xərcləmirsiniz, öz əməllərinizlə, öz arzularınızla o xəzinənin üstünə gətirirsiniz. Bu xalqa, bu millətə göstərdiyiniz fövqəlbəşər xidmətlərinizlə Siz o xəzinəni zənginləşdirirsiniz. Məhz budur ölməzlik.

Azərbaycan Prezidentinin daxili və xarici siyasəti xalqa, millətə, məmləkətə, bu məmləkətdə yaşayan bütün xalqlara arxalanır. Çünki Siz həm Azərbaycanın, həm də hər bir Azərbaycan vətəndaşının prezidentisiniz. Siz həmişə əlçatmaz yox, əlçatan bir prezidentsiniz. Ona görə də mən Sizə, ailənizə, bütün

Azərbaycan xalqına əmin-amanlıq, xoş günlər, səadət arzulayıram.

Mən bu qısa çıxışımda Sizə və bütün Azərbaycan xalqına ulu Tanrıdan yolunuzun uğurlu, gözünüzün nurlu, çörəyinizin isti, suyunuzun sərin, dizinizin taqətli olmasını diləyirəm. Allah amanında.

**Ş a f i k  P ş i x a ç e v** (*Qafqaz Müsəlmanları İdarəsinin Rusiya Federasiyasındakı Səlahiyyətli nümayəndəsi*): Möhtərəm cənab Prezident!

Hörmətli Mehriban xanım!

Hörmətli şeyximiz Allahşükür Paşazadə!

Əziz həmkarlarım, əziz dostlarım!

Bu gün təkcə bizim qardaş Azərbaycanın müsəlman əhalisi üçün deyil, bütün müsəlman icması üçün əlamətdar gündür. Mən də Allaha dua edirəm ki, Sizin ailənizdən xeyir-bərəkətini əsirgəməsin. Allahın rəsulu Məhəmməd Peyğəmbər deyib ki, Allaha ibadət etmək üçün bir məscid tikdirən insanın yeri behiştdir. Mən Allaha dua edirəm ki, Siz uzun müddət öz sevimli xalqınızı sevindirəsiniz.

Cənab Prezident, biz bu gün Azərbaycan Respublikasının ərazisində – dini ayrı-seçkiliyə yol verməyən, dini zəmində qarşıdurmalara qəti etirazını bildirən torpaqda görüşürük. Bütün dünyada xalqların və millətlərin bir-birilərinə qarşı qalxdığı bir vaxtda şükür Tanrıya ki, sizin respublikanızın ərazisində sülh, əmin-amanlıq və qarşılıqlı anlaşma hökm sürür. Həqiqətən də heç kəs inkar edə bilməz ki, bu gerçəkliyin təməlini ümummilli lider Heydər Əliyev qoyub.

Bu gün Azərbaycan xalqı inamla gələcəyə irəliləyir. Sizin də, şeyxülislamın da fəaliyyəti bu məqsədə xidmət edir. Öz xalqına, öz ölkəsinə belə bir xidmət Allah tərəfindən bəyənilməyə bilməz.

Mən bütün bunları layiqincə qiymətləndirən, böyük Heydər Əliyevin vəsiyyətlərinə əməl edən Azərbaycan xalqına sonsuz minnətdarlığımı bildirirəm. Mən ulu Tanrıya dua

edirəm. Azərbaycana hər dəfə gələndə gördüklərimdən, buradakı tərəqqidən heyrətə gəlirəm.

Möhtərəm Prezident, Sizə, ailənizə xalqınızın bu paklığını qorumaq yolunda böyük uğurlar arzulayıram, həm də əldə olunan nailiyyətləri daha da artırmağı diləyirəm. Çünki hər dəfə Bakıya gələndə dünyanın heç bir diyarında rast gəlmədiyimiz xoş mənzərənin şahidi oluruq.

Sizin ürəyinizə təpər, cansağlığı, xalqınıza isə müdriklik arzu edirəm.

**Allahşükür Paşazadə** (*Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam*): Möhtərəm cənab prezident İlham Əliyev həzrətləri!

Möhtərəm Mehriban xanım!

Leyla xanım!

Heydər Əliyev ocağı!

Hörmətli müftilər, din xadimləri!

Əziz iştirakçılar, bu gün bizim üçün çox böyük və müqəddəs gündür. Bu müqəddəsliyin bir neçə amili vardır. Bu Allahdandır. Yəni bu günün seçilməsi təsadüfi deyil. Bu gün peyğəmbər əleyhissəlamın bizə buyurduğu cümə günüdür. Bu, bütün müsəlmanlar üçün çox əziz cümə günüdür. İkincisi, Rəbiül-əvvəl ayının başlanğıcı, Mövlud günüdür, peyğəmbər əleyhissəlamın anadan olan günüdür.

Ulu öndər Heydər Əliyev həzrətlərinin adını daşıyan məscidin açıldığı bu gün mənim üçün böyük müqəddəs günlərdən biridir. Onun ruhu buradadır, Allah-Taala onun ruhunu şad etsin, inşallah!

Məndən əvvəlki natiqlərin çıxışları mənə çox təsir etdi. Mən bu gün ulu öndəri həyatımda yenidən dərk etdim. Mən elə bilirdim ki, Heydər Əliyevi dərk etmişəm. Amma illər ötdükcə görürəm ki, bu dahi insanın böyüklüyü daha ucadadır. Bu insan dünyadan getmiş olsa da, dediyi sözlər, qoyduğu dövlətçilik məktəbi, onun siyasəti, mənəviyyata olan münasibəti, xalqa, torpağa məhəbbəti o qədər böyük idi ki, onu dillə ifadə etmək çox çətindir. Heydər Əliyev çox böyük şəxsiyyət idi. Deyə

bilərəm ki, Allah-Taala onu bizə, Azərbaycan xalqına bir örnək, bir töhfə göndərmişdi. Mən heyifsilənirəm ki, bunu bəzi adamlar başa düşmürlər. Əgər Heydər Əliyev olmasaydı, bəlkə də bu gün müstəqil Azərbaycan da yox idi.

Heydər Əliyev həzrətləri Bakıya qayıdandan sonra birinci Təzəpir məscidini ziyarət etdi. Bu günlər idi. Peyğəmbər əleyhissəlamın Mövludu günündə bütün xalqı Allah yolunda bir olmağa dəvət etdi. Heydər Əliyev həzrətlərinin adını daşıyan çox müəssisələr var. Amma haqqı var ki, bu məscid onun adını daşısın. Bu, xalqın istəyi, diləyi idi. Bu məscid doğrudan da ulu öndərin adına layiqdir.

Möhtərəm cənab Prezident, Siz Kəbə evini yada saldınız. Biz Heydər Əliyev həzrətləri ilə birlikdə Kəbə evində namaz qılarkən ulu öndər ancaq xalqı, Vətəni, torpağı, şəhidlər üçün dua etdi. Möhtərəm Prezident, biz Sizinlə Məkkədə də olmuşuq. Mehriban xanım da orada idi. Siz də xalqımız, Vətənimiz, torpağımız və Qarabağ torpaqlarının tezliklə azad olunması, şəhidlərimiz üçün dua etdiniz. Siz Kəbə evində bir neçə il bundan əvvəl söz verdiniz ki, «mən məscid tikdirəcəyəm». Kəbənin içində edilən dualar müstəcəb oldu və Heydər Əliyevin adına belə bir məscid tikildi. Mən inanıram, orada Qarabağ haqqında, şəhidlərimiz haqqında edilən dualar da, inşallah, müstəcəb olacaq. Mən buna inanıram. Çünki bu dualar Kəbə evində oxunub.

Mən Heydər Əliyev həzrətləri ilə çox görüşlərdə olmuşam, söhbət etmişik. Yadımdadır, BMT-nin 50 illiyi idi, Nyu-Yorkdan geri qayıdırdıq. Əlimdə Quran var idi, Quran oxuyurdum. Rəhmətlik Heydər Əliyev həzrətləri mənə dedi ki, Qurandan bir az oxu və mənə tərcümə et ki, görüm orada nə deyilir. Orada bir ayə var ki, Allah-Taala buyurur: «Bəzi müşriklər, istəməyənlər, həqiqəti, haqqı dananlar istəyirlər ki, Allahın yandırdığı çırağı söndürsünlər. Üfürməklə söndürmək istəyirlər. Deyir mən yandırmışam o çırağı, sən onu üfürməklə söndürə bilməzsən». Sonradan dedi ki, bu mənə çox təsir etdi.

Həqiqətən də bir çox adamlar bəlkə də ola bilsin xarici ölkələri görməyiblər deyə, Azərbaycana qiymət verə bilmirlər. Azərbaycan bu gün həqiqətən də «cənnət»dir. Baxın, bütün müsəlman dövlətləri bir-birinə qarışıb, vuruşur, məzhəb ayrı-seçkiliyi mövcuddur. Bu gün heç yerdə rast gəlməzsən ki, buradakı kimi yəhudi, pravoslav, katolik – bütün din xadimləri bir yerə, bir məscidə gəlib çıxış etsinlər. Bu, yalnız Azərbaycandadır. Çünki bu bünövrəni qoyan Heydər Əliyev həzrətləri olub. Heydər Əliyev həzrətləri bizi tolerantlığa, qardaşlığa, dinlər arasında dialoqa və bir-birinə hörmətə çağırırdı və bunu bizə öyrətdi. Bu siyasət bu gün də davam edir. Mən çox sevinirəm ki, İlham Əliyev həzrətləri də, onun ailəsi də bu gün bunu davam etdirir.

Möhtərəm İlham Əliyev həzrətləri, prezident seçkiləri dövründə minlərlə dindar Kəbə evində dua edə-edə öz gələcəyinə, Azərbaycanın birliyinə və Sizə səs verdi. Onlar Sizin qələbənizə sevinirdilər və dualar edirdilər. Allah-Taala Sizi qoruyur, Tanrının nəzərləri, mərhəməti Sizin üzərinizdədir. Mən Allahdan dua edirəm ki, inşallah, bu mərhəməti Sizin üzərinizdən heç vaxt əskik etməsin.

Mənim bir qardaş kimi, Heydər Əliyev həzrətlərini və Zərifə xanımı xatırlamadığım gün yoxdur. İnanın ki, mən hər gecə yatmazdan əvvəl anamı, atamı yada salıramsa, Heydər Əliyevi də, Zərifə xanımı da yada salıram. Allah onlara rəhmət etsin.

Mənim bu gün çıxışım başqa səpkidə idi. Bu dövrlər duaların müstəcəb olan vaxtıdır. Mən arzu edirəm ki, – keçən səfər də dedim, Sizin gözəl nəvələriniz var və onları çox istəyirsiniz – Mehriban xanım, Allah-Taala inşallah, sizə oğul nəvəsi də nəsib etsin.

Hörmətli İlham Əliyev həzrətləri, Sizin özünüzə də demişəm, hərdən elə qəti addımlar atırsınız ki, həmin addımı heç kim gözləmir. Avropa Şurasında əyləşib barmaq silkələdiniz. Onu hər adam edə bilməz. Amma Siz bunu etdiniz. Çünki Siz Heydərin oğlusunuz və buna görə də biz fəxr etməliyik. Azərbaycan xalqı Sizinlə fəxr edir.

Mən bir şeyxülislam kimi, yaratdığınız bu gözəl məkanda Sizə, Azərbaycan xalqına dualar edirəm. Bu məsciddə 95 metrlik

minarənin ucalması, əlbəttə, Sizin istəyinizlədir. Allah-Taala Sizi, ailənizi daha da uca etsin. Allah-Taala bütün Azərbaycan xalqını Sizinlə bərabər xoşbəxt etsin. Allah-Taala, inşallah, bizə torpaqlarımızın tezliklə azad olunmasını nəsib etsin. Siz çox işlər görmüsünüz, yeni məscidlər, sinaqoqlar, kilsələr tikilir, təmir olunur. Həqiqətən də dünya gəlib bizdən öyrənə bilər. Sizin yaratdığınız multikulturalizm məktəbi, tolerantlıq mərkəzi bu gün fəaliyyət göstərir və inşallah, bizim müstəqilliyimiz də, Azərbaycan da daimidir. Çünki onun bünövrəsini ulu öndər Heydər Əliyev qoymuşdur və inşallah, daimi də olacaq.

Mənim ürəyim doludur, çoxlu sözlərim var. Amma qəlbən, ruhən onu Sizə dualarla çatdıracağam. İnşallah, mən həmişə Sizə dua edəcəyəm. Bu gün Heydər Əliyevin, Zərifə xanımın ruhu buradadır, bizi eşidirlər. Çünki ruhlar heç vaxt ölmürlər, onlar yaşayırlar. Mən istərdim ki, bütün şəhidləri yada salaq və dünyadan gedənləri, xüsusən ulu öndəri yada salaq və onun ruhuna, Zərifə xanımın ruhuna, bütün şəhidlərin ruhuna bir fatihə verim.

*Fatihə verəndən sonra çıxışını yekunlaşdıran şeyxülislam Allahşükür Paşazadə dedi:*

– Mübarək olsun, bir daha təbrik edirəm. Bu yeni məscid, inşallah, bütün xalqımız üçün xeyirli olsun.

* * *

*Prezident İlham Əliyev mərasimdə iştirak edən Şimali Qafqaz respublikalarının din xadimləri ilə görüşdükdən sonra xanımı Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə Fəxri xiyabana gəldi.*

*Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin məzarını ziyarət edərək, üzərinə gül dəstəsi qoydu.*

*Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva, tanınmış dövlət xadimi Əziz Əliyev və professor Tamerlan Əliyevin də xatirələri anıldı.*

## RUSİYA FEDERASİYASIIN ŞİMALİ QAFQAZ RESPUBLİKALARININ DİN XADİMLƏRİ İLƏ GÖRÜŞ

*26 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Heydər məscidinin açılışında iştirak etmək üçün Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından gələn din xadimlərini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından gəlmiş din xadimlərinə Heydər məscidinin açılışında iştiraklarına görə təşəkkür etdi və bunu xalqlarımız arasında dostluq və qardaşlığın göstəricisi kimi dəyərləndirdi. Belə tədbirlərin Qafqaz müsəlmanlarını bir-birinə daha da yaxınlaşdırdığını və regionda sülhə və sabitliyə xidmət etdiyini deyən dövlətimizin başçısı qonaqların təmsil etdikləri Şimali Qafqaz respublikalarında gedən inkişaf proseslərinin məmnunluq doğurduğunu diqqətə çatdırdı. Yeni məscidin açılışını Azərbaycan üçün tarixi hadisə kimi qiymətləndirən prezident İlham Əliyev tarixboyu xalqımızın öz dini-mənəvi dəyərlərinə sadiq qaldığını vurğuladı. Prezident İlham Əliyev dinin azad olduğu müasir dövrdə mövcud olan təhlükənin – müəyyən dairələrin gəncləri öz tarixi köklərindən ayırmaq cəhdlərinin olduğunu söylədi və bu prosesin qarşısının alınmasında, eləcə də gənc nəslin milli adət-ənənələrə sədaqət ruhunda tərbiyə olunmasında dini liderlərin rolundan, həmçinin dinlərarası dialoqun genişləndirilməsinin əhəmiyyətindən danışdı. Dövlətimizin başçısı qonaqları qarşıdan gələn Yeni il münasibətilə təbrik etdi.*

*Şimali Qafqaz Müftilərinin Əlaqələndirmə Şurasının sədri, Rusiya Federasiyası Qaraçay-Çərkəz müftisi İsmayıl Berdiyev yeni məscidin açılışında iştiraka dəvətə görə minnətdarlığını*

*bildirdi.* Qonaq *Heydər məscidinin çox gözəl* tikildiyini *və öz əzəməti ilə* ulu *öndər Heydər Əliyevin adına* layiq *olduğunu söylədi. İsmayıl* Berdiyev qeyd etdi ki, *Azərbaycanda belə bir möhtəşəm məbədin* istifa*dəyə verilməsi Heydər Əliyev müdrikliyini yaşadan* prezident *İlham Əliyevin xidmətləri sayəsində mümkün* olub. *Belə məscidlərdə hər* zaman *sülhün, əmin*-amanlığın *bərqərar olması üçün Tanrıya* dua *etdiklərini və* dualar *zamanı işğal altındakı Qarabağ torpağını* unutmadıqlarını bildirən *İsmayıl* Berdiyev bu *məsələnin tezliklə həllini tapacağına əminliyini ifadə* etdi.

# İDMAN-KONSERT KOMPLEKSİNDƏ ƏSASLI TƏMİR İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*26 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva dekabrın 26-da Heydər Əliyev adına İdman-Konsert Kompleksində aparılan əsaslı təmir işlərinin gedişi ilə tanış olmuşlar.*

*Gənclər və İdman naziri Azad Rəhimov prezident İlham Əliyevə burada görülən işlər barədə məlumat verdi.*

*Qeyd edək ki, 1977-ci ildə inşasına başlanılan və 1990-cı ildə istifadəyə verilən İdman-Konsert Kompleksinin binasında indiyədək əsaslı təmir işləri aparılmamışdı. Kompleks əsas korpusdan və idmanın müxtəlif növləri üzrə məşqlər üçün ayrı-ayrı korpuslardan ibarətdir. Kompleksdə əsaslı təmir işlərinin layihəsinin hazırlanmasına və icrasına xarici şirkətlərlə yanaşı, yerli şirkətlər və mütəxəssislər də cəlb olunub. Layihəyə əsasən binanın daxili kommunikasiya sistemlərinin yenidən qurulmasına, havalandırma sisteminin təmirinə, yumşaq dam örtüyünün izolyasiyasının, həmçinin yer döşəməsinin daha keyfiyyətli örtüklərlə əvəzlənməsinə, qapı, pəncərə və vitrajların yenilənməsinə, zalların döşəmələrində idman təyinatlı xüsusi örtüklərin dəyişdirilməsinə başlanılıb. Kompleksdə müasir yarış zalları, suvenir satışı mağazası, mətbuat işçiləri üçün xüsusi sahələr, VİP otaqlar, teleyayım mərkəzi, kafe-barlar və digər lazımi otaqlar yaradılacaq.*

*Məşq zalı ən müasir səviyyədə qurulur. Burada saunalar, masaj, püşkatma, dopinq-yoxlama, tibb, hakimlər üçün istirahət, beynəlxalq federasiyaların işçi otaqları, yarış mərkəzi, 40*

*nəfərlik iclas zalı, 250 yerlik yeməkxana, mətbəx və digər köməkçi otaqlar olacaq.*

*Ümumi sahəsi 55 min kvadratmetrə yaxın olan binada tamaşaçı yeri təmirdən əvvəl 7587 idisə, təmirdən sonra bu rəqəm 7682 olub. Burada eyni zamanda, 142 VİP oturacaq quraşdırılacaq.*

*Əsaslı təmir işləri zamanı kompleksin beynəlxalq səviyyəli yarışların təşkilinə, o cümlədən I Avropa oyunları zamanı tələblərə cavab verməsi və funksionallığının daha da artırılması üçün bir sıra tədbirlər görülüb. Heydər Əliyev adına İdman-Konsert Kompleksində əsaslı təmir işləri Avropa Olimpiya Komitəsi, Bakı Avropa oyunları Əməliyyat Komitəsi və müvafiq beynəlxalq federasiyanın tələbləri nəzərə alınmaqla, yüksək keyfiyyətlə aparılır. Kompleksdə 200 yerlik mətbuat mərkəzi, jurnalistlər üçün kafe, 40 nəfərlik konfrans otağı, 350 könüllü üçün zal və kafe də fəaliyyət göstərəcək.*

*Bunlarla yanaşı, kompleks təhlükəsizlik kameraları, 222 ən müasir projektor, genişzolaqlı internet, müasir akustika və səsgücləndirici sistemlər, avadanlığın davamlı işləməsini təmin edən transformator, UPS və generator ilə təchiz edilib. Beləliklə, burada yaradılan şərait bir daha təsdiqləyir ki, ilk Avropa oyunlarının ən yüksək səviyyədə keçirilməsi üçün Azərbaycanda hərtərəfli imkanlar var.*

*Əsaslı təmir işləri zamanı binanın fasadı da tamamilə yenilənir. Fasad tac şəklində olmaqla, xüsusi örtüklə üzlənmiş konstruksiyadan ibarətdir. Fasadın işıqlandırılması üçün müxtəlif rəngdə xüsusi lampaların və projektorların quraşdırılması nəzərdə tutulur.*

*Prezident İlham Əliyev və I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva ətrafda aparılan abadlıq-quruculuq işləri ilə də tanış oldular, tapşırıq və tövsiyələrini verdilər.*

## OLİMPİYA STADİONUNDA APARILAN İŞLƏRİN GEDİŞİ İLƏ TANIŞLIQ

*26 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva dekabrın 26-da Bakı Olimpiya stadionunda həyata keçirilən işlərin gedişi ilə tanış olmuşlar.*

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev prezident İlham Əliyevə burada görülən işlər barədə ətraflı məlumat verdi.*

*Təməli 2011-ci ilin iyununda qoyulan stadionun inşası sürətlə və yüksək keyfiyyətlə davam etdirilir. Stadionda indiyədək layihə çərçivəsində nəzərdə tutulan inşaat işlərinin əsas hissəsi başa çatıb. Tikintidə ən müasir avadanlıqdan və inşaat materiallarından istifadə olunur.*

*Sonra prezident İlham Əliyevə və Azərbaycanın birinci xanımına Bakı Olimpiya stadionunun interyerində həyata keçirilən və görüləcək işlərlə bağlı məlumat verildi. Bildirildi ki, stadionun interyerində də son tamamlama işləri aparılır. Buraya gələn qonaqların rahatlığı üçün hər cür şərait yaradılıb. Bu gün dünyada idman ölkəsi kimi tanınan, idmana, olimpiya hərəkatına dəstəyi dövlət siyasətinin əsas istiqamətlərindən biri seçən Azərbaycan ilk Avropa oyunlarına sürətlə hazırlaşır. I Avropa oyunlarına hazırlıqla bağlı işlər yüksək səviyyədə həyata keçirilir. Müxtəlif idman yarışlarının keçirilməsi üçün nəzərdə tutulan Bakı Olimpiya stadionunun inşasında da işlər sürətlə davam etdirilir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Olimpiya stadionunda inşaat prosesinin gedişi ilə mütəmadi*

olaraq maraqlanır, işlərin vaxtında və yüksək keyfiyyətlə həyata keçirilməsi ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verirlər. Müasir arxitektura üslubu, xüsusi gözəlliyi ilə seçiləcək, 68 minə yaxın tamaşaçı yerinə malik Bakı Olimpiya stadionu bu tipli idman qurğuları sırasında özünəməxsus yer tutacaq. Beynəlxalq standartlara tam cavab verəcək stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur yaradılır. Təxminən 50 hektar ərazidə tikilən stadion 6 mərtəbədən ibarət olacaq. Əsas və köməkçi stadionlardan, həmçinin mexaniki binadan ibarət olacaq stadionda VVIP, VİP, CIP, media, habelə əlil tamaşaçı bölmələri nəzərdə tutulub. Stadionun sahəsinə 4, tribunalara isə 26 qapıdan giriş olacaq. Olimpiya normativlərinə əsasən insanların stadiona daha çox piyada və ictimai nəqliyyatla gəlməsi nəzərdə tutulub ki, bunun üçün də ərazidə 3 min 100 yerlik avtomobil parkı inşa edilir.

Stadionun ətrafında ümumilikdə 82 min kvadratmetrlik yaşıllıq sahəsi salınır. Stadionun layihəsi iqtisadi səmərəliliyi, müasirliyi, funksional baxımdan əlverişliliyi, paytaxtın memarlığına və irəli sürülən texniki şərtlərə maksimum uyğunluğu ilə seçilir.

Bakı Olimpiya stadionunda tikinti işlərinin gedişi ilə tanış olan prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.

## DÖVLƏT NEFT FONDUNUN YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*29 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 29-da – Dövlət Neft Fondunun yaradılmasının 15-ci ildönümü günündə bu qurumun yeni inzibati binasının açılışında iştirak etmişlər.*

*Azərbaycanda Neft Fondunun yaradılması ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş mükəmməl neft strategiyasının bəhrələrindəndir. 2009-cu il dekabrın 29-da prezident İlham Əliyevin iştirakı ilə Neft Fondunun yeni inzibati binasının təməli qoyulub. Ötən müddətdə ən müasir standartlar səviyyəsində aparılan tikinti-quraşdırma işləri başa çatdırılıb.*

*Prezident İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov prezident İlham Əliyevə yeni inzibati bina haqqında məlumat verdi.*

*Qüllə ilə birlikdə 24 mərtəbəli binanın hündürlüyü 140 metrdir. Dövlət Neft Fondunun yeni binası «BREEAM Assessment» qiymətləndirmə dərəcələrinin tələbləri nəzərə alınmaqla tikilib. Ətrafda əsaslı abadlıq və yaşıllaşdırma işləri həyata keçirilib, müasir infrastruktur yaradılıb.*

*Binanın interyeri Azərbaycanın 9 xalçaçılıq məktəbinin elementlərini özündə ehtiva edən dizayn konsepsiyası əsasında qurulub. Bunlar Şirvan, Təbriz, Gəncə, Naxçıvan, Qarabağ, Quba, İrəvan, Bakı və Qazax xalçaçılıq məktəbləridir. Hər mərtəbə həmin xalçaçılıq məktəblərindən birinin motivləri əsasında işlənmiş xüsusi dizayna malikdir. Birinci mərtəbədə dizayn Şirvan və Təbriz xalçaçılıq məktəblərinin elementlərinə*

*əsaslanır. Təbriz xalçaçılıq məktəbinə* aid *Ərdəbil xalçasının* burada *yaradılan mozaikası dünyanın* nadir *incəsənət əsərlərindən sayıla bilər.*

*Binanın birinci mərtəbəsində Heydər Əliyev guşəsi yaradılıb. Burada ulu öndərin heykəli qoyulub. Bir sıra dövlət mükafatları laureatı, Xalq rəssamı Tahir Salahovun rəhbərlik etdiyi layihə əsasında hazırlanan heykəl Xalq rəssamı, professor, heykəltəraş Natiq Əliyev tərəfindən yaradılıb. Birinci mərtəbədə yerləşən gözləmə və istirahət sahələrindən ibarət olan «Petroleum lounge» daxili pilləkənlər vasitəsilə kitabxana ilə əlaqələndirilib. Şirvan xalçaçılıq məktəbinə xas naxışlar «Qış bağı», «Petroleum lounge» və lift lobbilərinin dizaynında geniş yer alıb. «Qış bağı»nın dekorasiyası üçün Şirvan xalçaçılıq məktəbinə aid Qobustan xalçasının motivlərindən istifadə olunub. Birinci mərtəbənin yarımmərtəbəsi Gəncə xalçaçılıq məktəbinin elementləri ilə işlənilib. Kitabxana burada yerləşir. Kitabxanada ulu öndər Heydər Əliyevin neft strategiyası, müstəqillik illərində ölkəmizdə, o cümlədən regionlarda həyata keçirilən kompleks yenidənqurma tədbirləri, Azərbaycanın ötən illərdə keçdiyi şərəfli inkişaf yolundan bəhs edən kitablar yer alıb. Binada ən müasir standartlara cavab verən 7 lift quraşdırılıb.*

*Prezident İlham Əliyevə Fondun yeni inzibati binasının tikintisinin gedişi ilə bağlı qısa film nümayiş etdirildi.*

*Muzeydə Azərbaycanın neft tarixi və ümummilli lider Heydər Əliyevin neft strategiyası geniş əksini tapıb. Buradakı stendlərdə Dövlət Neft Fondunun fəaliyyəti, ötən 15 ildə qazandığı uğurlar, maliyyələşdirdiyi layihələr və investisiyalar barədə ətraflı məlumat almaq mümkündür. Artıq Fondun Türkiyə, ABŞ, Kanada, Yaponiya, Almaniya, Böyük Britaniya, Fransa, ümumilikdə 79 ölkədə investisiyaları var. Əsas prinsiplərindən birini şəffaflıq təşkil edən Dövlət Neft Fondunun layiq görüldüyü «BMT-nin Dövlət Qulluğu» və digər mükafatlar da muzeyin ekspozisiyasında yer alıb. Xatırladaq ki, Fond Şərqi Avropa və MDB ölkələrinin dövlət təşkilatları arasında bu mükafata layiq görülən ilk dövlət qurumudur.*

Yeni binadakı akt zalı 200 nəfərlikdir. 150 nəfərlik yeməkxana da müasirliyi və orijinal dizaynı ilə diqqəti cəlb edir. Konfrans zalında 40 nəfərin iştirakı ilə müvafiq tədbirlər keçirmək mümkün olacaq. Bütün otaqlar və zallar ən son elmi-texniki yeniliklərə əsaslanan avadanlıqlarla təchiz olunub. Burada səmərəli fəaliyyət üçün hərtərəfli şərait yaradılıb.

Binada informasiya texnologiyalarının normal işini təmin etmək məqsədilə müasir «Data Center» yaradılıb. Həmin mərkəz hesabına fasiləsiz, etibarlı e-mail, İP telefoniya, simsiz şəbəkə, audio-video telekonfrans, İPTV, videomüşahidə, mərkəzləşdirilmiş anten və müvafiq proqram sistemləri təmin olunub.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva binanın dizaynında Naxçıvan xalçaçılıq məktəbinin motivlərindən istifadə olunan 22-ci mərtəbəsindən paytaxtın mənzərəsini seyr etdilər.

Hazırda Bakı nəinki respublikamızın, eləcə də dünyanın ən gözəl və müasir şəhərlərindən biridir. Ölkəmizin paytaxtı tədricən meqapolisə çevrilir. Bakı planetdə ən sürətlə inkişaf edən şəhərlərdən biridir.

Yeni inzibati binada milli-mənəvi dəyərlərin, o cümlədən Azərbaycanın mükəmməl xalçaçılıq sənəti ilə yanaşı, klassik musiqisinin geniş təbliği də diqqət mərkəzində saxlanılır.

Burada Azərbaycanda ilk dəfə olaraq Bina İdarəetmə Sistemi quraşdırılıb. İnsan müdaxiləsinin minimuma endirildiyi həmin sistemdə inzibati binanın texniki, təhlükəsizlik və informasiya texnologiyaları məsələləri mərkəzləşib. Binanın havalandırılması da müasir BMS proqramı vasitəsilə həyata keçirilir. Ekoloji məsələlər də xüsusi diqqət mərkəzində saxlanıldığından bura yaşıl bina standartlarına cavab verir.

Binada alternativ enerjidən istifadə məqsədilə ərazidə günəş panelləri quraşdırılıb, zirzəmi hissəsində isə ən müasir standartlara cavab verən yeraltı avtomobil dayanacağı inşa olunub.

Burada Fondun mütəxəssislərinin hərtərəfli fəaliyyəti və strateji ehtiyatların səmərəli idarə edilməsi üçün maksimum şərait yaradılıb.

*Yaranmasının 15 illiyini qeyd edən Dövlət Neft Fondunda əgər 2001-ci ildə 270 milyon dollar məbləğində vəsait var idisə, hazırda bu məbləğ 37 milyard dolları üstələyir. Ötən dövrdə Neft Fondunun vəsaitlərinin idarə edilməsi sahəsindəki fəaliyyətində bir sıra yeniliklər tətbiq edilib. Fondun portfelində səhmlər, daşınmaz əmlak və qızıl kimi yeni investisiya alətləri geniş yer alıb. Hazırda Azərbaycanın Dövlət Neft Fondu beynəlxalq aləmdə institusional quruculuq, vəsaitlərin səmərəli idarə edilməsi, əməliyyatların şəffaflığı və informasiyanın açıqlığına görə fərqlənən və böyük nüfuza malik qurum kimi tanınır.*

*Yeni inzibati bina ilə tanış olan prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.*

*Sonda xatirə şəkli çəkdirildi.*

# NƏRİMANOV RAYONUNDA YENİ SALINAN PARKDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*29 dekabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 29-da Bakının Nərimanov rayonunun Koroğlu Rəhimov küçəsində yeni salınan istirahət parkında yaradılan şəraitlə tanış olmuşlar.*

*Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev parkın tikintisi ilə bağlı dövlətimizin başçısına məlumat verdi.*

*Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq əhalinin istirahətini təmin etmək və abadlıq-yaşıllıq işlərinin aparılması məqsədilə Nərimanov rayonu Koroğlu Rəhimov küçəsi 3a ünvanında hazırda son tamamlama işləri aparılan 7 mərtəbəli yaşayış binasının qarşısındakı ərazidə yeni istirahət parkı salınıb. Birinci mərhələdə akademik Həsən Əliyev, Əlövsət Əbdülrəhimov və Koroğlu Rəhimov ünvanlarındakı istismar müddəti başa çatmış yaşayış binalarının sakinləri müasir tipli yeni binalara köçürülüblər. Sökülən binaların yerində isə parkın birinci hissəsi salınaraq sakinlərin istifadəsinə verilib. Layihənin ikinci mərhələsində Fətəli xan Xoyski və Koroğlu Rəhimov küçələrində yerləşən 2 yaşayış binasının sakinləri Atatürk prospektində yeni inşa olunan binalara köçürülüblər. Koroğlu Rəhimov küçəsi 3a ünvanında yeni tikilən yaşayış binasının qarşısında sakinlərin istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün 3 hektardan artıq ərazidə ikinci park salınıb. Yeni salınan parkda sakinlərin mənalı istirahəti üçün hər cür şərait var. Burada görülən işlər ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olmaqla, paytaxtımızın daha da gözəlləşməsinə xidmət edir. Bu bir daha təsdiq edir ki, Bakıda aparılan quruculuq işləri çərçivəsində park və xiyabanların salınması diqqətdən kənarda qalmır.*

Parkda abadlıq-quruculuq işləri yüksək zövqlə həyata keçirilib, geniş yaşıllıq tədbirləri görülüb. Parkın salınması zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb, istirahət məkanı orijinal elementlər və formalarla zənginləşdirilib. Parkın ərazisində müxtəlif fəvvarələr quraşdırılıb. Bu da istirahət məkanına əlavə gözəllik verir.

Dövlətimizin başçısının tapşırığı ilə Bakı şəhərində parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində son illərdə ardıcıl tədbirlər davam etdirilir. Yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Nərimanov rayonu ərazisində yeni salınan bu park da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir.

Parkın altında ikimərtəbəli avtomobil dayanacağı da inşa edilib. Yeraltı dayanacağa enmək üçün 2 lift və müasir eskalatorlar quraşdırılıb.

Dövlətimizin başçısı və xanımı burada yaradılan şəraitlə tanış oldular. 650 avtomobil tutumuna malik yeraltı dayanacaq «Safe Life» şirkəti tərəfindən ən müasir texniki avadanlıqla təchiz olunub. 24 saat açıq olacaq yeraltı avtomobil dayanacağında təhlükəsizlik sistemlərindən olan su ilə avtomatik söndürmə, ünvanlı yanğın siqnalizasiya, havalandırma və tüstüsovurma, yanğın səsləndirmə və təxliyyənin idarə olunması, videonəzarət, park naviqasiya, park ödəmə sistemləri və istiqamət lövhələri qurulub. Bu sistemlərdə dünyanın qabaqcıl şirkətlərinin ən keyfiyyətli avadanlığından istifadə olunub. Yeraltı avtomobil dayanacağına, texniki və xidməti otaqlara vizual nəzarət etmək üçün videonəzarət sistemindən istifadə edilib. Sistem sayəsində dayanacaq ərazisinə və giriş-çıxışa tam nəzarət etmək, insan gözündən yayına biləcək vəziyyətlərə belə, diqqət yetirmək mümkün olacaq. Yeraltı dayanacaqda avtomobillərin təhlükəsizliyi ən yüksək səviyyədə nəzərə alınıb.

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA**

Hörmətli cənab Prezident!

«AirAsia» şirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni sarsıtdı.

Bu ağır anlarda kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İndoneziya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 dekabr 2014-cü il*

# DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

2014-cü il arxada qalır. 2014-cü il ölkəmiz üçün uğurlu il olmuşdur. Ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilmiş, ölkəmizin dinamik inkişafı təmin edilmiş, beynəlxalq mövqelərimiz daha da möhkəmlənmişdir. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır və bizim təsir imkanlarımız da genişlənir.

Bildiyiniz kimi, 2012–2013-cü illərdə Azərbaycan dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasında təmsil olunub.

155 ölkənin dəstəyi ilə biz bu haqqı qazanmışdıq. Bu il isə Azərbaycan Avropa Şurası Nazirlər Komitəsinə sədrlik etmiş, Avropada demokratiyanın inkişafına, insan haqlarının qorunmasına öz dəyərli töhfəsini vermişdir.

Biz bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmuşuq. Qonşu dövlətlərlə və bütün digər dövlətlərlə səmərəli əməkdaşlıq edirik. İkitərəfli əlaqələrimiz inkişaf edir. Eyni zamanda, Azərbaycan çoxtərəfli formatda öz müsbət rolunu oynayır. Xüsusilə regional inkişaf məsələlərində Azərbaycanın rolu danılmazdır. Azərbaycanın iştirakı olmadan regionda heç bir layihə – siyasi, iqtisadi, enerji və digər layihələr icra edilə bilməz.

2014-cü ildə iqtisadi inkişaf təmin edilmişdir. Bu da çox önəmlidir, çünki bildiyiniz kimi, dünyada hələ də iqtisadi, maliyyə böhranı davam edir. Bütün bunlara baxmayaraq, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir və bu inkişafın təməlində islahatlarımız dayanır. Təsadüfi deyil ki, dünyanın ən mötəbər iqtisadi qurumu olan Davos Dünya İqtisadi Forumu rəqabətqabliyyətliliyinə görə Azərbaycanı 38-ci yerə layiq görmüşdür. Bu, böyük və tarixi nailiyyətdir.

Qeyri-neft sektorumuzun inkişafı bizim üçün prioritet olaraq qalır. Şadam ki, bu il qeyri-neft sektorumuz təxminən 7 faiz artmışdır. Ölkə iqtisadiyyatına 27 milyard dollar sərmayə qoyulmuşdur. Bu da çox önəmli hadisədir. Çünki indi dünyada sərmayələrin cəlb edilməsi üçün mübarizə gedir. Azərbaycanda sərmayə qoyuluşu yüksək səviyyədədir. Əminəm ki, gələn il də belə olacaq.

Yoxsulluğun, işsizliyin səviyyəsi 5 faizdir. Bu da dünya miqyasında çox gözəl göstəricidir. Dövlət xarici borcumuz ümumi daxili məhsulumuzun cəmi 8 faizini təşkil edir. Bu da nadir göstəricidir. Makroiqtisadi vəziyyət sabitdir. Valyuta ehtiyatlarımız 50 milyard dollardan çoxdur. Manatın məzənnəsi isə sabit olaraq qalır.

Siz yaxşı bilirsiniz ki, dünyada neftin qiymətinin düşməsi ilə əlaqədar müəyyən gərginliklər yaşanır, o cümlədən bizim bölgəmizdə. Azərbaycan isə sabitlik adasıdır, nümunəvi ölkədir. Ölkəmizdə istər siyasi, istər iqtisadi sabitlik təmin edilir və ediləcək. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşayacaq və ildən-ilə xalqımızın rifah halı yaxşılaşacaqdır.

Sosial siyasətimiz bütün dövrlərdə bizim üçün əsas vəzifə olub. Bu il Azərbaycanda sosial infrastrukturun yaradılmasına böyük vəsait qoyulub, 60-dan çox tibb ocağı, 50-yə yaxın məktəb, uşaq bağçası tikilib, təmir edilib. Əminəm ki, gələn il də bu müsbət proseslər gedəcək.

Azərbaycanda inflyasiya 1,4 faizdir. Əhalinin pul gəlirlərinin artımı isə 5 faizə yaxındır. Maaşların, pensiyaların, sosial müavinətlərin ildən-ilə artırılması, əlbəttə ki, insanların rifah halını yaxşılaşdırır.

Ən ağır vəziyyətdə olan soydaşlarımızın – məcburi köçkünlərin problemləri də uğurla həll edilir. Hər il 20 mindən çox köçkün yeni evlərə köçürülür. Bu il də bu məqsədlər üçün böyük vəsait ayrılmışdır və biz bu məsələni də tədricən həll edirik.

Ancaq əfsuslar olsun ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bu il də öz həllini tapmamışdır. Buna səbəb Ermənistanda kriminal, qanlı diktatura rejiminin mövcudluğudur.

Ermənistan sülh istəmir. Bütün səylərini ona qoyub ki, sülh danışıqları aparılmasın, yaxud da ki, imitasiya naminə aparılsın. Bu il vasitəçilər fəallıq göstərmişdilər, bunu biz qeyd etməliyik. Rusiya, Amerika, Fransa – bu ölkələrin rəhbərləri ardıcıllıqla avqust, sentyabr, oktyabr aylarında üçtərəfli görüşlər keçirmişlər. Mən bunu yüksək qiymətləndirirəm və bu ölkələrə minnətdaram. Ancaq Ermənistan bu görüşlərdə özünü səmimi aparmamışdır. Bundan əlavə, Paris görüşündən 2 həftə keçməmiş işğal edilmiş torpaqlarda genişmiqyaslı hərbi təlimlərə başlamışdır. Bu təlimlərin bir məqsədi var idi – Azərbaycanı provokasiyaya çəkmək, təxribat törətmək və danışıqlar prosesinə zərbə vurmaq. Eyni hadisəni biz yay aylarında görmüşdük. O vaxt da erməni təxribatçı qrupları Azərbaycan mövqelərinə hücum çəkmişdilər. Ancaq Azərbaycan Ordusu onlara layiqli cavab vermişdi, 50-dən çox işğalçı məhv edilmişdi. Bu ilin sonlarında da buna oxşar hadisə baş vermişdi. Yenə də Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək, onu yerinə oturtdu. İşğalçı dövlət bilməlidir ki, qüdrətli Azərbaycan Ordusu istənilən vaxtda öz ərazi bütövlüyünü bərpa edə bilər. Sadəcə olaraq, biz hələ ümid edirik ki, danışıqlar prosesi müsbət nəticə verə bilər və bu ümidi gücləndirən amillər kifayət qədər çoxdur. Bizim siyasi gücümüz, iqtisadi potensialımız, qüdrətli ordumuz var. Gələn il ordu quruculuğuna, ordumuzun inkişafına 5 milyard dollara yaxın vəsait ayrılacaq ki, bu da yoxsul, dilənçi Ermənistanın ümumi büdcəsindən 2 dəfədən çoxdur.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapa bilər. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir. İşğalçı qüvvələr Azərbaycanın işğal edilmiş torpaqlarından çıxarılmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bu, əsas prinsiplərdir. Biz bu prinsiplər əsasında istənilən müqavilənin imzalanmasına hazırıq. Bu il Azərbaycanda «Sənaye ili» elan edilmişdir. Bildiyiniz kimi, sənaye potensialımız gündən-günə güclənir. Azərbaycan bu istiqamətdə çox böyük uğurlara imza atmışdır və bu sahədə görülən işlər bu il də istisna olmamışdır. Beləliklə, bu il 230-dan çox yeni sənaye müəssisəsi açılmışdır və bu da həm işsizliyin aradan

qaldırılmasına, həm də ixrac potensialımızın inkişafına öz müsbət təsirini göstərir. Biz özümüzü əsas ərzaq məhsulları ilə artıq təmin edirik. Eyni mənzərəni tikinti materialları bazarında da görmək istəyirik və biz bu məqsədə çatırıq. Bildiyiniz kimi, icra edilən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının əsas məqsədi də məhz bundan ibarətdir.

Azərbaycan eyni zamanda, yüksək texnologiyalara böyük investisiyalar qoyur və bu il bu sahədə yaddaqalan il olmuşdur. Bu il Azərbaycan ikinci peykinə sahib oldu. Noyabr ayında bu peyk Azərbaycana təhvil verildi və beləliklə, bizim indi 2 peykimiz var: «Azərspace» və «Azərsky». «Azərsky» peykinin xüsusiyyəti ondan ibarətdir ki, – dünyada cəmi 20 ölkə belə peyklərə malikdir – bu peyk yer səthini yüksək dəqiqliklə müşahidə edir. Beləliklə, Azərbaycanın milli maraqları, təhlükəsizliklə bağlı maraqları tam şəkildə təmin olunur, eyni zamanda, kosmik sənayemiz də inkişaf edir. Korrupsiya və rüşvətxorluğa qarşı ciddi mübarizə aparılır. «ASAN xidmət» bu sahədə xüsusi yerə malikdir. Artıq 7 mərkəz yaradılıb, 3 milyon 500 min müraciət edilib. «ASAN xidmət» ictimai xidmətlər sahəsində, korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə xüsusi rol oynayır. Bu xidmətin yaradılmasından cəmi 2 il keçdiyini nəzərə alsaq, görərik ki, biz nə qədər böyük irəliləyişə nail ola bilmişik. Korrupsiya və rüşvətxorluğa qarşı bundan sonra da ciddi mübarizə aparılacaq, cəza tədbirləri, inzibati tədbirlər və sistem xarakterli tədbirlər görüləcəkdir.

Azərbaycan dünyada multikulturalizm mərkəzi kimi tanınır. Bu il mən Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması ilə əlaqədar müvafiq sərəncam imzalamışam. Dünyada Azərbaycanın nadir rolu yüksək qiymətləndirilir. Azərbaycan sivilizasiyalararası bir körpüdür, həm coğrafi, həm siyasi, həm bütün başqa cəhətlərdən nadir bir ölkədir. Bizim təcrübəmiz öyrənilir. Əminəm ki, başqa ölkələrdə Azərbaycan təcrübəsi tətbiq olunduqda, o ölkələrdə də dinlərarası, millətlərarası münasibətlər sağlam zəmində öz həllini tapacaqdır.

Bu il sentyabrın 20-də biz «Əsrin müqaviləsi»nin 20-ci ildönümünü qeyd etmişik. Simvolik haldır ki, məhz 2014-cü il

sentyabrın 20-də «Cənub Qaz Dəhlizi»nin təməli qoyulmuşdur. «Cənub Qaz Dəhlizi» Avropanın ən böyük infrastruktur layihəsidir. Bu nəhəng transmilli layihənin icrasında Azərbaycan öz liderlik keyfiyyətlərini bir daha nümayiş etdirmişdir. Məhz Azərbaycanın uzun illər ərzində apardığı enerji siyasəti nəticəsində, qətiyyətli siyasət nəticəsində bu böyük layihə artıq reallaşır. «Şahdəniz-2», TANAP və TAP Azərbaycan üçün nadir və əvəzolunmaz layihələrdir və uzun illər, onilliklər bundan sonra bizim milli maraqlarımızı, iqtisadi və siyasi maraqlarımızı təmin edəcək. Azərbaycan beynəlxalq əməkdaşlıq məsələlərində olduğu kimi, bu layihədə də liderliyi öz üzərinə götürüb və bu missiyanı şərəflə yerinə yetirəcəkdir.

Əziz dostlar, bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Əminəm, dünyada yaşayan bütün azərbaycanlılar haqlı olaraq fəxr edirlər ki, bu gün qüdrətli, müstəqil Azərbaycan dövləti vardır. Müstəqillik bizim üçün ən böyük xoşbəxtlikdir, ən böyük sərvətdir. Biz 23 ildir ki, müstəqilik və müstəqil siyasət aparırıq. Milli maraqlar, milli dəyərlər üzərində qurulmuş bu müstəqil siyasət bugünkü Azərbaycan reallıqlarını təmin edir. Bu gün Azərbaycan dinamik, sürətlə inkişaf edən ölkədir. Azərbaycan demokratiya, azadlıq, müstəqillik, tərəqqi, inkişaf yolu ilə uğurla gedən ölkədir. Əminəm, dünyada yaşayan bütün azərbaycanlılar fəxr edirlər ki, bu gün dünya xəritəsində Azərbaycan kimi dövlət var, öz sözünü deyir, deyəcək və bizim uğurlu inkişafımız bundan sonra da təmin ediləcəkdir.

Mən bütün azərbaycanlıları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm. Hər bir Azərbaycan ailəsinə səadət, xoşbəxtlik, yeni uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 dekabr 2015-cü il*

## HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTUNDA YENİ GƏTİRİLMİŞ «BOEİNG-787-8» SƏRNİŞİN TƏYYARƏSİNƏ BAXIŞ

*2 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 2-də Heydər Əliyev Beynəlxalq Aeroportunda «Azərbaycan Hava Yolları» (AZAL) Qapalı Səhmdar Cəmiyyətinə məxsus yeni gətirilmiş «Boeing-787-8» Dreamliner sərnişin təyyarəsinə baxmışlar.*

*«AZAL» Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov dövlətimizin başçısına yeni təyyarə barədə məlumat verdi.*

*«Boeing-787-8» Dreamliner ən müasir tipli hava gəmilərindəndir. Son texniki nailiyyətləri özündə birləşdirən layner daha uzaq məsafələrə uçuşlar həyata keçirməyə imkan yaradır. Ən yeni texnologiyaların tətbiq edilməsi nəticəsində isə təyyarədə yüksək mənfəətli istismar, yanacağa qənaət və sərnişinlər üçün rahat şərait var. Bu təyyarə həm texniki, həm də xidməti cəhətdən digər hava gəmilərindən fərqlənir. Onun çəkisi analoji təyyarələrlə müqayisədə daha yüngüldür. Buna baxmayaraq, uçuş məsafəsi və yükqaldırma imkanı digərlərindən çoxdur və 20 faiz az yanacaq sərf edir. Geniş gövdəli bu təyyarə 210 sərnişin tutumuna malikdir. Fasiləsiz 15 saat uçuş yerinə yetirən bu layner birbaşa 15 min 700 kilometr məsafə qət edə bilir. Dreamliner bu göstəricilərə görə hazırkı sərnişin təyyarələri arasında liderdir. Laynerin sərnişin salonunda 3 növ oturacaq və onlara uyğun fərqli xidmət sinifləri mövcuddur. Təyyarənin bütün aeronaviqasiya və sərnişin salonunun audio-video sistemləri ən son texnoloji yeniliklər əsasında tərtib olunub. Bu təyyarə ilə ilk mərhələdə Bakıdan Pekinə, Londona və Avropanın digər şəhərlərinə uçuşlar yerinə*

*yetiriləcək. Bu ilin yay mövsümündən isə hava gəmilərinin Nyu-York və yeni açılacaq hava xətlərində istismarı gözlənilir.*

*Belə hava layneri MDB məkanında və bir sıra Şərq ölkələri arasında ilk dəfə Azərbaycana gətirilib. Son illərdə digər sahələrdə olduğu kimi, mülki aviasiya sahəsində də uğurlu inkişaf mərhələsi yaşanır. Bu inkişaf özünü həm yeni aerovağzal komplekslərinin inşasında, həm də yeni müasir hava gəmilərinin alınmasında daha aydın göstərir. Bu baxımdan «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinin aviaparkının ən müasir «Boeing-787-8» Dreamliner sərnişin təyyarələri ilə gücləndirilməsi də mühüm əhəmiyyət kəsb edir. «Azərbaycan Hava Yolları»nın və ümumilikdə, Azərbaycan mülki aviasiyasının nailiyyətləri prezident İlham Əliyevin bu sahəyə birbaşa göstərdiyi diqqət və qayğının nəticəsidir.*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

İsa peyğəmbərin mübarək mövludu – müqəddəs Milad bayramı münasibətilə sizi və Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Tarixən Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələri qarşılıqlı anlaşma və hörmət şəraitində, əmin-amanlıq, dostluq və qardaşlıq mühitində yaşamışlar. Təsadüfi deyil ki, Azərbaycan dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalar və mədəniyyətlərarası dialoq məkanı, zəngin multikultural ənənələrə malik ölkə kimi tanınır. Bu gün milli tarixi irsin, etnik-mədəni müxtəlifliyin qorunub saxlanılması və inkişaf etdirilməsi Azərbaycanda həyata keçirilən dövlət siyasətinin başlıca istiqamətlərindən biridir.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, ayrı-ayrı xalqların və dinlərin nümayəndələri, o cümlədən pravoslav etiqadlı həmvətənlərimiz azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşərək, ərazi bütövlüyümüzün qorunmasında, vətəndaş cəmiyyəti quruculuğunda, respublikamızın inkişafı və tərəqqisi naminə aparılan böyük quruculuq işlərində yaxından və fəal iştirak edirlər.

Özündə yeniliyi, həmrəyliyi və əmin-amanlığı təcəssüm etdirən Milad bayramı xristian icması tərəfindən hər il ölkəmizdə yüksək əhval-ruhiyyə və təntənə ilə qeyd olunur. Bu əziz gün münasibətilə bir daha hər birinizə bayram təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 yanvar 2015-ci il*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA**

Hörmətli cənab Prezident!

Parisdə törədilmiş amansız terror aktı nəticəsində insanların həlak olması və yaralanması xəbəri bizi sarsıtdı.

Bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərinə qarşı qətiyyətlə mübarizə aparılmasını hər cür dəstəkləyirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Fransa xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 yanvar 2015-ci il*

## NAZİRLƏR KABİNETİNİN 2014-cü İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNAN İCLASINDA İŞTİRAK*

*10 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə yanvarın 10-da Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclasda giriş nitqi söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz 2014-cü ilin yekunlarını müzakirə edəcəyik. Deyə bilərəm ki, keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edilmişdir. 2014-cü il də ölkəmiz üçün uğurlu il kimi tarixdə qalacaqdır.

Düz 1 il əvvəl biz keçən ildə görüləcək işlərlə bağlı geniş fikir mübadiləsi aparmışdıq, qarşıya mühüm vəzifələr qoyulmuşdu və il ərzində çox gərgin iş aparılmışdır. Keçən il dünyada və bölgədə müxtəlif proseslər gedib. Gərginlik, demək olar ki, böyük dərəcədə artmışdır. Ancaq Azərbaycan öz sürətli inkişaf tempini saxlaya bilmişdir. Ölkəmizin təhlükəsizliyi

---

* Назирляр Кабинетинин 2014-ъц илин сосиал-игтисади инкишафынын йекунларына вя гаршыда дуран вязифяляря щяср олунан иъласында İгтисадиййат вя Sянайе назири Шащин Мустафайев, Гачгынларын вя Мяъбури Кючкцнлярин Ишляри цзря Дювлят Комитясинин сядри Яли Щясянов və Мяркязи Банкын сядри Елман Рцстямов çıxış etdilər.

təmin edilmişdir, iqtisadi və sosial proqramlar icra olunmuşdur. Azərbaycan xalqı 2014-cü ildə də təhlükəsizlik şəraitində yaşamışdır. Bu bir daha onu göstərir ki, bizim tutduğumuz yol düzgün yoldur.

Azərbaycan müstəqillik, inkişaf yolu ilə gedir. Bir neçə il bundan əvvəl dünyanı bürümüş iqtisadi və maliyyə böhranı, eyni zamanda, bölgədə baş verən xoşagəlməz hadisələr, toqquşmalar Azərbaycanın uğurlu inkişafına təsir etməmişdir. Bunun başlıca səbəbi Azərbaycanda ictimai-siyasi vəziyyətin sabit olmasıdır, xalqla iqtidar arasındakı birlikdir və bizim bütün proqramlarımızın uğurlu icrasıdır. Azərbaycanın apardığı xarici və daxili siyasət xalq tərəfindən dəstəklənir və əminəm ki, bu il də görüləcək işlər nəticəsində Azərbaycan daha da güclənəcək.

Ölkə iqtisadiyyatı uğurla inkişaf etmişdir. Keçən ilin əvvəlində qarşıya vəzifə qoyulmuşdur ki, həm ümumi daxili məhsul, eyni zamanda, qeyri-neft sektorumuz artsın. Bu 2 əsas vəzifə tam şəkildə təmin edilmişdir. İqtisadiyyatımız təxminən 3 faiz artmışdır. Bu, bugünkü dünyada çox gözəl göstəricidir. Bəzi ölkələrdə artım yoxdur, əksinə, tənəzzül müşahidə edilir. Artım olan ölkələrdə bu, 1 faizə qədərdir.

Baxmayaraq ki, ilin sonunda neftin qiyməti kəskin şəkildə aşağı düşmüşdür, Azərbaycanda iqtisadiyyat 3 faizə yaxın artmışdır. Ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artmışdır. Bu da son illər ərzində görülən işlərin bariz nümunəsidir, aparılan siyasətimizin təzahürüdür. Qeyri-neft sektoru gələcəkdə Azərbaycanın iqtisadi inkişafını daha da böyük həcmdə təmin edəcəkdir. Qeyri-neft sektorunun inkişafı bizə imkan verir ki, ölkə iqtisadiyyatı çoxşaxəli şəkildə inkişaf etsin və iqtisadiyyatımızın dayanıqlı inkişafı təmin edilsin.

İnflyasiya çox aşağı səviyyədə olmuşdur – 1,4 faiz. Bu da çox gözəl göstəricidir. Əhalinin pul gəlirləri isə 4,8 faiz artmışdır. Əhalinin pul gəlirləri inflyasiyanı 3 dəfədən çox üstələmişdir. Deyə bilərəm ki, son illər ərzində bu mənzərə müşahidə olunur – əhalinin pul gəlirləri inflyasiyanı bir neçə dəfə

qabaqlayır. Bu da insanların rifah halının yaxşılaşmasına müsbət təsir göstərir.

Ölkə iqtisadiyyatına 27 milyard dollar investisiya qoyulub. Onlardan 16 milyardı daxili sərmayədir. Bu da çox sevindirici haldır. Son illər ərzində daxili sərmayələr qoyulan investisiyaların həcmində üstünlük təşkil edir. Eyni zamanda, qoyulan 11 milyard dollar xarici sərmayə göstərir ki, Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə kimi qalır. İndiki şəraitdə, dünyada və bölgədə müşahidə olunan çox ağır vəziyyəti nəzərə alaraq 11 milyard dollar xarici investisiyaları cəlb etmək böyük uğurumuzdur.

Əlbəttə ki, bu uğurun təməlində son illərdə aparılan siyasət dayanır. Əgər bu siyasət, investorların Azərbaycanın sabitliyinə, gələcəyinə inamı olmasaydı, heç kim Azərbaycana vəsait qoymazdı. 27 milyard dollar həcmində investisiya qoyuluşu və bunun müqabilində 1,4 faizlik inflyasiya Azərbaycanın uğurlu inkişafının ən gözəl göstəricisidir. Çünki həm pensiyalar, maaşlar, həm də əhalinin pul gəlirləri artıb, böyük həcmdə investisiya qoyulub, inflyasiya isə ən aşağı səviyyədədir.

Manatın məzənnəsi sabitdir. Bir neçə ildir ki, manatın məzənnəsi nəinki sabitdir və eyni zamanda, əsas dünya valyutalarına qarşı daha da böyük dəyər qazanır. Keçən il də biz bunu gördük. Bu da çox müsbət göstəricidir. Çünki manatın sabit olması ilk növbədə, insanların rifah halının yaxşılaşmasına xidmət göstərir, əhalinin alıcılıq qabiliyyəti artır. Azərbaycanda manatın məzənnəsi sabitdir. Bu bir daha bizim uğurlu iqtisadi siyasətimizi göstərir.

Valyuta ehtiyatlarımız artıb. Yadımdadır, 1 il bundan əvvəl göstəriş vermişdim ki, baxmayaraq, 2014-cü ildə bizim böyük xərclərimiz olacaq – infrastruktur layihələrinin, neft strategiyamızın icrası, «Cənub Qaz Dəhlizi»nin inşası ilə bağlı – biz elə etməliyik ki, valyuta ehtiyatlarımız artsın. Biz bunu təmin edə bilmişik. Hazırda bizim 50 milyard dollardan çox valyuta ehtiyatımız vardır. Biz bu imkanlardan səmərəli şəkildə istifadə edirik. Həm valyuta ehtiyatlarımızı ildən-ilə artırırıq, eyni

zamanda, ölkəmizin dayanıqlı tərəqqisi üçün bu imkanlardan istifadə edib iqtisadiyyatın inkişafına, infrastruktur layihələrinin icrasına böyük həcmdə vəsait qoyuruq.

Bir sözlə, 2014-cü ildə əsas iqtisadi göstəricilərimiz çox müsbətdir, deyə bilərəm ki, bəlkə dünya miqyasında ən gözəl göstəricilərdir. Azərbaycan son 11 il ərzində dünyada iqtisadi artım templərinə görə ən sürətlə inkişaf edən ölkədir. Bunu əhali, xalqımız görür, gözəlləşən ölkəmiz bunun bariz sübutudur. Eyni zamanda, bunu mötəbər beynəlxalq iqtisadi qurumlar qeyd edirlər. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, 2014-cü ildə Azərbaycan iqtisadiyyatı dünyada rəqabətqabliyyətliliyinə görə 38-ci yerə layiq görülmüşdür. Yəni dünyanın ən rəqabətli 40 iqtisadiyyatı arasındayıq. Bu, tarixi nailiyyətdir.

Əlbəttə, güclü iqtisadiyyat, düşünülmüş siyasət imkan verir ki, sosial sahəyə də diqqət göstərilsin. Bu sahə daim prioritetdir, bu il də prioritet olaraq qalacaq. Sosial obyektlərin inşası uğurla təmin edilib, 60-dan çox tibb mərkəzi, 50-dən artıq məktəb tikilib istifadəyə verilib. Əməkhaqqı, pensiya artıb. Azərbaycanda orta aylıq əməkhaqqı artıq 600 dollara yaxınlaşır. Biz çalışacağıq ki, bu templər ildən-ilə daha sürətlə təmin edilsin. 400 min insana ünvanlı sosial yardım verilir, 90 mindən çox ailə dövlətdən ünvanlı sosial yardım alır. Dövlət tərəfindən hər ailəyə orta hesabla 155 manat, yəni 200 dollara yaxın vəsait verilir.

Əlbəttə, bu bizim vəzifəmizdir. Biz bunu edəcəyik. Ancaq əminəm ki, insanların rifah halı yaxşılaşdıqca, ünvanlı sosial yardıma ehtiyacı olanların da sayı azalacaq. Çünki hazırda Azərbaycanda yoxsulluq 5 faiz səviyyəsindədir. Keçən il də yoxsulluq aşağı düşübdür, işsizlik 5 faizdən aşağıdır. Bizim gördüyümüz işlərin nəticələri, bax, budur. Bu rəqəmlər özlüyündə bizim uğurlu inkişafımızı təsdiq edir.

Keçən il Azərbaycanda «Sənaye ili» elan edilmişdir və 230-dan çox sənaye müəssisəsi yaradılmışdır. 123 min yeni iş yeri açılmışdır ki, onlardan təxminən 100 mini daimi iş yeridir. Bu proses də sürətlə getməlidir. Çünki Azərbaycanda yeni iş

yerlərinin yaradılmasına hələ də ehtiyac var. İşsizlik hələ var, eyni zamanda, sürətli iqtisadi inkişaf demoqrafik vəziyyətə müsbət təsir etmişdir. Keçən il Azərbaycanda əhalinin sayı 116 min nəfər artmışdır. Odur ki, yeni iş yerlərinin yaradılması daimi proses olmalıdır. Bu belədir və bu il də bu istiqamətdə əlavə tədbirlər görüləcəkdir.

Keçən il bir neçə iri layihə icra edilmişdir. Hər bir layihə özlüyündə nəhəng bir layihədir. Mən onların arasında Heydər Əliyev Beynəlxalq Aeroportunun yenidən qurulmasını xüsusilə qeyd etmək istəyirəm. Bundan başqa, Ələtdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının bərə terminalı istifadəyə verildi. Yəni bu layihənin birinci mərhələsinin birinci hissəsi artıq icra edildi. Şəmkirçay su anbarı istifadəyə verildi. Bu da nəhəng layihədir, ölkəmizin uzunmüddətli və sürətli inkişafına təkan verəcək. Eyni zamanda, böyük sənaye müəssisələri, o cümlədən «Norm» sement zavodu istifadəyə verildi ki, orada sementin istehsalı 2 milyon tona bərabərdir. Bu zavodun istifadəyə verilməsi ilə biz artıq idxaldan asılılığımızı tamamilə aradan götürmüşük və ixrac imkanlarımız da artır.

Əlbəttə, digər layihələr də diqqətəlayiqdir. Bu əsas infrastruktur və sənaye layihələri ancaq güclü dövlətdə icra edilə bilər. Çünki biz dünyada gedən prosesləri izləyirik. Görürük ki, dünyanın müxtəlif yerlərində böhran – iqtisadi böhran, maliyyə böhranı, siyasi böhran yaşanır. Belə olan halda nəinki investisiyalar qoyulmur, hətta maaşlar, pensiyalar kəsilir, iş yerləri ixtisar edilir. Ancaq buna baxmayaraq, biz Azərbaycanda bunun tam əksini görürük. Nəzərə alsaq ki, Azərbaycan dünya iqtisadiyyatına çoxdan inteqrasiya edib, biz dünya iqtisadiyyatının bir parçasıyıq, belə uğurlu mənzərəni təmin etmək üçün, əlbəttə, böyük səylər göstərilməli, uzunmüddətli, düşünülmüş siyasət aparılmalı idi. Biz buna planlı, əsaslı şəkildə nail ola bilmişik. Bu nəticələr deməyə əsas verir ki, Azərbaycan bundan sonrakı illərdə də uğurla inkişaf edəcək.

Dünyada neftin qiyməti kəskin şəkildə, 2 dəfədən çox aşağı düşmüşdür. Əlbəttə ki, bu bizim gəlirlərimizə mənfi təsir edəcək. Ancaq buna baxmayaraq, iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində görülən və bundan sonra görüləcək işlər, institusional islahatlar və daha da səmərəli idarəetmə üsullarının tətbiq edilməsi nəticəsində əminəm ki, Azərbaycan bu vəziyyətdən də şərəflə çıxacaq, manatın məzənnəsi sabit olaraq qalacaq, iqtisadi inkişaf təmin ediləcəkdir.

Keçən il ikinci peykimiz orbitə buraxıldı. Bu çox gözəl hadisədir. Bu da nəhəng layihələr arasında özünəməxsus yer tutan bir layihədir. Artıq bizim 2 peykimiz var. Biri telekommunikasiya peyki, ikincisi Yer səthini müşahidə edən peyk. Bunun çox böyük əhəmiyyəti var və Azərbaycanda kosmik sənayenin inkişafı sürətlə gedir. Biz yeni texnologiyalara, innovasiya layihələrinə sərmayə qoyuruq və bu layihələr həm elmin inkişafına xidmət göstərir, idarəetmə məsələlərini təkmilləşdirir, eyni zamanda, cəmiyyətdə hələ də mövcud olan xoşagəlməz halların qarşısını alır.

«ASAN xidmət» mərkəzlərinin açılmasını xüsusilə qeyd etmək istəyirəm. Artıq 7 mərkəz fəaliyyət göstərir, 2 il ərzində 3 milyon 500 min müraciət olmuşdur və orada göstərilən xidmətlərin sayı artır, keyfiyyəti yüksək səviyyədədir, cəmiyyət tərəfindən çox müsbət qarşılanır. Korrupsiya və rüşvətxorluğa qarşı son illər ərzində aparılan institusional islahatlar içərisində «ASAN xidmət», əlbəttə ki, ön plandadır. İndi bizim təcrübəmiz başqa ölkələrdə də öyrənilir. 17 avtobus alınıb, səyyar xidmət daha da böyük coğrafi məkanda təmin ediləcək. Beləliklə, bu xidmət həm yenilik, həm rahatlıq gətirib, həm də korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə çox ciddi dönüş yaradıbdır. Həm praktiki nöqteyi-nəzərdən, həm də cəmiyyətdə bu bəlanın aradan qaldırılması üçün indi daha da böyük imkanlar var, daha da çox insan bu məsələlərə nikbinliklə yanaşır.

Bizim istəyimiz ondan ibarətdir ki, Azərbaycanda bütün sahələrdə işlər ən yüksək səviyyədə təmin edilsin. Sosial

siyasətdə, iqtisadi inkişafda, idarəetmədə xoşagəlməz halların aradan qaldırılması, əlbəttə ki, bütün bu gözəl mənzərəni tamamlayacaq və bu istiqamətdə işlər məqsədyönlü şəkildə aparılır. Bizim çox güclü siyasi iradəmiz var, təşəbbüslərimiz xalq tərəfindən dəstəklənir və niyyətlərimiz artıq real işlərdə özünü göstərir.

Keçən il beynəlxalq əlaqələrimiz artmışdır. Bizim əməkdaşlıq etdiyimiz ölkələrin, yəni fəal əməkdaşlıq etdiyimiz ölkələrin sayı gündən-günə artmaqdadır. Azərbaycan həm ikitərəfli, həm çoxtərəfli formatda çox uğurlu xarici siyasət aparır. Əlbəttə ki, keçən il ilk növbədə, qonşu ölkələrlə bizim ikitərəfli formatda çox sıx təmaslarımız olmuşdur. Dövlət başçıları səviyyəsində çoxsaylı qarşılıqlı səfərlər təşkil edilmişdir. Avropa və Asiya ölkələri ilə ən yüksək səviyyədə ikitərəfli əlaqələrin inkişafı üçün işlər görülmüşdür. Azərbaycan dünyada çox böyük hörmətə malikdir, etibarlı tərəfdaş kimi tanınır və bizim beynəlxalq nüfuzumuz getdikcə artır. Regional məsələlərin həllində, regional əməkdaşlıq məsələlərində Azərbaycanın rolu əvəzolunmazdır. Biz bir çox təşəbbüslərin müəllifiyik. Bu təşəbbüslər sadəcə olaraq, niyyət deyil. Bu təşəbbüslər real layihələrə çevrilir. Bu layihələrin icrası, əlbəttə ki, bizim imkanlarımızı artırır və ölkəmizə siyasi, iqtisadi dividendlər gətirir.

Biz keçən il beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq etmişik. Üzv olduğumuz bütün beynəlxalq təşkilatlarda Azərbaycan fəal iştirak edir, öz mövqeyini müdafiə edir və bu təşkilatların uğurlu fəaliyyətinə öz dəyərli töhfəsini verir. Keçən il biz Avropa Şurası Nazirlər Komitəsinə sədrlik etmişik. Bu çox uğurlu sədrlik dövrü idi. Bu dövr ərzində Avropada demokratiyanın inkişafına, insan haqlarının qorunmasına, ədalətin bərqərar olmasına Azərbaycan çox böyük və dəyərli töhfələr vermişdir. Xüsusilə ölkəmizin multikulturalizmlə bağlı təcrübəsi nadir xarakter daşıyır. Hesab edirəm ki, əgər bizim təcrübəmiz dünyada daha da geniş şəkildə təhlil edilsəydi, bir çox xoşagəlməz halların qarşısı alına bilərdi.

Azərbaycan öz işi ilə, görülən işlərlə, aparılan siyasətlə və keçirilən tədbirlərlə ümumbəşəri dəyərlərə öz töhfələrini verir. Biz beynəlxalq təşkilatlarla bundan sonra da fəal əməkdaşlıq edəcəyik. Biz üzv olduğumuz təşkilatlar qarşısında götürdüyümüz öhdəlikləri vaxtında və artıqlaması ilə yerinə yetiririk. Üzv olmadığımız təşkilatlar qarşısında, əlbəttə ki, bizim heç bir öhdəliyimiz ola bilməz. Təbii ki, ikitərəfli formatda heç bir ölkə qarşısında bizim heç bir öhdəliyimiz yoxdur və ola da bilməz. Bu, beynəlxalq münasibətlərin qanunlarıdır. Əgər kimsə hesab edir ki, Azərbaycana ultimatum dili ilə, yaxud da diktat dili ilə nə isə deyə bilər, səhv edir. Bizim tariximiz, son illər ərzində apardığımız müstəqil, cəsarətli siyasət bunu bir daha göstərir və bütün ölkələr ancaq ikitərəfli formatda bərabərhüquqlu münasibətlər qurmalıdır. Bu, beynəlxalq davranışın qaydalarıdır. Heç bir ölkənin istisna ixtiyarları, haqları yoxdur, ola bilməz. Bütün ölkələr bərabərdir və bütün ölkələri birləşdirən təşkilat BMT-dir. O təşkilat ki, 2011-ci ildə Azərbaycanı bu təşkilatın ən üst qurumuna seçmişdir. Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv olmuşdur. Bu fakt Azərbaycanın beynəlxalq nüfuzunu əks etdirən ən gözəl göstəricidir. Bu gün beynəlxalq aləmdə böyük nüfuza sahib olan Azərbaycanı ləkələmək, qaralamaq, şər-böhtan atmaq cəhdləri əbəsdir. Bunların heç bir təsiri yoxdur, bu bizim siyasətimizə heç vaxt təsir etməyəcək. Heç bir kənar qüvvə bizimlə ultimatum dili ilə danışa bilməz. Bunu hamı bilməlidir. Biz həm rəsmi bəyanatlarda, eyni zamanda, bağlı qapılar arxasında aparılan müzakirələrdə öz mövqemizi müdafiə edirik. Biz ikili standartlardan uzağıq və hesab edirik ki, beynəlxalq münasibətlərdə ikili standartlara yol verilməməlidir. İkili standartlar o standartları tətbiq etmək istəyənlərin əleyhinə də işləyir. Biz bunu indi tarixdən və dünyada gedən proseslərdən görürük. Daxili işlərə müdaxilə etmək, kimisə hansısa işlərə təhrik etmək – bu heç kimə xeyir gətirmir. Bu, ölkələri qarışdırır, sabitliyi pozur, ölkələrdə qanlı toqquşmalara gətirib çıxarır və bu qanlı toqquşmaların arxasında dayanan qüvvələrə də nəticə etibarilə mənfi təsir göstərir. Çünki bu gün

dünyada bütün ölkələr, demək olar ki, bir-biri ilə bağlıdır və istənilən yerdə baş verən hadisə nə vaxtsa başqa yerdə də öz əks-sədasını verə bilər. Bir daha demək istəyirəm ki, bizim mövqemiz ədalətli mövqedir, beynəlxalq hüquqa əsaslanır. Biz bu mövqeni uğurla müdafiə edirik və edəcəyik.

O ki qaldı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə, əfsuslar olsun ki, keçən il də bu istiqamətdə heç bir irəliləyiş olmayıb. Keçən il də Ermənistan sadəcə olaraq, danışıqlar prosesində imitasiya taktikasını seçmişdir. Hesab edirəm, bu, artıq nə bizim üçün, nə də vasitəçilər üçün sirr deyil ki, Ermənistan sülh istəmir və işğal edilmiş torpaqlardan çıxmaq istəmir. Ermənistan istəyir ki, bu münaqişə öz həllini tapmasın. Baxmayaraq ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçıları dəfələrlə demişlər ki, status-kvo qəbuledilməzdir. Ancaq bu, sözdən başqa bir şey deyil. Sadəcə olaraq, sözlərdir və bu sözlərin arxasında heç bir ciddi siyasət dayanmır. Əgər status-kvo qəbuledilməzdirsə – bu, əlbəttə ki, qəbuledilməzdir – onda bir tədbir görülməlidir. İşğalçı dövlətə təzyiq göstərilməlidir. O məcbur edilməlidir ki, işğal olunmuş torpaqlardan çıxsın. Yoxsa bu da riyakarlığın bir növüdür. Bir bəyanat verilir, onun arxasında iş görülmür. Necə ki, BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Heç biri 20 ildən çoxdur ki, icra edilmir. Nə üçün başqa yerlərdə qəbul edilmiş qətnamələr dərhal icra edilir, bizə gəldikdə isə icra edilmir?! Bu ədalətsizlikdir, bu, ikili standartlardır. Artıq Azərbaycan xalqı bunu yaxşı bilir, dərk edir ki, bu problemin həll olunmaması təkcə Ermənistanın qeyri-konstruktiv mövqeyi ilə izah edilə bilməz. Görünür, dünyada elə qüvvələr var ki, bu münaqişənin həll olunmasında maraqlı deyillər. Görünür, elə qüvvələr var ki, bu münaqişənin dondurulmuş, yarıdondurulmuş vəziyyətdə qalmasında və bundan Azərbaycana bir təzyiq vasitəsi kimi istifadə etməkdə maraqlıdırlar. Son illərdə müxtəlif bölgələrdə – Avropada, Yaxın Şərqdə gördüyümüz mənzərə, bax, bu mövqeni, bu yanaşmanı daha da gücləndirir. Proseslərdən belə nəticə çıxır.

Ona görə buna da aydınlıq gətirilməlidir ki, biz nə vaxta qədər bu ikili standartlarla üzləşəcəyik?!

Bununla bərabər, Ermənistan keçən il yay aylarında və ilin sonunda bir neçə dəfə açıq təxribatlara əl atdı. Hər 2 dəfə Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək, onu yerinə oturtdu. Yay aylarında 50-dən çox işğalçı məhv edildi. Noyabr ayında da ermənilərin təxribatı cavabsız qalmadı. Bütün bu təxribatların nəticəsində baş verən hadisələrə görə Ermənistan rəhbərliyi – kriminal, diktatura rejimi məsuliyyət daşıyır. Ermənistanın bugünkü acınacaqlı vəziyyətinə görə də bu ölkənin indiki və əvvəlki rəhbərliyi bilavasitə cavabdehlik daşıyır. Çünki məhz onların işğalçı siyasətinə görə Ermənistan müstəqil ölkə kimi özünü göstərə bilməmişdir. Faktiki olaraq heç müstəqilliyi əldə etməmişdir. Sadəcə olaraq, bu, formal bir məna daşıyır.

Azərbaycan isə bu məsələdə də prinsipial mövqedədir. Bizim mövqemiz beynəlxalq hüquq normalarına əsaslanır. Bizim mövqemizi gücləndirən ordumuzdur. Bizim ordumuz keçən il öz qüdrətini, nəyə qadir olduğunu göstərdi. Düşmənə də, düşmənin havadarlarına da göstərdi ki, istənilən vaxtda Azərbaycan Ordusu öz ərazi bütövlüyünü bərpa edə bilər. Sadəcə, bu məsələ öz həllini danışıqlar yolu ilə tapsa, əlbəttə ki, daha yaxşı olar. Hesab edirəm ki, bu bir neçə amilin mövcudluğu bizim mövqemizi daha da möhkəmləndirir.

Danışıqlar prosesində heç bir irəliləyişin olmamasına baxmayaraq, mən hesab edirəm ki, keçən il Azərbaycan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün çox böyük işlər görmüşdür – həm siyasi sahədə, həm regional çərçivədə, həm də hərbi sahədə – döyüş meydanında. Biz ermənilərə elə dərs verdik ki, indiyə qədər özlərinə gələ bilmirlər, təşvişdədirlər. İndi bizi müxtəlif beynəlxalq tədbirlərdə ittiham etməyə çalışırlar. Amma sual olunur: erməni əsgərinin Ağdamda, Füzulidə nə işi var?! Erməni ordusunun orada nə işi var?! Nə üçün onlara bunu bizdən başqa heç kim açıq-aydın şəkildə demir?! Bu məsələ ilə məşğul olan vasitəçilər buna nə üçün biganə yanaşırlar?! Bax, bu suallar ritorik suallardır. Biz bilirik nə üçün. Amma yenə də biz bu

sualları hər bir tədbirdə, hər bir forumda verməliyik. Dövlət məmurları, ictimai xadimlər, deputatlar, adi vətəndaşlar, vətəndaş cəmiyyətinin üzvləri bu sualları verməlidir. Qoy bu suallara ikili standartlar siyasətinə, ermənipərəst siyasətinə görə cavab versinlər. Yoxsa bu qədər riyakarlığa artıq dözmək çətindir. Hesab edirəm ki, artıq burada diplomatik dillə danışmağa da heç ehtiyac yoxdur. Bir daha demək istəyirəm, həqiqət bundan ibarətdir ki, bizim torpaqlarımızın işğal altında qalması sadəcə olaraq, Ermənistanın işi deyil. Ermənistan aciz durumda olan, gücsüz, dilənçi bir ölkədir. Əlbəttə, əgər onun müxtəlif paytaxtlarda böyük havadarları olmasaydı, Dağlıq Qarabağ münaqişəsi çoxdan ədalətli şəkildə öz həllini tapa bilərdi. Hətta hazırda Ermənistan rəhbərliyi də bunu etiraf edir. Xarici dəstək olmadan onlar işğal edilmiş torpaqları bir gün də işğal altında saxlaya bilməzlər. Ancaq biz təkbaşına mübarizə aparırıq. Yaxın tariximiz göstərib ki, biz hətta təkbaşına mübarizədə, siyasi mübarizədə uğur qazana və öz milli maraqlarımızı müdafiə edə bilərik.

2015-ci ildə biz ordu potensialımızı daha da gücləndirəcəyik. Bu məqsədlər üçün kifayət qədər böyük vəsait ayrılıbdır. Təkcə onu demək kifayətdir ki, hərbi xərclərə ayrılan vəsait Ermənistanın ümumi büdcəsindən 2 dəfə çoxdur. Ordumuzda nizam-intizam, döyüş qabiliyyəti artır, vətənpərvərlik ruhu yüksək səviyyədədir. Biz daha da güclü oluruq, Ermənistan daha da zəifləyir. Bu, qaçılmaz bir prosesdir. Yəni növbəti illərdə bu proses daha da sürətlə gedəcək.

Yenə də demək istəyirəm ki, 2014-cü ilin yekunları və 2015-ci il bir daha bizim gücümüzü göstərəcək. Nə neftin qiymətinin düşməsi, nə böhranlar, nə yaxınlıqda baş verən qanlı toqquşmalar bizim sürətli inkişafımıza təsir edə bilməz. Mən tam əminəm ki, biz 2015-ci ili də uğurla başa vuracağıq və ölkəmizin inkişafını təmin edəcəyik.

# YEKUN NİTQİ

2015-ci ildə ölkə qarşısında duran vəzifələr bəllidir. Biz çalışmalıyıq ki, iqtisadi inkişafımızı təmin edək. Əminəm ki, belə də olacaq. Ancaq heç kəsə sirr deyil ki, 2015-ci il dünya iqtisadiyyatı üçün çox ağır il olacaqdır. 2014-cü ilin sonlarında müşahidə olunan proseslər təbii ki, 2015-ci ildə də davam edəcək. Dünyada mövcud olan qeyri-sabit iqtisadi vəziyyət hələ bir müddət davam edəcəkdir. Neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi, əlbəttə ki, təbii resurslarla zəngin ölkələr üçün bir sınaq olacaqdır.

Ancaq əvvəlki illərdə apardığımız siyasət, şaxələndirmə, düşünülmüş iqtisadi islahatlar, ictimai-siyasi sabitlik, xalqla iqtidar arasındakı birlik və eyni zamanda, böhranlı vəziyyətlərə hazır olmağımız əminəm ki, 2015-ci ili də uğurla başa vurmaq üçün bizə imkan yaradacaqdır.

Azərbaycanda makroiqtisadi vəziyyət sabitdir. Son illər ərzində əsas prioritetlər arasında biz həmişə makroiqtisadi sabitliyi qeyd edirdik. Bu, ölkə iqtisadiyyatı üçün önəmlidir, xarici investisiyaların cəlb edilməsi üçün çox önəmli amildir. İnsanların rifah halının yaxşılaşması üçün makroiqtisadi sabitlik ən önəmli məsələdir və biz bu sabitliyi uzun illərdir ki, təmin edirik. Böhranlı illərdə – 2008–2009-cu illərdə də təmin etmişik. Keçən il də təmin etmişik və bu il də təmin edəcəyik.

Manatın məzənnəsi – artıq burada deyildi – bir çox məsələlərin həlli üçün bizə imkanlar yaradır, ilk növbədə, ölkəmizin dinamik və uğurlu inkişafına xarici investorlarda inamı artırır, Azərbaycan əhalisinin rahat yaşamasını təmin edir. Manatın sabit qalması insanların birbaşa yaşayış səviyyəsinin yaxşılaşmasına xidmət edir və əlbəttə, bu amillər hər bir ölkə üçün önəmlidir. Hər bir ölkə üçün onun milli valyutası müstəqilliyin atributlarından biridir. Bu gün manat dünya miqyasında ən sabit valyutalardan biridir. Hesab edirəm ki, xarici vətəndaşlar və xarici şirkətlər öz vəsaitini manat hesablarında saxlasalar uduzmazlar. Həm pullar yerində

qalacaq, eyni zamanda, o pullar onlara əlavə gəlirlər gətirəcəkdir. Çünki indi dünyada bir çox maliyyə institutlarında depozitlərə artıq faiz vermirlər. Sadəcə olaraq, depozitləri bir əmanət kimi saxlayırlar.

Bir daha demək istəyirəm ki, Azərbaycan özünü dünyanın bir parçası kimi çoxdan təsdiq edib və indi biz dünyaya açığıq – açıq iqtisadiyyat, açıq siyasət, açıq qapılar siyasəti aparırıq. Birbaşa qoyulan xarici sərmayələrin həcminə görə Azərbaycan bu bölgədə uzun illərdir ki, liderlik mövqelərini saxlayır. Biz dünya iqtisadiyyatının bir parçasıyıq. Buna baxmayaraq, düşünülmüş siyasət nəticəsində və iqtisadiyyatımızı qorumaq əzmində olmağımız, əlbəttə ki, bu nadir vəziyyətin yaranmasına gətirib çıxarmışdır. Biz bunu qorumalıyıq. 2015-ci il də bu istiqamətdə önəmli il olacaqdır.

İkinci önəmli vəzifə – bu da artıq bir neçə ildir ki, daim vurğulanır – qeyri-neft sektorumuzun inkişafıdır. Əgər biz vaxtilə bu istiqamətdə önəmli addımlar atmasaydıq, neftin qiymətinin bugünkü konyunkturası bizə çox mənfi təsir göstərə bilərdi. Ancaq bu gün qeyri-neft sektorumuz iqtisadiyyatda hərəkətverici amildir və 7 faiz səviyyəsində artan qeyri-neft sektorumuz görülən işlərin nəticəsidir. Bu eyni zamanda, həm investorlara, həm də yerli şirkətlərə əlavə nikbinlik verir.

Əhali də bunu görür və yüksək qiymətləndirir. Nəyin hesabına buna nail ola bilmişik? İlk növbədə, regional inkişaf proqramının icrası, sahibkarlığın inkişafı, sahibkarlığa dövlət tərəfindən güzəştli şərtlərlə kreditlərin verilməsi, düşünülmüş siyasət, sənayeləşmə siyasəti, xarici investisiyaların cəlb edilməsi, neftdən əldə olunan gəlirlərin düzgün istiqamətə yönəldilməsi sayəsində. Bütün bu amillər qeyri-neft sektorumuzun inkişafını təmin edir.

Biz qeyri-neft sektorunun inkişafı üçün infrastruktur layihələrini icra edirik. Əgər bu layihələr icra edilməsəydi, regionlarda biznes imkanlarından söhbət gedə bilməzdi. Eyni zamanda, düşünülmüş iqtisadi siyasətlə düzgün prioritetlər seçmişik və ildən-ilə bu prioritetlərin növbəliliyi dəyişir. Bu da təbiidir,

çünki biz doqmatik yanaşmadan çox uzağıq, çevik iqtisadi siyasət aparırıq. Daxili bazarı təmin etmək üçün yerli istehsalın artırılması da qeyri-neft sektorunun inkişafına birbaşa təsir edən amildir və bütün bu görülən işlər və digər tədbirlər nəticəsində dayanıqlı inkişaf artıq təmin edilib. Ümumi daxili məhsulumuzda qeyri-neft sektoru üstünlük təşkil edir. Gələcəkdə neft amilinin ümumi daxili məhsulumuzda aşağı düşməsi nəticəsində ölkə iqtisadiyyatının neft amilindən asılılığı daha da azalacaqdır. Bu bizim vəzifəmizdir. Mən həmişə demişəm, bu gün də demək istəyirəm ki, neft-qaz amili bizim üçün bir vasitədir. Bu, inkişaf etmək, dayanıqlı və çoxşaxəli iqtisadiyyat qurmaq üçün bir vasitədir. Biz bu vasitədən səmərəli şəkildə istifadə edirik.

Bu il də sahibkarlara güzəştli şərtlərlə kreditlərin verilməsi təmin ediləcəkdir. Bu təşəbbüsün çox gözəl nəticələri vardır. Biz bunu əyani şəkildə görürük. Bölgələrdə açılan yeni müəssisələr və iş yerləri bunu göstərir. Eyni zamanda, dövlət tərəfindən sahibkarlara böyük mənəvi dəstək göstərilir. Yerlərdə də bu işlər düzgün təşkil edilməlidir və sahibkarlara bu il o cümlədən öz vəsaitlərindən istifadə etməklə, ölkəmizin real sektoruna vəsait qoymağı tövsiyə edirəm. Çünki dövlət sahibkarlara uzun illərdir ki, böyük dəstək verir. Güzəştli şərtlərlə verilən bu kreditlərin həcmi yüz milyonlarla ölçülür, bəlkə də milyardı ötüb. Sahibkarlar da həm o imkanlardan istifadə etməlidirlər, həm də – artıq uzun illərdir ki, onlar da öz kapitallarını əldə ediblər – ölkənin inkişafına, real sektorun inkişafına daha da çox sərmayə qoymalıdırlar. Biz xarici investorları da qeyri-neft sektoruna cəlb etməliyik. Əlbəttə ki, xarici investorlar daha çox neft-qaz sektoruna investisiya qoymağa maraqlıdırlar. Ancaq biz onları indi digər sektorlara da cəlb edirik və edəcəyik. Yaradılan xüsusi proqramlar çərçivəsində texnoparklar, aqroparklar salınacaq və bütün bunlar xarici investorları da cəlb edəcək.

Çünki dünyada indi bir tərəfdən, iqtisadi böhran davam edir, vəsait qıtlığı müşahidə olunur, digər tərəfdən də investisiya qoymaq üçün o qədər böyük seçim də yoxdur. Çünki böhran içində çabalayan ölkələrə kim investisiya qoyacaq? Ona görə sabit

ölkələrə, ictimai-siyasi sabitliyi, iqtisadi inkişafı olan ölkələrə xarici investisiyalar cəlb etmək daha asandır. Burada, əlbəttə ki, informasiya qıtlığı öz rolunu oynayır. Amma son illər ərzində keçirilən təqdimatlar, biznes-forumlar, Azərbaycan ilə bağlı dünya ictimaiyyətinə, o cümlədən biznes strukturlarına dolğun informasiyaların ötürülməsi artıq xarici investorlar üçün Azərbaycanı çox cəlbedici ölkəyə çevirib.

Bu il qeyri-neft sektorunun inkişafı ilə bağlı bank sektorunun rolu xüsusi əhəmiyyətə malikdir. Son vaxtlar bizim banklarımız real iqtisadiyyata daha da böyük həcmdə kreditlər ayırır. Mən bunu dəstəkləyirəm və keçən müşavirələrin birində qeyd etmişdim ki, daha çox bu sahəyə kreditlər verilməlidir. Biz artıq bunu görürük. Bu çox müsbət yanaşmadır, bank sektorunun məsuliyyətini göstərir.

Xüsusilə bir daha demək istəyirəm ki, 2015-ci il dünya üçün asan il olmayacaq. 2015-ci ildə bank resurslarının iqtisadiyyatın real sektoruna yönəldilməsi, əlbəttə ki, bizim üçün prioritet olacaq. Əminəm ki, banklar da bu istiqamətdə öz sözünü bundan sonra da deyəcək.

Əlbəttə, indi müxtəlif istehlak kreditlərinə də, digər layihələrə də vəsait ayrılmalıdır. İndi Azərbaycanda ticarət mərkəzləri, ofis və yaşayış binaları tikilir. Bu da təbiidir, çünki ölkə, iqtisadiyyat inkişaf edir, insanların bu layihələrə ehtiyacı var. Bu da lazımdır. Ancaq ölkə iqtisadiyyatı üçün hazırda real sektora qoyulan vəsait prioritet təşkil edir.

Bununla bərabər, təbii ki, bu il bizim gəlirlərimiz azalacaq. Ona görə dövlət strukturları da özlərini məsuliyyətli aparmalıdırlar. İsrafçılığa yol verilməməlidir. Əlbəttə ki, biz prioritet olmayan layihələrə razılığımızı verməyəcəyik. Eyni zamanda, hər bir dövlət strukturunda, qurumlarda, dövlət şirkətlərində idarəetmə prinsipləri təkmilləşdirilməlidir. Bizim dövlət nümayəndələrimiz vəsaitin qədrini bilməlidirlər. Əminəm ki, onlar da bu vəziyyəti düzgün dərk edirlər və nəticə çıxaracaqlar.

Son illərdə biz ölkəmizin sürətli inkişafını təmin etmək üçün iqtisadiyyata böyük vəsait yönəltmişik. Hesab edirəm ki, bu,

düzgün siyasət idi. Bu siyasət bugünkü reallıqları təmin edir. İnfrastruktur layihələrinə, real sektora qoyulan vəsait bu gün işləyir və biz bu vəsait hesabına ümumi iqtisadi inkişafımızı təmin edirik. 2015-ci ildə ölkə iqtisadiyyatı, sosial sahə üçün lazım olan bütün digər layihələr, təbii ki, tam şəkildə icra ediləcək. Demək istəyirəm ki, bütün sosial proqramlar 2015-ci ildə də tam həcmdə təmin ediləcəkdir.

Ünvanlı sosial yardım, əhalinin pul gəlirlərinin artırılması, məcburi köçkünlər üçün yeni qəsəbələrin salınması, evlərin tikilməsi – bütün bu proqramlar təmin ediləcək. Məktəb, xəstəxana tikintisi davam etdiriləcək. İnfrastruktur layihələri, ilk növbədə, içməli su ilə bağlı olan layihələr icra ediləcək. Bu ilin əvvəlində və keçən ilin sonunda bu istiqamətə Prezidentin ehtiyat fondundan böyük vəsait ayrılıb. Bu il ən azı 300 artezian quyusu qazılacaq və ən azı 50 kənddə modul tipli təmizləyici qurğular quraşdırılacaq. Bu məqsədlərə həm dövlət büdcəsindən, həm də Prezidentin ehtiyat fondundan vəsait ayrılacaq. İçməli su layihələri bizim üçün hazırda infrastruktur layihələri arasında prioritetdir, kənd yolları da həmçinin. Keçən il kənd yollarının tikintisinə böyük vəsait ayrılmışdır. Bu gün bu rəqəmlər səsləndi və bu il də bu proses davam etdiriləcək. Bu yaxınlarda imzaladığım sərəncamlar əsasında artıq hər kəs görür ki, biz burada da öz siyasətimizi davam etdirəcəyik.

Qazlaşdırma, elektrik xətlərinin təmiri, çəkilişi prosesi gedir. Bu infrastruktur layihələri və meliorasiya ilə bağlı olan tədbirlər ölkəmiz üçün çox önəmlidir. Çünki biz keçən il və 2013-cü ildə 2 nəhəng layihəni istismara vermişik – Şəmkirçay və Taxtakörpü su anbarlarının tikintisi başa çatıbdır. Azərbaycan tarixində bu layihələrin çox böyük yeri var. Biz bu layihələri ancaq müstəqillik dövründə icra edə bilmişik və bu layihələr Azərbaycanın nə qədər güclü ölkə olduğunu bir daha göstərir.

Bu layihələrin davamı olaraq kanallar çəkilməli, yeni əkin sahələri dövriyyəyə buraxılmalıdır. Ona görə meliorativ tədbirlər də prioritet olaraq qalacaqdır. Bunlar bilavasitə ərzaq təhlükəsizliyi ilə bağlı olan layihələrdir. Biz keçən il də gördük ki, ərzaq təhlükəsizliyi ilə bağlı

olan planlarımız vaxtında müəyyən olunmuş və icra edilməyə başlanmışdır. Çünki ərzaq təhlükəsizliyi hər bir ölkə üçün enerji təhlükəsizliyi qədər önəmlidir. Əlbəttə, Azərbaycanın bəzi ərzaq məhsullarını xarici bazarlardan idxal etməsinə baxmayaraq, biz çalışmalıyıq ki, öz daxili istehsalımızı maksimum artıraq, fövqəladə hallardan özümüzü qoruyaq. Çünki keçən il də biz gördük ki, bir sıra ərzaq məhsullarının ixracı ilə bağlı bəzi ölkələrdə qadağalar qoyulmuşdu. Yəni özümüzü təmin etmək üçün daxili bazarların daxili resurslar hesabına təmin edilməsi prosesi davam etdiriləcəkdir.

Dövlət burada da fermerlərə öz dəstəyini göstərir. Bildiyiniz kimi, burada uzun illərdir ki, vergi güzəştləri həyata keçirilir. Dövlət tərəfindən texnika, cins mal-qara alınır. Ərzaq təhlükəsizliyi ilə bağlı institusional islahatlar aparılır, aqroparklar salınır, subsidiyaların verilməsi prosesi təkmilləşdirilir. Məhsuldarlığın artırılması prosesi də çox önəmlidir. Bizim ixrac potensialımızın artırılması da gündəlikdə duran məsələlərdən biridir. Əminəm ki, biz yaxın gələcəkdə özümüzü bütün əsas ərzaq məhsullarımızla təmin edəcəyik. Beləliklə, ixrac üçün bizim yeni məhsullarımız olacaq. Nəzərə alsaq ki, artıq 20-yə yaxın iri fermer təsərrüfatının yaradılması prosesi gedir, əminəm, biz özümüzü yaxın gələcəkdə buğda ilə tam şəkildə təmin edə biləcəyik. Yeni iri fermer təsərrüfatlarında məhsuldarlıq orta məhsuldarlıqdan 2 dəfə çoxdur – 1 hektardan 55 sentner. Halbuki, ölkə üzrə bu göstərici 23 sentnerdir. Bu yeni, müasir yanaşma, əlbəttə ki, dövlət vəsaiti hesabına yaradılan yeni imkanlar gələcəkdə bizim ixrac imkanlarımızı da artıracaq. Çünki burada yenə də dövlət əsas funksiyanı öz üzərinə götürüb. Yerlər müəyyənləşdirilib. Fermerlərə güzəştli şərtlərlə kreditlər verilib. Texnika, suvarma, bütün infrastruktur layihələri dövlət tərəfindən icra olunubdur ki, məhsuldarlıq artsın və biz özümüzü ərzaq məhsulları ilə maksimum dərəcədə təmin edək.

Əlbəttə ki, bizim Şəmkirçay və Taxtakörpü su anbarlarının fəaliyyəti nəticəsində on minlərlə hektar torpaqda yeni məhsulların yetişdirilməsi gözlənilir. İndi artıq bu yerlər

müəyyən edilibdir və bu yeni sahələrdə məhsulların yetişdirilməsi prosesi başlayır.

Keçən il «Sənaye ili» elan edilmişdi. Sənayenin inkişafı ilə bağlı bir çox tədbirlər görüldü. Mən keçən müşavirələrdə də demişəm ki, hər bir rayonda sənaye zonası yaradılmalıdır. Artıq pilot layihəsi icra edilir. Yəqin ki, biz bu il layihənin başlanmasını görəcəyik. Ənənəvi sənaye mərkəzlərimiz də öz imkanlarını genişləndirir. Sumqayıt, Gəncə, Mingəçevir və Bakı, xüsusilə Qaradağ rayonu bizim əsas sənaye mərkəzlərimizdir.

Biz bu il böyük metallurgiya kompleksinin tikintisini gözləyirik. Artıq bir müddətdir ki, bu kompleksin yaradılması ilə bağlı işlər aparılır. Xarici məsləhətçilər cəlb ediliblər. Demək olar ki, texniki-iqtisadi əsaslandırma artıq hazırdır. Bizim təbii resurslarımız, filiz yataqlarımız var. Əlbəttə, biz çalışmalıyıq ki, öz təbii imkanlarımızdan, resurslarımızdan maksimum dərəcədə istifadə edək və özümüz hazır məhsul istehsal edək. Budur bizim əsas məqsədimiz. Biz hər bir sahədə hazır məhsul istehsal etməliyik. Bu, böyük dövlət vəsaiti tələb edən layihədir. Baxmayaraq ki, indi bizim gəlirlərimiz azalacaq, hesab edirəm, bu layihə sənayemizin inkişafı üçün prioritetdir, minlərlə yeni iş yerinin yaradılmasına gətirib çıxaracaq. Beləliklə, Azərbaycanda yeni ixrac məhsulu yaranacaq və bu, ölkə iqtisadiyyatının şaxələndirilməsinə, qeyri-neft sektorunun inkişafına əlavə təkan verəcəkdir. Ona görə bu layihənin icrası ilə bağlı heç bir yubanma ola bilməz. Bu məsələ Dövlət İnvestisiya Proqramında öz əksini tapıbdır.

Builki Dövlət İnvestisiya Proqramı, təbii ki, əvvəlki illərdən fərqlənir. Çünki dövlət tərəfindən qoyulacaq vəsait daha da azalacaq. Bu da təbiidir. Ancaq prioritetlər düzgün seçilibdir və əvvəlki illərdə bir çox işlərin görülməsi imkan verir ki, biz artıq bu investisiya proqramımızı ixtisar edək. Çünki Taxtakörpü, Şəmkirçay böyük dövlət vəsaiti tələb edən nəhəng layihələrdir. Kənd yollarının, içməli su layihələrinin bir çoxu artıq icra edilib. Ancaq prioritetlər var və biz dövlət investisiyalarını

dayanıqlı inkişafa yönəltməliyik. Çünki əgər biz bunu etməsək, bir neçə ildən sonra artıq boşluq yaranacaq. Biz isə buna imkan verə bilmərik. Çünki ilk növbədə, ölkənin dayanıqlı inkişafı təmin edilməlidir və eyni zamanda, iş yerlərinin yaradılması daimi prosesdir.

Mən giriş sözümdə bunu demişəm və bir daha demək istəyirəm. Bəzi ölkələr demoqrafik böhrandan əziyyət çəkir. Əlbəttə ki, ən ağır böhran demoqrafik böhrandır. Çünki bəzi ölkələrdə əhali həm təbii səbəblər üzündən kəskin şəkildə azalır, eyni zamanda, o ölkələrdə miqrasiya çox sürətlə gedir. Azərbaycan əhalisi artır. Bu, böyük üstünlüyümüzdür. Azərbaycan əhalisi nə qədər artsa, biz o qədər də güclənəcəyik. Ancaq demoqrafik artım özü ilə bəzi problemlər də gətirir, o cümlədən işsizlik. Ona görə biz nə qədər yeni iş yerləri yaratsaq da, yenə də iş yerlərinin yaradılmasına ehtiyac var.

Dövlət Proqramının əvvəlindən – 2004-cü ildən bu günə qədər 1 milyon 300 min iş yeri yaradılıb. İşsizliyin azaldılması bunun hesabına mümkün olub. Ancaq bu, daimi proses olmalıdır. Bu prosesi təmin etmək üçün biz yeni sənaye istehsalları yaratmalıyıq. Nəzərə alsaq ki, indi elmi-texniki tərəqqi sürətlə gedir, texnoloji proseslər daha da təkmilləşir, avtomatlaşma prosesi gedir, yəni işçi qüvvəsinə gələcəkdə o qədər də böyük ehtiyac olmayacaq. Ona görə innovasiyalara üstünlük verilməlidir. Texnoparkların yaradılması xarici texnologiyaların və xarici investisiyaların gətirilməsini də təmin etməlidir. Biz onsuz da dövlət tərəfindən investisiyaları qoyuruq. Ancaq real sektora dövlət o qədər də böyük investisiya qoya bilməz. Bu, düzgün deyil, biz ancaq strateji istehsal sahələrinin yaradılmasına dövlət tərəfindən investisiya qoya bilərik. Ona görə bu istiqamətdə, sənayeləşmə prosesinin düzgün şəkildə təmin edilməsində biz bundan sonra da çox ciddi siyasət aparacağıq.

Ekologiya ilə bağlı məsələlər prioritet olaraq qalır. Keçən il Azərbaycanda 4 milyona yaxın ağac əkilibdir. Bu çox müsbət haldır. Bu proses həm Abşeron yarımadasında, həm də bütün bölgələrdə gedir. Neftlə çirklənmiş ərazilər təmizlənir. Eyni zamanda, içməli su layihələri və digər layihələr ekoloji vəziyyətin

yaxşılaşmasına xidmət göstərir. Böyükşor gölündə işlər sürətlə gedir. Bir neçə aydan sonra Böyükşor gölünün təmizlənməsinin birinci mərhələsi başa çatacaq. Hesab edirəm ki, bu buna oxşar bütün başqa layihələr üçün bir nümunə olacaqdır. Çünki biz bu istiqamətdə çox fəal iş aparırıq, neftlə çirklənmiş bütün yerləri, gölməçələri təmizləyirik – Bibiheybət, «Ağ şəhər», Böyükşor. Bu il Zığ gölünün təmizlənməsi nəzərdə tutulubdur. Bu da çox önəmli layihədir. Biz Bakının ətrafında yerləşən, neftlə və lay suları ilə çirklənmiş bütün gölləri tədricən təmizləyəcəyik. Orada istirahət və əyləncə zonaları, ictimai yerlər yaradılacaq. Ümumiyyətlə, Bakıda son illərdə çoxsaylı ictimai yerlər, parklar, bağçalar yaradılır. Bu ictimai yerlərin sayına görə Bakı bəlkə də dünya miqyasında ön sıralardadır. Çünki Bakı bu gün parklar, bağçalar şəhəridir və Bakı təmiz göllər şəhəri olacaqdır. Mən buna əminəm. Böyükşor gölünün təmizlənməsinin birinci mərhələsinin bu ilin yayına qədər başa çatması, hesab edirəm, hər kəsə göstərəcək ki, biz bunu da edə bilmişik və güclü iradə olan yerdə istənilən layihə icra edilə bilər.

Keçən il nəqliyyatla bağlı işlər uğurla icra edilib. Mən bunu artıq qeyd etdim, Ələtdə Yeni Bakı Dəniz Ticarət Limanının tikintisi bu il də davam etdiriləcəkdir. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi başa çatmaq üzrədir. İndi artıq sınaqlar keçirilir. Azərbaycan tərəfindən bütün işlər, demək olar ki, görülübdür. Ümid edirəm ki, bütün başqa sahələrdə tikinti-quraşdırma işləri bu il başa çatacaq və biz bu layihənin açılışını qeyd edəcəyik.

Bu da tarixi layihədir. Uzun illər bu layihə ətrafında danışıqlar, müzakirələr gedirdi. Ancaq Azərbaycan həm öz vəsaitini, həm də iradəsini ortaya qoyduqdan sonra bu layihə artıq reallaşmağa başladı.

Nəqliyyatla bağlı digər layihələr də icra edilir. Ölkəmizə yeni təyyarələr gətirilir. MDB məkanında Azərbaycan birinci ölkədir ki, ən müasir «Boeing-787» Dreamliner təyyarəsi, 2 sərnişin təyyarəsi gətirilib. Bundan əvvəlki dövrdə müasir təyyarələr alınıb. Yeni marşrutlar müəyyən edilir. Hava nəqliyyatı hər bir ölkə üçün önəmlidir. Azərbaycan bu sahədə həm yük, həm sərnişin daşımaları ilə artıq regional bir mərkəzə çevrilibdir. Biz bu

rolumuzu daha da gücləndirməliyik. Bizim coğrafi vəziyyətimiz güclü nəqliyyat infrastrukturu ilə də təmin edilməlidir. Dəniz ticarət limanının tikintisi, Bakı–Tbilisi–Qars dəmir yolunun inşası bir-biri ilə sıx bağlı olan məsələlərdir. Biz bu dəhlizləri gücləndiririk. Şimal–Cənub, Şərq–Qərb dəhlizləri – onlar Azərbaycan üzərindən keçir. Azərbaycanda yaradılan və yaradılacaq nəqliyyat infrastrukturu həm ölkəmizə, həm də qonşulara xidmət göstərəcəkdir.

Xəzər Gəmiçiliyi ilə bağlı işlər görülür, islahatlar aparılır, yeni gəmilər alınır və ən önəmli hal ondan ibarətdir ki, Azərbaycanda Gəmiqayırma zavodunda artıq gəmilər istehsal olunur. Həm neft-qaz əməliyyatları üçün sifarişlər verilibdir, həm də hərbi məqsədlər üçün gəmilər tikiləcəkdir. Eyni zamanda, bizim bütün digər gəmilər – tankerlər, yük gəmiləri Bakıda istehsal olunacaq. Bu da sənayeləşmə siyasətimizin bir nəticəsidir. Vaxtilə Gəmiqayırma zavodunun tikintisi barədə qəbul olunmuş qərar artıq özünü doğrultdu. Çünki biz görürdük ki, gəmilərin – tankerlərin, yük, servis gəmilərinin hamısı xaricdən alınır. Ancaq bizdə daxildə buna tələbat var. Biz gərək öz donanmamızı yeniləşdirək. Eyni zamanda, böyük neft-qaz əməliyyatları aparılır və aparılacaq. «Şahdəniz»lə bağlı yeni gəmilərə ehtiyac var. Ona görə qısa müddət ərzində Gəmiqayırma zavodunun tikintisi çox önəmli addım idi və bu zavod bütün Xəzəryanı ölkələrə xidmət göstərə bilər. Mən Xəzər Sammitində öz həmkarlarımla söhbət əsnasında söyləmişdim ki, artıq belə zavod var və siz də bundan faydalana bilərsiniz, sifarişləri verə bilərsiniz. Ümumiyyətlə, biz Xəzər hövzəsində bu istiqamətdə daha da sıx əməkdaşlıq edə bilərik. Misal üçün, əgər Bakıda belə müasir zavod varsa, inanmıram ki, başqa yerdə belə zavodun tikintisinə ehtiyac olsun. Yəni burada da kooperasiya işləri düzgün aparılmalıdır. Azərbaycan da öz sözünü deyir.

Keçən il «Cənub Qaz Dəhlizi»nin təməli qoyuldu. Bu, tarixi hadisədir. Bu layihə bizim uzunmüddətli inkişafımızı daha da sürətləndirəcək. Bu layihə «Əsrin müqaviləsi»nə bərabər olan bir

layihədir. Artıq bu layihəni XXI əsrin layihəsi adlandırırlar. Çox simvolik hal ondan ibarətdir ki, məhz 2014-cü il sentyabrın 20-də – «Əsrin müqaviləsi»nin imzalanmasından düz 20 il sonra «Cənub Qaz Dəhlizi»nin təməli qoyulmuşdur. Ulu öndər Heydər Əliyevin neft strategiyasının uğurlu icrası bu gün də təmin edilir. Görün «Əsrin müqaviləsi»ndən sonrakı dövrdə nə qədər işlər görülmüşdür – Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, indi «Cənub Qaz Dəhlizi», «Şahdəniz» yatağının işlənməsi. Azərbaycan burada öz liderlik rolunu bir daha təsdiqlədi. «Cənub Qaz Dəhlizi»nin müəllifi Azərbaycandır. Bu layihənin aparıcı qüvvəsi də Azərbaycandır. Bunu hamı bilməlidir. Azərbaycanın güclü iradəsi olmasaydı, bu layihə heç vaxt reallaşmayacaqdı. Biz bu layihənin reallaşması ilə bağlı çox gərgin iş aparmışıq. Çox gərgin və fəal iş aparmışıq ki, artıq bu layihəni icra etməyə başlamışıq. Biz buna Azərbaycan üçün ən məqbul şərtlərlə və beynəlxalq əməkdaşlıq çərçivəsində nail ola bilmişik. Çünki bizim tərəfdaşlarımız olmadan bu layihə icra edilə bilməz. Ona görə bu layihə daha da böyük koordinasiya tələb edir. Çünki burada iştirak edən ölkələrin, şirkətlərin sayı çoxdur. Bakı–Tbilisi–Ceyhan layihəsinin icrasında 3 ölkə – Azərbaycan, Gürcüstan, Türkiyə iştirak edirdi. Ancaq «Cənub Qaz Dəhlizi»nin icrasında 10-a yaxın ölkə iştirak edəcək. Çünki biz bu layihəni çox böyük və geniş layihə kimi görürük, bunu, əlbəttə ki, mərhələlərə bölürük. İlk növbədə, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin genişləndirilməsi, TANAP, TAP layihələri, ondan sonrakı dövrdə digər layihələr. Ona görə bu, tarixi hadisədir. Azərbaycan bu sahədə də liderlik keyfiyyətlərini göstərmişdir.

Ölkəmizin siyasi, iqtisadi maraqları təmin ediləcəkdir. Azərbaycan Avropa istehlakçıları üçün əvəzedilməz ölkəyə çevrilir. Bu nə deməkdir? Bunu izah etməyə çox da ehtiyac yoxdur. Biz Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində öz rolumuzu oynayırıq və getdikcə bu rol artacaq. Çünki Avropa üçün yeganə yeni qaz mənbəyi Azərbaycandır. Bütün başqa mənbələr – onlar artıq var. O mənbələrin ehtiyatlarını müxtəlif yollarla, yəni yeni yollarla Avropaya nəql etmək mümkündür. Belə layihələr var,

lakin yeni mənbə ancaq Xəzər hövzəsidir və Azərbaycandır. Biz bu məsuliyyəti öz üzərimizə götürmüşük. Əminəm ki, bu layihəni də uğurla icra edəcəyik. Çünki bu günə qədər elə bir layihə olmayıb ki, biz onu başlayaq və icra etməyək. Həm Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, həm də Bakı–Tbilisi–Qars, yəni beynəlxalq layihələrdən söhbət gedir. Əminəm ki, «Cənub Qaz Dəhlizi» də tam şəkildə icra ediləcəkdir.

Bakıda I Avropa oyunları keçiriləcəkdir. Oyunların keçirilməsinə 5 ay qalıb. Təşkilat Komitəsi çox fəal işləyir, bütün vəzifələri icra edir. Bütün dövlət qurumları bu işdə fəal iştirak edirlər. İndi hazırlıq son mərhələdədir. Biz Avropa oyunlarını Yay Olimpiya oyunlarının səviyyəsində keçirmək əzmindəyik. Bu oyunlar bir Avropa bayramına çevrilməlidir. Azərbaycan burada yenə də liderlik keyfiyyətlərini göstərir. Çünki Avropa oyunlarının standartları əslində Bakıda qoyulacaq. Çünki bu günə qədər heç vaxt belə oyunlar keçirilməmişdir. Bu oyunlar müxtəlif səviyyədə keçirilə bilərdi. Ancaq biz istəyirik ki, bu möhtəşəm idman bayramı möhtəşəm dostluq bayramına çevrilsin. Buna böyük ehtiyac var.

Azərbaycanın rolu getdikcə artır. Ölkəmizdə mövcud olan ictimai-siyasi vəziyyət, multikulturalizm, dini və milli dözümlülük, dünyaya açıq olmağımız – bütün bu amillər bu gün Avropa, dünya üçün lazımdır. Çünki əfsuslar olsun ki, real həyatda biz bir çox hallarda tam başqa mənzərəni görürük – qanlı toqquşmalar, terrorizm, ədavət, ikili standartlar və s.

Azərbaycan isə öz inkişaf modelini ortaya qoyur. Bu hər kəs üçün açıq olan modeldir. İqtisadi model – bu gün biz bu barədə danışdıq. Bu nadir bir iqtisadi inkişaf modelidir. Siyasi islahatlar modeli – məncə, Azərbaycan nümunə ola bilər. Çünki iqtisadi islahatları aparmaqla bərabər, siyasi islahatlara da böyük önəm veririk. Bütün demokratik təsisatlar yaradılıb. Bütün azadlıqlar – söz azadlığı, sərbəst toplaşmaq azadlığı, vicdan azadlığı, mətbuat azadlığı, internet azadlığı, din azadlığı təmin edilib. Bu azadlıqlar nəinki təmin edilib, eyni zamanda, bu bizim həyat tərzimizdir, dövlət siyasətimizdir. Ona görə Avropa oyunlarının keçirilməsi

sadəcə olaraq, bir idman tədbiri deyil. Hesab edirəm ki, bu tədbirdə iştirak edəcək idmançılar, qonaqlar Azərbaycanla tanış olacaqlar və Azərbaycanın uğurlu inkişaf modelini görəcəklər.

Əgər bütün ölkələr öz daxili işləri ilə məşğul olsaydılar, başqa ölkələrin daxili işlərinə qarışmasaydılar və əsassız tələblər irəli sürməsəydilər, dünya daha da sabit olardı, təhlükəsizlik daha da çox təmin edilərdi.

Hər halda biz Azərbaycanda öz işimizi görürük, görəcəyik və əminəm ki, 2015-ci ili də uğurla başa vuracağıq. Sağ olun.

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYTRİPALA SİRİSENAYA**

Hörmətli cənab Prezident!

Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Şri-Lanka arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Şri-Lanka xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 yanvar 2015-ci il*

## «XƏYAL ADASI» LAYİHƏSİ ÜZRƏ GÖRÜLƏN İŞLƏRİN GEDİŞİ İLƏ TANIŞLIQ

*12 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 12-də «Azərsun Holdinq» Şirkətlər Qrupunun «Xəyal Adası» layihəsi üzrə görülən işlərin gedişi ilə tanış olmuşdur.*

*«Azərsun Holdinq» Şirkətlər Qrupunun Müşahidə Şurasının sədri Abdulbari Gözəl dövlətimizin başçısına «Xəyal Adası»nda görülən işlərlə bağlı ətraflı məlumat verdi. Bildirildi ki, Heydər Əliyev Beynəlxalq Aeroportuna gedən yolun üzərində yerləşən «Xəyal Adası»nın ərazisi 320 hektardır. Bu, yüksək standartlara cavab verən yaşayış, ticarət, əyləncə və idman sahələrini əhatə edən layihədir.*

*Azərbaycan Prezidenti «Xəyal Adası» qolf klubunda yaradılan şəraitlə də tanış oldu. Dövlətimizin başçısına burada qolf oyunlarında istifadə olunan avadanlıq və klub-kar barədə məlumat verildi.*

*«Xəyal Adası»nın layihəsi ilə tanış olan prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, yaşayış sahəsində müasir tələblərə cavab verən yüksəkkeyfiyyətli 2100 mənzil, fərqli ölçülərdə və konseptlərdə 300 villa inşa olunur. «Xəyal Adası» layihəsi burada yaşayacaq insanların bütün ehtiyaclarını ödəməyə hesablanıb. Buna görə də layihə çərçivəsində məktəb kompleksi, ticarət mərkəzləri, mehmanxana, beynəlxalq səviyyəli yarışların keçirilməsinə imkan verən qolf mərkəzi, göllər və peyzaj sahələri yaradılır.*

*Dövlətimizin başçısı layihədən bəhs edən videoçarxa baxdı.*

Qeyd olundu ki, «Xəyal Adası»nda «ASAN xidmət» Mərkəzi də yaradılacaq. Burada fəaliyyət göstərəcək məktəb kompleksində uşaq bağçası, aşağı və yuxarı siniflər üçün təhsil, gimnastika və idman binaları, futbol meydançası istifadəyə veriləcək. Bunun üçün təhsil sahəsində keyfiyyəti ilə fərqlənən «SABİS» sisteminin tətbiq olunduğu məktəblər şəbəkəsi seçilib. Ən yüksək ekoloji standartlara uyğun olaraq inşa edilən «Xəyal Adası»nda gələcəkdə müasir səhiyyə komplekslərinin yaradılması da nəzərdə tutulub. «Xəyal Adası» layihəsinin həyata keçirilməsi ölkəmizdə beynəlxalq turizmin və qeyri-neft sektorunun inkişafına da mühüm töhfə verəcək.

Prezident İlham Əliyev elektromobillə qolf sahəsini gəzdi.

Bildirildi ki, beynəlxalq səviyyəli yarışların təşkil edilməsinə imkan verəcək 18 çalalı qolf sahəsində son tamamlama işləri aparılır.

Son illərdə Azərbaycanda idmanın kütləviliyinin artırılması istiqamətində əsaslı islahatlar həyata keçirilir. Bu islahatlar nəticəsində idmanla məşğul olanların sayının sürətlə artması müşahidə edilir. «Xəyal Adası»nda qolf klubunun yaradılması bir daha təsdiqləyir ki, Azərbaycanda idmanın bütün növlərinin inkişafı diqqət mərkəzindədir. Qolf klubundakı şərait dünya standartlarına tam cavab verəcək. Buna görə də gələcəkdə burada müxtəlif beynəlxalq yarışların yüksək səviyyədə keçirilməsi mümkündür. Burada yaradılan Qolf Akademiyası isə gələcəkdə ölkəmizin adını bütün dünyada ləyaqətlə təmsil edəcək idmançıların yetişdirilməsində böyük rol oynayacaq.

Prezident İlham Əliyev Qolf Akademiyasında yaradılan şəraitlə də tanış oldu. Akademiyada idman avadanlığı mağazası və kafe də fəaliyyət göstərəcək, kiçik yaşlarından başlayaraq uşaqlara peşəkarlar tərəfindən qolf öyrədiləcək, müxtəlif treninqlər keçiriləcək.

Sonra dövlətimizin başçısı ərazini gəzdi, tikintisi davam etdirilən villalarda yaradılacaq şəraitlə tanış oldu. Qeyd edildi ki, layihədəki hotel, ticarət mərkəzləri, məktəb kompleksi, villalar, mənzillər, göllər və peyzaj sahələrində tikinti işləri davam edir.

*İlkin mərhələdə* kommunal *xidmətlər üçün nəzərdə tutulmuş* infrastruktur *artıq hazırdır.* Villalarda *və mənzillərdə isə* beton *işləri başa çatıb.* Fasad *və* kosmetik *işlər isə* yekunlaşmaq *üzrədir.* *Layihənin reallaşmasında 2 mindən artıq* yerli *işçi çalışır.*

*«Xəyal Adası» həm də ətraf ərazilərdə yaşayan* insanlar *üçün böyük məşğulluq mərkəzi* olacaq*. Belə* bir *layihənin həyata keçirilməsi* turizm sektorunun *inkişafına mühüm töhfə verəcək.*

Prezident *İlham Əliyev* tikinti *işlərinin yüksək səviyyədə həyata keçirilməsi üçün müvafiq tapşırıq və tövsiyələrini* verdi.

## XORVATİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ XANIM KOLİNDA QRABAR-KİTAROVİÇƏ

Hörmətli xanım Qrabar-Kitaroviç!

Xorvatiya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Xorvatiya əlaqələrinin, ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Xorvatiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 yanvar 2015-ci il*

## SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*13 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Sumqayıt şəhərinə səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov son vaxtlar abidənin ətrafında aparılan abadlıq-quruculuq işləri barədə prezident İlham Əliyevə məlumat verdi.*

### Nəsimi adına şəhər Mədəniyyət və istirahət parkında aparılan yenidənqurma işləri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Sumqayıta səfəri çərçivəsində Nəsimi adına şəhər Mədəniyyət və istirahət parkında aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Son illər ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bölgələrin daha da gözəlləşməsi, regionların simasına yeni elementlərin əlavə olunması ilə müşayiət edilir. Şəhər və rayonlarımızda aparılan quruculuq işləri çərçivəsində park və xiyabanların salınması, mövcud olanların isə yenidən qurulması diqqətdən kənarda qalmır. Bu sahədə həyata keçirilən işlər çərçivəsində Sumqayıtdakı Nəsimi adına şəhər Mədəniyyət və istirahət parkının yenidən qurulması da xüsusi əhəmiyyət kəsb edir.*

*Prezident İlham Əliyevin park və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən yenilənən bu park ilk növbədə, şəhər sakinlərinin istirahətinin yüksək səviyyədə təşkilinə xidmət edir. Müasir tələblər səviyyəsində qurulan bu park Sumqayıtın gözəlliyini daha da artırır.*

Dövlətimizin başçısına parkda görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi. Bildirildi ki, «Şəhidlər xiyabanı»nın yaxınlığındakı 10 hektarlıq ərazidə geniş abadlıq işləri aparılıb. Burada 10 metr hündürlüyündə «20 Yanvar» abidəsi ucaldılıb. Bu da 25 illiyinə hazırlaşdığımız 20 Yanvar hadisələri zamanı şəhid olan soydaşlarımızın xatirəsinin hər zaman dövlətimiz tərəfindən əziz tutulduğunu göstərir. Parkda Xocalı soyqırımı qurbanlarının xatirəsinə də abidə qoyulub.

Qeyd edildi ki, şəhər sakinlərinin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün salınan parkda ardıcıl olaraq yenidənqurma və tikinti-quraşdırma işləri aparılır. Yenidənqurma işləri zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb, maraqlı elementlər və formalardan istifadə edilib. Ərazidə çoxlu ağac və dekorativ gül kolları əkilib, yaşıllıq salınıb. Park müasir işıqlandırma sistemi ilə təchiz edilib.

Prezident İlham Əliyev Nəsimi parkının digər hissələrində aparılan abadlıq-quruculuq işləri ilə də tanış oldu. Sumqayıtın əsas magistral yolu olan Səməd Vurğun küçəsindən başlayaraq Xəzər dənizinin sahilinədək uzanan parkın ümumi sahəsi hazırda 80 hektardır. Nazirlər Kabinetinin qərarına əsasən, 2001-ci ildən Nəsimi adına şəhər Mədəniyyət və istirahət parkı ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələri siyahısına daxil edilib.

Prezident İlham Əliyev Nəsimi parkında yeni inşa olunan Yaşıl Teatrda yaradılan şəraitlə də tanış oldu.

Bildirildi ki, həm respublika, həm də şəhər səviyyəli mədəni-kütləvi tədbirlərin keçirilməsi məqsədilə tikilən, 350 tamaşaçı yeri olan bu teatr ən müasir standartlar səviyyəsindədir. Ümumi sahəsi 1000 kvadratmetrə yaxın olan Yaşıl Teatrda ən son texnologiyaya əsaslanan səs və işıq sistemləri qurulub.

## «Alyans Tekstil» tikiş fabrikinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Sumqayıt şəhərində «Alyans Tekstil» tikiş fabrikinin açılışında iştirak etmişdir.*

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyasının prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində iqtisadiyyatın neft sektoru ilə bərabər, qeyri-neft sahələrinin də davamlı inkişafına nail olunur. Qeyri-neft sektorunun inkişaf etdirilməsində isə sahibkarlığın rolu böyükdür. Təsadüfi deyil ki, dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri məhz özəl sektorun hərtərəfli dəstəklənməsi, onun daha da genişlənməsi üçün əlverişli mühitin yaradılması, bu sahədə müxtəlif yardım və təşviq mexanizmlərinin tətbiq edilməsidir. Bu baxımdan dövlət tərəfindən ayrılan kreditlər və İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə görülən işlər xüsusi önəm kəsb edir. Güzəştli kreditlər hesabına son illər bölgələrdə iri istehsal, emal və infrastruktur müəssisələri istifadəyə verilib. 2014-cü ildə bu proses davam etdirilib. Fond tərəfindən indiyədək ümumi dəyəri 60 milyon manat olan 7 tekstil fabrikinin yaradılmasına və ən müasir texnologiya və avadanlıqlarla təchiz edilməsinə 28,4 milyon manat güzəştli kredit ayrılıb. Almaniya, Belçika, İsveçrə, Avstriya, İtaliya, İspaniya, Yaponiya və Türkiyənin müasir texnologiya və avadanlıqları əsasında qurulan 5 fabrik artıq istifadəyə verilib. Bu fabriklərin fəaliyyətə başlaması istehlakçıların tələbata uyğun yüksəkkeyfiyyətli müxtəlif tekstil və trikotaj məhsulları ilə təmin edilməsinə imkan yaradıb.

Belə iri layihələrdən biri də Sumqayıt şəhərində «Alyans Tekstil» tikiş fabrikidir. Bu layihənin həyata keçirilməsinə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən güzəştli kredit ayrılıb.

İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev prezident İlham Əliyevə məlumat verdi ki, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq inşa edilmiş fabrikin sahəsi 2,4

*hektardır. Ümumi dəyəri 6,1 milyon manat olan fabrikin tikintisinə Sahibkarlığa Kömək Milli Fondundan 1 milyon manat güzəştli kredit ayrılıb.*

*Prezident İlham Əliyevə indiyədək Sumqayıt şəhəri üzrə ayrılan güzəştli kreditlər barədə də məlumat verildi. Bildirildi ki, indiyədək Sumqayıt şəhərində 354 sahibkarlıq subyektinin ümumi dəyəri 320 milyon manat olan investisiya layihələrinin maliyyələşdirilməsinə dövlət tərəfindən 120,6 milyon manat, o cümlədən müasir texnologiyaların tətbiqinə əsaslanan, ümumi dəyəri 268,2 milyon manat olan 18 investisiya layihəsinin maliyyələşdirilməsinə 104,2 milyon manat güzəştli kreditlər verilib. Bu kreditlər hesabına 5900-dən çox yeni iş yeri yaradılıb. Kreditlərin 219-u kiçikhəcmlidir və bu layihələrin maliyyələşdirilməsinə 1,6 milyon manat güzəştli kredit verilib. Həmin kreditlər hesabına isə 560-dan çox sakin işlə təmin olunub.*

*Prezident İlham Əliyev «Alyans Tekstil» tikiş fabrikini işə saldı. Məlumat verildi ki, Tekstil fabriki 2 əsas istehsal və 4 köməkçi sahədən ibarətdir.*

*Dövlətimizin başçısı fabrikin dünyanın ən qabaqcıl şirkətlərinin müasir avadanlığı ilə təchiz edilmiş tikiş sahəsində istehsal prosesi ilə tanış oldu.*

*Bildirildi ki, fabrik ildə 100 min dəst müxtəlif işçi geyimləri – gödəkçələr, kombinezonlar, kostyum və dəstlər istehsal etmək gücünə malikdir. Dövlətin maliyyə dəstəyi ilə fabrikin yeni tikilmiş istehsal binasında tamamlama işləri aparılıb və avtomatik parça sərim xətti, alt və üst transportlu iplik kəsməli tikiş maşınları, qurutma konveyerləri, loqotip və yazı vurulması üçün boya avadanlığı, naxış və universal tikiş maşınları quraşdırılıb. Toxunan parça texnologiyaya əsasən sərmə, qatlama və kəsmə proseslərindən sonra tikiş sahəsinə verilir. İstehsal olunan məhsulun üzərinə hörmə və ya boya ilə sifarişçinin istəyinə uyğun olaraq onun loqosu və adı vurulur.*

*Dövlətimizin başçısı burada istehsal olunan məhsulların nümunələrinə baxdı. Fabrikin əsas xammalı olan parça Sahibkarlığa Kömək Milli Fondu tərəfindən maliyyə dəstəyi göstərilən*

*«Gilan» Tekstil Parkından alınır. Müəssisədə ən müasir texnologiyanın tətbiqi beynəlxalq standartlara cavab verən yüksək-keyfiyyətli tekstil məmulatları istehsalına və hazır məhsulun maya dəyərinin aşağı düşməsinə səbəb olur. Belə müasir kompleksin Sumqayıtda inşa olunması respublikamızda gedən uğurlu sənayeləşmə siyasətinin bir nümunəsidir. Layihələrin icrası nəticəsində fabrikdə 200 iş yeri yaradılıb. Müəssisədə işçilərin məhsuldar çalışmaları üçün hər cür şərait var.*

*Prezident İlham Əliyev fabrikin kollektivi ilə görüşdü.*

**İlham Əliyev:** Sizi ürəkdən təbrik edirəm. Bu gün Sumqayıtda yeni gözəl sənaye müəssisəsi, Tekstil fabriki açılır. Bu, gözəl hadisədir. Şadam ki, fabrikdə bütün işlər yüksək səviyyədə qurulub. Çox gözəl iş şəraiti var, avadanlıqlar quraşdırılıb, ən yüksək standartlar tətbiq olunub. Ən sevindirici hal ondan ibarətdir ki, fabrikdə çalışanların mütləq əksəriyyəti qadınlardır. Bu, yeni iş yerlərinin açılması deməkdir. Burada 200 insan işlə təmin olunub. Maaş da yaxşıdır. Yəqin ki, gələcəkdə daha da artacaq. Çünki fabrikin uğurlu fəaliyyəti bunu təmin edəcək.

Sumqayıtda bu gün başqa bir istehsalat sahəsi açılır – Beton zavodu. Oraya da gedib baxacağam. Hər il Sumqayıtda çox gözəl yeni sənaye müəssisələri açılır ki, bu həm insanları işlə təmin edir, həm də ölkəmizin inkişafını təmin edir. Keçən il Azərbaycanda «Sənaye ili» elan edilmişdi. Bu fabrik də əslində keçən il tikilmişdir. Ümumilikdə, keçən il 200-dən çox iri sənaye müəssisəsi açılmışdır ki, bu da ölkəmizin inkişafına xidmət göstərir.

Sumqayıt ənənəvi olaraq sənaye şəhəri kimi salınmışdır. Bu gün isə Sumqayıt müasir sənaye şəhəridir. Burada yaradılan istehsalat sahələri, böyük elektrik stansiyası, aparılan abadlıq işləri məni çox sevindirir. Mən Sumqayıta hər il səfər edirəm, bəzi hallarda ildə 2 dəfə. Hər dəfə burada vəziyyətlə tanış oluram və yeni böyük müəssisələrin açılışlarında iştirak edirəm.

Sumqayıtda Texnologiya Parkı neçə ildir ki, fəaliyyət göstərir. Kimya Parkı, digər istehsalat zonaları. Yəni Sumqayıt əslində nəinki Azərbaycanın, həm də Cənubi Qafqazın ikinci böyük

sənaye mərkəzidir. Biz insanları işlə təmin etmək üçün böyük işlər görürük. Biz bunu Sumqayıtın timsalında əyani şəkildə görürük. Çünki Sumqayıtda işsizlik, demək olar ki, aradan qaldırılıb. Qadınlar da işlə təmin edilir. Əgər ailənin hər iki üzvü işləsə, əlbəttə ki, bu, ailə büdcəsinə də əlavə dəstək olacaq. Uşaq bağçaları da tikilməlidir ki, qadınların vaxtı olsun, gəlib işləsinlər. Biz bu işlərlə də məşğul oluruq. Yəni ölkəmizdə həm sosial, həm iqtisadi və sənaye ilə bağlı məsələlər ardıcıl şəkildə həll edilir.

Ölkəmiz inkişaf edir. Keçən ili də uğurla başa vurmuşuq. Bu ili də uğurla başa vuracağıq. Baxmayaraq ki, dünyada indi müxtəlif proseslər gedir. Bölgədə iqtisadi vəziyyət o qədər də ürəkaçan deyil. Azərbaycanda heç bir çətinlik gözlənilmir. Yeni sənaye müəssisələri açılacaq, insanlar işlə təmin olunacaqlar. Bizim iqtisadi inkişafımız təmin ediləcək və xalqımızın rifah halı yaxşılaşacaq.

Mən sizi ürəkdən salamlayıram. Bildiyiniz kimi, mən hər il dəfələrlə bölgələrdə oluram, vəziyyətlə tanış oluram. Bu il isə ilk səfərimi Sumqayıta etdim. Əminəm ki, Sumqayıtda bütün işlər bundan sonra da yüksək səviyyədə təşkil ediləcək. Sizi bir daha bu gözəl hadisə münasibətilə təbrik edirəm.

**Səbirə Camayeva** (*fabrikin əməkdaşı*): Xoş gəlmisiniz, cənab Prezident!

Şəhərimizdə açılan bu gözəl müəssisəyə görə Sizə minnətdarıq. Gördüyünüz bu müəssisədə bizim üçün hər cür şərait yaradılıb. Bu gün dünyanın bir çox ölkələrində böhran olmasına baxmayaraq, Azərbaycanımızda yeni müəssisələr açılır. Biz ölkəmizdə çox rahat, firavan yaşayırıq, sülh və əmin-amanlıqdır. Hər bir sahədə inkişaf var. Balalarımızın gələcəyinə də böyük ümidlə baxırıq. Çünki ölkəmizin Sizin kimi rəhbəri var. Gördüyünüz bütün işlərə görə Sizə minnətdarıq. Biz fəxr edirik ki, bu gün doğrudan da, sözün əsl mənasında, müstəqil dövlətdə yaşayırıq.

**Naibə Məmmədova:** *(sakin)* Cənab Prezident, biz Sizə Sumqayıta göstərdiyiniz diqqət və qayğıya görə minnətdarıq. Sizin sayənizdə şəhərimiz gündən-günə gözəlləşir, abadlaşır. Bu biz sumqayıtlıları çox sevindirir. Gördüyünüz işlərə görə Sizə

«Çox sağ olun» – deyirik. Sizə və hörmətli Mehriban xanıma uzun ömür, cansağlığı arzulayırıq.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Bu fabrikin tikintisində, əlbəttə ki, özəl sektor öz sözünü deyib. Əsas vəsaiti sahibkarlar qoyublar. Ancaq dövlət də öz dəstəyini göstərmişdir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə bu fabrikin yaradılmasına dəstək verilmişdir. Yəni dövlət sahibkarları dəstəkləyir, həm siyasi, həm maddi dəstək göstərir, güzəştli şərtlərlə kreditlər verir. Sahibkardan da tələbimiz ondan ibarətdir ki, yeni iş sahələri, istehsalat sahələri yaratsınlar, ölkəmizi gücləndirsinlər. Özləri üçün də imkan yaratsınlar və o müəssisələrdə işləyən insanlara da yaxşı xidmət etsinlər. Çünki siz Azərbaycanın iqtisadi və sənaye potensialını yaradan insanlarsınız. Sahibkar, əlbəttə ki, bu müəssisənin sahibidir. Ancaq bu müəssisənin əsas iştirakçısı sizlərsiniz, burada işləyənlər – mütəxəssislər, fəhlələr. Beləliklə, burada hər müəssisədə çox sağlam bir ab-hava olmalıdır. İnsanlar razı qalmalıdırlar, yaxşı maaş almalıdırlar. Onların iş şəraiti yaxşı olmalıdır. Biz buna çalışırıq və bu gün Azərbaycanın müxtəlif yerlərində müəssisələr, bax, bu səviyyədə yaradılır. İnsanların əməkhaqqı vaxtında verilməlidir, iş şəraiti yaxşı səviyyədə olmalıdır ki, hər bir ailə normal yaşasın, dolansın və ildən-ilə insanların rifah halı artsın.

Sumqayıtda digər layihələr də icra edilib. Şəhər gözəlləşir, abadlaşır. Sumqayıt indi ekoloji cəhətdən ən təmiz şəhərlərdən biridir. Vaxtilə Sumqayıtı ekoloji fəlakət şəhəri kimi təsvir edirdilər. Əfsuslar olsun ki, bəzi hallarda Azərbaycana qarşı aparılan kampaniya çərçivəsində yenə də Sumqayıt haqqında həqiqəti əks etdirməyən sözlər deyilir. Amma buraya gələn hər bir insan görür ki, indi Sumqayıt parklar şəhəridir. Sənaye müəssisələrində bütün ekoloji standartlar gözlənilir, tətbiq edilir. Havası təmiz, gözəl infrastrukturu olan bir şəhərdir. Son illərdə Sumqayıtda bir neçə park qurulub, yenidən salınıb, əsaslı təmir edilib. Şəhər gözəlləşir, binalar tikilir. Mən dəfələrlə

demişəm ki, Sumqayıtda gedən işlər Bakıda gedən işlərin səviyyəsində olmalıdır.

Burada «ASAN xidmət» yaradılıbdır. Yəqin ki, siz də bu imkanlardan istifadə etmisiniz və görmüsünüz ki, bu yenilik insanlara nə qədər rahatlıq gətirir.

Biz çalışmalıyıq ki, Azərbaycanda hər bir sahədə ən müasir təcrübə tətbiq olunsun – sənaye müəssisələrində, məişət məsələlərinin həllində, insanlara göstərilən xidmətlərdə. Biz buna nail oluruq.

Sizi bir daha ürəkdən təbrik edirəm. Sizə uğurlar arzulayıram.

## Gənclər evinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Sumqayıtda Gənclər evinin açılışında iştirak etmişdir.*

*Son dövrlərdə digər sahələrdə olduğu kimi, gənclər siyasəti istiqamətində də çox mühüm nailiyyətlər əldə edilib. Bütün bu uğurlar ölkəmizdə gənclər siyasətinin formalaşdırılması üçün həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir. Bu sahənin inkişafı da ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkədə həyata keçirilən gənclər siyasəti 2003-cü ildən başlayaraq uğurlu nəticələrlə yadda qalıb. 2005–2009-cu illəri əhatə edən Azərbaycan gəncliyi Dövlət Proqramı bu məsələdə çox mühüm rol oynayıb. Hazırda həyata keçirilən «Azərbaycan gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramı bu tədbirlərin məntiqi davamıdır.*

*Ölkə gəncləri vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsiplərinə, həmçinin tarixi keçmişimizə, milli-mənəvi dəyərlərimizə rəğbət ruhunda tərbiyə olunurlar. Bu məsələ respublikamızda prioritet istiqamətlərdən biridir. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramlar həyata keçirilir. Bölgələrdə*

*müasir tələblərə cavab verən sosial infrastruktur obyektlərinin və gənclər mərkəzlərinin, gənclər evlərinin istifadəyə verilməsi də məhz həmin məqsədlərə xidmət edir. Belə gənclər evlərindən biri də Sumqayıtda yaradılıb.*

*Dövlətimizin başçısı Gənclər evinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Gənclər və İdman naziri Azad Rəhimov prezident İlham Əliyevə burada yaradılan şərait barədə məlumat verdi. Binanın foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Sumqayıta səfərlərini, həmçinin gənclərlə görüşlərini əks etdirən fotolardan ibarət stend yaradılıb. Bu Gənclər evi prezidentin 2011-ci ildə imzaladığı sərəncamla təsdiq edilmiş «Azərbaycan gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramına əsasən Gənclər və İdman Nazirliyinin sifarişi ilə tikilib. Binanın inşası üçün şəhərin 5-ci mikrorayon ərazisində 246 kvadratmetr torpaq sahəsi ayrılıb. 3 mərtəbə və terrasdan ibarət binada caz-klub, səhnəsi olan böyük kafe-bar, art-studiya, internet-klub yaradılıb. Burada, həmçinin biznes və hüquqi məsləhət mərkəzləri, vətənpərvərlik klubu, gənclər üçün «Qaynar xətt» xidməti, peşəyönümü mərkəzi, bütün müasir və zəruri avadanlıqla təchiz edilmiş videostudiya da gənclərin ixtiyarına veriləcək.*

*Gənclər evinin masaüstü oyunlar otağında asudə vaxtın daha səmərəli təşkili üçün hər cür şərait var. Burada, həmçinin istedadların hazırlığı laboratoriyası və xarici dillər üzrə danışıq klubu da fəaliyyət göstərəcək.*

*Binadakı «Dəyirmi masa» zalı da müasirliyi ilə diqqəti cəlb edir. Bir sözlə, burada gənclərin potensialını üzə çıxarmaq və onu inkişaf etdirmək üçün bütün şərait yaradılıb.*

*Gənclər evinin 110 yerlik müasir akt zalı da vardır. Burada gənclərlə bağlı müxtəlif tədbirləri ən yüksək səviyyədə təşkil etmək mümkün olacaq. Tədbirlər zamanı regionlardan gələn gənclərin qalmaları üçün bir və iki nəfərlik 10 otaq yaradılıb, sonuncu mərtəbəsində isə açıq havada 50 nəfərlik restoran gənclərin ixtiyarına veriləcək. Binanın inzibati bölməsindəki otaqların hamısı zəruri avadanlıqlarla təmin olunub.*

*Dövlətimizin başçısı Gənclər evində Olimpiya Hərəkatı Muzeyi və Beyləqanda inşa edilən Olimpiya İdman Kompleksinin eskiz layihəsinə də baxdı.*

## Beton məmulatı zavodunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Beton məmulatı zavodunun açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq 2014-cü il ölkəmizdə «Sənaye ili» elan edilmişdi. Bununla əlaqədar, ötən il sənayeləşmə siyasəti çərçivəsində iqtisadiyyatın şaxələndirilməsi, mövcud təbii və iqtisadi resursların dövriyyəyə cəlb edilməsi, yeni sənaye məhsulları istehsalı sahələrinin yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi və sənayenin innovasiyalar əsasında inkişafının təmin edilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib.*

*Belə tədbirlərdən biri də Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, dövlətin güzəştli kreditləri hesabına tikinti materialları müəssisələrinin ən müasir texnologiya və avadanlıqlar əsasında yaradılmasıdır. Bu məqsədlə İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ümumi dəyəri 186 milyon manat olan 18 tikinti materialları istehsalı müəssisəsinin yaradılmasına, ən müasir texnologiya və avadanlıqlarla təchiz edilməsinə 70 milyon manat güzəştli kredit verilib. Xarici ölkələrin müasir texnologiya və avadanlıqlar əsasında qurulmuş 14 müəssisə artıq fəaliyyət göstərir. Bu müəssisələrin işə salınması istehlakçıların tələbatına uyğun yüksəkkeyfiyyətli müxtəlif tikinti materialları istehsalına imkan yaradıb. Müasir texnologiyaların tətbiqi eyni zamanda, tikinti sənayesində maya dəyərinin aşağı düşməsinə, yüksək keyfiyyətə və idxalın əvəz edilməsinə səbəb olur. Respublikada ilk dəfə olaraq ən müasir avadanlıqlarla təchiz edilmiş və böyük istehsal gücünə malik Beton məmulatı zavodu Sumqayıt şəhərində inşa edilib.*

*İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev dövlətimizin başçısına məlumat verdi ki, 11 min kvadratmetr istehsal sahəsi olan və inzibati binadan ibarət zavodun ümumi dəyəri 17,6 milyon manatdır. Müəssisənin qurulmasına Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 500 min manat güzəştli kredit ayrılıb. Tikinti sənayesinin inkişafı və istehlakçıların keyfiyyətli beton borular və döşəmə daşları ilə təmin edilməsi məqsədilə zavod dünyanın ən aparıcı şirkətlərinin son texnologiyaları əsasında qurulub.*

*Prezident İlham Əliyev zavodu işə saldı.*

*Ümumilikdə 7 istehsal sahəsindən ibarət bu zavod avadanlığın sayına və həcminə görə Şərqi Avropada analoqu olmayan ən böyük müəssisədir. Dəzgahlar 8 saatlıq iş rejimində, diametrindən asılı olaraq 17–32 boru istehsal etmə gücünə malikdir. Bu da ayda 10–12 min metr beton boru istehsalı deməkdir. Boruların qəlibdən çıxarılması üçün 40 tona qədər yük qaldıra bilən 12 körpülü kran quraşdırılıb. Respublikada ilk dəfə bu zavodda termoyağlı boru istehsal xətləri tətbiq edilib.*

*İstehsal prosesi tam avtomatlaşdırılmış zavodda döşəmə daşları da istehsal olunur. İllik istehsal gücü 140 min metr müxtəlif diametrli beton boru və 500 min kvadratmetr beton döşəmə daşı olan zavodda müasir texnologiyanın tətbiqi enerji məsrəflərinin azalmasına səbəb olur. Bu isə öz növbəsində, məhsulun maya dəyərinin daha aşağı olmasına imkan verir. Nəticədə istehlakçılara daha münasib qiymətlərlə onların tələbatına uyğun yüksəkkeyfiyyətli beton məmulatı təqdim edilməsi mümkündür. Müəssisədə ümumilikdə 200-dək yeni iş yeri yaradılıb. Burada ofis binası, istehsalı idarəetmə mərkəzi, 150 nəfərlik yeməkxana da var.*

*Zavodda istehsal olunan məhsulların istehlakçılara çatdırılması üçün xüsusi nəqliyyat vasitələri alınıb. Müəssisənin avtotexniki parkında yükünü özüboşaldan 10 avtomaşın, 10 betonqarışdıran, 2 avtoyükləyici və 4 müxtəlif tonnajlı avtokar var.*

*Müəssisənin fəaliyyəti ilə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HERBERT SALBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər geniş müzakirə olundu. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan münaqişənin tez bir zamanda sülh yolu ilə nizamlanmasında maraqlıdır və ölkəmiz beynəlxalq birlik tərəfindən tanınan ərazilərimizin işğaldan azad edilməsi istiqamətində irəliləyişə nail olunması üçün səylərini əsirgəmir. Bu prosesdə Ermənistanın da konstruktiv mövqe nümayiş etdirməsinin vacibliyini qeyd edən dövlətimizin başçısı bu vəziyyətin uzun zaman davam etdirilməsinin yolverilməz olduğunu bildirdi. Prezident İlham Əliyev münaqişənin ədalətli həlli istiqamətində Minsk qrupunun həmsədrlərinin, həmçinin beynəlxalq təşkilatların, o cümlədən Avropa İttifaqının və onun müxtəlif qurumlarının daha fəal addımlar atmasının vacibliyini vurğuladı. Daha sonra görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ

*14 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Türkiyə Respublikasına dövlət səfərinə gəlmişdir.*

*Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı Ankaranın «Esenboğa» Beynəlxalq Hava Limanında prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi qardaş ölkənin yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞ

*14 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi, enerji, nəqliyyat və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Ölkələrimizin birgə həyata keçirdiyi layihələrin əhəmiyyətinə toxunuldu, Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin önəmi vurğulandı. Azərbaycan–Türkiyə əlaqələrinin regional əməkdaşlığın gücləndirilməsinə töhfə verdiyi qeyd edildi.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının zəruriliyi bildirildi. Ölkələrimiz arasındakı dostluq əlaqələrinin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Əhməd Davudoğlu birgə nahar etdilər.*

## ANITQƏBİRİ ZİYARƏT

*Ankara*

*15 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəyə – Anıtqəbirə gəlmişdir.*

*Dövlətimizin başçısı böyük Atatürkün məzarını ehtiramla ziyarət etdi.*

*Prezident İlham Əliyev Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoydu.*

*Türk dünyasının böyük oğlunun əziz xatirəsi yad edildi.*

*Dövlətimizin başçısı Xatirə kitabına ürək sözlərini yazdı. Sonra xatirə şəkilləri çəkdirildi.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Ankara*

*15 yanvar 2015-ci il*

*Türkiyə Respublikası Prezidentinin sarayında yanvarın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev süvari dəstəsinin müşayiəti ilə Türkiyə Respublikası Prezidentinin sarayına gəldi.*

*Sarayın qarşısındakı meydanda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Prezident İlham Əliyevin şərəfinə toplardan yaylım atəşinin müşayiəti ilə Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Prezident İlham Əliyev əsgərləri salamladı.*

*Türkiyənin rəsmi şəxsləri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri prezident Rəcəb Tayyib Ərdoğana təqdim edildi.*

# TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Ankara*

*15 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də rəsmi qarşılanma mərasimindən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşmüşdür.*

*Görüşdə Türkiyə ilə Azərbaycan arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi, energetika və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Ölkələrimizin enerji və nəqliyyat sahələrində birgə həyata keçirdiyi qlobal layihələrin əhəmiyyəti xüsusi qeyd olundu. Söhbət zamanı Türkiyənin «Böyük 20-lik»in növbəti görüşünə ev sahibliyi etməsinin önəmindən danışıldı.*

*Prezident İlham Əliyev həmin tədbirə dəvətə görə prezident Rəcəb Tayyib Ərdoğana minnətdarlığını bildirdi, bu dəvət Azərbaycan ilə Türkiyə arasında dostluq münasibətlərinin nümunəsi kimi dəyərləndirildi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyi qeyd edildi. Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildirdilər.*

## TÜRKİYƏ–AZƏRBAYCAN YÜKSƏK SƏVİYYƏLİ STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ IV İCLASINDA İŞTİRAK

*Ankara*

*15 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə yanvarın 15-də Ankarada Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının 4-cü iclası keçirilmişdir.*

**Rəcəb Tayyib Ərdoğan:** Möhtərəm prezident, hörmətli qardaşım İlham Əliyev!

Nümayəndə heyətinin hörmətli üzvləri!

Ankaramıza «Xoş gəldiniz!» – deyir, sizi ikinci Vətəniniz olan Türkiyədə qonaq qəbul etməkdən duyduğum məmnunluğu xüsusi ifadə etmək istəyirəm.

Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının IV iclasına dəyərli qardaşım cənab İlham Əliyevlə birlikdə sədrlik etməkdən böyük məmnunluq duyuram. Bu gün apardığımız və aparacağımız müzakirələrin, dəyərləndirmələrin ölkələrimiz üçün xeyirli olmasını Rəbbimdən arzu edirəm.

Əziz qardaşım, bir az əvvəl təkbətək görüş keçirdik. İkitərəfli əlaqələrimizi ətraflı dəyərləndirmək imkanı əldə etdik. Bu əsnada nümayəndə heyətlərimizin üzvləri də həmkarları ilə görüşlər keçirdilər. Hörmətli nazirlərimiz bu görüşlərin nəticələrini bir az sonra Şuraya təqdim edəcəklər.

**İlham Əliyev:** Bu mənim bu il həyata keçirdiyim ilk rəsmi səfərdir. Bu da təbiidir. Bu səfər Türkiyəyə edilir. Bu, gözəl bir ənənədir, həm seçkilərdən sonra, həm də hər ilin əvvəlində biz bir-birimizi salamlayırıq, görüşürük, çünki qar-

şıda duran vəzifələr çox önəmlidir. Biz bu vəzifələri uğurla icra etməliyik. Siz qeyd etdiyiniz kimi, son illər ərzində Türkiyə–Azərbaycan əlaqələri – dostluq, qardaşlıq əsasında qurulan əlaqələr strateji əməkdaşlıq səviyyəsinə qalxmışdır.

Bütün görülən işlər onu göstərir ki, birgə siyasi iradə olan yerdə böyük layihələri icra etmək mümkündür. İlk növbədə, mən «G-20»də Azərbaycanı görmək arzunuzu xüsusilə qeyd etmək istəyirəm. Bu bizim üçün böyük şərəfdir ki, Siz məhz Azərbaycanı dəvət etmisiniz. Bu bir daha Türkiyə–Azərbaycan qardaşlıq əlaqələrini təsdiqləyir. Çünki bu addım əslində tarixə, bizim birliyimizə söykənir və eyni zamanda, bütün dünyaya Türkiyə və Azərbaycanın nə qədər bir-birinə bağlı olduqlarını göstərir.

Bu dəvətə görə Sizə xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

* * *

*İclasda Azərbaycan ilə Türkiyə arasında iqtisadiyyat, enerji, energetika, nəqliyyat, müdafiə, humanitar sahələrdə əməkdaşlığın perspektivləri, Bakı–Tbilisi–Qars, TANAP layihələri ilə bağlı işlərin uğurlu gedişi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi müzakirə olundu. İkitərəfli, beynəlxalq və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Ankara*

*15 yanvar 2015-ci il*

*Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının 4-cü iclasından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə yanvarın 15-də sənədlərin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının 15 yanvar 2015-ci il tarixində keçirilmiş 4-cü iclasının nəticələrinə dair Birgə Bəyanat»ı Azərbaycan prezidenti İlham Əliyev və Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan imzaladılar.*

*«Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti (MMX) ilə Türkiyə Respublikasının Maliyyə Nazirliyinin Maliyyə Cinayətlərinin Araşdırılması Şurası (MASAK) arasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqədar maliyyə xarakterli məlumatların mübadiləsində əməkdaşlığa dair Anlaşma Memorandumu»nu Azərbaycanın Türkiyədəki səfiri Faiq Bağırov və Türkiyənin Maliyyə Nazirliyinin Maliyyə Cinayətlərinin Araşdırılması Şurasının sədri İbrahim Hakkı Polad imzaladılar.*

*«Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkiyə Respublikasının Gömrük və Ticarət Nazirliyi arasında Gömrük Məsələləri üzrə Birgə Komitənin yaradılması haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev və Türkiyənin Gömrük və Ticarət naziri Nurəddin Canikli imzaladılar.*

# TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Ankara*

*15 yanvar 2015-ci il*

*Sənədlərin imzalanması mərasimindən sonra yanvarın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bəyanatı

Hörmətli cənab Prezident, dəyərli qardaşım!

Əvvəla, Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının IV iclasının başa çatmasının məmnunluğu içindəyik.

Bu iclasda – istər ikitərəfli görüşümüzdə, istərsə də nümayəndə heyətləri arasında görüşlərdə bir çox nazirlərimizin öz ikitərəfli fəaliyyətlərini və bundan sonra da birgə keçirdiyimiz iclasda Azərbaycan–Türkiyə əlaqələrini, dünəndən bu günə haraya gəldik – bunları dəyərləndirdik. Bölgənin problemlərini, bundan sonra atacağımız addımları müzakirə etdik. 2013-cü ilin noyabrında rəsmi səfər, 2014-cü ilin iyununda isə Bodrumda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə toplantısı ilə əlaqədar zati-alilərini qonaq qəbul etmişdik. Mən də prezident vəzifəsinə seçiləndən sonra xarici ölkələrə ilk səfərlərimdən birini, bildiyiniz kimi, Azərbaycana etmişdim.

Bu gün də hörmətli prezident Əliyev, dəyərli qardaşım nümayəndə heyəti ilə 2015-ci ilin ilk rəsmi səfərini Türkiyəyə etməklə həqiqətən, bizi məmnun etdi. Bir daha da sizlərin

hüzurunuzda dəyərli qardaşıma və nümayəndə heyətinə «Ölkəmizə xoş gəldiniz!» – deyirəm.

Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qardaş Azərbaycan ilə aramızdakı bütün əlaqələri – istər hərbi, istər siyasi, istər iqtisadi, istər ticari, mədəniyyət və təhsil sahələrində daha yüksək səviyyəyə çatdıracağına heç şübhə etmirik. Bu mexanizmin uğurla işləməsi atacağımız addımların daha güclü olacağını göstərir.

Siyasi sahədə Türkiyə ilə Azərbaycan arasında hər hansı bir problemdən söhbət belə, gedə bilməz. Hərbi sahədə əməkdaşlığımız artaraq davam edir. İqtisadi-ticari əlaqələr sahəsində ticarət dövriyyəsi bu il 5 milyard dollara çatdı, belə bir səviyyəyə nail olduq. Amma təbii ki, bizim əsas hədəfimiz bu göstəricini 2023-cü ildə 15 milyard dollara çatdırmaqdır. Əminəm ki, bu əzm, bu qətiyyət, bu siyasi iradə hər iki ölkədə vardır. Buna nail olmaq bu kadrların əlindədir. İnşallah, buna da nail olacağıq.

Son dərəcə ətraflı və səmimi fikir mübadiləsi apardıq, ikitərəfli əlaqələrimizə, milli təhlükəsizliyimizə dair mövzuları regional və beynəlxalq məsələlər çərçivəsində müzakirə etdik. Təbii ki, Dağlıq Qarabağ probleminin həlli ilə bağlı müzakirələrin hazırkı mərhələsində son məlumatları da öyrənmiş oluruq. Amma görünən odur ki, təəssüf, Minsk qrupu bu məsələdə hələ də qətiyyətli bir addım atmamaqla, bu proses bir vaxt itirmə taktikası ilə davam etdirilir. Münaqişə ilə bağlı beynəlxalq qərarların qəbul edilməsinə baxmayaraq, bu prosesin hələ də vaxt itirmə taktikası ilə davam etdirilməsi üzücüdür. Xüsusən bu məqamı burada yenidən xatırlatmaq istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həlli istiqamətində Azərbaycana dəstəyimiz bundan sonra da eyni qətiyyətlə davam edəcəkdir. Son dərəcə həssas olduğumuz, hər fürsətdə də dilə gətirdiyimiz bu mövzuda Türkiyə olaraq bizim mövqemiz qətidir. Görüşümüzdə bu məsələləri də ayrıca müzakirə etdik və bundan geriyə addım atmağımız əsla mümkün deyildir.

Təbii ki, bütün bunlarla yanaşı, xüsusən strateji əməkdaşlıqda müdafiə artıq çox böyük əhəmiyyət kəsb edir. Bununla yanaşı,

enerji iki ölkə arasında çox böyük önəmə malikdir. Bilirsiniz ki, artıq dünya layihəsinə çevrilən TANAP-la bağlı addımlar atıldı. Burada istər boru istehsalında və təminatında, istərsə də podrat xidmətlərində Türkiyə firmaları üstünlük təşkil edir. TANAP layihəsinin həyata keçməsi ilə birlikdə, təbii ki, Azərbaycanın mövqeyindən tutmuş, Türkiyənin mövqeyi və buradakı strateji önəm daha çox artacaqdır. Bununla bağlı addımlar atıldı. 2015-ci il bu məsələdə böyük önəm kəsb edir.

Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi, inşallah, bu yaxınlarda açılışa hazır olacaq. Bunun açılışını da, inşallah, hamımız birlikdə, Allah ömür versə, həyata keçirəcəyik. Bu eyni zamanda, Pekin–İstanbul xəttinin açılması deməkdir. Mərmərənin burada başa çatması ilə birlikdə bu xətt işlək vəziyyətə gəlib. Bu xətt İstanbuldan Bakıya, oradan ta Pekinə qədər uzanacaq. Bunlar belə bir sərmayələrdir. Ona görə bu sərmayələrin həqiqətən, böyük önəmi vardır. Biz bununla bağlı bu prosesi, inşallah, uğurla davam etdirəcəyik.

Bütün bunlarla yanaşı, xüsusilə daha əvvəl tamamlanmış Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz boru kəmərləri də bilirsiniz ki, bizim üçün strateji əhəmiyyətini qoruyub saxlayır.

Bu mövzu ilə bağlı atılması vacib olan digər önəmli addım da Qərbi Avropadan çıxan bir qatar, inşallah, bu dediyimiz dəmir yolu sistemi ilə Xəzər sahillərinə və oradan da Aktau və Türkmənbaşı limanları vasitəsilə Pekinə çatacaq. Burada bunu da xüsusilə qeyd etmək istərdim.

Bu il Türkiyə «G-20»nin ev sahibidir. Biz «G-20»nin ev sahibliyi məsələsində haqqımız olan bir səlahiyyətdən Azərbaycan üçün istifadə etdik. Bu il «G-20»də Azərbaycan da bizim dəvətimizlə yerini alacaq. İndi «G-20»yə hazırlıq işlərindən başlayaraq, bu tədbirdə aparılacaq müzakirələrdə Azərbaycan bizimlə birlikdə olacaq.

Bu ilin digər mühüm tədbiri də bilirsiniz ki, 24 aprel – Çanaqqala döyüşünün 100-cü ildönümüdür. Aprelin 24-də keçiriləcək bu tədbir üçün dünyanın bir çox dövlət və hökumət rəhbərlərinə dəvət göndərdik. Amma təbii ki, xüsusilə İlham

Əliyev qardaşımla birlikdə, inşallah, aprelin 24-də Çanaqqalada birlikdə olacağıq.

Mən bir daha zati-alilərinin şəxsində nümayəndə heyətinin üzvlərinə «Ölkəmizə xoş gəlmisiniz!» – deyir və bu iclasımızın hər iki ölkə üçün xeyirli olmasını Allahdan arzu edirəm.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Çox sağ olun, əziz qardaşım, hörmətli cənab Prezident!

İlk növbədə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdaram. Siz qeyd etdiyiniz kimi, bu il mən ilk rəsmi səfərimi Türkiyəyə – qardaş ölkəyə edirəm. Bu da təbiidir. Çünki bu, artıq gözəl bir ənənədir. Eyni zamanda, bu səfər bizə imkan verdi ki, bu il ərzində görüləcək işləri bir daha müzakirə edək və birgə fəaliyyət planımızı təsdiq edək.

Bu gün imzalanan Birgə Bəyanatda Türkiyə–Azərbaycan əlaqələrinin əvvəlki dövrü, görülən və görüləcək işlər öz əksini tapıbdır. Bu gün Strateji Əməkdaşlıq Şurasının IV toplantısında müzakirə olunan məsələlər və bu məsələlərin həlli, əlbəttə ki, Türkiyə–Azərbaycan qardaşlıq əlaqələrini daha da yüksək pilləyə qaldıracaqdır.

Bizim əlaqələrimiz tarixi köklərə, xalqlarımızın qardaşlığına söykənir və bu gün bu əlaqələr dünyada ən yaxın əlaqələrdir. Bu gün dünyada Türkiyə və Azərbaycan kimi bir-birinə bağlı olan, yaxın olan ikinci ölkələr yoxdur və bu birliyi təsdiqləyən bir çox məqamlar var. Onlardan biri də əziz qardaşımın dediyi kimi, Türkiyənin Azərbaycanı «G-20»yə dəvət etməsidir. Bu bizim üçün böyük şərəfdir. İlk növbədə, ona görə ki, bu dəvət Türkiyədən gəlmişdir və bu həm Türkiyə və Azərbaycan xalqlarına, həm də bütün dünya xalqlarına bir daha göstərir ki, biz bir-birimizə nə qədər yaxınıq, bir-birimizə nə qədər bağlıyıq. Bu dəvətə və Azərbaycana göstərdiyiniz bu diqqətə görə, əziz qardaşım, şəxsən Sizə minnətdaram və əminəm ki, Türkiyə–Azərbaycan dostluq, qardaşlıq əlaqələri bundan sonra da uğurla davam etdiriləcəkdir.

Biz eyni zamanda, aprelin 24-də Çanaqqala zəfərini də birlikdə qeyd edəcəyik və bu tarixin seçilməsinə görə də öz adımdan və bütün Azərbaycan xalqı adından Sizə çox minnətdaram. Bu tarixin seçilməsi çox müdrik bir addımdır. Əminəm ki, bizim xalqlarımız bunu layiqincə qiymətləndirəcəklər.

O ki qaldı bugünkü toplantıya, əziz qardaşımın qeyd etdiyi kimi, bir çox məsələlər müzakirə olundu, qərarlar verildi, nazirlər öz aralarında görüşlər keçirdilər və əminəm ki, bütün bu məsələlərin həlli bizi bir-birimizə daha da yaxın edəcək.

Müdafiə sahəsində əməkdaşlıq artır. Biz Türkiyədən çoxlu silah-sursat alırıq. Eyni zamanda, artıq Azərbaycanda müdafiə sənayesi məhsullarının birgə istehsalı haqqında da bu gün fikir mübadiləsi aparılmışdır. Biz Türkiyənin böyük uğurlarına sevinirik. Türkiyə bu gün dünya miqyasında bir güc mərkəzidir. Türkiyə nə qədər güclü olarsa, Azərbaycan bir o qədər güclü olacaq. Bizim gücümüz, əlbəttə ki, siyasi, iqtisadi və hərbi gücümüzdür. Ona görə müdafiə sahəsində əməkdaşlığın dərinləşməsi üçün bizim böyük planlarımız var. Qeyd etməliyəm ki, keçən il bir neçə gün ərzində Azərbaycanda Türkiyə–Azərbaycan birgə hərbi təlimləri keçirilmişdir. Bu təlimlər bundan sonra mütəmadi qaydada keçiriləcəkdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər də müzakirə edildi. Bir daha cənab Prezidentə minnətdarlıq bildirdim ki, Türkiyənin mövqeyi dəyişməz olaraq qalır. Türkiyə bu məsələdə ədaləti, haqqı, beynəlxalq hüququ dəstəkləyir, öz qardaşlarını dəstəkləyir.

Bildiyiniz kimi, uzun illər Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan torpaqları işğal altındadır. Halbuki, BMT Təhlükəsizlik Şurası – dünyanın ən üst qurumu 4 qətnamə qəbul etmişdir ki, Ermənistanın işğalçı qüvvələri bu torpaqlardan çıxsın. Bu qətnamələr icra edilmir. Bu onu göstərir ki, Ermənistan sülh istəmir və əfsuslar olsun ki, Minsk qrupu da bu işlərdə heç bir nəticə hasil edə bilmir. Fəaliyyət var, ancaq nəticə, əfsuslar olsun ki, yoxdur. Keçən il danışıqlar prosesində müəyyən irəliləyiş müşahidə olunurdu. Ancaq Ermənistanın təxribat xarakterli

addımları, xüsusilə işğal edilmiş torpaqlarda, Ağdam rayonu ərazisində noyabr ayında genişmiqyaslı təlimlər keçirməsi və Azərbaycan mövqelərinə hücum çəkməsi, əlbəttə ki, Azərbaycan tərəfindən layiqli cavabla qarşılandı, düşmən yerinə oturduldu. Ancaq bu, əlbəttə ki, danışıqlar prosesinə müsbət təsir göstərmədi. Bu münaqişə yalnız ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü bərpa edəcək. Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq.

Bu gün Türkiyə–Azərbaycan birliyi, əməkdaşlığı dünya çapında önəmli bir amildir və bu amili heç kim inkar edə bilməz. Ən böhranlı illərdə belə, Türkiyə və Azərbaycan inkişaf edir, insanların rifah halı yaxşılaşır, dünya miqyasında bizim rolumuz artır, beynəlxalq mövqelərimiz möhkəmlənir. Bu, deməyə əsas verir ki, gələcək illərdə də Türkiyə və Azərbaycan inkişaf edəcək və biz daha böyük tərəqqi görəcəyik.

İqtisadi sahədə gözəl əməkdaşlıq var. Bu gün Şuranın iclasında rəqəmlər səsləndi. Son illərdə Azərbaycan Türkiyəyə və Türkiyə də Azərbaycana milyardlarla dollar sərmayə qoymuşdur. 2020-ci ilə qədər Türkiyəyə qoyulacaq Azərbaycan sərmayələrinin həcmi 20 milyard dollara çatacaq. Türkiyə şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərmiş və 10 milyard dollar həcmində layihələr icra etmişlər. Əlbəttə ki, «Cənub Qaz Dəhlizi»nin icrası enerji sahəsindəki əməkdaşlığı daha da dərinləşdirəcək və burada biz artıq çoxtərəfli əməkdaşlığa qədəm qoyuruq. Burada Türkiyə, Azərbaycan, Gürcüstan və «Cənub Qaz Dəhlizi»nin digər üzvləri fəal, birgə fəaliyyət göstərməlidirlər. Gələn ay Bakıda «Cənub Qaz Dəhlizi»nin birinci Məşvərət Şurası keçiriləcək. Şuranın iclasında bu layihənin icrası ilə bağlı konkret, dəqiq tövsiyələr veriləcək.

Mən onu da qeyd etməliyəm ki, «Cənub Qaz Dəhlizi»nin təməli təxminən 3 il bundan əvvəl İstanbulda qoyulmuşdur. Əziz qardaşımla biz TANAP layihəsinə imza atdıq. TANAP layihəsi əslində «Cənub Qaz Dəhlizi»nin bel sütunudur, yəni təməlidir. Beləliklə, bizim qəbul etdiyimiz qərar bu gün dünyanın çox böyük

layihəsinə çevrilmişdir. «Cənub Qaz Dəhlizi» və «Şahdəniz» yatağının işlənilməsi hazırda Avropanın ən böyük infrastruktur layihəsidir. Bu layihəyə ümumilikdə 45 milyard dollar sərmayə qoyulacaq.

Digər məsələlərə gəldikdə, qeyd etməliyəm ki, həm Bakı–Tbilisi–Qars dəmir yolu, eyni zamanda, digər layihələr vaxtında icra ediləcək. Bu gün müzakirə olunan hər bir məsələ özlüyündə nəhəng, böyük bir layihədir. TANAP, Bakı–Tbilisi–Qars, digər layihələr – bunlar strateji əhəmiyyətə malikdir və burada Türkiyə və Azərbaycan aparıcı rol oynayır. Əminəm ki, bütün bu layihələr vaxtında icra ediləcək.

Bu il Türkiyədə bir neçə tədbir olacaqdır – Çanaqqala tədbiri, TANAP layihəsinin icrası ilə bağlı olan tədbir və digər tədbirlər. Yəni Allah nəsib edərsə, bu il biz Türkiyədə tez-tez olacağıq və əziz qardaşımı, təbii ki, Azərbaycana bir daha dəvət edirəm. Bizim tez-tez görüşlərimiz olur. Bu görüşlər xalqlarımızı, ölkələrimizi daha da sıx birləşdirir və Türkiyə–Azərbaycan gücünü daha da artırır.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına dövlət səfəri yanvarın 15-də başa çatmışdır.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Ankaranın «Esenboğa» Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Türkiyənin yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

## YAPONİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MİNORU KİUÇİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Yaponiyanın Xarici İşlər nazirinin müavini Minoru Kiuçinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Yaponiya arasında ikitərəfli əlaqələrin inkişafının razılıq doğurduğunu vurğuladı. Ölkələrimiz arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğunu deyən prezident İlham Əliyev bu münasibətlərin digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı əsas yaratdığını qeyd etdi. Yaponiya şirkətlərinin iştirakı ilə Azərbaycanda həyata keçirilən layihələrin önəmini qeyd edən dövlətimizin başçısı kənd təsərrüfatı, texnoparkların və neft-kimya komplekslərinin yaradılması, yüksək texnologiyalar və informasiya texnologiyaları sahələrində əməkdaşlıq üçün də yaxşı imkanların olduğunu dedi.*

*Yaponiyanın Xarici İşlər nazirinin müavini Minoru Kiuçi Yaponiyanın Azərbaycan ilə əməkdaşlığın müxtəlif sahələrdə, o cümlədən kənd təsərrüfatı, texnoparkların və neft-kimya komplekslərinin yaradılması, yüksək texnologiyalar, informasiya texnologiyaları və digər sahələrdə genişləndirilməsində maraqlı olduğunu dedi.*

## ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*20 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də – Ümumxalq Hüzn Günündə 20 Yanvar şəhidlərinin xatirəsini yad etmişdir.*

*Qanlı Yanvar hadisələrindən 25 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 25 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək, şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.*

*SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın o zamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın o vaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən tutmaqda davam etdilər.*

*Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da ulu öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.*

*Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə – azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcəkdir.*

*Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını pozmuşdu.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar – Ümumxalq Hüzn Günü elan edildi.*

*Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.*

* * *

*Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldi.*

*Prezident İlham Əliyev «Əbədi məşəl» abidəsi önünə əklil qoydu.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səsləndi.*

*Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.*

## ALMANİYAYA İŞGÜZAR SƏFƏR

*20 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Almaniya Federativ Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Berlinin «Tegel» Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

## ALMANİYA–AZƏRBAYCAN FORUMUNUN ÜZVLƏRİ VƏ BUNDESTAQIN DEPUTATLARI İLƏ GÖRÜŞ

*Berlin*

*20 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Berlində Almaniya–Azərbaycan Forumunun üzvləri, Almaniya Bundestaqının Xristian-Demokratlar və Xristian-Sosialistlər, Sosial-Demokratlar və Yaşıllar partiyalarından olan deputatları, Bundestaqda fəaliyyət göstərən komitələrin rəhbərləri və üzvləri ilə görüşmüşdür.*

*Səfər çərçivəsində prezident İlham Əliyevin Almaniya–Azərbaycan Forumunun üzvləri ilə görüşünün önəmi qeyd edildi. Azərbaycan ilə Almaniya arasında siyasi, iqtisadi, mədəniyyət, elm və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı səmərəli fikir mübadiləsinin aparılması baxımından bu görüşün əhəmiyyəti vurğulandı. Ölkələrimiz arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi, parlamentlərarası əlaqələrin bu prosesə mühüm töhfə verdiyi bildirildi.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyi barədə görüş iştirakçılarına ətraflı məlumat verdi. Dövlətimizin başçısı münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Almaniya arasında energetika sahəsində əməkdaşlıq, iqtisadi əlaqələr, informasiya texnologiyaları,*

*tibb sahəsində əməkdaşlıq, yeni alman şirkətlərinin Azərbaycan iqtisadiyyatında iştirakı da müzakirə olundu. Bundan əlavə, ölkələrimizin parlamentlərarası əlaqələri, beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən Avropa Şurası və Avropa İttifaqında əməkdaşlıq, «Şərq Tərəfdaşlığı» Proqramında iştirakla bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı. Bu əlaqələrdə Azərbaycana münasibətin ədalətli olmasının zəruriliyi vurğulandı.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ XARİCİ İŞLƏR ÜZRƏ FEDERAL NAZİRİ FRANK-VALTER ŞTAYNMAYER İLƏ GÖRÜŞ

*Berlin*

*20 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Berlində Almaniya Federativ Respublikasının Xarici İşlər üzrə Federal naziri Frank-Valter Ştaynmayer ilə görüşmüşdür.*

*Almaniyanın Xarici İşlər üzrə Federal naziri Frank-Valter Ştaynmayer Azərbaycana son səfəri zamanı keçirdiyi səmərəli görüşləri xatırlatdı, həmin səfərin məhsuldar olduğunu bildirdi.*

*Söhbət zamanı Azərbaycan ilə Almaniya arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və perspektivləri, eləcə də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair fikir mübadiləsi aparıldı.*

## MÜNHEN BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK KONFRANSININ SƏDRİ VOLFQANQ FREDRİK İŞİNGER İLƏ GÖRÜŞ

*Berlin*

*20 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Berlində Münhen Beynəlxalq Təhlükəsizlik Konfransının sədri Volfqanq Fredrik İşinger ilə görüşmüşdür.*

*Görüşdə Münhen Beynəlxalq Təhlükəsizlik Konfransının regional təhlükəsizliyə və beynəlxalq əməkdaşlığa töhfə verdiyi qeyd olundu, digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# ALMANİYA FEDERATİV RESPUBLİKASININ KANSLERİ ANGELA MERKEL İLƏ GÖRÜŞ

*Berlin*

*21 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Berlində Almaniya Federativ Respublikasının Kansleri Angela Merkel ilə görüşmüşdür.*

*Almaniya Federativ Respublikasının Kansleri Angela Merkel bu səfəri ikitərəfli münasibətlərin perspektivlərinin müzakirəsi üçün önəmli səfər kimi dəyərləndirdi. Almaniyanın Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu deyən xanım Kansler ölkəmizin Avropanın enerji təminatının şaxələndirilməsində, TAP, TANAP kimi nəhəng enerji layihələrinin həyata keçirilməsində, eləcə də «Şərq Tərəfdaşlığı» Proqramında mühüm rol oynadığını bildirdi. Angela Merkel Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində, ölkəmizdə infrastruktur layihələrinin icrasında Almaniyanın yeni şirkətlərinin iştirak etməkdə maraqlı olduqlarını diqqətə çatdırdı.*

*İkitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini deyən prezident İlham Əliyev bu səfərin əlaqələrimizin gələcək inkişafı ilə bağlı fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaratdığını bildirdi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü, rəsmi İrəvanın qeyri-konstruktiv mövqeyi, danışıqların hazırkı prosesi barədə ətraflı məlumat verdi.*

*Prezident İlham Əliyev xeyli sayda alman şirkətinin Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində fəal iştirakını*

*məmnunluqla* qeyd etdi, *əməkdaşlığın* daha da *genişləndirilməsi üçün yaxşı potensialın olduğunu* bildirdi. *Dövlətimizin başçısı Azərbaycan–*Avropa *İttifaqı əlaqələrinə* toxunaraq bu *münasibətlərin uğurla inkişaf* etdiyini bildirdi.

*Görüşdə* regional, *beynəlxalq və qarşılıqlı* maraq *doğuran digər məsələlər ətrafında* fikir *mübadiləsi aparıldı.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ KANSLERİ ANGELA MERKEL İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*Berlin*

*21 yanvar 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Kansleri Angela Merkelin yanvarın 21-də Berlində mətbuat konfransı olmuşdur.*

*Kansler Angela Merkel və prezident İlham Əliyev əvvəlcə bəyanatlarla çıxış etmişlər.*

### Almaniya kansleri Angela Merkelin bəyanatı

Mən şadam ki, bu gün Azərbaycan dövlətinin başçısı İlham Əliyev yenidən Berlindədir. Bizim sonuncu görüşümüz 5 il bundan əvvəl olub. Nəzərə alsaq ki, Azərbaycanın iqtisadiyyatı dinamik şəkildə inkişaf edir, buna görə bu ölkə bizim üçün əhəmiyyəti artan tərəfdaşdır. Azərbaycan böyük potensiala, əsasən də neft və qaz kimi resurslara malikdir. Düşünürəm ki, Azərbaycan həm Almaniya, həm də digər Avropa ölkələrinin enerji şaxələndirilməsinə böyük töhfə verə bilər. Bu mənada «Cənub Qaz Dəhlizi» layihəsini dəstəkləyirik.

Biz Azərbaycan Prezidenti ilə müxtəlif mövzular ətrafında fikir mübadiləsi apardıq. Xüsusən də Azərbaycanda insan hüquqlarının vəziyyəti, həmçinin regionda baş verən geosiyasi vəziyyət haqqında danışdıq. Biz Dağlıq Qarabağ münaqişəsi barədə də fikir mübadiləsi apardıq. Almaniya da münaqişənin həllində vasitəçi olmaq istəyir. Düşünürük ki, Avropa Şurası, Avropa İttifaqı bu

istiqamətdə bir təşəbbüslə çıxış edərək, münaqişənin həllinə müəyyən töhfəsini verə bilər. Bununla bağlı Azərbaycan Avropa Komissiyası ilə danışıqlar aparacaq. Ukrayna və Rusiya arasındakı münaqişə ilə əlaqədar da müzakirələrimiz oldu. Eyni zamanda, Azərbaycanın «Şərq Tərəfdaşlığı» Proqramında iştirakı ilə bağlı danışdıq. Azərbaycan Avropa İttifaqı ilə əməkdaşlığını davam etdirməkdədir və «Şərq Tərəfdaşlığı» Proqramına üzv olmaqla, bu layihəyə töhfəsini verəcək.

Eyni zamanda, biz Dağlıq Qarabağ münaqişəsini də müzakirə etdik. Bu münaqişə yaxşı olar ki, sülh yolu ilə aradan qaldırılsın. Bu mənada hər iki dövlət səylərini göstərməlidir və düşünürəm ki, Sizin səfəriniz bu mənada töhfəsini verəcək. Həmçinin Azərbaycan bir tərəfdaş kimi, Almaniya və Avropanın enerji təchizatında böyük rol oynayır. Mən Almaniyaya səfər etdiyinizə görə şadam və Sizə təşəkkür edirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Çox sağ olun, xanım Kansler! İlk növbədə, məni Almaniyaya səfərə dəvət etdiyiniz üçün Sizə minnətdaram. Yenidən ölkənizdə olmağımdan çox məmnunam.

Siz qeyd etdiyiniz kimi, ikitərəfli əlaqələrimizin gündəliyi çox genişdir, müxtəlif sahələri əhatə edir və bu gün biz bu məsələləri çox açıq, səmimi şəkildə müzakirə etdik.

Siyasi əlaqələrimiz uğurla inkişaf edir. Əminəm ki, mənim səfərim siyasi əlaqələrimizin inkişafına yeni təkan verəcək. Siyasi əlaqələr bütün başqa sahələrə də müsbət təsir göstərir və əlbəttə, iqtisadi əməkdaşlıq da bu gün gündəlikdədir. Azərbaycanda çoxsaylı alman şirkətləri fəaliyyət göstərir. Biz onların fəaliyyətini dəstəkləyirik. Hesab edirəm ki, Almaniya şirkətləri gələcəkdə həm podratçı kontraktor, həm investor kimi Azərbaycanda daha da böyük işlər görə bilər. Nəzərə alsaq ki, Azərbaycan iqtisadiyyatı dinamik şəkildə inkişaf edir, çoxsaylı infrastruktur layihələri icra olunur, əlbəttə ki, alman şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyəti davam etdiriləcəkdir.

Xanım Kansler qeyd etdiyi kimi, bu gün biz eyni zamanda, regional təhlükəsizlik məsələlərinə də toxunduq. İlk növbədə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün prioritet məsələdir. Bu münaqişə həm Azərbaycan, həm də region üçün böyük təhlükə mənbəyidir. Bildiyiniz kimi, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan əraziləri uzun illər ərzində Ermənistan ordusu tərəfindən işğal edilibdir. Torpaqlarımızın 20 faizi işğal altındadır. 1 milyondan çox azərbaycanlı bu işğaldan əziyyət çəkir, qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Beynəlxalq təşkilatlar, ilk növbədə BMT Təhlükəsizlik Şurası münaqişənin həlli ilə bağlı qətnamələr qəbul etmişdir. BMT Təhlükəsizlik Şurası tərəfindən 4 qətnamə qəbul edilmişdir. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması tələb olunur. Əfsuslar olsun ki, Ermənistan buna məhəl qoymur və sadəcə olaraq, status-kvonu olduğu kimi saxlamaq istəyir. Bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır, bütün başqa münaqişələr kimi, vahid bir yanaşma olmalıdır.

Enerji təhlükəsizliyi, əlbəttə ki, bu gün Avropa ilə Azərbaycan arasında gedən danışıqların, demək olar, əsas mövzusudur. Azərbaycan öz rolunu oynayır. Azərbaycan tərəfindən irəli sürülmüş layihələr Avropanın enerji xəritəsini dəyişdirir. Avropanın enerji təhlükəsizliyi gələcəkdə, həmçinin Azərbaycanın hesabına təmin ediləcəkdir. 2012-ci ildə TANAP layihəsinə start verildi, 2013-cü ildə TAP layihəsi əsas ixrac marşrutu kimi seçildi. Keçən ilin sonunda «Cənub Qaz Dəhlizi»nin təməl daşı qoyuldu. Bütün bu layihələrin təşəbbüskarı Azərbaycandır. Eyni zamanda, Azərbaycan bu layihələrin icrası üçün böyük maliyyə yükünü öz üzərinə götürür və əminəm ki, bütün işlər vaxtında icra ediləcək. TANAP layihəsi 2018-ci ildə, TAP layihəsi isə ondan 1 il sonra işə düşəcəkdir. Buna nail olmaq üçün, əlbəttə ki, Avropa İttifaqı ilə Azərbaycan arasında bu sahədə daha da sıx əməkdaşlıq aparılmalıdır. Onu da bildirməliyəm ki, bizim təşəbbüsümüzlə gələn ay Bakıda «Cənub Qaz Dəhlizi»nin birinci Məşvərət

Şurası keçiriləcəkdir və əminəm ki, bütün məsələlər orada müzakirə ediləcək.

Bir daha demək istəyirəm ki, mən bugünkü səfərimi çox yüksək qiymətləndirirəm. Almaniya–Azərbaycan əlaqələri böyük potensiala malikdir. Bu gün qəbul edilmiş qərarlar, aparılan diskussiya bu əlaqələrin inkişafına böyük töhfə verəcəkdir. Sağ olun.

* * *

*Sonra jurnalistlərin sualları cavablandırıldı.*

**S u a l** *(AZƏRTAC-ın Almaniya üzrə xüsusi müxbiri Vüqar Seyidov):* **Sualım xanım Merkelədir. Xanım Merkel, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi 20 ildən artıqdır ki, davam edir. Cənab Prezident qeyd etdiyi kimi, Azərbaycanın işğal olunmuş ərazilərindən erməni işğalçı qüvvələrinin qeyd-şərtsiz çıxarılması ilə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən 4 qətnamə, eləcə də digər mühüm beynəlxalq təşkilatlar tərəfindən müvafiq qərarlar qəbul edilib. Lakin Ermənistan bu günədək bu qətnamə və qərarlara məhəl qoymayaraq Azərbaycan torpaqlarının işğalını davam etdirir. Dünyada belə hallarda ölkələrə qarşı sanksiyalar tətbiq edilir. Amma Ermənistana qarşı heç bir sanksiya tətbiq olunmayıb. Bu, ikili standartların təzahürü deyilmi?**

**A n g e l a  M e r k e l:** Biz Dağlıq Qarabağ mövzusu haqqında danışdıq. Mən bunu qeyd etdim. Bildiyiniz kimi, biz ATƏT-in Minsk qrupunun üzvüyük. Fransa, Rusiya və Amerika onun həmsədrləridir və biz bu kontekstdə aparılan danışıqları dəstəkləyirik. Biz görürük ki, cənab prezident Əliyev ermənistanlı həmkarı ilə görüşür, söhbətlər və danışıqlar aparır. Düşünürük ki, bu münaqişə ilə əlaqədar yalnız bir yol var – sülh yolu. Təbii ki, atəşkəsin tez-tez pozulması xoşagəlməz haldır. Mən düşünürəm ki, Rusiya bu məqamda müəyyən rol oynayır. Mən sadəcə olaraq, bunu qeyd etmək istərdim. Düşünürəm ki, Rusiya və

Ermənistan bu münaqişə ilə əlaqədar müəyyən amilləri birgə həyata keçirirlər.

**S u a l: Xanım Kansler, Siz Ukrayna münaqişəsini də qeyd etdiniz, xarici işlər nazirlərinin bu gün burada görüşləri keçiriləcək. Sizcə, xarici işlər nazirləri səviyyəsində bu görüş hansı nəticəyə gətirəcək? Poroşenko, Olland və Putin bir araya gələcəklərmi? Siz bu görüşdən nə gözləyirsiniz? Sizcə, Ukraynanın ərazi bütövlüyü yenidən bərpa olunacaqmı? Xanım Kansler, Siz mətbuat azadlığı ilə əlaqədar nə edə bilərsiniz?**

**A n g e l a M e r k e l:** Təbii ki, siyasi durum çox çətindir. Mən şadam ki, hər 4 Xarici İşlər naziri bu gün görüşür. Yaxşı olardı ki, Astanada 4 ölkənin nümayəndələrinin toplantısı, yəni baş toplantısı reallaşsın və prezidentlər görüşsün. Təbii, xoşagəlməz haldır ki, bu heç bir müsbət nəticə verməsin. Mən əminliklə heç nə deyə bilmərəm ki, xarici işlər nazirlərinin bu görüşü hansı nəticəyə gətirəcək. Bizdə olan məlumata görə, atəşkəs mütəmadi şəkildə pozulur və Minsk Sazişinə riayət olunmur. Minsk Sazişi, əlbəttə, danışıqların aparılması üçün əsas təşkil edir. Rusiya da təbii ki, Minsk Sazişinin qaydalarına riayət etsə, yaxşı olar.

**S u a l: Cənab Prezident, Sizcə, Ukraynanın ərazi bütövlüyü yenidən bərpa edilə bilər, ya yox? İkinci sual, Azərbaycanda mətbuat azadlığı yenidən necə bərpa edilə bilər ki, Sizin reytinqiniz yaxşı olsun?**

**İ l h a m Ə l i y e v:** Mənim reytinqimdə heç bir problem yoxdur. Azərbaycanda keçirilən sorğulara görə mənim reytinqim 90 faizə yaxındır. Bu da yəqin ki, son illər ərzində Azərbaycanda aparılan islahatlarla bağlıdır. Deyə bilərəm ki, Azərbaycan son 11 il ərzində iqtisadi cəhətdən dünyanın ən sürətlə inkişaf edən ölkəsidir. İqtisadiyyat 3 dəfədən çox artmışdır, işsizlik də, yoxsulluq da 5 faiz səviyyəsindədir. Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabliyyətliliyinə görə 38-ci yerə layiq görüb. Belə

nəticələrlə, əlbəttə ki, hər bir rəhbərin reytinqi yüksək olmalıdır. Ona görə Azərbaycanda bu problem yoxdur.

O ki qaldı azadlıqlarla bağlı suala, deyə bilərəm ki, Azərbaycanda bütün azadlıqlar təmin edilir. Söz azadlığı 100 faiz təmin edilir. Azərbaycanda yüzlərlə mətbu orqan fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycanda internetə heç bir məhdudiyyət qoyulmur, internet azaddır, senzura yoxdur. Azərbaycanda internet istifadəçilərinin sayı 75 faizə yaxındır. Yəni heç bir problem yoxdur. Ona görə mətbuat azadlığı tam şəkildə təmin edilir.

Eyni mənzərə sərbəst toplaşmaq azadlığına da şamil edilə bilər. Azərbaycanda müxtəlif siyasi qrupların mütəmadi qaydada, azad şəkildə mitinqləri keçirilir, heç bir məhdudiyyət qoyulmur. Bütövlükdə, son illərdə Azərbaycanda demokratiyanın inkişafı ilə bağlı böyük inkişaf var. Əlbəttə ki, bu bizim üçün çox vacibdir. Çünki mən tam əminəm ki, siyasi islahatlar iqtisadi islahatlarla paralel şəkildə aparılmalıdır. Ancaq bu təqdirdə ölkələr dayanıqlı uğura nail ola bilərlər.

O ki qaldı ərazi bütövlüyü məsələsinin həllinə, biz bütün ölkələrin ərazi bütövlüyünü tanıyırıq. Əlbəttə, biz istəyirik ki, bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanısın. Çünki Azərbaycanın ərazi bütövlüyü 20 ildən çoxdur ki, Ermənistan tərəfindən pozulubdur. Biz Ukraynanın ərazi bütövlüyü ilə bağlı BMT-nin Baş Məclisində aparılan səsvermədə də Ukraynanın ərazi bütövlüyünü açıq şəkildə dəstəkləmişik. Hesab edirik ki, bu, beynəlxalq hüququn əsas prinsipidir. Ərazi bütövlüyü ölkələrin razılığı olmadan dəyişdirilə bilməz. Əgər bu pozulursa, əlbəttə ki, bu, bərpa olunmalıdır.

**S u a l** *(«Trend» İnformasiya Agentliyinin müxbiri Sevil Mikayılova):* **Sualım xanım Merkelədir. Azərbaycan–Almaniya əlaqələrinin zəngin tarixi var. İkitərəfli münasibətlərimiz bu gün müxtəlif sahələrdə uğurla inkişaf edir. Almaniyanın dünya iqtisadiyyatındakı aparıcı rolunu və eləcə də Azərbaycanın Cənubi Qafqaz regionunda ən güclü iqtisadiyyata malik olmasını nəzərə alsaq, əlaqələrimizin**

**daha da genişləndirilməsinin perspektivləri barədə nə deyərdiniz və bu əlaqələri regional əməkdaşlığın möhkəmləndirilməsi baxımından necə dəyərləndirirsiniz?**

**A n g e l a  M e r k e l:** Mən düşünürəm ki, iqtisadi münasibətlərin inkişaf etdirilməsi, dərinləşdirilməsi üçün bizim potensialımız vardır. Azərbaycanla 2,5 milyard avro həcmində ticarət mübadiləsi mövcuddur. Amma düşünürəm ki, Azərbaycanda infrastrukturun yenidən bərpa olunması ilə əlaqədar biz əməkdaşlıq edə bilərik. Eyni zamanda, Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi ilə əlaqədar müəyyən töhfəmizi verə bilərik. Həmçinin alman şirkətləri təbii ki, hüquqi təhlükəsizliyi gözləyirlər. Cənab prezident Əliyev eyni zamanda, burada alman iqtisadiyyatının nümayəndələri ilə görüşmüş, bu haqda da söhbət aparmışdır. Mən düşünürəm ki, Azərbaycanda növbəti investisiyaların yatırılması üçün şans və potensial mövcuddur.

**S u a l: Xanım Kansler, Siz qeyd etdiniz ki, insan hüquqları ölkələr arasında ikitərəfli münasibətlərin inkişafı üçün böyük rol oynayır. Cənab Prezident, Siz dediniz ki, ölkənizdə bununla əlaqədar problem yoxdur. Amma düşünürəm ki, insan hüquqlarının pozulması əməkdaşlığı, belə deyək ki, nə dərəcədə qeyri-müsbət istiqamətə aparır. Eyni zamanda, hansısa bir mətbuat nümayəndəsinin tutulması ilə əlaqədar məlumat da verilmişdir.**

**A n g e l a  M e r k e l:** Azərbaycanla və digər ölkələrlə ikitərəfli münasibətləri, siyasi, iqtisadi əlaqələri inkişaf etdirmək bizim üçün böyük əhəmiyyətə malikdir və təbii ki, bu, sivil cəmiyyətin dəyərlərinin qorunmasının əsasını təşkil edir. Demokratiya, hüquqi dövlətçilik vacib amillərdən biridir. Biz bu haqda da fikir mübadiləsi apardıq. İnsan hüquqlarının həyata keçirilməsi ilə əlaqədar müəyyən tənqidi məqamlar da təbii ki, qeyd olunur və düşünürəm, biz Azərbaycan Prezidenti ilə eyni fikirdəyik ki, əməkdaşlığımızı intensivləşdirək, Alman Akademik Mübadilə Xidməti, GTZ, KfW ilə və digər təşkilatlarla əlaqələrimizi daha da sıxlaşdıraq. Düzdür, müəyyən məsələlərlə əlaqədar fikir müxtəlifliyi də mövcuddur və bu, normal haldır.

İkinci sualla, yəni Avropa Mərkəzi Bankı və bankların qiymətli kağızlarının alınması ilə əlaqədar qeyd etmək istəyirəm ki, Mərkəzi Bank müstəqil bir qurumdur və Frankfurtda da bununla əlaqədar Yeni il tədbiri çərçivəsində bu haqda söhbət aparılmışdı. Bu sahədə siyasi islahatların aparılması Avropa ölkələri üçün vacib bir amildir. Düşünürəm ki, biz Avropa ölkələri ilə bu haqda, yəni Mərkəzi Bankla əlaqədar hələ bir çox danışıqlar və islahatlar aparacağıq.

**S u a l: Cənab Prezident, insan hüquqları məsələsi ilə əlaqədar xanım Kansler Sizinlə söhbət etmişdir. Bilmək istərdim, Sizin bu məsələ ilə əlaqədar fikriniz necədir? Yəni Siz hakimiyyəti tənqid edən mətbuat üzvləri ilə əməkdaşlığa hazırsınızmı, açıqsınızmı?**

**İ l h a m  Ə l i y e v:** Əlbəttə, şübhəsiz. Çünki Azərbaycan artıq 2001-ci ildən Avropa Şurasının üzvüdür və Avropa Şurası qarşısında götürdüyü bütün öhdəlikləri vaxtında, şərəflə yerinə yetirir. Azərbaycanda qanunvericilikdə Avropa standartlarına yaxın olmaq üçün çoxsaylı qanunlar qəbul edilmişdir, praktik həyatda biz bunu görürük. Bir daha demək istəyirəm ki, Azərbaycanda bütün insan hüquqları təmin edilir və beynəlxalq təşkilatlar çərçivəsində bu məsələlər müzakirə olunur. Mən xanım Kanslerə dedim ki, insan hüquqlarının qorunmasında heç bir ölkə özünü kamil hesab edə bilməz. Hər bir ölkədə problemlər var, o cümlədən Azərbaycanda. Əsas məsələ ondadır ki, bu problemlər öz həllini necə tapır və hökumətin niyyəti nədən ibarətdir. Azərbaycanda tənqidi fikrə görə, ümumiyyətlə, fikrə görə heç kim təqib olunmur, heç kim həbs edilmir. Bir daha demək istəyirəm ki, Azərbaycanda söz azadlığı tam şəkildə təmin olunur, yüzlərlə mətbu orqan var. Bir daha xatırlatmaq istəyirəm ki, sərbəst və azad internet olan bir ölkədə söz azadlığı boğula bilməz. Hesab edirəm, bizim böyük nailiyyətimiz ondan ibarətdir ki, Azərbaycanda dini azadlıqlar tam şəkildə təmin edilib. Azərbaycanda multikulturalizm dəyərləri çox yüksək səviyyədə qorunur və bu baxımdan Azərbaycanın təcrübəsi başqa ölkələrdə öyrənilir. Azərbaycanda bütün dinlərin, bütün etnik qrupların nümayəndələri

bir ailə kimi yaşayırlar, heç bir qarşıdurma, anlaşılmazlıq yoxdur. Bir daha demək istəyirəm ki, biz bu yolu şüurlu şəkildə seçmişik. Biz ümumbəşəri dəyərlərə sadiqik, onları qoruyuruq. Əgər Azərbaycanda real vəziyyətə nəzər yetirsəniz görərsiniz ki, mənim sözlərimdə həqiqətdən başqa heç nə yoxdur. Əlbəttə, bu məsələlərin gələcək müzakirəsi də əminəm ki, bu sahədə görülən işlərə daha da böyük təkan verəcək, bu istiqamətdə əlavə addımlar atılacaq, islahatlar dərinləşdiriləcək. Bir daha qeyd etmək istəyirəm ki, siyasi islahatlar iqtisadi islahatlarla tamamlanır. Azərbaycanda müasir dövlət qurulur. Biz müstəqilliyimizin 24-cü ilini yaşayırıq. Hesab edirəm ki, bu illər ərzində Azərbaycan artıq özünü beynəlxalq arenada etibarlı və böyük hörmətə malik ölkə kimi təsdiqləyibdir.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına işgüzar səfəri yanvarın 21-də başa çatmışdır.*

*Berlinin «Tegel» Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

# QEYDLƏR

**1. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 5–24.

**2. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 5–24.

**3. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 6, 11, 61.

**4. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağın işğalına başladılar. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni silahlı qüvvələrinin tapdağı altındadır. – 6, 10, 28, 58, 119, 120, 130, 147, 148, 156, 244, 267, 283, 284, 314, 316, 319, 321, 324, 327, 328, 335, 337, 339, 341, 342, 344.

**5. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 6, 16, 41, 61, 73, 120, 265, 267, 282, 343, 344.

**6. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 6, 26, 304.

**7. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 9, 59, 60, 93, 110–124, 137, 203, 252–253, 267, 342.

**8. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi

təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 21, 26, 42, 57, 143, 147, 152–153, 159, 161, 169, 182, 192, 199, 202, 225–226, 227, 237–251, 259, 303, 332.

**9. Latviya,** L a t v i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 32.

**10. Andris Berzinş** (d.1944) – Latviyanın siyasi və dövlət xadimi. 2011–2015-ci illərdə Latviya Respublikasının Prezidenti olmuşdur. – 32.

**11. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 38.

**12. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 38, 239.

**13. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmış, 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 39, 293, 296, 321, 325, 329.

**14. Dünya İqtisadi Forumu,** Davos İqtisadi Forumu – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 41, 71, 265, 277.

**15. Şahin Mustafayev,** Şahin Abdulla oğlu (d.1965) – 2008–2013-cü illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, 2013–2016-cı illərdə isə İqtisadiyyat və Sənaye naziri olmuşdur. 2016-cı ilin yanvarından Azərbaycan Respublikasının İqtisadiyyat naziridir. – 47, 312, 322.

**16. Zakir Həsənov,** Zakir Əsgər oğlu (d.1959) – general-leytenant. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 51, 52.

**17. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min $km^2$, əhalisi 5,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 94, 153.

**18. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 57, 248–251.

**19. Murtuza Muxtarov** (1857–1920) – milli Azərbaycan burjuaziyasının və neft sənayesinin görkəmli nümayəndəsi. İri neft sahibkarı, mesenat Murtuza Muxtarovun adı daha çox Bakıda neftçıxarma texnologiyasının inkişafı ilə bağlıdır. Murtuza

Muxtarov, demək olar ki, Bakının bütün xeyriyyə cəmiyyətlərinin, həmçinin Peterburq müsəlman xeyriyyə cəmiyyətinin Fəxri üzvü və ali, orta ixtisas məktəblərinin tələbələri üçün 40 təqaüdün təsisçisi idi. Murtuza Muxtarov Bakıda bir sıra əzəmətli binalar tikdirmişdir. 1910-cu ildə Əmircan kəndində tikdirdiyi məscid indiyədək öz memarlıq quruluşu və üslubuna görə göz oxşayır. – 58.

**20. Hacı Zeynalabdin Tağıyev** (1838–1924) – məşhur mesenat, maarifpərvər Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz Səhmdar Cəmiyyəti»ni, Toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı Ticarət bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Savadı olmayan Hacı savadsızlığın acısını duymuş və buna görə də Vətən övladlarının, xüsusilə kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün Toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin Azərbaycan dilinə tərcümələri çap etdirir. 1905–11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» kəmərini çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 58.

**21. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 km$^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 58, 120, 244.

**22. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 59, 91, 93, 162, 229.

**23. Rumıniya,** R u m ı n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 238,4 min km$^2$, əhalisi 19,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 65, 93, 102.

**24. İordaniya,** İ o r d a n i y a H a ş i m i l ə r K r a l l ı-ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridir. – 66.

**25. II Abdullah,** A b d u l l a h b i n H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniya Haşimilər Krallığının Kralıdır. II Abdullah kvalifikasiyalı dalğıc, paraşütçü və pilotdur. – 66.

**26. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna

xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 69–79, 81, 152, 162, 218, 219, 227, 228, 237, 244, 245, 246, 247, 248, 249, 250, 251, 254, 255, 256, 258, 260, 262, 270, 309.

**27. Tomas Bax** (d.1953) – alman və beynəlxalq olimpiya hərəkatının nümayəndələrindən biri. 2013-cü ildən Beynəlxalq Olimpiya Komitəsinin prezidentidir. – 67–68, 69–79, 81.

**28. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarının Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəqlini nəzərdə tutur. – 72, 269, 276, 294, 295, 296, 329, 341, 343.

**29. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 72, 105, 106, 125, 156, 314, 336, 340, 342.

**30. Albaniya,** A l b a n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 87.

**31. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 93, 119, 120, 259, 267.

**32. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 93, 134, 136, 141, 259.

**33. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 93, 134, 138, 143, 144, 203, 259, 315–329.

**34. Trayan Besesku** (d.1951) – Rumıniyanın siyasi və dövlət xadimi. 2004–2014-cü illərdə Rumıniya Respublikasının Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 102.

**35. Şeyx Xəlifə bin Zaid əl-Nəhəyyan** (d.1948) – 2004-cü ildən Birləşmiş Ərəb Əmirliyinin Prezidentidir. – 107.

**36. Şeyx Məhəmməd bin Rəşid əl-Məktum** (d.1949) – Birləşmiş Ərəb Əmirliklərinin Baş naziri və vitse-prezidenti, Dubay

əmiri. 1971-ci ildən Ərəb Əmirliklərinin Müdafiə naziridir. – 108, 153.

**37. Laos,** Laos Xalq Demokratik Respublikası – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 236,8 min km$^2$, əhalisi 6,9 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Ali Xalq Məclisidir. Paytaxtı Vyentyan şəhəridir. – 109.

**38. Çoummali (Tyummali) Sayosone** (d.1936) – general-leytenant. 2006–2016-cı illərdə Laos Xalq Demokratik Respublikasının Prezidenti olmuşdur. – 109.

**39. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 119, 120, 121, 314.

**40. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 118, 187.

**41. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət par-

lamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 119, 120, 136, 259, 267, 273.

**42. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 120, 345.

**43. Fransua Olland** (d.1954) – Fransanın dövlət xadimi. 2012–2017-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 120, 273, 345.

**44. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaranmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin iki müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında bir yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcəsinin layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 125, 342.

**45. Tailand,** T a i l a n d K r a l l ı ğ ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 514 min km$^2$, əhalisi 70,5 milyon nəfərdir. Dövlət başçısı kraldır. Qanunverici orqanı ikipalatalı Milli Assambleyadır. İnzibati cəhətdən 73 çanqvata (əyalətə) bölünür. Paytaxtı Banqkok şəhəridir. – 131.

**46. Bhumibol Adulyadej** (1927–2016) – 1950–2016-cı illərdə (faktiki 1946-cı ildən) Tailand Krallığının Kralı olmuşdur. – 131.

**47. Əhməd Davudoğlu** (d.1959) – Türkiyənin siyasi xadimi, akademik və səfir. 2009–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri, 2014–2016-cı illərdə isə Baş naziri olmuşdur. – 143, 144, 316.

**48. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 143, 144, 318–329.

**49. Üzeyir Hacıbəyli,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ- l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 147.

**50. Nikola Tesla** (1856–1943) – serb əsilli amerikalı mühəndis-ixtiraçı, fizik, elektrofizik. Yüksək gərginlikli və yüksəktezlikli naqilsiz işıqlandırmadan istifadə edərək ilk dəfə olaraq simsiz idarə olunan qayıq düzəltmişdi. – 147.

**51. Bəhreyn,** B ə h r e y n d ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət (əmirlik). Sahəsi 766 km$^2$, əhalisi 1,5 milyon nəfərdir. Bəhreyn konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Paytaxtı Manama şəhəridir. – 149.

**52. Şeyx Həməd bin İsa əl-Xəlifə** (d.1950) – 1999-cu ildən Bəhreynin əmiri, 2002-ci ildən isə özünü kral elan etmişdir. Kral Bəhreyndə bir sıra siyasi islahatlar aparmış, eyni zamanda, siyasi amnistiya və qadınlara seçkilərdə iştirak etmək hüququ vermişdir. – 149.

**53. Qazaxıstan,** Q a z a x ı s t a n  R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 150.

**54. Nursultan Nazarbayev,** N u r s u l t a n  A b i ş  o ğ - l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 150.

**55. Zərifə xanım Əliyeva,** Z ə r i f ə  Ə z i z  q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksəkixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf

etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 152, 250, 251.

**56. Əziz Əliyev,** Ə z i z M ə m m ə d k ə r i m o ğ l u (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə komissarının müavini və Xalq Səhiyyə komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin Birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 152, 251.

**57. Tamerlan Əliyev,** T a m e r l a n Ə z i z o ğ l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor. 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 152, 251.

**58. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan

Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 152, 333.

**59. Artur Rasizadə,** A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləmişdir. 1996–2018-ci illərdə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal», «Şərəf» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 152, 333.

**60. Qətər,** Q ə t ə r d ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11,5 min km$^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı əmirdir, Paytaxtı Doha şəhəridir. – 154.

**61. Şeyx Təmin əl-Tani** (d.1952) – 1995–2013-cü illərdə Qətər əmiri olmuşdur. O, 1997-ci ildə regionda ilk dəfə Qətərdə qadınlara seçkilərdə iştirak etmək hüququ vermişdi. – 154.

**62. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 157–158.

**63. Bronislav Komorovski** (d.1952) – Polşanın siyasi xadimi. 2010–2015-ci illərdə Polşa Respublikasının Prezidenti olmuşdur. – 157, 158.

**64. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 8,6 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici ha-

kimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 185.

**65. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 186.

**66. Məmnun Hüseyn** (d.1940) – iş adamı. 2013-cü ildən Pakistan İslam Respublikasının Prezidentidir. – 186.

**67. *bp*,** «B r i t i s h P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 195.

**68. Robert Dadli** (d.1955) – mühəndis. 2009-cu ildən *bp*-nin icraçı direktoru, 2010-cu ildən isə baş direktorudur. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 195.

**69. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA)– Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 196.

**70. Müslüm Maqomayev,** M ü s l ü m M ə h ə m m ə d o ğ l u (1942–2008) – görkəmli Azərbaycan müğənnisi. Azərbaycan Respublikası və SSRİ Xalq artisti. Bəstəkar Müslüm Maqo-

mayevin nəvəsi. Keçmiş SSRİ məkanında və bir çox xarici ölkələrdə müvəffəqiyyətlə çıxış etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 199–203.

**71. Tamara Sinyavskaya** (d.1943) – məşhur rus müğənnisi. Moskva Böyük Teatrının solisti. Məşhur Azərbaycan müğənnisi Müslüm Maqomayevin həyat yoldaşı, Azərbaycan və SSRİ Xalq artisti. – 199–203.

**72. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min $km^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 205, 231.

**73. Akihito** (d.1933) – 1989-cu ildən Yaponiya İmperatorudur. İmperator Hirohitonun oğludur. – 205.

**74. Təzəpir məscidi** – Azərbaycan memarlıq abidəsi. 1905–14-cü illərdə tikilmişdir (memarı Zivərbəy Əhmədbəyov). Kvadratplanlı Təzəpir məscidinin baş fasadındakı üçtağlı eyvan, cinahlarındakı minarələr və günbəz aydın və dəbdəbəli memarlıq kompozisiyası əmələ gətirir. Məscidin böyük ibadət zalı günbəzlə örtülmüşdür. İbadət zalının quruluşu yerli memarlıq konstruksiyaları ilə işlənmiş, günbəzi saxlayan çatmatağ formalarından istifadə olunmuşdur. Təzəpir Bakı–Abşeron dini tikililəri arasında xüsusi yer tutur. – 226.

**75. Bibiheybət məscidi** – Bakının Şıx kəndində türbə. Rəvayətə görə, türbədə şiələrin yeddinci imamı Museyi Kazımın qızı Hökumə və onun Heybət adlı nökəri dəfn olunmuşdur. «Bibiheybət» adının da buradan yarandığı güman edilir. Başqa rəvayətə görə, səkkizinci imam Rzanın qızı və bacısı Bakı yaxınlığında məskən salmış, burada da vəfat etmişlər. Onların dəfn olunduğu yerdə türbə, onun yanında isə 20 metrlik minarəsi olan məscid tikilmişdir. Məscidin XIII əsrin sonunda tikildiyi ehtimal edilir. Məscid sovetlər vaxtında yerlə yeksan

edilmişdi. Respublikamız müstəqillik qazandıqdan sonra prezident Heydər Əliyevin təşəbbüsü ilə yenidən tikilmişdir. – 226.

**76. İmamzadə piri,** İmamzadə türbəsi, Göy imam – Gəncədə orta əsrlərə aid memarlıq abidəsi. Üzərindəki kitabənin imam Məhəmməd Bağırın oğlu İbrahimin (? – 739) qəbri üstündə tikildiyi və general-leytenant İsrafil bəy Yadigarzadənin təşəbbüsü ilə bərpa edildiyi (1878–79) göstərilir. İmamzadə türbəsinin tikildiyi tarix dəqiq müəyyən edilməmişdir. Memarlıq quruluşuna görə türbənin XIV əsrin sonu – XV əsrin əvvəllərində, ətrafındakı kompleksin isə XVII əsrdə tikildiyi ehtimal olunur. Türbənin hündürlüyü 12 metr, günbəzin hündürlüyü 2,7 metr, diametri 4,4 metrdir. Günbəzə mavi kaşıdan üzlük çəkilmişdir («Göy imam» adı da bununla əlaqədardır). – 226.

**77. Şamaxı Cümə məscidi** – 743–744-cü illərdə inşa edilmiş dini mərkəz. Cənubi Qafqazda Dərbənd Cümə məscidindən sonra ən qədim məsciddir. Orta əsrlərdə bərpa edilmiş məscid 1856 və 1902-ci illərdə Şamaxı zəlzələləri zamanı dağılmış, birinci dəfə Qasım bəy Hacıbababəyov, ikinci dəfə isə İosif Ploşko tərəfindən bərpa edilmişdir. 1918-ci ildə ermənilər tərəfindən tamamilə yandırılmışdır. 2010–2013-cü illərdə prezident İlham Əliyevin sərəncamına əsasən, əsaslı surətdə təmir edilmişdir. Məscid Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tarixi mədəniyyət abidəsi kimi qeydiyyata alınmışdır. – 226.

**78. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli

dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 239.

**79. İrəvan xanlığı** – XVIII əsrin ortalarında Cənubi Qafqazda, keçmiş Çuxursəd bəylərbəyliyi ərazisində yaranmış müstəqil Azərbaycan feodal dövləti. Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsini və Araz çayından cənub-qərbə doğru uzanan ərazini əhatə edirdi. Azərbaycanın cənub-qərbində yerləşən bu xanlıq paytaxtı İrəvan şəhəri olmaqla, inzibati cəhətdən 15 mahala bölünürdü, İrəvan xanlığı 1747–97-ci illərdə müstəqil dövlət, 1797–1828-ci illərdə isə İranın hakimiyyəti altında olmuşdur. Türkmənçay müqaviləsinə (1828) görə Rusiyanın tərkibinə keçmişdir. Bu zaman İrəvan xanlığı ərazisində 420-dən çox kənd dağıdılmış, 10 minlərlə azərbaycanlı əhali məhv edilmişdi. – 244.

**80. Göyçə** – İrəvan xanlığının 15 mahalından biri. İndiki Ermənistan ərazisində qədimdən Azərbaycan turklərinin yaşadıqları bölgə. Göyçə adının ilk dəfə V əsrin sonlarında işlədildiyi güman edilir. Şah İsmayılın (1501–1524) 1510-cu ilə aid fərmanında «Göyçə mahalı» qeyd edilmişdir. Türkmənçay müqaviləsinə (1828) əsasən İrəvan xanlığının tərkibində çar Ru-

siyasının tərkibinə qatılmışdır. 1829–32-ci illərə aid məlumata görə, Göyçə mahalında 100-dən çox yaşayış məskəni, 14 354 nəfər əhali (əsasən azərbaycanlılar) qeydə alınmışdı. Ermənilərin kütləvi şəkildə Qərbi Azərbaycana köçürülməsi Göyçə mahalının etnik tərkibini əsaslı şəkildə dəyişdirdi və mahal erməniləşdirilməyə başlandı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi idi (əhalisi özünü Cümhuriyyətin tərkib hissəsi hesab edir və onun hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə aparırdı). Ermənilər bu torpaqlara iddialarını həyata keçirmək üçün azərbaycanlılara qarşı soyqırımı siyasəti yeridirdilər. Azərbaycanda və Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sovet-bolşevik rejiminin himayəsi ilə Göyçə, demək olar ki, bütünlüklə Ermənistana verildi. Mahalın Azərbaycan türklərinə məxsus yaşayış məskənlərinin adları kütləvi surətdə dəyişdirilərək erməniləşdirildi. Ermənilərin həyata keçirdikləri soyqırımları və zorakı köçürmələr nəticəsində tarixən azərbaycanlılara məxsus olan Göyçə mahalında hazırda bir nəfər də olsun azərbaycanlı qalmamışdır. – 244.

**81. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası Hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 244.

**82. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 248.

**83. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 258–261.

**84. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i -k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. Dövlət başçısı prezident, hökumət başçısı isə Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 259, 334–349.

**85. İndoneziya,** İ n d o n e z i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 257,5 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 264.

**86. Coko Vidodo** (d.1961) – 2014-cü ildən İndoneziya Respublikasının Prezidentidir. – 264.

**87. Milad bayramı –** İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian bayramı. Dekabrın 25-də qeyd edilir. Milad bayramının ilkin mənbəyi hər il günəş duruşu zamanı (21–25 dekabr) xilaskar Allahın «doğulması» ilə əlaqədar keçirilən qədim bütpərəst mərasim bayramı olmuşdur. Milad bayramını ilk dəfə roman xristian icmaları keçirmişdir. Milad bayramı 431-ci ildə Efes kilsə yığıncağında qanuniləşdirilmişdir. – 272.

**88. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a- m a l (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi,

Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Mustafa Kamal Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» Fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 317.

**89. 1990-cı il 20 Yanvar hadisələri –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 331–333.

**90. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. – 339–340, 341–349.

## Şəxsi adlar göstəricisi


**II Abdullah** – 66
**Abutalıbov Hacıbala** – 146, 225
**Adeli Seyid Məhəmməd** – 126
**Adulyadej Bhumibol** – 131
**Akihito** – 205
**Aleksandr** *(ata)* – 245
**Aliomarov Maqomed** – 215
**Atakişiyev Akif** –215
**Atatürk Mustafa Kamal** – 317
**Ayala Luis** – 198
**Bax Tomas** – 67–68, 69–79, 81
**Bağırov Faiq** – 322
**Berdiyev İsmayıl** – 56, 244–245, 252
**Berzinş Andris** – 32
**Besesku Trayan** – 102
**Bin Səid Qabus** – 33
**Camayeva Səbirə** – 308
**Canikli Nurəddin** – 322
**Cəfərov Vaqif** – 215
**Çanq Honqvon** – 103–104
**Çarungvat Tharit** – 97
**Dadli Robert** – 195
**Davudova Rəvanə** – 183–184
**Davudoğlu Əhməd** – 143, 144, 316
**Debono Con** – 105
**Əhmədli Elvin** – 214
**Əhmədov Cəsarət** – 214
**Əhmədzadə Əhməd** – 41–44
**Əl-Xəlifə Həməd** – 149
**Əl-Nəhəyyan Xəlifə** – 107

**Əl-Məktum Məhəmməd** – 108, 153
**Əl-Habaşneh Nassar** – 66
**Əl-Hüseyn Haya** – 153
**Əl-Mansuri Sultan** – 54
**Əs-Sebsi Beji** – 232
**Əl-Tani Təmim** – 154
**Əmiraslanov Azər** – 44–46
**Əmirov Fuad** – 203
**Əliyev Heydər** – 21, 26, 42, 57, 143, 147, 152–153, 159, 161, 169, 182, 192, 199, 202, 225–226, 227, 237–251, 259, 303, 332
**Əliyev Əziz** – 152, 251
**Əliyev Natiq** – 259
**Əliyev Tamerlan** – 152, 251
**Əliyeva Leyla** – 248
**Əliyeva Mehriban** – 69–79, 81, 152, 162, 218, 219, 227, 228, 237, 244, 245, 246, 247, 248, 249, 250, 251, 254, 255, 256, 258, 260, 262, 270, 309
**Əliyeva Zərifə xanım** – 152, 250, 251
**Ərdoğan Rəcəb Tayyib** – 143, 144, 318–329
**Əsədov Oqtay** – 152, 333
**Əzizov Eldar** – 303
**VI Felipe** – 106
**Fərəcov Əkbər** – 214
**Fişer Hayntz** – 206
**Gözəl Abdulbari** – 299
**Gözəl Tahir** – 192
**Hacıbəyli Üzeyir** – 147
**Hendri Çarlz** – 141
**Həsənov Musa** – 215
**Həsənov Rafiq** – 215
**Həsənov Zakir** – 51, 52

**Hikki Patrik** – 67–68, 69–79, 81
**Hüseyn Məmnun** – 186
**Hüseynov Qorxmaz** – 163, 233
**Xalili Məhəmməd** – 207
**İqan Cim** – 89
**İohannis Klaus** – 65
**İsmayılov Çingiz** – 215
**İsmayılov Nazim** – 159
**İşinger Volfqanq** – 338
**İşık Fikri** – 143–144
**İvaniç Mladen** – 84
**Karr Conatan** – 99
**Kastro Raul** – 235
**Komorovski Bronislav** – 157, 158
**Kerri Con** – 120
**Kirill (***Rusiya patriarxı***)** – 60
**Koronado Herbert** – 96
**Qani Məhəmməd** – 129– 130, 207
**Qoykoviç Maya** – 147-148
**Qrabar-Kitaroviç Kolinda** – 302
**Quliyev Elsevər** – 214
**Qurbanov Qurban** – 191–192
**Larsen Ceyms** – 98
**Merkel Angela** – 339–340, 341–349
**Mövsümov Şahmar** – 34
**Məmmədova Naibə** – 308–309
**Minoru Kiuçi** – 330
**Molina Otto** – 96
**Məmmədov Alimpaşa** – 34
**Muxtarov Murtuza** – 58
**Muskat Cozef** – 155–156
**Mustafayev Şahin** – 47, 312, 322
**Nazarbayev Nursultan** – 150
**Nişani Buyar** – 87
**Niinistö Sauli** – 145

**Olland Fransua** – 120, 273, 45
**Paşazadə Hacı Allahşükür** – 57, 248–251
**Pexoçinski Yanuş** – 157–158
**Peydro Rafael** – 106
**Polad İbrahim** – 322
**Popova Marqarita** – 80
**Poroşenko Pyortr** – 345
**Pşixaçev Şafik** – 59, 60, 247–248
**Putin Vladimir** – 120, 345
**Rasizadə Artur** –152, 333
**Roqq Jak** – 73
**Ruhani Həsən** – 5–24
**Sadıxlı Fərid** – 181–189
**Salam Tammam** – 64
**Salber Herbert** – 314
**Salahov Tahir** – 259
**Sançez Maria** – 95
**Sayosone Çoummali** – 109
**Seyidov Vüqar** – 344
**Seyn Theyn** – 236
**Sirisena Maytripala** – 298
**Sinzo Abe** – 231
**Sammaruqa Simonetta** – 185
**Şevçoviç Maroş** – 125
**Ştaynmayer Frank-Valter** – 337
**Tağıyev Hacı Zeynalabdin** – 58
**Tesla Nikola** – 147
**Uld Əbdüləziz Məhəmməd** – 88
**Useynov Məmməd** – 215
**Vex Aksel** – 206
**Vidodo Coko** – 264
**Vəliyev Rauf** – 200
**Yevdayev Milix** – 246–247
**Zaon Haulin** – 142

## Coğrafi adlar göstəricisi


**Abadan** – 22
**Afrika** – 10
**Ağdam** – 58, 120, 244
**Albaniya** – 87
**Almaniya** – 259, 334–349
**Ankara** – 315–329
**Amerika Birləşmiş Ştatları** – 93, 119, 120, 259, 267
**Araz çayı** – 9, 21
**Asiya** – 9, 72
**Astana** – 345
**Astara** – 9
**Avropa** – 9, 17, 19, 72, 74, 113, 123, 190,192, 209, 270, 343
**Avstraliya** – 93, 98
**Avstriya** – 77, 206
**Batumi** – 22
**Bayıl** – 90
**Berlin** – 334–349
**Bəhreyn** – 149
**Bəndər-Abbas** – 22
**Birləşmiş Ərəb Əmirlikləri** – 54, 153
**Bolqarıstan** – 80
**Bosniya və Herseqovina** – 84
**Böyük Britaniya** – 93, 134, 136, 141, 259
**Böyükşor gölü** – 212, 213
**Braziliya** – 77
**Cənubi Afrika Respublikası** – 93
**Cənubi Qafqaz** – 314, 346
**Çin** – 118, 187
**Dağlıq Qarabağ** – 6, 10, 28, 58, 119, 120, 130,

147, 148, 156, 244, 267, 283, 284, 314, 316, 319, 321, 324, 327, 328, 335, 337, 339, 341, 342, 344
**Estoniya** – 134, 138
**Əfqanıstan** – 129–130, 207
**Fələstin** – 93
**Filippin** – 95
**Finlandiya** – 145
**Fransa** – 119, 120, 136, 259, 267, 273
**Füzuli** – 38
**Gəncə** – 25–27, 40, 182, 258
**Goranboy** – 35
**Göyçə** – 244
**Göygöl** – 35
**Gürcüstan** – 77
**Hacıkənd** – 26
**Həştərxan** – 7
**Hind okeanı** – 9
**Xəzər dənizi** – 8, 10, 23, 103, 203
**Xocalı** – 6, 26, 304
**Xorrəmşəhr** – 22
**Xorvatiya** – 302
**İndoneziya** – 264
**İordaniya** – 66, 93
**İran** – 5–24, 134
**İrəvan** – 258
**İspaniya** – 106
**İsrail** – 134, 136
**İsveç** – 93
**İsveçrə** – 185
**İtaliya** – 93, 134
**İzmir** – 203
**Kanada** – 93, 134, 259
**Kəlbəcər** – 26

**Kolumbiya** – 93
**Koreya Respublikası** – 103–104
**Kosalar** – 26
**Kosovo** – 147, 148
**Kuba** – 235
**Qafqaz** – 9, 57, 59, 103
**Qara dəniz** – 22, 203
**Qazax** – 258
**Qazaxıstan** – 141, 150
**Qətər** – 154
**Quba** – 258
**Qvatemala** – 96
**Laos** – 109
**Latviya** – 32
**Lixtenşteyn** – 77
**Livan** – 64
**London** – 74, 270
**Malayziya** – 93
**Malta** – 105, 155–156
**Mavritaniya** – 88
**Məkkə** – 245
**Mərdəkan** – 188
**Monte-Karlo** – 77
**Moskva** – 59, 60
**Myanma** – 236
**Naxçıvan Muxtar Respublikası**– 38, 239
**Naxçıvan** – 38, 239, 258
**Nankin** – 74
**Niderland** – 93
**Nigeriya** – 93
**Nyu-York** – 249
**Oman** – 33
**Oman dənizi** – 9
**Ordubad** – 38
**Osetiya** – 58

**Pakistan** – 186
**Paris** – 120, 273
**Pekin** – 270
**Polşa** – 157–158
**Poti** – 22
**Rio-De-Janeyro** – 77
**Rumıniya** – 65, 93, 102
**Rusiya** – 9, 59, 60, 93, 110–124, 137, 203,252–253, 267, 342
**Sabirabad** – 159–184
**Samux** – 35, 40
**Serbiya** – 147–148
**Soçi** – 124
**Sumqayıt** – 303–313
**Şəmkir** – 34–53
**Şərqi Avropa** – 259
**Şimali Qafqaz** – 58, 252–253
**Şirvan** – 258
**Şri-Lanka** – 298
**Tailand** – 93, 97, 131
**Taqanroq** – 203
**Tbilisi** – 77
**Tehran** – 8
**Təbriz** – 258
**Tunis** – 232
**Türkiyə** – 93, 134, 138, 143, 144, 203, 259, 315–329
**Türkmənistan** – 141
**Ukrayna** – 192, 342, 345, 346
**Vladiqafqaz** – 58
**Yaxın Şərq** – 10
**Yaponiya** – 205, 231, 259, 330
**Yeni Zelandiya** – 99
**Zəngəzur** – 244

# MÜNDƏRİCAT

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*12 noyabr 2014-cü il* ..........................................................................5

ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*12 noyabr 2014-cü il*..........................................................................12

AZƏRBAYCAN–İRAN BİZNES-FORUMU

*13 noyabr 2014-cü il*..........................................................................13

MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN GƏNCƏDƏ SALINAN YENİ QƏSƏBƏNİN AÇILIŞI MƏRASİMİ

*14 noyabr 2014-cü il* ..........................................................................25

UŞAQLARIN III ÜMUMRESPUBLİKA FORUMUNUN İŞTİRAKÇILARINA

*15 noyabr 2014-cü il* ..........................................................................28

«DİNİ TOLERANTLIĞIN MÖHKƏMLƏNDİRİLMƏSİ (AZƏRBAYCAN MODELİ, ATƏT REGİONU VƏ ONUN HÜDUDLARINDAN KƏNARDA ÇAĞIRIŞLAR)» MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

*15 noyabr 2014-cü il* ..........................................................................30

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDRİS BERZİNŞƏ

*15 noyabr 2014-cü il* ..........................................................................32

OMAN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ

*15 noyabr 2014-cü il* ....................................................................................33

ŞƏMKİR RAYONUNA SƏFƏR

*15 noyabr 2014-cü il* ....................................................................................34

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN İQTİSADİYYAT NAZİRİ SULTAN BİN SƏİD ƏL-MANSURİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 noyabr 2014-cü il* ....................................................................................54

QAFQAZ XALQLARI ALİ DİNİ ŞURASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*17 noyabr 2014-cü il* ....................................................................................55

«BEYNƏLXALQ ANTİKORRUPSİYA AKADEMİYASINA ÜZV DÖVLƏTLƏRİN ASSAMBLEYASI»NIN III SESSİYASININ İŞTİRAKÇILARINA

*18 noyabr 2014-cü il* ....................................................................................62

LİVAN RESPUBLİKASI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TAMMAM SALAMA

*19 noyabr 2014-cü il* ....................................................................................64

RUMINİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KLAUS İOHANNİSƏ

*19 noyabr 2014-cü il* ....................................................................................65

İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ ÖLKƏMİZƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ NASSAR ƏL-HABAŞNEH İLƏ GÖRÜŞ

*19 noyabr 2014-cü il* ....................................................................................66

BEYNƏLXALQ OLİMPİYA VƏ AVROPA OLİMPİYA KOMİTƏLƏRİNİN PREZİDENTLƏRİ TOMAS BAX VƏ PATRİK HİKKİ İLƏ GÖRÜŞ

*20 noyabr 2014-cü il* .......................................................................... *67*

AVROPA OLİMPİYA KOMİTƏSİNİN BAKIDA KEÇİRİLƏN 43-cü BAŞ ASSAMBLEYASININ RƏSMİ AÇILIŞI MƏRASİMİ

*21 noyabr 2014-cü il* .......................................................................... *69*

BOLQARISTAN RESPUBLİKASININ VİTSE-PREZİDENTİ MARQARİTA POPOVA İLƏ GÖRÜŞ

*21 noyabr 2014-cü il* .......................................................................... *80*

AVROPA OLİMPİYA KOMİTƏSİNİN 43-cü BAŞ ASSAMBLEYA-SININ İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*21 noyabr 2014-cü il*.......................................................................... *81*

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB MLADEN İVANİÇƏ

*22 noyabr 2014-cü il* .......................................................................... *84*

«XXI ƏSRDƏ SƏNAYELƏŞMƏ: SƏNAYE SİYASƏTİNDƏ ƏSAS TRENDLƏR, MÜASİR YANAŞMA VƏ TƏCRÜBƏ-LƏR» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

*25 noyabr 2014-cü il* .......................................................................... *85*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BUYAR NİŞANİYƏ

*25 noyabr 2014-cü il* .......................................................................... *87*

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZƏ

25 *noyabr 2014-cü il* ......................................................................................*88*

«BBC GLOBAL NEWS»un BAŞ İCRAÇI DİREKTORU CİM İQAN İLƏ GÖRÜŞ

*25 noyabr 2014-cü il* ......................................................................................*89*

I AVROPA OYUNLARINA HAZIRLIQ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*25 noyabr 2014-cü il* ......................................................................................*90*

BAKI OKSFORD MƏKTƏBİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*25 noyabr 2014-cü il* ......................................................................................*91*

FİLİPPİN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MARİA ROVENA MENDOZA SANÇEZ İLƏ GÖRÜŞ

*26 noyabr 2014-cü il* ......................................................................................*95*

QVATEMALA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ HERBERT ESTUARDO MENESES KORONADO İLƏ GÖRÜŞ

*26 noyabr 2014-cü il* ......................................................................................*96*

TAİLAND KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ THARİT ÇARUNGVAT İLƏ GÖRÜŞ

*26 noyabr 2014-cü il* ......................................................................................*97*

AVSTRALİYA İTTİFAQININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ CEYMS MARTİN LARSEN İLƏ GÖRÜŞ

*26 noyabr 2014-cü il* ......................................................................................*98*

YENİ ZELANDİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ CONATAN ENDRYU KARR İLƏ GÖRÜŞ

*26 noyabr 2014-cü il* ..................................................................................99

TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASINA ÜZV ÖLKƏLƏRİN TƏHSİL NAZİRLƏRİNİN III GÖRÜŞÜNÜN İŞTİRAKÇILARINA

*27 noyabr 2014-cü il* ..................................................................................100

RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TRAYAN BESESKUYA

*27 noyabr 2014-cü il* ..................................................................................102

KOREYA RESPUBLİKASININ BAŞ NAZİRİ ÇANQ HONQVONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 noyabr 2014-cü il* ..................................................................................103

MALTA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ CON DEBONO İLƏ GÖRÜŞ

*27 noyabr 2014-cü il* ..................................................................................105

İSPANİYA KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ RAFAEL MENDİVİL PEYDRO İLƏ GÖRÜŞ

*27 noyabr 2014-cü il* ..................................................................................106

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAYİD ƏL-NƏHƏYYANA

*28 noyabr 2014-cü il* ..................................................................................107

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ VƏ BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA

*28 noyabr 2014-cü il* ..................................................................................108

LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇOUMMALİ SAYOSONEYƏ

*28 noyabr 2014-cü il ......................................................................109*

«ROSSİYA-24» İNFORMASİYA TELEKANALINA MÜSAHİBƏ

*28 noyabr 2014-cü il ......................................................................110*

AVROPA KOMİSSİYASININ VİTSE-PREZİDENTİ MAROŞ ŞEVÇOVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 noyabr 2014-cü il ......................................................................125*

QAZ İXRAC EDƏN ÖLKƏLƏRİN FORUMUNUN BAŞ KATİBİ SEYİD MƏHƏMMƏD HÜSEYN ADELİ İLƏ GÖRÜŞ

*29 noyabr 2014-cü il ......................................................................126*

«BAKUTEL–2014» XX AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

*1 dekabr 2014-cü il.........................................................................127*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİNİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*1 dekabr 2014-cü il.........................................................................129*

TAİLAND KRALI ƏLAHƏZRƏT BHUMİBOL ADULYADEJƏ

*2 dekabr 2014-cü il.........................................................................131*

«BAKUTEL–2014» XX AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ İLƏ TANIŞLIQ

*2 dekabr 2014-cü il.........................................................................132*

BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN TİCARƏT ELÇİSİ ÇARLZ HENDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 dekabr 2014-cü il..........................................................................141*

BEYNƏLXALQ TELEKOMMUNİKASİYA İTTİFAQININ BAŞ KATİBİ HAULİN ZAON İLƏ GÖRÜŞ

*2 dekabr 2014-cü il..........................................................................142*

TÜRKİYƏNİN ELM, SƏNAYE VƏ TEXNOLOGİYALAR NAZİRİ FİKRİ İŞIKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 dekabr 2014-cü il..........................................................................143*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAULİ NİİNİSTÖYƏ

*3 dekabr 2014-cü il..........................................................................145*

XƏTAİ RAYONU ƏRAZİSİNDƏKİ FƏVVARƏLƏR VƏ ŞƏLALƏLƏR KOMPLEKSİNDƏ İŞLƏRİN GEDİŞİ İLƏ TANIŞLIQ

*3 dekabr 2014-cü il..........................................................................146*

SERBİYA RESPUBLİKASI PARLAMENTİNİN SƏDRİ MAYA QOYKOVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 dekabr 2014-cü il........................................................................147*

BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ

*12 dekabr 2014-cü il........................................................................149*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

*12 dekabr 2014-cü il*..........................................................................*150*
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2014-cü il*..........................................................................*151*

BEYNƏLXALQ ATÇILIQ FEDERASİYASININ PREZİDENTİ HAYA BİNT ƏL-HÜSEYN İLƏ GÖRÜŞ

*12 dekabr 2014-cü il*..........................................................................*153*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİYƏ

*15 dekabr 2014-cü il*..........................................................................*154*

MALTA RESPUBLİKASININ BAŞ NAZİRİ COZEF MUSKATIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 dekabr 2014-cü il*..........................................................................*155*

POLŞA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ YANUŞ PEXOÇİNSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 dekabr 2014-cü il*..........................................................................*157*

SABİRABAD RAYONUNA SƏFƏR

*15 dekabr 2014-cü il*..........................................................................*159*

SABİRABAD ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*16 dekabr 2014-cü il*..........................................................................*163*

VƏTƏNDAŞLARA XİDMƏT VƏ SOSİAL İNNOVASİYALAR ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN SABİRABAD REGİONAL «ASAN XİDMƏT» MƏRKƏZİNİN AÇILIŞI MƏRASIMI

*15 dekabr 2014-cü il*..........................................................................*168*

SABİRABADDA «ASAN KÖNÜLLÜLƏRİ»NİN
I ÜMUMRESPUBLİKA FORUMUNUN AÇILIŞINDA
İŞTİRAK

*16 dekabr 2014-cü il*......................................................................*173*

İSVEÇRƏ KONFEDERASİYASININ YENİ SEÇİLMİŞ
PREZİDENTİ XANIM SİMONETTA SOMMARUQAYA

*16 dekabr 2014-cü il*......................................................................*185*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ

*17 dekabr 2014-cü il*......................................................................*186*

«QARABAĞ» FUTBOL KLUBUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*17 dekabr 2014-cü il*......................................................................*187*

*bp* ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ
GÖRÜŞ

*17 dekabr 2014-cü il*......................................................................*195*

AZƏRBAYCAN ALİMLƏRİNİN I QURULTAYININ
İŞTİRAKÇILARINA

*18 dekabr 2014-cü il*......................................................................*196*

SOSİALİST İNTERNASİONALININ BAŞ KATİBİ
LUİS AYALA İLƏ GÖRÜŞ

*18 dekabr 2014-cü il*......................................................................*198*

«MÜSLÜM MAQOMAYEV» VƏ «LƏNKƏRAN» GƏMİ-
LƏRİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİNDƏ
İŞTİRAK

*18 dekabr 2014-cü il*......................................................................*199*

YAPONİYA İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

*19 dekabr 2014-cü il..........................................................................205*

AVSTRİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ AKSEL VEX İLƏ GÖRÜŞ

*19 dekabr 2014-cü il..........................................................................206*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ AZƏR-BAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MƏHƏMMƏD TAQİ XALİLİ İLƏ GÖRÜŞ

*19 dekabr 2014-cü il..........................................................................207*

MİLLİ OLİMPİYA KOMİTƏSİNDƏ 2014-cü İLİN İDMAN YEKUNLARINA HƏSR EDİLMİŞ MƏRASİMDƏ İŞTİRAK

*22 dekabr 2014-cü il..........................................................................208*

BƏLƏDİYYƏ SEÇKİLƏRİ MÜNASİBƏTİLƏ 6 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏSVERMƏ MƏRASİMİNDƏ İŞTİRAK

*23 dekabr 2014-cü il..........................................................................216*

«BAKU SPORT CİTY»DƏ, SU İDMANI SARAYINDA VƏ DÖVLƏT BAYRAĞI MEYDANININ ƏRAZİSİNDƏ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*23 dekabr 2014-cü il..........................................................................217*

BAKININ ZİYA BÜNYADOV PROSPEKTİNİN YENİDƏN-QURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*23 dekabr 2014-cü il..........................................................................220*

DÜNYA AZƏRBAYCANLILARINA

*24 dekabr 2014-cü il..........................................................................222*

HEYDƏR MƏSCİDİNİN İNŞASINDA SON TAMAMLAMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*24 dekabr 2014-cü il ........................................................................225*

«BAKI AĞ ŞƏHƏR»İN İNŞASI BAŞA ÇATAN OFİS BİNASI İLƏ TANIŞLIQ

*24 dekabr 2014-cü il ........................................................................227*

YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ŞİNZO ABEYƏ

*25 dekabr 2014-cü il.........................................................................231*

TUNİS RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BEJİ KAİD ƏS-SEBSİYƏ

*25 dekabr 2014-cü il.........................................................................232*

«YASAMAL» PARKININ AÇILIŞI MƏRASİMİ

*25 dekabr 2014-cü il.........................................................................233*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA

*26 dekabr 2014-cü il.........................................................................235*

MYANMA İTTİFAQI RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB THEYN SEYNƏ

*26 dekabr 2014-cü il.........................................................................236*

HEYDƏR MƏSCİDİNİN AÇILIŞI MƏRASİMİ

*26 dekabr 2014-cü il.........................................................................237*

RUSİYA FEDERASİYASI ŞİMALİ QAFQAZ RESPUBLİKALARININ DİN XADİMLƏRİ İLƏ GÖRÜŞ

*26 dekabr 2014-cü il.........................................................................252*

İDMAN-KONSERT KOMPLEKSİNDƏ ƏSASLI TƏMİR İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*26 dekabr 2014-cü il*.........................................................................*254*

OLİMPİYA STADİONUNDA APARILAN İŞLƏRİN GEDİŞİ İLƏ TANIŞLIQ

*26 dekabr 2014-cü il*.........................................................................*256*

DÖVLƏT NEFT FONDUNUN YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*29 dekabr 2014-cü il*.........................................................................*258*

NƏRİMANOV RAYONUNDA YENİ SALINAN PARKDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*29 dekabr 2014-cü il*.........................................................................*262*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA

*31 dekabr 2014-cü il*.........................................................................*264*

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*31 dekabr 2014-cü il*.........................................................................*265*

HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTUNDA YENİ GƏTİRİLMİŞ «BOEİNG-787-8» SƏRNİŞİN TƏYYARƏSİNƏ BAXIŞ

*2 yanvar 2015-ci il*...........................................................................*270*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*5 yanvar 2015-ci il*...........................................................................*272*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA

*7 yanvar 2015-ci il*.............................................................................*273*
NAZİRLƏR KABİNETİNİN 2014-cü İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNAN İCLASINDA İŞTİRAK

*10 yanvar 2015-ci il* .........................................................................*274*

YEKUN NİTQİ

*10 yanvar 2015-ci il*..........................................................................*285*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYTRİPALA SİRİSENAYA

*12 yanvar 2015-ci il*..........................................................................*298*

«XƏYAL ADASI» LAYİHƏSİ ÜZRƏ GÖRÜLƏN İŞLƏRİN GEDİŞİ İLƏ TANIŞLIQ

*12 yanvar 2015-ci il*..........................................................................*299*

XORVATİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ XANIM KOLİNDA QRABAR-KİTAROVİÇƏ

*13 yanvar 2015-ci il*..........................................................................*302*

SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*13 yanvar 2015-ci il*..........................................................................*303*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HERBERT SALBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 yanvar 2015-ci il*..........................................................................*314*

TÜRKİYƏ RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ

*14 yanvar 2015-ci il*..........................................................................*315*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞ

*14 yanvar 2015-ci il..........................................................................316*

ANITQƏBİRİ ZİYARƏT

*15 yanvar 2015-ci il..........................................................................317*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*15 yanvar 2015-ci il..........................................................................318*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB
TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*15 yanvar 2015-ci il..........................................................................319*

TÜRKİYƏ–AZƏRBAYCAN YÜKSƏK SƏVİYYƏLİ
STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ IV İCLASINDA
İŞTİRAK

*15 yanvar 2015-ci il..........................................................................320*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*15 yanvar 2015-ci il..........................................................................322*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB
TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUATA BƏYA-
NATLARLA ÇIXIŞLAR

*15 yanvar 2015-ci il..........................................................................323*

YAPONİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MİNORU
KİUÇİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*19 yanvar 2015-ci il..........................................................................330*

ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*20 yanvar 2015-ci il*..........................................................................*331*

ALMANİYAYA İŞGÜZAR SƏFƏR

*20 yanvar 2015-ci il*..........................................................................*334*

ALMANİYA–AZƏRBAYCAN FORUMUNUN ÜZVLƏRİ VƏ BUNDESTAQIN DEPUTATLARI İLƏ GÖRÜŞ

*20 yanvar 2015-ci il*..........................................................................*335*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ XARİCİ İŞLƏR ÜZRƏ FEDERAL NAZİRİ FRANK-VALTER ŞTAYNMAYER İLƏ GÖRÜŞ

*20 yanvar 2015-ci il*..........................................................................*337*

MÜNHEN BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK KONFRANSININ SƏDRİ VOLFQANQ FREDRİK İŞİNGER İLƏ GÖRÜŞ

*20 yanvar 2015-ci il*..........................................................................*338*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ KANSLERİ ANGELA MERKEL İLƏ GÖRÜŞ

*21 yanvar 2015-ci il*..........................................................................*339*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ KANSLERİ ANGELA MERKEL İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*21 yanvar 2015-ci il*..........................................................................*341*

QEYDLƏR..........................................................................................*350*

*Şəxsi adlar göstəricisi*..........................................................................*374*

*Coğrafi adlar göstəricisi* ....................................................................*378*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.